# PİŞAVƏR GECƏLƏRİ

# III

SEYİD MƏHƏMMƏD MUSƏVİ ŞİRAZİ SULTAN-VAİZİN

| | |
|---|---|
| Kitabın adı: | Pişavər gecələri |
| Müəllif: | Seyid Məhəmməd Musəvi Şirazi |
| Tərcümə edən: | Beytul-Hikmət TM |
| Naşir: | Şəhriyar |
| Çap tarixi: | 2006 |
| Çap növbəsi: | Üçüncü |
| Tiraj: | 3000 |
| ISBN | 964-5934-92-3 |

# DOQQUZUNCU GECƏ

## 2 şaban, şənbə, 1345-ci il (1924)

Gün batana yaxın Nəvvab Əbdülqəyyum Xan, Qulam Imameyn Mövla, Əbdül-Əhəd Qulam Heydər Xan və Seyid Əhməd Əlişah məclisə gələrək, hal-əhval tutduqdan sonra belə dedilər: «Bütün bu açıqlamalardan sonra, xüsusilə də dünən gecə haqq bizim üçün kamil şəkildə aşkar oldu. Biz inadkar deyilik; məqam, mövqe sevdamız da yoxdur. Ömür boyu adətlərlə yaşadıq. Haqqı tapdıqdan sonra adətlərlə yaşamaq insafdan deyil. Bu gecə hər kəsin hüzurunda açıq-aşkar şiə olduğumuzu elan etməyi qərara aldıq».

Sonra rəsmən şiə olub, keçmişlərinə görə istiğfar etdilər. Mən də onlara məclislər bitənə qədər susub, söhbətə müdaxilə etməməyi və fikir bildirməməyi, məclisin axırına kimi son nəticə əldə olunana qədər gözləməyi xahiş etdim.

Təkcə bu şəxslər deyil, qəzet və jurnallardan söhbətlərimizi izləyən bir çox təmiz qəlbli insanlar da şiə oldular. Lakin xalqdan utanıb, çəkinərək və bu şəhər camaatı ilə münasibətlərini davam etdirmək üçün təqiyyəyə əl atmaq məcburiyyətində qaldıqlarını söylədilər.

Axşam namazından sonra ağalar hal-əhval tutduqdan sonra məclis başladı. Hafiz ağa əvvəlki gecə çox təsirləndiyi üçün hər iki tərəfin fikirlərini dinləmək istədiyini bildirmişdi. Bu səbəbdən Şeyx Əbdüssalam ilə qarşılıqlı söhbətə, bəhsə başladıq.

**Şeyx:** "Bu məclislərdə sizdən çox istifadə etdik: gözəl əxlaq və ədəbinizə heyran qaldıq. Dostlar bir yana, düşmən belə qarşınızda təslim olmaq məcburiyyətində qalır.

Siz hər yerdə Əhli-sünnətin amal və davranışlarını qınayır, amma şiə müsəlmanların əməllərinə toxunmur, daim onları müdafiə edirsiniz. Halbuki, şiələrin çirkin əməl və davranışlarının islah oluna bilinməyəcək qədər pis olduğu hər kəsə məlumdur!"

**Dəvətçi: "**Mən ancaq haqqı müdafiə etdim. Çünki həzrət Əli (ə) öz övladlarına, xüsusilə də Həsən(ə) və Hüseynə(ə) belə buyurmuşdur: "Haqq üçün danışın, axirət üçün əməl edin; zalıma düşmən, məzluma yardımçı olun".

Müxaliflərimizi qınamış və ya şiə müsəlmanları müdafiə etmişəmsə, bilin ki, bu, haqqına olmuşdur. Qınadığım şeyləri əqli, nəqli və məntiqi dəlillər əsasında qınamışam.

Şiələrin islahı belə mümkün olmayacaq çirkin işlərinin nə olduğunu söyləyə bilərsinizmi? "

## ŞİƏLƏR TƏRƏFİNDƏN AİŞƏNİN İTTİHAM OLUNMASI VƏ İRƏLİ SÜRÜLƏN İRADIN CAVABI

**Şeyx**: "Əqlin də, rəvayətin də çirkin bildiyi şiə müsəlmanların ən böyük çirkin işi möminlərin anası həzrət Aişəni ittiham etmələri və ona pis şeyləri nisbət verməleridir.

Məlum olduğu kimi, həzrət Aişə Rəsulullahın(s) zövcəsi olmaq şərəfinə nail olmuşdur. Onu təhqir etməyin nə ilə bitəcəyini bilmirlər. Məgər "Nur"surəsinin 26-cı ayəsində oxumayıblar ki, Allah - Təala buyurur:" **Pis qadınlar pis kişilərə, pis kişilər isə pis qadınlara; təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara yaraşır. Onlar iftiraçıların söylədiklərindən uzaqdırlar..."**

**Dəvətçi:** "Şiə müsəlmanların Ümmül-möminin Aişəni ittiham etdiyi iddiası böyük bir iftira və yalandır! Heç vaxt şiələr belə bir şeyə yönəlməmişlər. Bunu, nasibi və xaricilər iftira və yalanla şiələrə istinad etmişlər. Onlar zavallı şiələri aldatmış, bir qrup insan da heç araşdırmadan, əvvəlkilərin adəti üzrə bu iftiraları qəbul etmiş, etirazlarını bildirmişlər. Elə bu səbəbdən indi də siz bu iddiadasınız. Bütün şiə kitablarını araşdırın. Heç

bir yerdə Ümmül-möminin Aişənin ittiham olunduğunu görə bilməzsiniz. Bu iddia böyük bir iftira və yalandır!

## İFTİRA HADİSƏSİ

Şiənin hədis və təfsir kitablarına nəzər salsanız, Ümmül-mömininі "İftira hadisəsi"ndə necə müdafiə etdiklərini açıq-aydın görərsiniz. Əgər şiələr belə bir inanca sahib olsaydılar, "Iftira hadisəsi" Aişəni təqib etmək üçün ən uyğun mövzu olardı.

Bu iddia və iftiralar, təəssüflər olsun ki, Peyğəmbəri -əkrəmin (s) dövründə bəzi münafiq səhabələr tərəfindən ifadə edilmişdir. Musəttəh ibn Əsasə, Həssan ibn Sabit və Abdullah ibn Ubey kimiləri bu iftiraların səbəbkarlarıdır. Buna görə də Quranda tam 17 ayə Aişənin bu işdə təmizliyini isbat etmiş, münafiqləri yalançılıqda ittiham etmişdir.

Şiələrin inancına görə, Peyğəmbəri-əkrəmin həyat yoldaşlarına, hətta Həfsə və Aişə başda olmaqla, iftira və böhtan atan kəs kafir və məlundur, qanı və malı halaldır. Çünki bu iftiralar bilavasitə Rəsulallaha (s) yönəlir. Bilmək lazımdır ki, şiələr hər bir müsəlmana söymək və iftira yaxmağın haram olduğunu yaxşı bilirlər. Heç vaxt Peyğəmbərin (s) həyat yoldaşlarına, hətta Aişə və Həfsəyə belə böhtan atıb, bu cür sözlər söyləməzlər!

## ƏR VƏ ARVAD HƏR BAXIMDAN OXŞAR DEYİL

Yenə nəzərinizə çatdırım ki, oxuduğunuz ayə də düşündüyünüz kimi deyil.Həyat yoldaşları tərif və qınanmada hər baxımdan ortaq və bənzər deyil. Biri yaxşı və Cənnətə layiqdirsə, digərinin də elə olması labüd deyil.

Və ya biri fasiq, kafir və Cəhənnəmə layiqdirsə, digərinin də onun kimi olması düşünülə bilməz. Əgər belə olsaydı, bu nöqsan bir çox şəxs üçün də labüd olardı. Xüsusilə də həzrət Nuh(ə) və həzrət Lutun(ə) həyat yoldaşı ilə Firon və Asiya buna ən açıq bir örnəkdir. Bu səbəbdən Quranda "Təhrim" surəsinin 10-cu ayəsində belə buyurulur: "**Allah, inkar edənlərə Lutun arvadı ilə Nuhun arvadını misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. İkisinə də: «Atəşə girənlərlə bərabər siz də Cəhənnəmə girin! deyildi".**[1]

### NUH VƏ LUTUN XANIMLARI CƏHƏNNƏMƏ, FİRONUN HƏYAT YOLDAŞI İSƏ CƏNNƏTƏ GEDƏR

Söylədiyim bu iki ayədə də zövcələrin ərlərinə bağlanmadığı açıq-aşkar ifadə edilir. Lut(ə) və Nuh(ə)-in zövcələri onlara xəyanət etdikdə,o böyük Peyğəmbərlərin həyat yoldaşları olmalarının onlara heç bir faydası olmamışdı.

[1] Təhrim, 10

Hər ikisi də kafir olub, Cəhənnəmə düşdülər. Xüsusilə də ayənin sonunda belə buyurulur: «...**Atəşə girənlərlə bərabər siz də Cəhənnəmə girin!»**[2]

Digər tərəfdən kafir Fironun zövcəsi olan Asiya əri ilə həmfikir olmadığına görə bir zərər çəkməz. Firon Cəhənnəmə, Asiya isə Cənnətə düşər. Bu halda sizin zövciyyəti şərəf və izzətə səbəb saymağınız, əsla, doğru deyildir.

Əlbəttə, ruhi, əxlaqi və davranış baxımından eyni olduğu təqdirdə zövciyyətin də təsiri var, ancaq kafir, müsəlman, münafiq və möminin bir-birilə evliliyinə görə bir zərər və ya mənfəət əldə edə bilməsindən söhbət gedə bilməz. Bu halda mömin bir kişinin zövcəsi fasiq olarsa, bu, onun şəxsiyyətinə bir zərər gətirməz. Xalq o qadının pis əxlaqlı olduğunu söylədikdə, möminin məqamı alçalmaz.

**Şeyx**: «Çox təəccüblüdür, bu müddət ərzində sözlərinizdə böyük bir ziddiyyət ortaya çıxdı.

**Dəvətçi:** «Nəinki indi, hətta ömrümün axırına qədər ziddiyyətli danışmağıma imkan belə yoxdur, çünki din və məzhəb mövzuları elmi və əqli bir məsələdir, nizamlı bir qanuna tabedir. Əqaiddə şəxsi nəzərlərimizi əsas götürmürük:

[2] Təhrim, 10

əqidəmiz filosof və hükəmanın[3] daim dəyişən əqidələri kimi deyildir ki, hər kəs şəxsi fikrini söyləməyə yönəlsin!

Əflatunun nəzərləri ustadı Sokratın, həmçinin Feyz və Fəyyazın nəzərləri də ustadları Molla Sədradan fərqlidir. Amma bilindiyi kimi, ənbiya, xüsusilə də Xatəmül-ənbiyanın(s) məktəbində yetişənlər Onun elm qapısı həzrət Əlidən(ə) qidalandıqları üçün, əsla yol verməzlər. Buna görə mən də ziddiyyətli danışmıram.

Cənabali! Əgər jurnal və qəzetləri oxuyub, keçən gecələrdə söylədiyim sözlərə diqqət etsəniz, təməli Quran olan Əhli-beyt Imamları və Rəsulullahın(s) dininin böyüklərinin söz və əmrlərindən, əsla, kənara çıxmadığımı görərsiniz. Heç biri unudulan və ya dəyişə bilən şəxsi nəzərim deyil. İndiyə qədər söylədiklərim və sonra da deyəcəklərim, yalnız Qurandan və din rəhbərlərindən istifadə etdiyim şeylərdir. Daha danışığımda hər hansı bir ziddiyyətin olması qeyri mümkündür. Amma siz yenə də cümlələrimin hansında ziddiyyətə yol verdiyimi söyləyin.

**Şeyx**:«Bir yerdə bütün insanlara iftira atmağın olduğunu buyurdunuz, sonra da Nuh(ə) və Lutun(ə) -in xanımlarının həyat yoldaşlarına xainlik etdiklərini bəyan etdiniz. Bu ziddiyyət deyilmi? Peyğəmbərlərin zövcələrinə fahişəlik, xainlik və xəbislik nisbəti verməniz çirkin iş deyilmi?».

[3] Hikmət alimləri

**Dəvətçi:** "Yəqin bilirəm ki, qəsdən səhv söyləyirsiniz,insanların vaxtını alıb, onları çaşdırmağa çalışırsınız. Sizin kimi bir alimdən belə məntiqsizlik gözləmirdim. Ayədəki xəyanətin mənasını bilirsiniz və bəlkə də Peyğəmbərlərin zövcələrini müdafiə etməniz, mövzunun genişlənməsi və məqsədinizin əksinə olan həqiqətin ortaya çıxmaması üçündür.

## NUH(ə) VƏ LUTUN(ə) XANIMLARININ XƏYANƏTİ

Xainliyi fahişəlik adlandırmağınız çox qəribədir. Fahişəliklə xainlik arasında çox fərq vardır. Peyğəmbərlərin xanımları hər cür fahişəlikdən münəzzəhdirlər, biz isə xainlikdən bəhs edirik. Əvvəla; hər peyğəmbərin həyat yoldaşı həmin peyğəmbərin söz və davranışlarının əksinə əməl edərsə, o, xaindir.

Ikincisi, onların xainlik etdiklərini mən özümdən söyləmədim ki, o dəqiqə hücum çəkib, məni ittiham etməyə başladınız. Çünki bilavasitə Qurani-kərim **fəxanətahuma**(o ikisi xainlik etdilər) buyurur. Onların xainliyi fahişəlik xainliyi deyildi. Çünki ərz etdim ki, peyğəmbərlərin həyat yoldaşları bu işdən münəzzəhdir; daha doğrusu, onların xainliyi asilik, küfr və nifaq idi.

Bilin ki, həzrət Nuh(ə) in həyat yoldaşı ona müxalif idi Onu xalqın yanında pisləyərək: Mənim həyat yoldaşım dəlidir. Daim onunla olduğum üçün onu tanıyıram. Ona aldanmayın - deyirdi. Həzrət Lut(ə)-un xanımı da evə gələn qonaqlar haqqında

qövmünə xəbər verir, evin sirlərini düşmənlərə bildirirdi. Bu da, fitnə və fəsada səbəb olurdu.

## ŞƏRAFƏTLİ AYƏNİN MƏNASI

Amma sizin öz lehinizə dəlil göstərdiyiniz: "Nur" surəsinin 26-ci ayəsinin mənasına gəldikdə müfəssirlərin nəzərləri və Əhli beytdən(ə) gələn rəvayətlərin işığında o ayənin mənası budur: «**Pis qadınlar pis kişilərə uyğundur, pis kişilər də pis qadınlara rəğbət bəsləyər; təmiz qadınlar da təmiz kişilərə layiqdir, təmiz kişilərin də onlara rəğbəti var.**

Bu Nur surəsinin 3-cü ayəsinin mənasıdır: **«Zina edən kişi ancaq zinakar və ya müşrik qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik kişiyə ərə gedə bilər"**

Xülasə, bu ayə sizin iddianızla uyğun deyil və məqsədinizlə heç bir əlaqəsi yoxdur.

## AİŞƏNİN DAVRANIŞLARINA İŞARƏ

Ümmül-möminin Aişəyə gəldikdə; əgər o, ittiham olunursa, bir tərəfə olan sevgi və ya qəzəbə görə deyildir; bilmədən etdiyi işlər səbəbilədir. Aişə ömrü boyu yerində durmamış və Peyğəmbəri əkrəmin (s) xanımlarından heç birisinin, hətta Ömərin qızı Həfsənin belə qarışmadığı işlərə baş qoşmuşdur. Şiələrin Aişəni ittiham etməsi öz alimlərinizin

bilavasitə kitablarında rəvayət edilən mövzular çərçivəsindədir. Yəni Aişə, öz həyat tarixini ləkələmiş bir şəxsdir».

**Şeyx**: "İnsaflı olun! Ümmül-möminin Aişənin öz tarixini ləkələdiyini söyləmək sizin kimi bir şəxsə heç yaraşarmı?»

**Dəvətçi:** "Peyğəmbəri-əkrəmin (s) zövcələrindən Ümmül möminin Həzrət Xədicədən (ə) başqa hamısı biz şiələr üçün eynidir. Ümmü Sələmə, Sevda, Aişə, Həfsə, Meymunə və digərləri hamısı Ümmül-mömünindir. Təkcə Aişənin bəzi işləri onu digərlərindən ayırmış və o, öz tarixini ləkələmişdir. Bunu mən söyləmirəm, bilavasitə sizin böyük alimləriniz onun həyatının ləkəli olduğunu rəvayət etmişdir. Hər kəsin yaxşı və ya pis davranışları pərdə altında qalmaz, sonda mütləq ortaya çıxar. Amma sizin təəssübkeşlikdən irəli gələn sevginiz gözünüzü tutduğuna görə baş verən hadisələri görmürsünüz. Rəvayətləri əhəmiyyətsiz sayıb, onu müdafiə etməyə çalışırsınız.

Məlum olduğu kimi, zavallı şiələr bunları yazdıqda və ya söylədikdə onlara minlərlə iftira atıb, etiraz edirsiniz. Əgər bir etirazını varsa, əvvəl öz alimlərinizə edin ki, niyə kitablarında bu kimi məsələləri rəvayət etmişlər?! "

**Şeyx:"** Şübhəsiz ki, Əliyə(r.ə) müxalif olduğuna görə onu belə tənqid edib, qınayırsınız"

**Dəvətçi :** "Həzrət Əli, imam Həsən və Əhli-beytə (ə) müxalif olması öz yerində. O, öz həyatını həzrət Peyğəmbərin (s) dövründə ləkələmişdir. Zati əxlaqi və davranışı ilə

Rəsulallaha(s) əziyyət verirdi. Daim Peyğəmbərin (s) əmrinə itaətsizlik edir, ümumiyyətlə hamıyla pis davranırdı. "

**Şeyx:** «Ümmül-möminin Aişəni bu qədər alçaltmağınız çox dözülməz bir haldır. Peyğəmbəri-əkrəmə (s) əziyyət etdiyini necə dilinizə gətirib, söyləyə bilirsiniz? Məlum olduğu kimi, həzrət Aişə də Qurani-kərimin bu ayəsini oxuyurdu:" **Şübhəsiz, Allaha və Rəsuluna əziyyət edənlərə Allah dünyada və Axirətdə lənət etmiş (Öz rəhmətindən qovmuş) və onlara həqarətli bir əzab hazırlamışdır."**[4]

Bu halda necə ola bilər ki, Peyğəmbərə (s) əziyyət edib dünya və axirətdə lənət qazanaraq son mənzili əzab olsun?

Daha doğrusu, bu, böyük bir iftira və yalandır, şiələrin iftirasıdır!».

**Dəvətçi**: «Rica edirəm, bu qədər həqarət etməyin; çünki şiələr iftira əhli deyildir. Ortada olan dəlillər bu cür oyun və hiylələrə ehtiyac görmür.

Bu ayəyə gəldikdə; təsdiq edirəm ki, bu ayəni təkcə Aişə deyil atası Əbu Bəkr və böyük səhabələrin hamısı görübdür. Əgər insafınız olsa, əvvəlki gecələr nəql etdiyim rəvayətlər işığında bir çox həqiqətlər ortaya çıxar.

---

[4] Əhzab, 57

# AİŞƏNİN HƏZRƏT PEYĞƏMBƏRƏ (S) ƏZİYYƏT VERMƏSİ

Aişənin Peyğəmbər(s)-ə əziyyət verməsi təkcə şiə kitablarında yer almamışdır. Bilavasitə böyük alim və tarixçilərinizin də yazdığı kimi o, Rəsulallahı kədərləndirmiş, incitmişdir.

Imam Ğəzzali «İhyaul-ulum»da, «Adabun-nigah» kitabının 2-ci cildinin 135-ci səhifəsində Aişəni qınayan bir çox hədis rəvayət etmişdir. Bunlardan biri də Aişənin Rəsulallaha qarşı çıxması və Əbu Bəkrin hakimlik etdiyi hadisədir.

Mövla Əli Müttəqi «Kənzul-ummal»in 7-ci cildinin 116-cı səhifəsində, Əbu Yəla «Müsnəd»də və Əbuş-Şeyx "Əmsal" kitabında belə yazmışdır: «Əbu Bəkr, qızı Aişəni görməyə

getmişdi; çünki həzrət Peyğəmbər (s)-lə Aişənin münasibətlərində bir gərginlik yaranmışdı.

Rəsuli-Əkrəm(s) Əbu Bəkri qəzavət etməyə çağırdı. Aişə danışarkən Peyğəmbəri (s) təhqir edir və davamlı Ona: «Söz və davranışlarında adil ol!»-deyirdi. Bu sözlərinə dözə bilməyən Əbu Bəkr qızının üzünə elə bir sillə vurdu ki, paltarı qana bulandı"

Imam Ğəzzali eyni kitabın «Nikah» babında və digərləri də öz kitablarında belə nəql etmişlər: «Əbu Bəkr qızının evinə daxil olduqda Rəsulallahın(s) qəmgin olduğunu gördü. Onlara: «Aranızda baş verənləri mənə danışın, hökm verim»-dedi.

Peyğəmbər (s) də Aişədən soruşdu: «Sən danışırsan, yoxsa mən danışım?». Aişə: «Sən danış amma haqqı söylə! »-dedi».

Başqa bir cümlədə də Peyğəmbərə (s) belə dedi: «Sən Allahın peyğəmbəri olduğunumu sanırsan?!"

Görəsən, bu cümlələr Nəbiyyi-əkrəmin (s) məqamını alçaltmaq və Onu təhqir etmək deyilmi?! Aişə həzrət Muhəmmədi(s) haqq peyğəmbər olaraq qəbul etməmişdimi ki, belə sözlər danışırdı?!

Bu və oxşar bir çox rəvayətlər sizin kitablarınızda vardır və hamısı da Aişənin Peyğəmbəri-Əkrəmi (s) nə qədər kədərləndirdiyini ifadə edir. Niyə sünni və şiə tarixçilər və hətta şərqşünaslar belə İslam tarixində Rəsulallahın (s) digər həyat yoldaşlarından bəhs və tənqid etməmişlər. Hətta Ömərin qızı Həfsə haqqında bir kəlmə belə tənqid yoxdur. Aişənin bilavasitə öz əməlləri onu pis tanıtmışdır və biz də onun haqqında sadəcə alimlərinizin dediklərini deyirik.

Görəsən, siz imam Ğəzzali, Təbəri, Məsudi, İbn Əsəm Kufi və başqalarının tarix kitablarını oxumamısınızmı? Məhz öz alimləriniz Aişənin Allah-Təala və Rəsulunun əmrlərinə itaətsizlik etdiyini söyləmişlər! Allah-Təala və Peyğəmbərinə olan itaətsizlik səadət və xoşbəxtliyə səbəb ola bilərmi?

İndi də siz: "Niyə Aişənin həyatının ləkəli olduğunu söylədiniz?"-deyə məni tənqid edirsiniz...

Hansı tarixi ləkə Allah-Təala və Rəsulunun əmrinə itaətsizlik, Peyğəmbərin (s) xəlifəsinə üsyan etmək və onunla savaşmaqdan daha böyükdür? Məlum olduğu kimi, Allah-Təala Peyğəmbərin (s) bütün xanımlarına xitabən belə buyurur: "**Evlərinizdə oturun, ilkin cahiliyyət dövrundəki kimi açıq-saçıq olmayın**"[5]

Peyğəmbəri-əkrəmin (s) bütün zövcələri bu əmrə itaət etmiş və zəruri bir iş olmadan evdən bayıra çıxmamışlar. (Bu Əməşində rəvayətində öz əksini tapmışdır).

## RƏSULALLAHIN (S) ZÖVCƏSİ SÖVDƏNİN SÖZÜ

"Səhihi-Sittə"də, hətta digər hədis və tarix kitablarınızda da yazıldığı kimi, Peyğəmbərin (s) həyat yoldaşı Sövdədən" Niyə həcc və ümrə etmirsən, bu böyük savabdan geri qaldın?",- deyə soruşulduqda o, belə cavab vermişdir: «Həcc mənə bir dəfə vacibdir, onu da yerinə yetirdim. Bundan sonra mənim həcc və ümrəm Allah Təalanın bu əmrinə itaət etməyimdir:" **Evlərinizdə oturun...**" Bu halda evdən bayıra çıxmaq belə istəmirəm. Hətta Rəsulallahın (s) məni oturtduğu o hücrədən bir addım belə bayıra atmaq istəmirəm. Ölənə qədər də belə qalacağam».

Sövdə sözünün üstündə durdu, evindən bayıra çıxmadı və ancaq öləndə cənazəsini oradan çıxartdılar. Sövdə, Aişə və ya

[5] Əhzab, 33

Ümmü Sələmə Peyğəmbərin həyat yoldaşları və möminlərin analarıdır; sadəcə əməlləri fərqlidir!

Ümmətin Aişə və ya Həfsəyə ehtiramları Əbu Bəkr və ya Ömərin qızları olduqları üçün deyil; (lakin siz sırf bu baxımdan ehtiram göstərirsiniz!) Rəsulallahın (s) zövcələri olduqları üçündür. Peyğəmbəri-əkrəmin (s) həyat yoldaşları da, təqva sahibi olduqları təqdirdə, tərifə layiq bir məqama sahibdirlər. Bu səbəbdən Quranda belə buyurulur: **«Ey Peyğəmbərin zövcələri! Allahdan qorxacağınız təqdirdə siz, (digər) qadınlardan hər hansı biri kimi deyilsiniz**...[6]

Yəni ey Peyğəmbərin xanımları, sizlər şərafət və fəzilət baxımından hər kəsdən üstünsünüz, başqaları kimi deyilsiniz, əlbəttə müttəqi və Allah-Təaladan qorxan kimsələrdən olmaq şərti ilə.

## AİŞƏNİN HƏZRƏT ƏLİYƏ (Ə) QARŞI MÜXALİFƏTİ VƏ ONUNLA SAVAŞI

Sövdə əmin, təqvalı və itaətkar, amma Aişə üsyankar bir qadın idi. Allah-Təala və Rəsulunun əmrinə zidd davranıb, Təlhə və Zübeyrə qoşularaq (və ya Əliyə (ə) olan şəxsi kin-küdurətinə görə) Bəsrəyə getdi. Böyük bir səhabə, həzrət Əlinin Bəsrə valisi olan Osman ibn Hüneyfi tutub, işgəncə verdilər.Saçını, saqqalını, qaşlarını yoldular, şallaqlayaraq

[6] Əhzab, 32

Bəsrədən qovdular.Yüzdən çox günahsız insanı qətlə yetirdilər. İbn Əsir, Məsudi, Məhəmməd ibn Cərir Təbəri və İbn Əbil-Hədid və digərləri bu hadisəni ətraflı şəkildə yazmışlar.

Aişə "Əskər" adında bir dəvəyə minib, cahiliyyət dövründəki döyüşçülər kimi pələng dərisindən hazırlanmış zireh geymiş bir halda meydana çıxaraq, minlərlə insanın qanının tökülməsinə səbəbkar olmuşdur.Allahdan xəbərsiz, şərəfsiz insanların zövcələri evlərində oturduqları halda, Xatəmül-Ənbiyanın (s) həyat yoldaşının bu cür rəzilliklə insanların qarşısına çıxması (və bu qadının da bu vəziyyətə razı olması) Allah və Rəsulunun əmrlərinə itaətsizlik deyilmi?!

## HƏZRƏT ƏLİNİN(Ə) FƏZİLƏTLƏRİ SAYSIZ-HESABSIZDIR

Bilavasitə öz alimlərinizin, fəzilətləri haqqında o qədər rəvayət nəql etdiyi həzrət Əli (ə) kimi bir şəxsin əleyhinə çıxmasına bəraət qazandırmaq doğrudurmu?

Bu səbəbdən imam Əhməd ibn Hənbəlin «Müsnəd»də, İbn Əbil Hədidin «Nəhcül-bəlağənin şərhi»ndə, imam Fəxri Razinin "Təfsiri kəbir"də, Xarəzminin «Mənaqib»də, Şeyx Süleyman Bəlxi Hənəfinin «Yənabiül-məvəddə»də, Məhəmməd ibn Yusif Gənci Şafeinin «Kifayətut-Talib»in 62-ci babında və Mirseyid Əli Həmədani Şafeinin «Məvəddətül-qurba»nın 5-ci məvəddəsində ikinci xəlifə Ömər ibn Xəttab və Abdullah ibn Abbasdan rəvayət etdiyinə görə Peyğəmbəri əkrəm (s) belə buyurmuşdur: **«Ey Əbəl-Həsən (Əli)! Əgər dəryalar mürəkkəb, ağaclar qələm, insanlar yazar (mirzə),**

**cinlər hesablayıcı olsa, yenə də sənin fəzilətlərini saya bilməzlər".**

Rəsulallahın(s) buyurduğu kimi, bütün ins və cinlərin, fəzilətlərini saya bilmədiyi bir şəxsin uca fəzilətlərini bizim naqis dillərimiz və qırıq qələmlərimiz necə mədh edə bilər!

Lakin məlum olduğu kimi, şiə alimləri və arabir Quşçi, İbn Həcar, Ruzbahan və başqa inadkar və boşboğaz alimləriniz belə həzrət Əli(ə)-ın sonsuz fəzilət və təriflərindən bir miqdarını öz kitablarında yazıb, nəql etmişlər.

## HƏZRƏT ƏLİNİN(Ə) FƏZİLƏT VƏ TƏRİFLƏRİ HAQDA HƏDİSLƏR

«Kutubi-Sittə»ni diqqətlə oxuyun! Əlavə olaraq, Mirseyid Əli Həmədani «Məvəddətül-qurba»da, Təbərani «Möcəm»də, Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süal"da, imam Əhməd ibn Hənbəl «Müsnəd» və «Fəzail»də, Həmidi «Cəmun-beynəs-Səhiheyn»də, Xarəzmi «Mənaqib»də, İbn Əbil-hədid "Nəhcül-bəlağə»nin 2-ci cildinin 449-cu səhifəsində və Ibn Səbbağ Maliki «Fusulul mühimmə»nin 124-cü səhifəsində hafiz Əbdül-Əziz ibn Əhzər Cənabəzidən nəql edərək «Məalimul-itrətin-nəbəviyə»də həzrət Fatimənin(s) belə buyurduğunu rəvayət edir: **«Atam Rəsulallah(s) ərəfə axşamı yanımıza gələrək bizlərə belə buyurdu: «Allah mələklər qarşısında sizinlə öyünür; Allah ümumi olaraq sizi, xüsusi olaraq Əlini bağışlamışdır; həqiqətən, səadət əhli həyatında və öldükdən**

**sonra Əlini sevən, şəqavət əhli də həyatında və öldükdən sonra Əliyə nifrət edəndir".**

Eyni kitablarda, deyəsən, əvvəlki gecələrdə nəql etdiyim uzun bir hədisdə Ömər ibn Xəttabdan nəqlən Rəsulallahın(s) ölüm yatağında həzrət Əliyə belə buyurduğu nəql edilir: :**Ey Əli, sənə qəzəbi olduğu halda məni sevdiyini düşünən yalan söyləmişdir. Səni sevən məni sevmişdir; məni sevəni də Allah sevər və onu Cənnətə aparar. Sənə qəzəblənən mənə qəzəblənər; mənə qəzəblənənə də Allah qəzəblənər və onu Cəhənnəmə salar».**

## HƏZRƏT ƏLİYƏ (Ə) OLAN SEVGİ İMANDIR, NİFRƏT, QƏZƏB İSƏ KÜFRDÜR

Yenə "əl-Al ibn Xələviyyə" kitabında Əbu Səid Xıdrıdan nəqlən Peyğəmbəri-əkrəmin(s) Əliyə(ə) belə buyurduğu yazılmışdır. "**(Ya Əli!) Sənə bəslənilən sevgi iman, qəzəb isə nifaqdır. Cənnətə ilk daxil olan səni sevəndir; Cəhənnəmə ilk düşən sənə nifrət bəsləyən və qəzəblənəndir".**

Həmçinin, Mirseyid Əli Həmədani Şafei "Məvəddətül qurba"nın 3-cü məvəddəsində, Həmvini də "Fəraid"də Rəsulallahın(s) əshabı arasında belə buyurduğunu nəql etmişlər: **"Əlini təkcə mömin sevər: Ona təkcə kafir nifrət bəsləyər".**

Başqa bir yerdə isə belə buyurur: "**Səni təkcə mömin sevər və sənə təkcə münafiq qəzəblənər"**. Məhəmməd ibn

Yusif Gənci Şafei «Kifayətut-talib»in 62-ci babının 119-cu səhifəsində «Tarixi-Dəməşq»dən, eləcə də Şam və İraq mühəddisləri isə Huzeyfə və Cabirdən nəqlən Peyğəmbəri-Əkrəmin(s)belə buyurduğunu nəql edirlər: "**Əli insanların ən üstünüdür. Bunu qəbul etməyən kafir olmuşdur".**

Ətadan rəvayət edildiyinə görə, Aişədən həzrət Əli(ə) haqda soruşanda belə demişdir: "**O, insanların ən üstünüdür. Onun haqqında təkcə kafir şəkk və şübhə edər**".

Həmçinin, Hafiz ibn Əsakir 100 cildlik kitabının 3 cildini Əlinin (ə) fəzilətlərinə ayırdığı "Tarix" kitabının 50-ci cildində bu xəbəri Aişədən nəql etmişdir.

Muhəmməd ibn Yusif «Mətalibus-süal»un 27-ci səhifəsində, Ibn Səbbağ Maliki də "Füsülül-muhimmə"də Tirmizi və Nəsaidən, onlar da Əbu Səid Xidridan belə dediyini nəql etmişlər: **"Biz Rəsulallah (s) dövründə münafiqləri təkcə Əliyə olan qəzəbləri vəsitəsilə tanıyırdıq".**

Eləcə də, "Füsulul-mühimmə"də Rəsulallahın (s) həzrət Əliyə belə buyurduğu yer almışdır: «**Səninlə döyüşmək mənimlə döyüşməkdir; sənin qanın mənim qanımdır; mən sənə qarşı döyüşənlə döyüşərəm. Səni ancaq əsl-nəcabəti olan kəslər sevər, sənə ancaq nəcabəti azğın olan insanlar nifrət edər. Səni ancaq möminlər sevər, sənə ancaq münafiqlər düşmənçilik edər».**

**Şeyx: «**Bu cür hədislər təkcə həzrət Əli (r.ə) haqqında deyildir. Raşidi xəlifələr haqqında da bu səpkidə hədislər rəvayət edilmişdir".

**Dəvətçi**:"Mümkünsə, o hədislərdən birini nəql edin, həqiqətlər aşkar olsun".

**Şeyx**: «Əbdürrəhman ibn Malik öz sənədilə Cabirdən nəql edərək Peyğəmbərin (s) belə buyurduğunu yazır: "Əbu Bəkr və Ömərə mömin nifrət etməz, münafiq də onları sevməz".

**Dəvətçi:** "Əvvəlki gecələrdə söylədiyim kimi, zəhmət olmasa birtərəfli hədislər rəvayət etməyin; səhih hədislərə istinad edin. İftira və yalançı ravilərdən rəvayət edilən uydurma hədisləri bir kənara qoyun".

**Şeyx**: "Bizdən eşitdiyiniz hər hədisi zəif adlandıraraq rədd etmək qərarına gəlmisiniz!"

**Dəvətçi:** "Təəssüflər olsun ki, sadəcə mən deyil, öz alimləriniz də rədd edirlər. Zəhmət olmasa, Zəhəbinin «Mizanul-etidal»ına və Xətib Bağdadinin «Tarix» kitabının 10-cu cildinin 236-cı səhifəsinə müraciət edin. Orada bir çox alimləriniz Əbdürrəhman ibn Malik haqda belə demişlər: "O, yalançı və iftiraçıdır. Hədis uyduran bir kəsdir. Heç kim bu mövzuda şəkk-şübhə belə etməmişdir".

Allah xatirinə,iftiraçı, yalançı və hədis uyduran bir kəsdən rəvayət etdiyiniz birtərəfli olan bu hədis, o böyük alimlərinizin rəvayət etdiyi və bizim də onlardan bəzilərinə toxunduğumuz

bu sayda hədislərlə bərabər ola bilərmi? Zəhmət olmasa, sadalayacağım alimlərinizin kitablarına diqqətlə baxın: Siyyuti: «Camiul-kəbir», c: 6, səh: 390; Muhibbuddin: "Riyazun-nəzirə", c: 2 səh: 215; Tirmizi: «Came», c: 2, səh: 299; İbn Əbdülbirr: «İstiab», c: 3, səh: 46; Hafiz Əbu Nəim: «hilyətül-övliya», c: 6, səh: 295; Məhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süal», səh: 17; Ibn Səbbağ Maliki: «Füsulul-mühimmə», səh: 126.

Bu mənbələrdə Əbuzərdən fərqli ibarələrlə belə rəvayət edilir: "**Biz münafiqləri Rəsulallahın (s) dövründə ancaq 3 əlamətlə tanıyırdıq: Allah-Təala və Rəsulunu rədd etmək, namazdan çəkinmək və Əli ibn Əbu Talibə nifrət etmək**".

Əbu Səid Xidri də belə deyir: "**Münafiqləri Əliyə nifrət etmələri ilə tanıyırdıq. Rəsulallahın (s) dövründə münafiqləri təkcə Əliyə düşmənçilik etmələri ilə tanıyırdıq"**.

Həmçinin, imam Əhməd ibn Hənbəl «Müsnəd»in 1-ci cildinin 95 və 138-ci səhifələrində, İbn Əbdülbirr «İstiab»in 3-cü cildinin 37-ci səhifəsində, Əhməd Xətib Bağdadi «Tarixi-Bağdad»ın 14-cü cildinin 426-ci səhifəsində, İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildinin 264-cü səhifəsində, imam Nəsai «Sünən»in 8-ci cildinin 117-ci səhifəsində, «Xəsaisul-Ələvi»nin 27-ci səhifəsində, həmçinin «Fəraid"in 22-ci babında, İbn həcər «Isabə»nin 2-ci cildinin 509-cu səhifəsində, Hafiz Əbu Nəim «hilyətül-övliya»nın 4-cü cildinin 185-ci səhifəsində, Səbt ibn Covzi «Təzkirə»nin 15-ci səhifəsində, Siyyuti «Camiul-kəbir»in 152 və 408-ci səhifələrində, Muhəmməd ibn Təlhə Şafei «Mətalibus-sual»un

17-ci səhifəsində və Tirmizi «Came»nin 2-ci cildinin 13-cü səhifəsində fərqli ibarələrlə bəzən Ümmü-Sələmədən, bəzən də İbn Abbasdan Rəsulallahın (s) belə buyurduğunu rəvayət etmişlər: "**Ya Əli! Münafiq səni sevməz, mömin də sənə nifrət etməz. Səni ancaq mömin sevər və sənə ancaq münafiq nifrət edər. Münafiq Əlini sevməz, mömin də Əliyə nifrət etməz".**

Ibn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"nin 1-ci cildinin 364-cü səhifəsində Mötəzili şeyxi Şeyx Əbülqasim Bəlxinin belə dediyini nəql edir: "**Bütün mühəddislər səhihliyində şübhə olmayan bir çox hədislərdə Rəsulallahın (s) həzrət Əliyə belə buyurduğunda ittifaq etmişlər: "Ya Əli! Mömin sənə nifrət etməz, münafiq isə səni sevməz".**

Yenə İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildinin 264-cü səhifəsində həzrət Əlinin (ə) xütbəsini belə nəql edir: "**Bu qılıncımla mənə qəzəblənməsi üçün möminin burnuna vursam, belə, mənə qəzəblənməz. Bütün dünyanı, məni sevsin deyə, münafiqə versəm belə yenə də məni sevməz. Bu səbəbdən Peyğəmbəri-əkrəm (s) mənə belə buyurmuşdu: "Ya Əli! Mömin sənə qəzəblənməz, münafiq də səni sevməz".**

Bu cür rəvayətlər sizin mötəbər kitablarınızda olduqca çoxdur. Məclisin vaxtını nəzərə alaraq, zehnimdə olan bu bir neçə rəvayəti nəql etdim. İndi siz ağalar ədalətlə hökm verin; Aişənin həzrət Əli (ə) ilə döyüşməsi, Rəsulallah(s) ilə döyüşmək deyilmi? Görəsən, bu döyüş və xalqı həzrət Əli (ə) əleyhinə döyüşməyə təşviq etmək sevgi, dostluq və məhəbbətə görə idi,

yoxsa qəzəb, kin və düşmənçiliyə görə? Şübhəsiz, ki, heç kim iki tərəf arasındakı döyüşün sevgi və dostluğa görə olduğunu söyləməz; bu döyüş qəzəb və düşmənçiliyə görə olmuşdur.

Rəvayət etdiyim bütün bu hədislərdə də Peyğəmbəri-Əkrəm (s) küfr və nifaqın əlamətlərindən birinin həzrət Əliyə nifrət etmək və onunla savaşmaq olduğunu buyurmamışdırmı? Bu hədislər işığında Aişənin qiyamını və həzrət Əli (ə) ilə döyüşməsini necə dəyərləndirə bilərik? Zəhmət olmasa, sevginizə və qəzəbinizə görə deyil, ədalətlə hökm verin!

Yadıma bir rəvayət düşdü; həmədanlı fəqih Mirseyid Əli Şafei "Məvəddətül-qurba"nın 3-cü məvəddəsində bilavasitə Aişədən Rəsulallahın (s) belə buyurduğunu nəql etmişdir: "**Allah-Təala, Əliyə qarşı qiyam edənin kafir və Cəhənnəm əhli olduğunu mənə bildirdi".**

Çox qəribədir, Aişəni: "Belə bir sözü Peyğəmbər(s)-dən eşitdiyin halda niyə Əliyə qarşı qiyam etdin?",-deyə ittiham etdikdə, o, gülünc bir üzr gətirərək: "Bu hədisi Cəməl günü unutdum, amma Bəsrədə xatırladım!"-dedi".

**Şeyx**: "Sizin öz bəyanınıza görə, o zaman niyə Ümmül möminin Aişəni (r.ə) ittiham edirsiniz? Bu aydındır ki, insan qəflət edə bilər, unuda bilər".

**Dəvətçi:** "Cəməl günü döyüşün od-alovunda unuda bilər. Amma Məkkədən hərəkət etdikdə Peyğəmbərin (s) bütün dostları, hətta zövcələri belə ona mane olmaq istədilər. Lazımsız işlərə baş qoşduğunu, Əliyə müxalifətin həzrət

Peyğəmbərə müxalifət olduğunu söylədikdə də, bunu xatırlamadımı? Görəsən, Cəməl hadisəsini yazan tarixçiləriniz də Rəsulallahın (s) belə buyurduğunu xatırlamadılarmı? " **Ey Aişə "Həvəb" itlərinin sənə qarşı hürdüyü yoldan qorx".** Aişə Bəsrəyə gedərkən Bəni- kilab suyuna yetişdikdə, itlər ətrafına dolaşıb hürməyə başladı. "Bura haradır?" - deyə soruşduqda, "həvəb" dedilər. Bu adı eşitdikdə, Rəsulallahın (s) ona buyurduğu sözü xatırladı. Bəs onda niyə Zübeyr və Təlhənin oyunu ilə yoluna davam edib Bəsrəyə getdi və o böyük fitnəyə səbəb oldu? Görəsən, yenə də onun unutduğunu və bilərək yoluna davam etmədiyini söyləyə biləcəksinizmi? Görəsən, bu dəlil Aişə üçün heç bir zaman silinməyəcək böyük bir ləkə deyilmi?

Bilərək Rəsulallaha (s) itaətsizlik etdi. Təlhə və Zübeyrin oyunu ilə Peyğəmbərin (s) xəlifəsinə qarşı döyüşdü! Məlum olduğu kimi, bilavasitə özü Peyğəmbərin (s) belə buyurduğunu bəyan edirdi : "**Hər kim Əli ilə döyüşüb ona qarşı qiyam edərsə, o kafirdir!"**

Rəsuli-əkrəmin (s) xəlifəsinə qarşı döyüşmək və Ona bir çox əziyyət vermək Peyğəmbərə əziyyət etmək deyilmi? Əvvəlki gecələr sənədlərilə rəvayət etdiyim bir hədisdə Peyğəmbər (s) belə buyurmamışdımı? **" Kim Əliyə əziyyət edərsə, mənə əziyyət etmişdir; mənə əziyyət edən də Allaha əziyyət etmişdir. Ey insanlar! Əliyə əziyyət edən Qiyamət günü yəhudi və xristian kimi həşr olar."**

# AİŞƏNİN ƏMRİ İLƏ BƏSRƏDƏ SƏHABƏ VƏ MÖMİNLƏRİN ÖLDÜRÜLMƏSİ

Bu rəvayətlər sizin mötəbər kitablarınızda yoxdurmu? Bu halda niyə şiəyə etiraz edirsiniz? Möminlərin qanını tökmək, Peyğəmbərin (s) əshabından olan Osman ibn Hüneyfə işgəncə vermək, yüzdən çox hafiz və silahsız dövlət məmurlarını öldürmək, şikəst bir kişini məsciddə qətlə yetirmək, bu döyüşün səbəbkarı olan Aişənin boynunda deyilmi?

Əllamə Məsudi " Mürucuz-zəhəb"in 2-ci cildinin 7-ci səhifəsində belə yazır: "**Yaraladıqlarından başqa 70-dən çox insanı öldürdülər. Bu 70 nəfərdən 50-sinin boynunu vurdular. Bu öldürülənlər İslamda məzlumca öldürülən ilk kəslərdir".** Bu faciəli hadisəni təfərrüatı ilə İbn Cərir, İbn Əsir və digər alim və tarixçiləriniz də nəql etmişlər.

Ya bu rəvayətləri mötəbər kitablarınızdan çıxararaq (bu səbəbdən kitabların yeni nəşrlərində təhriflər edilmiş və bəzi mövzular çıxardılmışdır) böyuk alim va tarixçilərinizi yalançı bilin, ya da, ən azı, şiələrə etiraz edib, onları ittiham etməyin! Çünki şiələr sizin mötəbər kitablarınızda yazılanları söyləyirlər. Əmin olun ki, şiələr günahsızdır. Sizlər bu mötəbər kitablarınızdakı rəvayətləri üzdən, ötəri oxuyursunuz. "Bir şeyi sevmək insanı kor və kar edər" qaydası əsasında əhəmiyyətli tarixi hadisələri rəvayətlərlə tədqiq etmirsiniz. Daim hüsn-zənn edərək gərəksiz yerə müdafiə edir, açıq-aşkar həqiqətlərə diqqət etmirsiniz. Etsəniz də üstünü örtməyə çalışır və gülünc bir şəkildə təvillərə yol verirsiniz.

Amma bilindiyi kimi, biz hadisələrə dərindən, qərəzsiz və insafla baxırıq. Hər iki firqənin kitablarındakı rəvayətləri hadisələrlə tədqiq edir, açıq-aşkar həqiqətləri kəşf edirik. Tədqiq edərkən, hər hansı bir yerdə qərəzli və haqsız olduğumuzu görsəniz, məntiqlə etirazınızı bildirin, qəbul etməyin. Buna mən də çox sevinərəm".

**Şeyx**: "Buyurduqlarınız doğrudur. Ümmül-möminin Aişə də bir insandır, məsum deyildir. Əlbətta, xəta etmiş, sadəliyindən iki səhabəyə aldanmışdır. Amma sonra tövbə etmiş, Allah-Təala da onu əfv etmişdir".

**Dəvətçi**: "Əvvəla; siz də qəbul edirsiniz ki, bəzi böyük səhabələr də xəta etmiş və aldanmışlar. Halbuki bilindiyi kimi, bunlar da Rizvan ağacının altında beyət edənlərdəndir. Daha doğrusu, sizin əvvəlki gecə rəvayət etdiyiniz "Əshabım ulduzlar kimidir, hansına tabe olsanız, doğru yola hidayət olarsınız" hədisi özü-özlüyündə batil olur.

İkincisi: Aişənin tövbə etməsi sırf bir iddiadır. Aişənin qiyamı, döyüşü və qətliamı bütün müsəlmanlara bəllidir. Amma tövbə etməsi bəlli deyildir.

## AİŞƏNİN İMAM HƏSƏNİN (Ə) HƏZRƏT PEYĞƏMBƏRİN(S) MÜBARƏK MƏZARININ KƏNARINDA DƏFN EDİLMƏSİNƏ MANE OLMASI

Qəti şəkildə məlumdur ki, Aişə uşaqcasına hərəkət etmiş və hər bir davranışı tarixdə bir fəsada səbəb olmuşdur.

Dediyiniz kimi, əgər həqiqətən tövbə edib peşman olmuş olsaydı, o zaman niyə sonradan Peyğəmbərin(s) nəvəsi İmam Həsənin(ə) cənazəsi qarşısında hər kəsi kədərləndirib, narahat edən rəftarı ilə yeni bir fəsada səbəb oldu?

Aişənin xətası təkcə Peyğəmbəri (s) kədərləndirmək, incitmək, dəvəsinə minərək cahiliyyət qadınları kimi, Rəsulallahın (s) xəlifəsilə döyüşmək deyildi. O, ölənlərlə də eyni şeyi edirdi. Qatıra minib Peyğəmbərin (s) nəvəsi İmam Həsənin (ə) cənazəsini müşayiət edən karvanın qarşısını kəsərək, Onun Rəsuli-Əkrəmin mübarək qəbrinin yanında dəfn edilməsinə də mane olmuşdu.

Yusif Səbt ibn Covzi "Təzkirətu-Xəvassil-Ümmə"nin 122-ci səhifəsində, "Murucuz-zəhəb"in müəllifi Əllamə Məsudi "İsbatul-vəsiyyə"nin 136-cı səhifəsində, İbn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"nin 4-cü cildinin 18-ci səhifəsinin əvvəlində Əbül-Fərəc və "ən-Nəsəb" kitabının müəllifi Yəhya ibn Həsəndən nəql edərək, Məhəmməd Xavəndşah "Rövzətüs-səfa"nın 2ci cildində, Vaqidi və Mənufi Əhməd ibn Məhəmməd ibn Hənəfi " Tarixi-Əsəmi-Kufi"nin tərcüməsində, ibn Şəhnə "Rövzətül-mənazir"də, Əbül-fida və başqaları da öz tarix kitablarında belə nəql etmişlər: " Həzrət Həsənin cənazəsini gətirdikdə, Aişə qatıra minib, Bəni-üməyyədən bir qrup şəxs və kölələrlə birlikdə cənazənin qarşısını kəsərək, İmam Müctəbanın Peyğəmbərin (s) qəbrinin yanında dəfn edilməsinə izn verməyəcəklərini söylədilər."

Məsudinin rəvayətinə görə ibn Abbas belə dedi: " **Sənə təəccüblənirəm ey Aişə! Xalqın "Cəməl " (dəvə) günü deməsi sənə kifayət etmədi, indi də "qatır günü" desinlər?! Bir gün dəvəyə, bir gün də qatıra minərək Rəsulallahın (s) hicabını cırdın(ehtiramını qorumadın), Allahın nurunu söndürməkmi istəyirsən? Halbuki müşriklər istəməsə də, Allah-təala nurunu tamamlayacaqdır. Biz Allah üçünük, Ona doğru dönərik!"**

Bəziləri də ona belə deyildiyini rəvayət etmişlər : " **Birgün dəvəyə mindin, bir gün də qatıra; yaşasan birgün də filə minəcəksən.(yəni Əbrəhə kimi Allahla döyüşə qalxacaqsan). Mirasın birdə - səkkizinin birdə - doqquzu düşdüyü halda, sən hamısına əl qoydun"**[7]

Haşim övladları qılınc çəkib onları dəf etmək istədikdə, İmam Hüseyn(ə) mane olaraq: **"Qardaşım, cənazəsi üstündə bir damla belə qan tökülməməsini vəsiyyət etmişdir"-b**uyurdu. Bu səbəbdən cənazəni geri aparıb, Bəqi qəbirstanlığında dəfn etdilər.

---

[7] Dünyasını dəyişmiş insanın övladları varsa, həyat yoldaşına mirasından səkkizdə biri düşür. Peyğəmbərin (s) 9 xanımı olduğu üçün bu 9 yerə bölünməsi lazım gəlir. Yəni Aişənin haqqı Rəsulallahdan (s) qalan mirasın birdə səkkizinin birdə doqquzu idi. Amma Aişə, buna razı olmayaraq, hamısına əl qoydu.)

## AİŞƏNİN HƏZRƏT ƏLİ(Ə)-IN ŞƏHADƏTİNƏ SEVİNƏRƏK ŞÜKÜR SƏCDƏSİ ETMƏSİ

Əgər Aişə həqiqətən tövbə etmiş və həzrət Əli ilə döyüşməkdən peşman olmuşdusa, o zaman niyə İmamın (ə) şəhadət xəbərini eşitdikdə şükür səcdəsi etdi?!

Əbül-Fərəc Isfahani "Məqatilut-Talibiyyin" kitabında həzrət Əli(ə)-ın tərcümeyi-halının sonunda belə yazmışdır: "**Aişə həzrət Əlinin (ə) şəhadət xəbərini eşitdikdə şükür səcdəsi etd**i".

Əgər Aişə həqiqətən tövbə edib peşman olmuşdusa, niyə belə sevinib, bayram etmişdi?!

Ibn Cərir Təbəri "Tarix" kitabında hicri 40-cı il hadisələrini qeyd edərkən və Əbül-Fərəc İsfəhani də zikr etdiyimiz kitabında belə yazmışdır: "**Bir kölə Aişəyə həzrət Əlinin şəhadət xəbərini söylədikdə Aişə belə dedi: Fikrim rahat oldu, qəlbim də sakit; Müsafirinin gəlişi ilə rahat olan, və gözü aydınlanan bir kəs kimi..**

Yəni Aişə əziz qonağını gözləyən bir kəs kimi belə bir xəbər gözləyirdi. Qonağı gələnin gözaydınlandığı kimi, Aişə də həzrət Əlinin(ə) şəhadət xəbərini eşitdikdə qəlbi rahatlamış, təsəlli tapmışdır. Bu xəbəri verənə **"Onu kim öldürdü?",-deyə soruşdu. O da: "Murad qəbiləsindən Əbdürrəhman ibn Mülcəm Muradi"-dedi. Bundan sonra Aişə belə dedi: «Düzdür ki, Əli məndən uzaqdır, amma mənə ölüm xəbərini gətirən kölənin üzü torpaq görməsin!"**

Orada olan Ümmü-sələmənin qızı Zeynəb onun bu sözünü eşitdikdə, belə dedi :" **Əli haqqında belə sevinməyin, belə sözlər söyləməyin doğrudurmu?" Aişə vəziyyətin çətinliyini gördükdə belə cavab verdi: Fikirli idim; bilmədən söylədim. Bundan sonra belə sözlər söyləsəm mənə xatırladın, bir də söyləməyim".**

Zəhmət olmasa, sevgi və qəzəbinizi bir kənara qoyun və ibrət alın! Görün ki, Onun tövbə etdiyi həqiqət deyildir, son nəfəsinə qədər İmam Əliyə düşmənçilik etmişdir. Belə olmasaydı, sevinib şükür səcdəsi etməzdi!

Möhtərəm ağalar, maraqlıdır, görəsən, siz bu əməllərə niyə bəraət qazandırırsınız?! Məgər sizə görə Aişə digərlərindən daha üstün, ağıllı və həyatı daha firavan olan bir kəs deyil?!

Yadıma digər bir mövzu düşdü: Şiələr Osmanı ,alimlərinizin nəql etdiyi sözlərlə, ittiham etdiklərinə görə onlara düşmənçilik gözü ilə baxırsınız.

## AİŞƏNİN OSMAN HAQQINDAKI ZİDDİYYƏTLİ SÖZLƏRİ

Əgər Osmanı ittiham etmək baxımından məsələyə yanaşılarsa, o zaman Aişəyə olan münasibətinizin dəyişməsi lazım gəlir. İbn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"nin 2ci cildinin 77ci səhifəsində, Məsudi " Əxbaruz-zaman" və " Ovsot" da, Səbt ibn Covzi " Təzkirətu-xəvassil-ummə"nin 36cı

səhifəsində, ibn Cərir, ibn Əsakir, İbn Əsir və digər alim və tarixçiləriniz yazmışlar: " Aişə həmişə Osmanı qınayaraq belə fəryad edirdi : **" Öldürün bu Nəsəli! ( qoca axmağı və ya yəhudi Nəsələ oxşayan bu şəxsi). Allah onu öldürsün. Şübhəsiz, o, kafir olmuşdur. "**

Amma məlum olduğu kimi Osman öldürüldükdə, həzrət Əliyə qarşı olan kin və düşmənçiliyinə görə belə dedi: **" Osman məzlum olaraq öldürüldü. Vallahi onun qanını tələb edəcəyəm, mənimlə qiyam edin!"**

İbn Əbil-hədid yazır: "Aişə Osmana qarşı çıxan kəslərdən ən kəskini idi, hətta Rəsulallahın (s) paltarlarından birini çıxarıb evinə asmışdı.Gələnlərə belə deyirdi: **«Bu, Rəsulallahın (s) paltarıdır, hələ köhnəlməmişdir. Amma Osman Onun sünnətini köhnəltdi».**

Yenə Ibn Əbil-hədid belə deyir: «Məkkədə Osmanın ölüm xəbərini eşidən Aişə belə dedi: «**Əməllərinə görə Allah onu öz rəhmətindən uzaq etsin. Allah-Təala bəndələrinə zülm edən deyildir». (Yəni Allah onu əməlinə görə cəzalandırmışdır)**

Aişənin Osmana qarşı söylədiyi bu cür sözlərdən əsla narahat olmursunuz, amma zavallı şiələrdən eşitdikdə o dəqiqə onları kafir sayır, ölümlərinə hökm verirsiniz.Bu halda baxışlar təmiz və aydın olmalıdır. Əgər çirkin olarsa, hər cür eyib tapıla bilər.

Qəti olan budur ki, Aişə, Əmirəl-möminin Əliyə qarşı kin və düşmənçilik bəsləyirdi. Müsəlmanların həzrət Əliyə (ə)

beyət etdiyini eşitdikdə belə dedi: «**Əgər Osmanın məzlumcasına öldürüldüyü halda Əlinin xilafəti kamil olarsa, göylərin yerə enməsini (dünyanın məhv olmasını) istərəm".**

Görəsən, bu cür fərqli və ziddiyyətli sözlər Aişənin səviyyəsizliyini göstərmirmi?

**Şeyx**:«Aişənin söz və davranışlarındakı bu müxtəliflik olduqca çox rəvayət edilmişdir. Amma bilindiyi kimi, bu iki şey qəti və sabitdir: Birincisi;Ümmül-möminin Aişə(r.ə) aldadılmışdı. O gün Əlinin(r.ə) vilayət məqamını dərk etməmişdi. Bu səbəbdən də unutduğunu və Bəsrədə xatırladığını açıq-aşkar bəyan etmişdir.

İkincisi; o, tövbə etmişdir. Allah-Təala da onu bağışlayıb Cənnətin ən uca dərəcəsinə aparacaq!"

**Dəvətçi:** «Tövbə mövzusunda yenidən danışmaq istəmirəm. Bu qədər müsəlmanın qanının tökülməsinin, namusunun tapdalanmasının və mal-dövlətinin talanmasının mühakiməsiz üzərindən keçilməsini də söyləmirəm. Doğrudur ki, Allah-Təala əfv və rəhmətdə mərhəmət edənlərin ən mərhəmətlisidir. Lakin cəzada da cəzalandıranların ən şiddətlisidir!

Bilmək lazımdır ki, Aişə son nəfəsində bu hadisələrin səbəbkarı olduğunu, böyük alimlərinizin də rəvayət etdiyinə görə, etiraf etmiş və belə vəsiyyət etmişdir: **«Məni Peyğəmbərin(s) yanında dəfn etməyin; çünki Ondan sonra nələr etdiyimi çox yaxşı bilirəm».**

Hakim "Müstədrək"də, ibn Quteybə "Maarif"də, Məhəmməd ibn Yusif Zərəndi " Əlamu bəsirətin-Nəbi"də, ibn Beyi Nişapuri və digərləri də öz kitablarında belə nəql etmişlər: " Aişə Abdullah ibn Zubeyrə belə vəsiyyət etmişdir: **" Məni Bəqi qəbiristanlığında bacılarımın yanında dəfn edin; çünki mən Peyğəmbərdən sonra bir çox hadisələrə səbəb oldum."**

Amma sizin; " Aişə unutqan idi, həzrət Əlinin(ə) fəzilətini bildirən rəvayətləri Bəsrədə xatırladı və Peyğəmbərin (s) onu bu işlərdən çəkindirdiyini unutmuşdu" sözünüzə gəlincə, bu mövzuda yanılırsınız. Zəhmət olmasa, böyük alimlərinizin mötəbər kitablarına baxın və yalnışlığınızı anlayın. Xüsusilə də, açıq-aşkar həqiqətləri anlamaq üçün ibn Əbil-hədidin " Nəhcül-bəlağənin şərhi"nin 2ci cildinin 77ci səhifəsini yaxşı- yaxşı mütaliə edin. İndi məsələnin aydınlaşması üçün o kitabın bəzi bölümlərinə işarə edirəm.

## ÜMMÜ-SƏLƏMƏNİN AİŞƏYƏ NƏSİHƏTİ

İbn Əbil-hədid, Əbu Mixnəf Lut ibn Yəhya Əzdinin " Tarix" kitabından belə rəvayət edir: " O zaman Ümmü-Sələmə də Həcc məqsədilə Məkkəyə getmişdi. Aişənin Osmanın qanını tələb edərək Bəsrəyə doğru getmək istədiyini eşitdikdə halı çox pis oldu. O, iştirak etdiyi məclislərdə həzrət Əlinin (ə) fəzilətlərini rəvayət edirdi. Aişə Ümmü-Sələmənin yanına gedərək, onu da aldadıb özü ilə Bəsrəyə aparmaq istədi. Bu zaman Ümmü-Sələmə ona belə dedi: " **Hələ dünənə qədər Osmanı söyürdün, qınayırdın. Ona "Nəsəl" deyirdin. İndi də**

**onun qanını almaq bəhanəsilə Əlinin qarşısında qiyam edirsən? Əlinin o qədər fəzilətlərini unutdunmu? Əgər unutdunsa sənə xatırladım.**

## ÜMMÜ-SƏLƏMƏNİN AİŞƏYƏ, HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNİ XATIRLATMASI

Xatırla o günü ki, mən Həzrət Peyğəmbərlə birlikdə sənin otağına gəldik. Elə həmin vaxt Əli içəri daxil oldu. Peyğəmbərə yavaş-yavaş nəsə deyirdi. Söz bir az uzandığından Əlini acılamaq istədin. Mən səni bu işdən çəkindirməyə çalışdım, amma sən qulaq asmadın. Nəhayət, Əliyə hörmətsizlik edərək belə dedin: **«Doqquz gündən biri mənim növbəmdir. İndi də gəlib Peyğəmbəri məşğul edirsən?!» Rəsulallah narahat, üzü qızarmış halda qəzəblə: «Geri dön! Allaha and olsun ki, əhli-beytimdən və digərlərindən heç kim imandan çıxmayana qədər Əliyə qəzəblənməz»,-deyə buyurdu. Sən də dediyindən peşman olub, geri qayıtdın>>.**

Aişə dedi: **«Bəli, xatırlayıram»**.

Ümmü-Sələmə sözünün davamında belə dedi: **«Bundan başqa, o günü xatırla ki, Peyğəmbərin (s) mübarək başını yuyurdun, mən də yemək bişirirdim. Rəsulallah mübarək başını qaldıraraq belə buyurdu: «Sizdən hansınız günahkar dəvə sahibisiniz ki, həvəb itləri ona hürəcək və Sirat körpüsündən üzü üstə düşəcəkdir?"**

Mən yeməkdən əlimi çəkərək: **«Ya Rəsulallah! Bu işdən Allaha və Rəsuluna sığınıram»-dedim. O zaman əlini sənin kürəyinə vuraraq belə buyurdu: «O kəs sən olmayasan ha!>>** Aişə dedi: **«Bəli, xatırlayıram>>.**

Ümmü-Sələmə davam edərək belə dedi: **«Xatırla o günü ki, səfərlərin birində ikimiz də Peyğəmbərlə birlikdə idik. Bir gün Əli Rəsulallahın ayaqqabısını tikirdi, biz də bir kölgədə oturmuşduq. Bu əsnada atan Əbu Bəkr Ömərlə birlikdə gəlmək üçün izn istədilər, biz də pərdənin arxasına keçdik. Bir az danışdıqdan sonra belə dedilər: «Ya Rəsulallah! Biz səninlə birlikdə olmağın qiymətini bilmirik; bizə xəlifəni tanıtmağını və səndən sonra itaəti vacib olan kəsin kim olduğunu söyləməni rica edirik".**

Peyğəmbər Əbu Bəkr və Ömərə cavabən: «**Mən xəlifəmin məkanını görürəm (onun məqamını yaxşı tanıyıram). Amma indidən onu tanıtsam, Israil oğulları Harunun ətrafından dağıldığı kimi, siz də onun ətrafından dağılarsınız»**,-deyə buyurdu. Onlar da susdular. Getdikdən sonra biz bayıra çıxdıq. Mən dedim: **«Ya Rəsulallah! Kim onlara xəlifə olacaqdır?» Peyğəmbər belə buyurdu: «Ayaqqabımı tikən şəxs».**

Rəsulallahın yanından ayrılıb ətrafa baxdıqda, Əlidən başqa heç kimi görmədik; geri dönərək Peyğəmbərə: «Y**a Rəsulallah! Əlidən başqa kimsəni görmədik"** - dedik. O Həzrət (s) də belə buyurdu: **" Bax, O(Əli) mənim xəlifəmdir. "**

Aişə dedi: **" Bəli, xatırlayıram."**

Ümmü-Sələmə dedi: **" O halda, bütün bu hədisləri bilməyinə baxmayaraq, hara gedirsən?"** dedi.

Aişə dedi: **" İnsanların arasını düzəltmək üçün gedirəm."**

Qəbul edin ki, Aişə aldadılmamışdı, bilərək qiyam etmiş, fitnə çıxartmışdı. Ümmü-Sələmə ona Rəsuli-əkrəmin (s) hədislərini xatırlatmışdı. Amma bilindiyi kimi, o buna baxmayaraq oyanmamışdı. Həzrət Əlinin (ə) açıq-aşkar həqiqət məqamını etiraf etdiyi halda Bəsrəyə yola düşmüş, bir çox müsəlmanın qanının tökülməsinə səbəb olan bir çox fitnələr yaratmışdır. Xüsusilə də, "Ayaqqabı tikən" hədisi həzrət Əlinin(ə) imamət və xilafətini isbat edən ən böyük dəlildir.

Ümmü-Sələmə özündən sonra xəlifənin kim olduğunu soruşduqda Peyğəmbər (s) "**Ayaqqabımı tikən mənim xəlifəmdir " -** buyurdu və o anda Rəsulullahın ayaqqabısını Əlidən başqası tikmirdi.

Şiə müsəlmanların yeganə günahı heç bir adətin təsirində qalmamaları və uzaqgörənliklə 14 əsrlik əhəmiyyətli həqiqətlərə baxmalarıdır. Onlar heç bir sevgi və qəzəbə qapılmadan Quran ayələri və iki firqənin mötəbər kitablarında yer alan hədislərdən istifadə edir və haqq üzrə hökm verirlər. Həzrət Əlinin (ə) xilafətinin böyük oyunlar və hiylələr sayəsində dördüncü mərtəbəyə atıldığına və haqqının qəsb edildiyinə inanırlar. Amma bilindiyi kimi, bu vəziyyət Onun fəzilətlərini və haqqındakı dəlilləri ortadan qaldırmamışdır və qaldıra da bilməyəcək!

Biz də inanır və etiraf edirik ki, Əbu Bəkr Səqifədə Əli, bəni-haşim, səhabənin böyükləri olmadan və ənsardan Xəzrəc qəbiləsinin müxalifətinə baxmayaraq, "xəlifə" adlandırılmış, ondan sonra da fərdi bir diktatorluqla Ömər və Ömərin şurasıyla da Osmanı xilafət kürsüsündə oturtmuşlar. Əlbəttə bu fərqlə ki, onlar özlərini seçən və xilafət halqasını boynuna asan bir qrupun xəlifəsi idi. Lakin bilindiyi kimi , həzrət Əli(ə) Allah-təala və Peyğəmbəri-əkrəm(s) tərəfindən seçilən bir xəlifədir.

**Şeyx**: «Haqsızlıq edirsiniz! Onlar arasında heç bir fərq yoxdur. Əbu Bəkr, Ömər və Osmanı (r.z) xilafətə gətirən xalq, Əlini (r.ə) də xilafatə gətirmişdir».

## ÜÇ XƏLİFƏNİN TƏYİN OLUNMASINDAKI FƏRQLİLİK ONLARIN XİLAFƏTİNİN BATİLLİYİNƏ DƏLİLDİR

**Dəvətçi**: «Xəlifələrin xilafətə təyin olunmasında bir çox baxımdan fərqlər vardır. Əvvəla; icmaya işarə etdiniz.

Mövzuları təkrarlamaqla doğru istiqamətə yönəlmirsiniz. İcma dəlilinin təməlsiz olduğunu əvvəlki gecələrdə ərz etmişdim. Ümmətin icması xəlifələrdən heç birinin xilafətinin başlanğıcında təşkil olunmamışdır. İkincisi; əgər icmaya əsaslansanız və bunu Allah-Təala və Peyğəmbəri-Əkrəm (s) tərəfindən olduğunu ümmət üçün şərən isbat etsəniz, qaydaya əsasən hər xəlifə dünyadan getdikdə ümmət toplanmalı və

xəlifə seçimi üçün onların nəzəri soruşulmalıdır. Ümmət kimin xəlifə olmasına rəy verərsə, o, xalqın xəlifəsidir (Rəsulallahın xəlifəsi deyil): onda, belə çıxır ki, bu üsulun bütün dövrlərdə istifadə olunması lazım gəlir!

Əlbəttə, siz də bilirsiniz ki, İslamda heç bir xəlifə üçün belə bir icma mövcud olmamışdır: hətta bizim daha əvvəl isbat etdiyimiz naqis bir icma da (ki, əshabın böyükləri, bəni-haşim və ənsar orada deyildi) Əbu Bəkrdən başqa heç kim üçün gerçəkləşməmişdir. İslam mühəddisləri və tarixçilərinin birgə nəzərinə görə, Ömərin xilafəti Əbu Bəkrin təyini ilə həyata keçmişdir. Əgər xilafət təyinində icma şərt idisə, bəs niyə Əbu Bəkrdən sonra Ömərin xilafətə seçilməsi üçün icma təşkil olunmadı?"

**Şeyx:** «Heç şübhəsiz, Əbu Bəkr ümmətin icmasıyla xilafətə seçildiyinə görə onun təkbaşına xəlifə təyini üçün söylədiyi söz sağlam bir dəlil sayılmışdı. Ondan sonra artıq xəlifə təyini üçün icmaya ehtiyac qalmamışdı. Hər xəlifənin özündən sonrakı xəlifəni seçmək üçün söylədiyi söz sağlam bir sənəd kimi qəbul edilmişdir. Özündən sonrakı xəlifəni təyin etmək xəlifənin haqqıdır! Xalqı özbaşına buraxmamalıdır. Əbu Bəkr icma ilə seçildiyi üçün Öməri xilafətə təyin etmiş, Ömər də Peyğəmbərin (s) xəlifəsi olmuşdur!"

**Dəvətçi:** " Siz hər bir xəlifənin özündən sonra xəlifə seçməyi onun haqqı olduğunu və ümməti bu məsələdə özbaşına buraxmamalı fikrini bəyan etdiniz. Onun sözünün sonrakı xəlifənin təyinində kifayət olduğunu iddia etdiniz. Çox

maraqlıdır, bəs nəyə görə insanların hidayətçisi olan Xatəmül-ənbiyaya(s) gəldikdə, bu haqqı qəbul etmirsiniz? Niyə sizin kitablarınızda da yer alan ( əvvəlki gecələr sadəcə bəzisinə işarə etmişdik, bu gecə də Ümmü-Sələmənin hədisindəki açıq-aşkar nəsləri təqdim etdik) Peyğəmbəri-əkrəmin(s) açıq-aydın və ya kinayə yoluyla fərqli yerlərdə həzrət Əli(ə) üçün buyurduğu o qədər nəsləri görməzliyə vurur, qəbul etmir və hər biri üçün gülünc təvillər edirsiniz? Bu səbəbdən İbn Əbil-hədid də Ümmü-Sələmənin hədisində bu gülünc təvili qeyd edib sonra açıq-aşkar nəssi rədd etmişdir.

Həqiqətən maraqlıdır: Əbu Bəkrin sözünün Ömərin xilafətə təyinində bir sənəd olduğunu hansı dəlillə söyləyirsiniz ?! Ancaq bilindiyi kimi , digər tərəfdən Rəsulallahın(s) sözünün sənəd olmadığını ifadə edir və o hikmətli kəlmələri gülünc təbirlərlə bəyan edirsiniz.

Bundan əlavə, haradan və hansı dəlil üzrə ( əgər qəbul etsək belə ) icma tərəfindən seçilən birinci xəlifənin özündən sonrakı xəlifəni təyin etmək haqqı var?! Peyğəmbəri-əkrəmdən (s) belə bir əmr gəlmişdirmi? Cavab, heç şübhəsiz mənfidir.

Yenə əlavə olaraq, birinci xəlifə icma tərəfindən seçildiyi üçün sonrakı xəlifələrin təyinində icmanın lüzumsuz olduğunu, xalq tərəfindən seçilən birinci xəlifənin özündən sonrakı xəlifəni seçə biləcəyi və onun sözünün kifayət qədər qüvvəyə malik olduğunu söyləyirsiniz.

## ŞURA MƏCLİSİNƏ ETİRAZ

Əgər belədirsə, niyə bu iş təkcə Ömərin xilafəti dövründə oldu? Niyə Osmanın xilafətində Ömər xəlifə təyin etməyərək işi altı nəfərdən ibarət şuranın ixtiyarında qoydu? Həqiqətən dəlilinizin nə olduğu bəlli deyildir!.

Dəlillər ixtilaflı oluduğuna görə də əsl mövzu aradan gedir. Əgər xilafətin isbatı üçün ümmətin icması dəlildirsə və bütün ümmətin birlikdə səs verməsi lazımdırsa, (Məlum olduğu kimi, Əbu Bəkr zamanında belə bir icma olmadı) bəs niyə Ömərin xilafətində belə bir icma təşəkkül tapmadı? Əgər birinci xəlifənin seçimində icma şərtdirsə, sonrakı xəlifələrdə isə icma ila seçilən xəlifənin sözü kifayətdirsə, o halda niyə bu iş Osmanın zamanında olmadı?

Ömər, Əbu Bəkrin əksinə olaraq, xəlifə seçimini şuranın ixtiyarına qoydu. Həm də dünyanın heç bir yerində, hətta ibtidai-icma quruluşu qəbilələrində belə görünməmiş bir şuraya!

Dünyadakı bütün məclislərdə çoxluğun nəzərinin təmin olunması üçün təmsilçiləri xalq seçir; amma bu şuranın təmsilçilərini bilavasitə Ömərin özü təyin etmişdir.

## ƏBDÜRRƏHMAN İBN ÖVFƏ GENİŞ SƏLAHİYYƏT VERİLMƏSİNƏ ETİRAZ

Çox qəribədir! Bu da azmış kimi, bütün təmsilçilərin iradəsinə məhdudiyyət qoyaraq, Əbdürrəhman ibn Övfə geniş

səlahiyyət verdi. Əbdürrəhman ibn Övfün bu qədər təsir gücünə sahib olduğunun heç bir elmi, ürfi və şəri ölçüsü yoxdur. Əlbəttə, bundan məqsəd onun Osmanın yaxınlarından olması, daha doğrusu digərlərini deyil, məhz Osmanı seçəcəyi idi. Ömər belə demişdi: «Əbdurrəhman ibn Övfün tutduğu tərəf haqdır, Əbdürrəhman kimə beyət edərsə, digərləri də ona təslim olmalıdır!»

Diqqat etsəniz, burada şura adıyla bir diktatorluğun hökm sürdüyünü görərsiniz. Halbuki, indiki təbirlə desək, demokratiya bunun tam əksinədir.

Peyğəmbəri-əkrəm (s) əvvəlki gecələr sənədlərini də zikr etdiyim bir hədisdə dəfələrlə belə buyurmuşdur: **«Əli haqladır. Əli harada olarsa haqq onunladır».**

Yenə belə buyurmuşdur: **«Bu Əli, ümmətimin faruqudur. Haqla batili bir-birindən ayırandır»**.

Bu səbəbdən Hakim «Müstədrək"də, Hafiz Əbu Nəim «hilyə»də, Təbərani «Ovsət"də, İbn Əsakir «Tarix»də, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib"də, Muhubiddin Təbəri «Riyazun-nəzrə»də, Həmvini «Fəraid»də, İbn Əbil-hədid «Nəhcül bəlağənin şərhi»ndə və Siyyuti də «Dürrül-Mənsur»da, Ibn Abbas, Salman, Əbuzər və Huzeyfədən nəqlən Rəsulallahın (s) belə buyurduğunu nəql edir: **«Məndən sonra bir fitnə qopacaqdır. O zaman Əlidən ayrılmayın; çünki Əli Qiyamətdə mənimlə ilk qucaqlaşa biləcək bir kəsdir. Əli ən böyük siddiq və bu ümmətin**

**faruqudur; haqla batili bir-birindən ayırandır və o, möminlərin əmiridir».**

Əvvəlki gecələr sənəd silsiləsini də zikr etdiyim bir rəvayətdə Peyğəmbəri-əkrəm(s) Əmmara belə buyurmuşdur: **«Əgər bütün insanlar bir yolla, Əli də başqa bir yolla gedərsə, sən Əlinin yoluyla get, insanlardan ehtiyacsız ol. Ey Əmmar! Əli səni hidayətdən çevirməz və zəlalətə sürükləməz. Ey Əmmar! Əliyə itaət, mənə və Allah-Təalaya itaətdir».**

## ƏMİRƏL-MÖMİNİN MƏQAMINA AÇIQ-AŞKAR ZÜLM

Bu vəziyyətdə Ömər, Peyğəmbəri-əkrəmin (s) əmrinin əksinə olaraq, həzrət Əlini Əbdürrəhmanın əlində olan bir şuranın ixtiyarına buraxır. Indi bu vəziyyətə müxalif olmamaq mümkündürmü? Səhabənin böyüklərini bir kənara çəkmiş, xilafət mövzusunda onların fikir bildirmə haqlarını əllərindən almışdı. Daha doğrusu, bu şurada da Həzrət Əliyə böyük bir haqsızlıq edilmişdir; Həzrət Əli kimi haqq və batili bir-birindən ayıran böyük bir şəxsiyyət Əbdürrəhman kimi birinin əmri altına salınmışdır.

Ağalar, zəhmət olmasa, insafla hökm verin. «Istiab», «İsabə», «Hilyətül-övliya» və bu kimi kitablarınıza müraciət edin. Həzrət Əlini(ə) Əbdürrəhman və hətta şura üzvü olan digər beş nəfərlə müqayisə edin. Əbdürrəhman hakimlik məqamına daha layiqdir, yoxsa əmirəl-möminin Həzrət Əli? Müqayisə edərkən siyasi oyunlarla vilayət haqqının

tapdalandığını bilavasitə müşahidə edin. Xülasə, əgər Ömərin xəlifə təyinindəki şura əmri tətbiq olunması zəruri olan bir göstəriş idisə, o halda nəyə görə Həzrət Əlinin (ə) xilafətində tətbiq edilmədi?

Dörd xəlifənin xilafətində dörd müxtəlif üsul istifadə olunmuşdur. Bu dördündən hansı doğru, hansı batildir? Əgər hamısının haqq olduğunu bəyan etsəniz, xilafət təyinində inandırıcı bir dəlil və sabit bir yolunuzun olmadığı aydınlaşır.

Əgər siz bəylər bir az adətlərinizdən uzaqlaşıb açıq-aşkar həqiqətlərə insafla, diqqətlə və dərindən baxsanız, həqiqətlərin, baş vermiş hadisələrin xaricində olduğunu görərsiniz.

Göz açıq, qulaq açıq, amma bu korluq!

Allahdan, gözün bağlanmasına təəccüb edirəm!

**Şeyx:** «Əgər dediyiniz doğrudursa və buyurduğunuz kimi dərindən düşünülərsə, Həzrət Əlinin xilafəti də sarsıntıya uğrayacaqdır. Çünki əvvəlki üç xəlifəni xilafətə gətirən icma, Əlini (r.ə) də xilafətə gətirmişdir».

## HƏZRƏT ƏLİ (Ə) XİLAFƏTƏ ALLAH-TƏALA VƏ PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN TƏYİN OLUNMUŞDUR

**Dəvətçi:** «Dediyiniz, Peyğəmbərdən(s) bir nəss olmadığı təqdirdə keçərlidir. Lakin Həzrət Əlinin (ə) xilafətinin ümmətin icmasıyla işi yoxdur: bilavasitə Allah-Təala və Peyğəmbər(s) tərəfindən seçilmişdir! O, xilafəti icma tərəfindən deyil, haqqı geri almaq üçün qəbul etmişdir! Çünki haqqı qəsb edilən bir kəs illər keçdikdən sonra da fürsət tapdıqda haqqını almaq haqqına sahibdir. Bu səbəbdən maneələr qalxdıqda və lazımi şərtlər olduqda Həzrət Əli (ə) də haqqını özünə qaytardı.

Ağalar, əgər əvvəlki gecələrdə danışılan sözləri unutdunuzsa, zəhmət olmasa, xüsusi olaraq nəşr olunan jurnal və qəzetləri mütaliə edin. Əvvəlki gecələr isbat etdiyimiz kimi, Həzrət Əlinin (ə) xilafəti ümmətin icmasıyla olmamışdır; əksinə, Rəsulallahın (s) nəsləri, Quran ayələri və haqqın geri alınması əsasında gerçəkləşmişdir.

Siz hər iki tərəfin qəbul etdiyi bir hədis tapa bilirsinizmi ki, Rəsulallah (s): «Əbu Bəkr, Ömər və Osman mənim xəlifələrimdir», deyə buyurmuş olsun? Və ya Əməvi və Abbasi xəlifələrinin xilafətlərinə dair birinin adının zikr edildiyi bir hədis misal göstərə bilərsinizmi?

Amma bütün mötəbər kitablarınızda (şiə kitablarının təvatürüylə birlikdə) Həzrət Əlinin (ə) xilafət və vəsiliyinə dair Həzrət Peyğəmbərdən(s) çox sayda hədis mövcuddur.

Bunlardan bəzisinə əvvəlki gecələrdə toxunmuşduq; bu axşam da Ümmü-Sələmənin rəvayətini ərz etdim».

**Şeyx**: «Bizə yetişən rəvayətlər də Peyğəmbər (s): «Əbu Bəkr mənim xəlifəmdir»,-deyə buyurmuşdur».

**Dəvətçi:** «Əvvəlki gecələrdə bu hədislərin uydurma olduğunu ərz etdim. Deyəsən, unutmusuz, amma bu gecə də sizi cavabsız qoymayacağam. Şeyx Məcduddi Firuzabadi «Səfərus-Səadə>> kitabında belə deyir: «**Əbu Bəkrin fəziləti haqqındakı rəvayətlər iftira, yalan və uydurmadır ki, əql də buna şəhadət verir».**

## ƏLİNİN (Ə) XİLAFƏTİ İCMAYA DAHA YAXINDIR

Bundan əlavə, diqqət etsəniz görərsiniz ki, həm Xülafai-raşidin və həm də Əməvi və Abbasi xəlifələrinin heç birində xilafətin zahiri şərtləri mövcud olmamışdır! Bütun ümmət icma təşkil etməmiş, rəy verib seçilməmişlər. Amma Həzrət Əlinin (ə) xilafətinə baxdıqda əvvəlki və sonrakı xəlifələrin əksinə olaraq, ümmətin icmasına daha yaxındır. Çünki tarixçilərinizin də yazdıqlarına görə, Əbu Bəkrin xilafətində təkcə Ömər və qəbir qazan Əbu Ubeydə ibn Cərrahın təsiri olmuşdur. Daha sonra da Övs qabiləsi, Səd ibn Ubadəni namizəd göstərən Xəzrəc qəbiləsinə müxalif olduqlarına görə, bəziləri də hədələnərək və bir qrupu da tamah məqsədilə beyət etmişdir. Hətta bəziləri məsələn; ənsar, sonuna qədər də Səd ibn Ubadəyə bağlı qalaraq beyət etməmişdir.

Ömərin xilafəti də, təkcə Əbu Bəkrin göstərişi əsasında olmuşdur. Burada icma deyilən bir şey yoxdur, tam bir səltənətdir. Osman isə Ömərin əmrilə qurulan diktatorluq şurasının qərarıyla xilafət məqamına keçmişdir.

Amma Həzrət Əlinin (ə) xilafəti Mədinədəki xilafət sarayının qarşısına dörd bir yandan axışıb gələn ədalət tələb edən müsəlmanların böyük bir icmasıyla gerçəkləşmişdir. Onların təkidi nəticəsində Həzrət Əli (ə) zahiri xilafətə seçilmişdir».

**Nəvvab**: «Qibləsahib! Dörd bir yandan Mədinəyə gələn müsəlmanların icması xilafətin təyini üçün idi?»

**Dəvətçi**: «Xeyr, üçüncü xəlifə hələ vəzifə başında idi. Onlar xilafət məqamına yaxın olan bəni-Üməyyə dərəbəyilərinin, Mərvan və digər valilərin etdiyi çirkin işlərindən, zülmlərindən şikayət etmək üçün Mədinədə toplanmışdılar. Böyük səhabələri də əhatə edən bu cəmiyyət baş verən zülmlərdən cana doymuşdular.

Bu səbəbdən şikayət üçün xilafətin mərkəzi olan Mədinədəki xilafət sarayına gəlmişdilər.

Osmanın səhv işləri, Həzrət Əli (ə) və digər böyük səhabələrin nəsihətlərinə qulaq asmaması, sonda onun öldürülməsinə gətirib çıxartdı.

Bu səbəbdən Mədinə xalqı oraya dörd bir yandan gələn şəxsiyyətlərlə birlikdə Həzrət Əlinin (ə) evinə getdilər.

Yalvararaq, Onu məscidə gətirib, icma halında beyət etdilər. Belə bir icma əvvəlki üç xəlifə zamanında olmamışdı. Mədinə xalqı azad iradəsi və müsəlman bölgələrin görkəmli şəxsiyyətlərinin ittifaqı ilə Həzrət Əliyə (ə) beyət edərək, Onu xəlifə seçmişdilər. Amma bu cür seçim əvvəlki xəlifələrdə görülməmişdir!

Biz bu icmanı Həzrət Əlinin (ə) xilafətinə dəlil saymırıq. Çünki bizim dəlilimiz Quran və Rəsulallahın (s) hədisləridir. Bu, öz xəlifələrini Allahın əmri ilə seçən bütün peyğəmbərlərin sirətinə də uyğundur.

Bir daha siz Həzrət Əli(ə) ilə digər xəlifələr arasında heç bir fərqin olmadığını bəyan etdiniz; bilmirəm bilərəkdənmi səhvə yol verdiniz, yoxsa bilməyərəkdənmi? Çünki əqli və nəqli dəlillər və hətta icmaya əsasən Həzrət Əli (ə) ilə digər xəlifələr arasında böyük fərq vardır!

## HƏZRƏT ƏLİ (Ə) DİGƏR XƏLİFƏLƏRDƏN ÜSTÜNDÜR

Həzrət Əlini (ə) digər xəlifələrdən ayıran ilk xüsusiyyəti onların bir qrup insan, Əmirəl-mömininin isə Allah-Təala və Peyğəmbər(s) tərəfindən seçilməsidir. Şübhəsiz, Allah-Təala və Rəsulallah tərəfindən seçilən kəs xalq tərəfindən seçilənlərdən üstündür! Allah Təala və Peyğəmbər(s) tərəfindən seçilən bir xəlifənin digər xəlifələrdəən çox fərqli olduğunu hər kəs bilir.

Həzrət Əlini (ə) digər xəlifələrdən ayıran ən böyük xüsusiyyət Onun elm, fəzilət, şəraf və təqvasıdır. (Bir qrup

xarici, nasibi və bəkrilər istisna olmaqla ki, onların kimliyi hamının yanında məlumdur.) Ümmətin bütun alimlərinin ittifaqı ilə Peyğəmbərdən (s) sonra Əli (ə) ümmətin ən alimi, fəzilətlisi, şərəflisi və təqvalısıdır.

Bu mövzuda bilavasitə Əbu Bəkr və Ömərdən rəvayət edilən saysız-hesabsız rəvayətlər də mövcuddur.Əvvəlki gecələr bunları bilavasitə mötəbər kitablarınızdan rəvayət etmişdim. Quran da bunu təyid edir. İndi də gün kimi aydın həqiqətlər anlaşılsın deyə, ağlıma gələn bir rəvayəti nəql etmək istəyirəm.

Əhməd ibn Hənbəl "Müsnəd"də, Müvəffəq ibn Xarəzmi «Mənaqib»də, Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba"da, Hafiz Əbu Bəkr Beyhəqi «Sünən"də və digərləri təkrar surətdə fərqli təbirlərlə Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər: **«Əli sizin ən aliminiz, fəzilətliniz və ən yaxşı hökm verəninizdir. Onu (hökmünü, sözünü və nəzərini) rədd edən məni rədd etmiş kimidir; məni rədd edən isə Allah rədd etmiş kimidir; bu da, Allaha şirk qoşmaq həddindədir»**.

Böyük alimlərinizdən Ibn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabında belə yazır: «Həzrət Əlinin (ə) ən fəzilətli olması hələ qədimdən bəri söylənilən bir sözdür. Əshab və tabeindən bir çoxu bu inancdadır. Bağdad şeyxləri də bu mənanı təsdiq etmişlər».

(Söz bura çatanda işa namazının azanı oxundu. Ağalar namaza qalxdılar. Çay süfrəsindən sonra söhbətə davam etdim.)

## İMAM ƏLİNİN (Ə) KAMAL VƏ FƏZİLƏTLƏRİ

**Dəvətçi:** «Ağalar, siz namaz qılarkən mən düşünürdüm. Sonda bir mövzunu xatırladım. Əvvəlcə sual şəklində soruşub nəzərinizi bilmək istəyirəm. Sizə görə, insana birincilik haqqını verən insani şərafət və dəyərlər nədən ibarətdir?

**Şeyx:** (Bir az susduqdan sonra) «Əlbəttə, şərafət və fəzilət yolları çoxdur. Allah-Təalaya və Rəsuluna imandan sonra birinci dərəcədə sayıla biləcək kamal və fəzilətlər bu üç şeydir: 1. Soy və nəsəb təmizliyi; 2. Elm və savad; 3. Təqva».

**Dəvətçi:** «Allah-Təala sizə gözəl mükafat versin. Biz də, sizin fəzilət və kamallarla əlaqəli seçdiyiniz bu xüsusiyyətlər əsasında mövzunu incələyib, izah etməyə çalışacağıq. Əlbəttə, xəlifə və ya digər səhabələrin hamısı da bir qrup xüsusiyyətlərə sahib idilər. Ancaq əqli və nəqli qaydalara uyğun olaraq bütün bu xüsusiyyətlərin hamısına sahib olanlar digərlərindən əvvəl olma haqqına sahibdirlər.

Əgər üç xüsusiyyətdə Həzrət Əlinin(ə) qabaqcıllıq və səadət bayraqdarı olduğunu isbat etsək, siz də, Rəsulallahdan (s) nəql olunmuş rəvayətlər əsasında Həzrət Əlinin (ə) xilafət məqamına daha layiq olduğunu, sadəcə siyasi oyunlarla xilafət məqamından uzaqlaşdırıldığı və (İbn Əbil-Hədidin «Nəhcül-

bəlağənin şərhi>>> kitabının 1-ci cildinin 46-cı səhifəsində bəyan etdiyi kimi) bunun, siyasi oyunlar çərçivəsində məsləhət olaraq adlandırıldığını təsdiq edəcəksiniz.

## HƏZRƏT ƏLİNİN (Ə) NƏSƏB VƏ SOYUNUN TƏMİZLİYİ

Əvvəla; nəsəb və soy baxımından Peyğəmbərdən (s) sonra heç kim Həzrət Əlinin (ə) şərafətinə yetişə bilməz. İmamın əsil nəcabətinin təmizliyi bütün ağıl sahibləri, hətta Əlauddin mövla Əli ibn Məhəmməd ibn Quşçi, Əbu Osman Əmr ibn Bəhr Cahiz Nasibi və Səduddin Məsud ibn Ömər Təftazanı kimi təəssüb əsiri olan alimləriniz tərəfindən belə qəbul olunmuşdur. Sadaladığım alimləriniz bu haqda belə demişlər: «Biz, Həzrət Əlinin (ə) «**Heç kim biz Əhli beytlə müqayisə edilə bilməz»** sözü qarşısında heyran qalmışıq».

Həmçinin, Həzrət Əli(ə) zahiri xilafət məqamına yetişdikdən sonra belə buyurur: **«Bu ümmətdən heç kim Muhəmmədin Əhli beyti ilə müqayisə edilə bilməz; elmlərindən yararlandıqları kimsələr, heç şübhəsiz, onlarla bərabər ola bilməz. Onlar (Əhli beyt) dinin əsası, yəqinin dirəyidirlər. İrəli gedərək haqq yoldan çıxanlar onlara dönər; geri qalanlar isə onlara qatılar.Vilayət məqamının xüsusiyyətləri onlara məxsusdur. Vəsiyyət və vərasət də (Rəsulallahın onların haqqındakı vəsiyyəti və o Həzrətdən**

**miras almaları da) onlarda sabitdir. Haqq indi əhlinə döndü və intiqal lazım etməsi yerinə intiqal olundu"[8]**

Həzrət Əlinin(ə) bu sözləri özünün və Əhli-beytin(ə) xilafətə daha layiq və qabaqcıl olduğunu göstərir.

Təkcə Həzrət Əli (ə) deyil, müxalifləri belə bunu təsdiq etmişlər. Mirseyid Əli Həmədani "Məvəddətül-qurba" nın 7ci məvəddəsində Əbu Vaildən nəql edərək Abdullah ibn Ömərin belə dediyini rəvayət edir: " Biz Peyğəmbərin (s) əshabını sayarkən Əbu Bəkr, Ömər və Osmanı sadaladıq. Bir nəfər " Əlinin adını niyə çəkmirsiniz- deyə soruşdu. Mən cavabında belə dedim: " Əli Əhli-beytdəndir, heç kim Onunla müqayisə edilə bilməz; O Rəsulullahla birlikdədir və Onun dərəcəsindədir.".

Həmçinin Əhməd ibn Məhəmməd Kərəzi Bağdadi belə rəvayət edir: " Abdullah ibn Hənbəlinin belə dediyini eşitdim: " Atam, Əhməd ibn Hənbəldən(Hənbəlilərin imamı) əshabın fəzilətini soruşdum. O, Əbu Bəkr, Ömər və Osmanın adını çəkdi. Mən Əli ibn Əbu Talibi soruşduqda belə dedi : " O Əhli-beytdəndir; bunlar onunla müqayisə edilə bilməz. "

Bundan da maraqlı olanı, Həzrət Əlinin(ə) nurani və cismani iki xüsusiyyətinin olmasıdır. Həzrət Əli (ə) bu baxımdan

[8] " Nəhcül-bəlağə " xütbə 2

Peyğəmbərdən (s) sonra şəxsiyyətdə münhəsirdir. (Yalnız bir adama həsr edilmiş)

## ƏLİNİN(Ə) NURANİ XİLQƏTİ VƏ PEYĞƏMBƏRLƏ (S) ORTAQLIĞI

Yaradılışın həqiqət anlamı və nuraniyyəti baxımından Həzrət Əli (ə) digərlərindən daha üstün və birincidir. Bu səbəbdən Əhməd ibn Hənbəl dəyərli kitabı "Müsnəd" də, Şafei fəqihi Mirseyid Əli Həmədani " Məvəddətül qurba"da, İbn Məğazeli Şafei " Mənaqib "də və Məhəmməd ibn Təlhə Şafei "mətalibus-sual fi mənaqibi Ali-Rəsul" da Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: " **Mən və Əli Adəm yaradılmazdan 14 min il əvvəl Allahın qüdrətinin ixtiyarında bir nur idik. Allah-Təala Adəmi yaratdıqda bu nuru onun sülbündə qərar verdi. Əbdül-Mütəllibə qədər yalnız bir nur idik. Əbdül-Mütəllibin sülbünə gəldikdə məndə nübuvvəti, Əlidə isə xilafəti qərar verdi».**

Şafei fəqihi Mirseyid Əli Həmədani «Məvəddətül-qurba»nın 8 ci Məvəddəsini bu ibarələrlə zikr olunmuş mövzuya həsr etmişdir: «8 ci məvəddə Rəsulallah ilə Əlinin bir nurdan olduğu və Əliyə verilən xüsusiyyətlərin insanlardan heç kimə verilmədiyi xüsusundadır»

Bu məvəddədə nəql etmiş olduğu rəvayətlərdən birində İbn Məğazeli Şafei də rəvayət edir: «II xəlifə Osman ibn Əffan Rəsulallahın (s) belə buyruğunu rəvayət edir: **«Mən və Əli Adəm yaradılmamışdan 14 min il əvvəl bir nur idik. Allah-**

**Təala Adəmi yaratdıqda bu nuru Onun sülbündə qərar verdi. Əbdül-Mütəllibə qədər bir nur idik. Əbdül-Mütəllibin sülbünə yetişdikdə məndə nübuvvəti, Əlidə isə xilafəti qərar verdi»**.

Bir başqa hədisdə isə Peyğəmbərin (s) bu sözlərdən sonra Həzrət Əliyə xitabən belə buyurduğu nəql edilmişdir: **«Ya Əli! Nübuvvət və risalət məndədir: vəsilik və imamət isə səndə>>**.

Bu rəvayəti İbn Əbil-Hədid də «Nəhcül-bəlağənin şərhi» (Misir çapı) kitabının 2-ci cildinin 450-ci səhifəsində «Firdovs» kitabının müəllifindən rəvayət edir. Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül məvəddə»nin 1-ci babında, « Cəmul-fəvaid»-dən, İbn Məğazəli Şafeinin «Fəzail»-indən, Deyləminin «Firdovs» kitabından, Həmvinin «Fəraidus-simteyn»-dən, Xarəzminin «Mənaqib»indən cüzi fərqliliklə Peyğəmbərlə(s) Əlinin(ə) nurani yaradılışlarının varlıqların yaradılmasından minlərlə il əvvəl həqiqiləşdiyini nəql edir. Bu rəvayətə görə hər ikisi Əbdül-Mütəllibin sülbünə qədər bir nur olub. Ayrıldıqdan sonra yarısı Abdullahın sülbünə keçərək Həzrət Peyğəmbər (s), digər yarısı isə Əbu Talibin sülbünə keçərək Həzrət Əli (ə) vücuda gəlir. Həzrət Peyğəmbər (s) nübuvvət və risalət üçün, Həzrət Əli (ə) isə imamət, xilafət və vəsilik üçün seçilir. Bu səbəbdən nəql edilmiş olan hədislərdə də Rəsulallah (s) bunu bilavasitə buyurmuşdur.

Əbül-Müəyyəd Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»in 14 cü, «Məqtəlul-hüseyn»in isə 4-cü fəslində, Səbt ibn Covzi «Təzkirə»nin 28-ci səhifəsində, İbn Səbbağ Maliki «Fusulul mühimmə"də, Məhəmməd ibn Yusif Gənci

Şafei isə «Kifayəut talib»in 87-ci babında sənədi ilə 5 hədisi Şam Mühəddisi ilə Iraq Mühəddisindən, həmçinin «Möcəmi-Təbərani»dən öz sənədlərilə nəql edir ki, Peyğəmbəri-əkrəm (s) belə buyurmuşdur: **«Mən və Əli bir nurdan yaradıldıq; birlikdəydik. Əbdul-Mütəllibin sülbündə ayrıldıq».**

Bu rəvayətlərin uca mənalı və faydalı olmasına baxmayaraq, çox uzun olduğuna görə, hamısını zikr etməkdən çəkinirəm (İstəyənlər adları çəkilan kitablara müraciət etsinlər).

Sözü gedən hədisin ibarə və ləfz fərqlilikləri Peyğəmbərin (s) bir məclisdə buyurub ravilərin fərqli nəql etmələrindən deyil, fərqli məkanlarda fərqli təbirlərlə bəyan etməsindən ola bilər. Bu, rəvayətin özündən daha yaxşı anlaşılır.

## HƏZRƏT ƏLİNİN (Ə) ŞƏCƏRƏSİ

Əsil-nəcabət baxımdan da Həzrət Əli (ə) həm ana, həm də ata tərəfindən böyük bir şərafətə sahibdir. Bu da Onun məxsus fəzilətlərindən biridir. Həzrət Əlinin (ə) əcdadı, digərlərinin əksinə olaraq, Həzrət Adəmə qədər hamısı müvəhhid və tövhid əhli olmuşdur. Bu təmiz sülb, heç bir kirli rəhimdə yer almamışdır. Bu böyük iftixar, əshabdan heç birinə nəsib olmamışdır. Həzrət Əlinin (ə) şəcərəsi belədir:

1-Əbu Talib (ə) Əbdül-Mütəllib oğlu,

2-Əbdül-Mütəllib Haşim oğlu

3-Haşim Əbdül-Manaf oğlu

4-Əbdül-Manaf Qəsa oğlu

5-Qəsa Kilab oğlu

6-Kilab Mərrə oğlu

7-Mərrə Kəb oğlu

8-Kəb Luvey oğlu

9-Luvey Ğalib oğlu

10-Ğalib Fəhr oğlu

11-Fəhr Malik oğlu

12-Malik Nəzr oğlu

13-Nəzr Kənanə oğlu

14-Kənanə Xuzeymə oğlu

15-Xuzeymə Mudrikə oğlu

16-Mudrikə İlyas oğlu

17-Ilyas Muzir oğlu

18-Muzir Nizar oğlu

19-Nizar Məd oğlu

20-Məd Ədnan oğlu

21-Ədnan Ud oğlu

22-Ud Ədəd oğlu

23-Əded Yəs oğlu

24-Yəs Həmis oğlu

25-Həmis Bənət oğlu

26-Bənət Səlaman oğlu

27-Salaman Həməl oğlu

28-Həmal Qəyuar oğlu

29-Qəyuar İsmayıl (ə) oğlu

30-Ismayil (ə) Ibrahim (ə) oğlu

31-İbrahim (ə) Tarix oğlu

32-Tarix Tahur oğlu

33-Tahur Şaru oğlu

34- Şaru Əbrəcu oğlu

35-Əbrəcu Taliğ oğlu

36-Taliğ Abir oğlu

37-Abir Şalih oğlu

38-Şalih Ərfəxşəz oğlu

39-Ərfəxşəz Sam oğlu

40-Sam Nuh (ə) oğlu

41-Nuh () Ləmək oğlu

42-Ləmək Mətvşəlx oğlu

43-Mətvşəlx Əxnux oğlu

44-Əxnux Yarid oğlu

45-Yarid Məhlail oğlu

46-Məhlail Qəynan oğlu

47- Qəynan Ənvəş oğlu

48- Ənvəş Şeys(ə) oğlu

49-Şeys Adəm(ə) oğlu

50- Adəm(ə) (bəşər atası)

**Şeyx**: "Həzrət Əlinin(ə) Əbül-bəşər Adəmə qədər nəslinin müvəhhid olduğunu söyləməklə xəta edirsiniz; biz zahirə görə hökm vermək məcburiyyətindəyik. Çünki İbrahimin (ə) atası Azər Qurani-Kərimin açıq-aydın bəyanı üzrə bütpərəst idi. **"( Ey Rəsulum) Xatırla ki, bir zaman İbrahimin atası Azərə demişdi:**

**" Sən bütləri tanrılarmı qəbul edirsən?! Mən səni və sənin tayfanı açıq-aydın zəlalət içində görürəm!"[9]**

## İBRAHİMİN(Ə) ATASININ AZƏR OLDUĞUNA DAİR İRAD VƏ ONUN CAVABLANDIRILMASI

**Dəvətçi:** "Bu diqqətsiz və düşüncəsiz bəyanınız keçmişlərinizin təqlidindən başqa bir şey deyildir!

Sizin atalarınız da səhabənin küfr və şirkə bulaşmış soyunu hər bir tərəfdən təmiz göstərmək və ata-anasının müşrik olmasının insan üçün bir eyib olmadığını bildirmək üçün böyük Peyğəmbərin(s) əcdadında da bir müşrikin olduğunu iddia etmiş, beləcə öz atalarını və böyüklərini bu nöqsanlıqdan pak etməyə çalışmışlar.

Həqiqətən, təəssüfedici haldır; savadlı insanların bu cür qəsdli davranışları yalnız inad, boş yerə çırpınma və öz ata-babalarına məhəbbətdən başqa bir şeylə izah edilə bilməz! Siz də adət üzrə onların sözünə uymuş, belə bir toplantıda da onların söylədiklərini təkrarlayırsınız. Halbuki, soy bilicilərinin ittifaq etmiş olduğu kimi, Həzrət İbrahimin atası Azər deyil Tarixdir. "

**Şeyx** : " Siz nəss qarşısında ictihadla əməl edirsiniz. Soy bilicilərinin nəzərlərini Qurana qarşı olmasına baxmayaraq, zikr

---

[9] Ənam, 74

edirsiniz. Halbuki Quran, Həzrət İbrahimin atasının bütpərəst Azər olduğunu bəyan edir. "

**Dəvətçi** : " Biz əsla nəss qarşısında ictihada bağlanmarıq; çünki sadəcə Quran həqiqətlərini öyrənməyə çalışırıq. Qurani-kərimin bərabəri olan Əhli-beytin (ə) yol göstəriciliyi sayəsində, bu ayənin ürfdəki məşhur bir qayda üzrə olduğunu anlayarıq. Çünki ürfdə də əmi və ögey ata "ata" olaraq adlandırılır.

Azər haqqında iki nəzər vardır: birinci nəzərə görə, Azər İbrahimin(ə) əmisidir. Digər nəzərə görə isə, əmisi olduğu halda Həzrət İbrahimin atası Tarix öldükdən sonra anası ilə evlənmişdir. Bu iki baxımdan Həzrət İbrahim ona: " ata " - deyə xitab edirdi. Yəni həm əmisi, həm də ögey atası olduğu üçün onu " ata" adlandırırdı.

**Şeyx** : " Biz Qurani-kərimdən bir dəlil olmadıqda, Quranın zahirindən əl çəkə bilmərik. Yəni Qurandan, onun İbrahimin əmisi və ya ögey atası olduğu isbat edilmədikcə( qətiyyətlə isbat edə bilməzsiniz) dəliliniz kifayət deyil və qəbul edilə bilməz. "

**Dəvətçi**: " Bu qədər qəti və əmin danışmayın ki, dəlil gətirildikdə təəccüb etməyəsiniz.

Quranın bir qrup ayələri ürf qaydaları üzrə bəyan edilmişdir. Məsələn: Həzrət Yaqub(ə) uşaqlarına belə buyurur: **" Yaqubun ölümü yetişən zaman siz onun yanında idinizmi?! O: " Məndən sonra nəyə ibadət edəcəksiniz?"- deyə oğlanlarından soruşduğu zaman dedilər: " Sənin Allahın və**

**ataların - İbrahim,  İsmayıl və İshaqın Allahı olan tək Allaha ibadət edəcəyik. "**[10]

Bu ayədəki qəsd edilən şahid " Ismayıl " kəlməsidir. Çünki Qurani-kərimin bildirdiyi kimi , Həzrət Yaqubun atası İshaqdır; İsmayıl isə Yaqubun atası deyil,  əmisidir. Amma Quran ürf qaydası üzrə əmiyə "ata"- deyə xitab etmişdir.

Yaqubun oğlanları ürfən əmini "ata" çağırırdılar. Bu səbəbdən verdikləri cavabda da əmini ata saymışlar. Daha doğrusu, Quran da bu sual və cavabı eynən zikr etmişdir. Bax, bu qayda əsasında Həzrət İbrahim də əmisini və ögey atasını "ata" olaraq çağırmışdır. Tarixə və soy bilicilərinin nəzərinə görə, Həzrət İbrahimin atası Azər deyil Tarixdir.

## HƏZRƏT PEYĞƏMBƏRIN(S) ANA-ATALARI MÜŞRİK YOX, ALLAHA İNANAN MÜVƏHHİDLƏR İDİ

Xatəmül-ənbiyanın (s) əcdadının müşrik və kafir olmadığının bir digər dəlili isə bu ayədir: **" Səcdə edənlər arasında dolanan da [görür]. "**[11] Şeyx Süleyman Bəlxi Hənəfi " Yənabiül-məvəddə" kitabının 2ci babında və digər alimləriniz Quran müfəssiri ibn Abbasdan bu ayənin təfsiri mövzusunda belə rəvayət etmişlər: " Allah-təala Həzrət Peyğəmbəri(s)

[10] Bəqərə, 133

[11] Şüəra, 219

Həzrət Adəmdən(ə) atası Abdullaha qədər müvəhhidlərin sülbündə bir peyğəmbərdən digər bir peyğəmbərə ötürdüyünü, zina deyil, şəri bir nigahla atasının sülbündə qərar vermişdir. "

Bir başqa dəlil də bütün alimlərinizin, hətta hədis əhlinin imamı olan imam Sələbinin də öz "Təfsir" ində rəvayət etmiş olduğu məhşur hədisdir. Süleyman Bəlxi Hənəfi " Yənabiül-məvəddə" kitabının 2ci babında ibn Abbasdan belə rəvayət etmişdir ki, Peyğəmbər (s) buyurub : **" Allah-təala məni Adəmin sülbündə yer üzünə endirdi, Nuhun sülbündə gəmidə qərar verdi, sonrada İbrahimin sülbünə keçirtdi. Beləcə məni kərim sülblərdən təmiz rəhimlərə intiqal etdi. Son olaraq da, zinaya yol verməyən ana-atamdan dünyaya gətirdi. "**

Başqa bir rəvayətdə isə belə buyurur: **"Allah-təala, əsla, məni cahiliyyət çirkinliklərinə bulaşdırmamışdır. "**

Eyni babda ibn Səlah Hələbi adı ilə məşhur olan Şeyx Səlahüddin ibn Zeynuddin ibn Əhmədin " Əbkarul-əfkar" kitabından və Şeyx Əbdül-Qadir " Şərhi-Kibriti-Əhmər" kitabından nəql edərək Əlaud-dövlə Sumnanidən təfərrüatı ilə bir hədis rəvayət edir ki, Cabir ibn Abdullah Həzrət Peyğəmbərdən (s) : " Allahın ilk yaratdığı şey nədir?" - deyə soruşduqda, Rəsulullah (s) uzun bir cavab vermişdir. Amma məclisin vaxtı az olduğundan yalnız hədisin sonunda yer alan bu cümləni qeyd edirəm: **" Allah-təala mənim nurumu təmizdən təmizə, tahirdən tahirə ötürdü və ən sonda atam Abdullah ibn Əbdül-Müttəlibin sülbündə yerləşdirdi və oradan da anam Aminənin rəhninə ötürdü. Oradan da məni**

**dünyaya gətirərək, elçilərin ağası və nəbilərin sonuncusu etdi. "**

Həzrət Peyğəmbərin(s) " Mənim nurumu təmizdən təmizə, tahirdən tahirə ötürdü " sözündən də anlaşıldığı kimi, o Həzrətin əcdadı, əsla, kafir və müşrik olmamışdır. Daha doğrusu, Peyğəmbərin (s) soyunun hamısı təmiz sülblərdən təmiz rəhimlərə ötürülmüş və nəcis olan müşriklərə, əsla, bulaşmamışdır.

Həmçinin, «Yənabi»nin 2-ci babında «Kəbir»dən nəql edərək İbn Abbasın Peyğəmbərdən (s) belə buyurduğu rəvayət edilir: **«Mən, əsla, cahiliyyət zinasıyla vücuda gəlmədim. Mən, İslamdakı kimi şəri bir nigahla dünyaya gəldim».**

«Nəhcül-bəlağə»nin 105-ci xütbəsini oxumamısınızmı? Həzrət Əli (ə) Rəsulallahın (s) əcdadı haqqında belə buyurur: **«Allah Təala, peyğəmbərləri ən üstün əmanət yerlərinə əmanət etmiş ki, o da atalarının sülbüdür və ən xeyirli qərar yerlərində qərarlaşdırmışdır ki, o da analarının pak rəhmləridir. Onlardan hər gəlib keçənin yerinə, dinini qoruyub-saxlamaq üçün, xələflər gətirmişdir. Sonda şəni uca olan Allahın lütfü Məhəmmədə yetişdi. Onu ən uca qaynaqdan, ən dəyərli rəhimdən, ənbiyasını aşkara çıxardığı və əminlərini seçdiyi ağacdan çıxartmışdır».**

Əgər sizlərə bu cür dəlillər gətirməyə davam etsəm, məclisin bütün vaxtını almış olaram. Hesab edirəm, xüsusilə, sizin kimi insaflı ağalar üçün bu qədər yetər. Bilin ki,

Peyğəmbərin (s) soyu və əcdadı Həzrət Adəmə qədər hamısı mömin və müvəhhid kəslərdir. Şübhəsiz, Əhli-beyt, beytdə (evdə) olanı digərlərindən daha yaxşı bilir. Risalət xanədanı və təharət beytinin əhli də başqalarına nisbətən atalarını daha yaxşı tanıyır.

Peyğəmbərin (s) əcdadının hamısının mömin və müvəhhid olduğu isbat edildikdə, Əlinin (ə) əcdadının da mömin və müvəhhid olduğu özü-özlüyündə isbat olur. Çünki şiə də mütəvatir olmaqla birlikdə, bilavasitə alimlərinizin də rəvayət etdiyi rəvayətlərə əsasən Həzrət Peyğəmbərlə (s) Əli (ə) bir nur idilər. Əbdül-Mütəllibə qədər təmiz və pak bir sülbdə olmuş, orada bir-birlərindən ayrılmışlar.

Nuraniyyət və cismaniyyət aləmində də daim birlikdə idilər. Peyğəmbər (s) harada olmuşsa, Əli (ə) də orada olmuşdur. (Daha doğrusu, bela nurlu bir soya sahib, Rəsulallaha (s) ən yaxın və təmiz bir insanın xilafət məqamına hər kəsdən daha üstün və müstəhəq olduğu ağlın da hökm etdiyi bir həqiqətdir)".

**Şeyx:** «Azər və Tarix haqqında rəvayət etdiyiniz tarixi həqiqətlər işığında Peyğəmbərin (s) əcdadının təmizliyini isbat etsəniz də, bu həqiqət Həzrət Əliyə (ə) şamil olmur. Əbdül-Mütəllibə qədər müvəhhid olduqlarını söyləsək belə, Həzrət Əlinin atası Əbu Talib haqqında bunu söyləmək mümkün deyil. Çünki Əbu Talib küfrlə dünyadan köçmüşdür!"

## ƏBU TALİB(R.Ə)-IN İMANI HAQQINDA İXTİLAF

**Dəvətçi:** «Bunu qəbul edirik ki, ümmət arasında Əbu Talib (r.ə) haqqında ixtilaf yaratmışlar. Belə deməyimiz lazımdır: Allahım, Muhəmməd və Ali-Muhəmmədin haqqına ilk zülm edənə lənət et. İmam Əliyə (ə) söyüş, təhqir və lənət yolunu açan və o Həzrətə əziyyət etmək üçün hədis uyduranlara Allah lənət etsin! Bütün bunlar bu cür mövzulara səbəb olmuşdur. Həzrət Əliyə (ə) xüsusi kini olan nasibilər, xaricilər və atalarına uyan bəzi düşüncəsiz və mütəəssib alimləriniz bu əsas üzrə Əbu Talibin (r.ə) imansız dünyadan köçdüyünü iddia etmişlər.

Sözləri sənəd, icmaları höccət və Qurani-kərimin bərabəri olan Əhli-beyt (ə) imamları, şiə alimləri va Ibn Əbil-hədid, Cəlaləddin Siyyuti, Əbülqasim Bəlxi, Əbu Cəfər Isqafi və onların mötəzilədən olan ustadları, Şafei fəqihi Mirseyid Əli Həmadani və digər bir çox insaflı alimləriniz də ittifaqla Əbu Talibin (r.ə) İslamı qəbul etdiyini və iman əhli olduğunu təsdiq etmişlər.

## ŞİƏNİN ƏBU TALİBİN (R.Ə) İMANINA DAİR İCMASI

Şiəyə görə Əbu Talib (r.ə) ilk mərhələdə Peyğəmbərə (s) iman gətirmişdir. Hamısından da əhəmiyyətlisi budur ki, Əbu Talibin (r.ə) imanı Haşim övladlarından-qardaşları Həmzə və Abbas kimi küfrdən sonra deyil, fitrəti ilə olmuşdur. Şiə cəmiyyəti Əhli-beytə tabe olaraq Əbu Talibin (r.ə) əsla bütə tapınmadığı, hətta Həzrət İbrahimin (ə) vəsilərindən olduğu qənaatindədir. Böyük alimlərinizin mötəbər kitablarında da buna çox sayda işarə edilmişdir. Məsələn: İbn Əsir «Cəmiul-

üsul»da belə deyir: «Əhli-beyt (ə) nəzərincə, Peyğəmbərin (s) əmilərindən Həmzə, Abbas və Əbu Talibdən başqa İslamı qəbul edən olmadı».

Şübhəsiz, Əhli-beytin (a) icması hər müsəlman üçün höccətdir!Çünki Əhli-beyt (ə) Qurani-kərim bərabəri və biz müsəlmanların azmaması üçün bağlanması zəruri olan iki ağır əmanətdən biridir. «Səqəleyn» hədisi ilə əvvəlki gecələr ərz etmiş olduğum - iki firqənin də (şiə-sünni) ittifaq etdiyi hədislərə əsasan Peyğəmbər (s) Əhli-beyti bizlərə tövsiyyə etmişdir.

«Ev əhli evdə olanı daha yaxşı bilir» qaydasına uyğun olaraq, təqva abidəsi olan o uca ailə öz ata-baba, əcdad və əmilərinin küfr və ya iman gətirdiyini, Muğeyrə ibn Şöbə, bəni-Üməyyə, xaricilər, nasibilər və cahillərdən daha yaxşı bilir!

Bütün Əhli-beytin (ə), xüsusilə öz hədislərinizdə də bildirildiyi kimi, Allah-Təalanın və rəsulu Muhəmmədin (s) doğruluğuna şəhadət etdiyi Həzrət Əli (ə) kimi bir insanın Əbu Talibin (r.ə) dünyadan mömin və müvəhhid olaraq getdiyini bildirdiyi halda bunu qəbul etməməyiniz, amma Əmirəl-möminin düşməni olan fasiq və facir Muğeyrə ilə bir ovuc Əməvi, xarici və nasibilərin sözlərinə inanaraq. bu xüsusda israr və inad etməyiniz, həqiqətən, çox təəccübləndiricidir!

Böyük alimlərinizdən İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi>> kitabının 3-cü cildinin 310-cu səhifəsində belə deyir: «Əbu Talibin (r.ə) İslamı ixtilaflıdır. Amma şiə cəmiyyəti və

Zeydiyyənin çoxu onun müsəlman olaraq dünyadan köçdüyünü açıq şəkildə bəyan etmişlər. Şiə üləmasının icmasından başqa Şeyx Əbülqasim Bəlxi, Əbu Cəfər İsqafi və bu kimi böyük alimlərimiz də Əbu Talibin (r.ə) iman etdiyi qənaətindədirlər. İman gətirməsini gizlətməsinin səbəbi isə, Peyğəmbər (s) kömək edə bilmək və müxaliflərin onun məqamını nəzərə alaraq Həzrət Rəsuli-Əkrəmə əziyyət verməmələri üçun idi».

## "ZİHZAH HƏDİSİ" VƏ ONUN CAVABI

**Şeyx**: «Siz «Zihzah» (dibi dərin olmayan az su) hədisini eşitməmisinizmi ki, belə buyurur: **«Əbu Talib atəşdən olan zihzahdadır».**

**Dəvətçi:** «Bu hədis də digər uydurma hədislər kimi uydurulmadır! Təəssüflər olsun ki, bəzi Əhli-beyt (ə) düşmənləri, Əməvilər, xüsusilə də nifaq silsiləsinin mənbəyi olan məlun Müaviyə bu küfr və nifaq dolu hədisi uydurmuşdur. Daha sonra da Üməyyə övladları və tərəfdarları, Əliyə (ə) düşmənçilik olsun deyə, bu uydurma hədisləri yaymış, məşhur etmiş, Əbu Talibin (r.ə) də Abbas və Həmzə kimi iman əhli olduğunu xalqdan gizlətmişlər.

## <<ZİHZAH HƏDİSİ»NİN UYDURULMASI HAQDA

Hər şeydən daha maraqlı dəlil də budur ki, «Zihzah hədisi»ni uyduran Həzrət Əlinin (ə) ən böyük düşməni olan

fasiq Muğeyrə ibn Şöbədir. İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildinin 159-163-cü səhifəsinə qədər, Məsudi «Mürucuz-zəhəb»də və başqaları da öz kitablarında belə yazmışlar: «Muğeyrə Bəsrədə zina etdi. Şahidlər gəlib Ömərin yanında şəhadət vermək istədilər. Üç nəfər şəhadət etdi. Lakin dördüncü şahid edilən təkid və təhdidlərə görə şəhadət verməkdən boyun qaçırtdı. Şəhadət vermiş həmin üç nəfərə (guya, yalandan şahidlik etdikləri üçün) hədd təyin olundu. Beləcə, Muğeyrə də xilas oldu».

Bu zinakar, şərabxor və fasiq insan Əbu Süfyan oğlu Müaviyənin ən yaxın dostu idi. Həzrət Əliyə düşmənçiliyi səbəbindən bu hədisi uydurdu: Haviyə əhli Müaviyə, əməvilər və digər tərəfdarları da bu uydurma hədisi gücləndirib yaymağa çalışdılar.

Bu hədisin ravilərindən olan Əbdül-Məlik ibn Umeyr, Əbdül Əziz Ravərdi, Süfyan Suri və başqaları, bilavasitə böyük alimləriniz tərəfindən rədd edilmişlər. Məsələn: Zəhəbi «Mizanul-etidal>> kitabının 2-ci cildində onların etibarlı olmadıqlarını yazmışdır. Xüsusilə də, Süfyan Surinin iftiraçı və yalançılardan olduğunu açıq şəkildə bəyan etmişdir. Belə iftiraçı, yalançı və fasiq insanların sözünə necə etimad göstərirsiniz?!

## ƏBU TALİBİN (R.Ə) İMANINA DAİR DƏLİLLƏR

Şübhəsiz, Əbu Talibin (r.ə) iman gətirmiş olduğu xüsusunda inkar edilə bilinməyəcək bir çox dəlil vardır, bu açıq dəlilləri, inadkar və təəssübkeş insanlardan başqa heç kim inkar etməz. Məsələn:

1.(Peyğəmbəri-Əkrəm (s) barmaqlarını birləşdirərək belə buyurmuşdur:) **«Mən və yetimə himayə edən (Əbu Talib) bu iki barmağım kimi, Cənnətdə birlikdə olacağıq».**

İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 4-cü cildinin 312-ci səhifəsində bu hədisi rəvayət etmişdir. Əlbəttə, Rəsuli-Əkrəmin (s) burada «yetimə himayə edən»dən məqsədi, bütün yetimlərə himayə edənlər deyildir. Çünki bir çox fasiq, dinsiz və atəş əhli olan kəslər yetimə himayə edirlər. Bu halda Peyğəmbərin (s) məqsədi, Əbu Talib (r.ə) və babası Əbdül-Mütəllibdir. Çünki onlar Rəsuli-Əkrəmi (s) himayə etmişlər. Peyğəmbər, xüsusilə də, Məkkədə «Əbu Talibin yetimi» kimi tanınırdı. Əbdül-Mütəllib vəfat etdikdən sonra, yəni 8 yaşından etibarən Rəsulallahın (s) öhdəçilik və himayədarlığını öz üzərinə Əbu Talib götürmüşdü».

2.Şiə və sünni firqələrinin müxtəlif yollarla rəvayət etdiyi bir hədisə görə də Peyğəmbər (s) belə buyurmuşdur: **«Cəbrayıl nazil olaraq, məni bu kəlmələrlə müjdələdi: «Şübhəsiz ki,**

**Allah-Təala səni inzal[12] edən sülbə, daşıyan qarına, süd verən döşə və səni himayə edən qucağa atəşi haram etmişdir».**

Mirseyid Əli Həmədani «Məvəddətül-qurba», Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» və Qazi Şovkani «hədisi-qüdsi>> kitabında Rəsulallahın (s) belə buyurduğunu rəvayət edir: **«Cəbrayıl nazil olaraq, belə dedi: «Allah-Təala sənə salam göndərir və belə deyir: «Mən atəşi, səni inzal edən sülbə, səni daşıyan qarına və səni bəsləyən qucağa haram etdim».**

(«İnzal edən sülb»dən məqsəd atası Abdullah, «daşıyan qarın»dan məqsəd anası Aminə, «bəsləyən qucaq» sahibindən məqsəd isə Əbdül-Mütəllib və Əbu Talibdir.)

Bu cür rəvayətlər, Peyğəmbərin (s) həyat çətinliklərini öz öhdələrinə götürən Əbdül-Mütəllib, Əbu Talib və Fatimə binti Əsədin, həmçinin atası Abdullahın, anası Aminənin və süd anası Həlimənin imanına da dəlalət edir.

## İBN ƏBİL-HƏDİDİN ƏBU TALİBİN (R.Ə) MƏDHİNƏ YAZDIĞI ŞEİR

3. Dəlillərdən biri də, böyük alimlərinizdən olan İzzəddin Əbdul-Həmid ibn Əbil-hədid mötəzilinin Əbu Talibi mədh edərkən söylədiyi şerdir. Bu şer " Nəhcül-bəlağənin Nəhcül-

---

[12] Endirən

bəlağənin şərhi" kitabının 3cü cildinin 318 ci (Misr çapı) səhifəsində və digər kitablarda belə qeyd edilmişdir :

Əbu Talib və oğlu ( Əli ) olmasaydı,

Dinin bir əlaməti olmazdı.

Əbu Talib Məkkədə onu tapdı və qorudu,

Nübuvvət mələkutini təcəssüslə

Əli Mədinədə ələ aldı.

Əbu Talib Əbdül-Müttəlibin əmrilə,

Peyğəmbəri himayə edib, xidmətlərini davam etdirdi.

Əli isə o xidmətləri tamamladı.

Əbu Talib öldükdən sonra ona təəssüflənmə;

Çünki öz gözəl iyini (Əlini) əmanət qoydu.

Əbu Talib Allah rızası üçün Onun dininə yardım etdi;

Əli də onu ucaltmaq üçün o xidmətləri sona çatdırdı.

Cahillərin cəsarəti və görənlərin korluğu,

Əbu Talibin(r.ə) məqamına zərər vermədi.

Bu səbəbdən də sabahın nişanələrinə zərər verə bilməz,

Gündüzün işığını qaranlıq zənn edən kimsə.

## ƏBU TALİBİN (R.Ə) ŞERLƏRİ ONUN İMANINI GÖSTƏRİR

4. Bilavasitə Əbu Talibin (r.ə) Peyğəmbərin (s) mədhinə oxuduğu şerlər onun imanına dəlalət edir. Bu şerin bir bölümünü İbn Əbil-Hədid "Nəhcül-bəlağənin şərhi"kitabının 3cü cildinin 316 cı səhifəsində nəql etmişdir. Bir çox böyük və dəyərli alimləriniz, məsələn; Şeyx Əbülqasim Bəlxi və Əbu Cəfər İsqafi bu şerlərin Əbu Talibin (r.ə) imanına dəlalət etdiyini qəbul etmişdir. Həqiqətən də, bu şerlərdən Əbu Talibin (r.ə) iman gətirmiş olduğu açıq-aydın şəkildə görülür. Məsələn; «Lamiyə» adlı şerlərində belə demişdir:

Hər qınayıcıdan Beytin Rəbbinə sığınıram;

Bizi batil sayan və qeybətimizi edən hər facirdən,

Və dinə bir qrup şeyləri istinad edənlərdən.

Kəbənin Rəbbinə and olsun ki, yalan söylədiniz!

Məhəmməddən uzaq olduğumuzu söyləməklə,

Onun əleyhinə qılınc çəkib savaşmağımızı ilqa etməklə.

Canımı fəda edincəyə qədər Ona yardım edəcəyəm,

Qadın və uşaqlarımızdan belə keçəcəyik.

İnsanlar Onun üzünün suyu hörmətinə yağış istəyirlər,

Çünki O, bəni-Haşim fəqirləri və yetimlərinin sığınağıdır.

Peyğəmbər onları hər cür nemətdən ehtiyacsız edir.

Canıma and olsun ki, Əhmədlə o qədər sevinc içərisindəyəm ki,

Onu aşiqin məşuqunu sevdiyi kimi sevirəm.

Butun vücudumla, Onu qorudum.

O, əbədiyyən dünya əhlinin camalıdır;

Düşmənlərin bəlası, hər məclis və cəmiyyətin ziynətidir.

Qulların Rəbbi öz yardımıyla Onu dəstəkləmişdir;

Batilin sıza bilməyəcəyi Haqq dini O zahir etmişdir.

İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildinin 312-ci səhifəsində və digərləri də öz əsərlərində Əbu Talibin imanına dəlalət edən bu məşhur qəsidəsini rəvayət edirlər:

İnsanların bizdən gözlədikiləri budur ki,

İslam əleyhinə qiyam edək.

Qılınc çəkib Muhəmmədi öldürək,

Islam dinini süqut etdirək.

Onu qorumaq yolunda qana boyanmayaq.

Allahın evinə and olsun ki, yalan deyirlər,

Zəmzəm və Hicri-İsmayıl cəsədlərlə dolsa da,

Ondan əsla əl çəkməyəcəyik!

İnsanların hidayəti üçün gələn

Peyğəmbərə qarşı savaş,  zülm oldu

Ərşin Yaradıcısı tərəfindən gətirdiyi Kitabsa dəyərlidir.

Əbu Talibin (r.ə) imanına dəlalət edən bu şeri də İbn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"kitabının 3cü cildinin 315ci səhifəsində rəvayət edir:

Ey Allah şahidləri, şahid olun ki,

Mən Əhmədin dini üzrəyəm.

Kim dindən azarsa-azsın,

Şübhəsiz, mən hidayət üzrəyəm.

Allah xatirinə, bir az insaflı olun. Açıq şəkildə, "Mən Muhəmmədin dini üzrəyəm " və "Sözündə əsla batil bir şey olmayan, haqq Peyğəmbərə yardım edəcəyəm " deyən bir insanı kafir adlandıra adlandıra bilərikmi?

**Şeyx** : " Bu şerlər iki baxımdan qəbul edilə bilməz. Əvvəla, bu şerlər mütəvatir deyildir. Ayrıca Əbu Talibin (r.ə) heç bir yerdə İslam və iman əhli olduğu, kəlimeyi-şəhadət gətirdiyi

görülməmişdir. Bunagörə də,  bir neçə şerlə müsəlman olduğuna hökm edilə bilməz. "

**Dəvətçi** : " Təvatürlə əlaqəli etirazınız olduqca qəribədir. Xətriniz istədiyi yerdə xəbəri-vahidi belə höccət qəbul edərək, onunla əməl edirsiniz. Amma , arzularınızın əksinə olarsa, o dəqiqə təvatür olmadığı fikrini irəli sürürsünüz.

Əgər bir az diqqət etsəniz görərsiniz ki, bu şerin hər biri mütəvatir olmasa da, ümumi mənası mütəvatir olaraq bir şeyə dəlalət edir ; o da Əbu Talibin (r.ə) İslama iman gətirməsi və risaləti qəbul etməsidir.

Bir çox şeylərin təvatürü də bu şəkildə ortaya çıxmışdır . Məsələn; Həzrət Əlinin(ə) düşmən üzərinə hücumları , döyüşlərdəki əzmkarlığı hamısı xəbəri-vahiddir. Amma ümumilikdə mənəvi bir təvatürü ifadə edir ki, bu da Həzrət Əlinin (ə) cəsarətli olduğunu göstərir. Həmçinin, Hatəmin comərdliyi, Nuşirəvanın ədaləti və digər şeylər də bu cür mənəvi təvatürlərdəndir.

Əgər, həqiqətən, bu qədər təvatürə maraqlısınızsa, o halda buyurun, «Zihzah>> hədisinin təvatürünü isbat edin!

## ƏBU TALİBİN ÖLÜM ANI «LƏ İLƏHƏ İLLƏLLAH>> KƏLMƏSİNİ SÖYLƏMƏSİ

Qaldı ki, ikinci etirazınızın cavabı gün kimi aydındır. Çünki tövhid və nübuvvəti qəbul etmək və həmçinin, Axirətə iman

gətirmək, sadəcə kəlmeyi-şəhadətə bağlı deyildir. Dinə yad olan bir insan Allahın vəhdaniyyətini və Peyğəmbərin (s) risalətini vurğulayan şerlər söyləyərsə, bu da kifayətdir! Əbu Talib: «Ey Allahın şahidləri! Şahid olun ki, mən Muhəmmədin dini üzrəyəm»-deyirsə, bu da kəlmeyi şəhadətin əvəzidir.

Ayrıca, ölüm anında şer şəklində deyil, nəsr şəklində də bunu etiraf etmişdir. Bu mövzu ilə əlaqədar Seyid Muhəmməd Rəsuli Bərzənci, Hafiz Əbu Nəim və Beyhəqi belə nəql edirlər: «Ölüm anında Əbu Cəhl və Abdullah ibn Əbu Üməyyə kimi Qüreyş kafirlərinin böyükləri Əbu Talibi ziyarət etdilər. Orada Peyğəmbər (s) əmisi Əbu Talibə belə buyurdu: «Lə iləhə illəllah» de ki, Allah-Təala yanında buna şahid olum».

Əbu Cəhl və İbn Əbu Üməyyə o dəqiqə araya girərək «Ey Əbu Talib! Əbdül-Mütəllibin dinindən geri dönürsən?!» dedilər. Onlar dalbadal bu sözü təkrarladılar və Əbu Talib də onlara belə dedi: «Bilin ki, Əbu Talib Əbdül-Mütəllibin dini üzrədir».

Onlar sevinərək bayıra çıxdılar. Son nəfəsində başının üstündə duran qardaşı Abbas Əbu Talibin (r.ə) dodaqlarının hərəkət etdiyini gördü. Qulağını ona yaxınlaşdırdı və Əbu Talibin «Lə iləhə illəllah» dediyini eşitdi. Abbas Rəsulallaha (s) dönərək belə dedi: «Vallah, qardaşım sənin əmr etdiyin kəlməni söylədi». Abbas hələ müsəlman olmadığı üçün kəlmeyi-şəhadəti söyləməkdən çəkindi».

Daha əvvəl də Peyğəmbərin (s) bütün əcdadının müvəhhid olduğunu isbat etmişdik. Daha doğrusu, Əbu Talibin

(r.ə) burada «Mən Əbdül-Mütəllibin dini üzrəyəm» deməsi siyasət işlətməsinə görə idi. Onlar da Əbu Talibin (r.ə) bu cavabını eşitcək, sevinərək onun yanından getdilər. Lakin Əbu Talib (r.ə) tövhidi iqrar etmişdi. Çünki Əbdül-Mütəllib də İbrahimin dini üzrə idi və müvəhhiddi. Lakin buna baxmayaraq, açıq-aydın "lə ilahə illəllah " kəlməsini də dedi.

Bir az olsa, adətlərinizdən kənara çıxaraq Əbu Talibin (r.ə) həyatına baxsanız, siz də onun iman gətirmiş olduğunu təsdiq edərsiniz.

## BESƏTİN ƏVVƏLLƏRİNDƏ PEYĞƏMBƏRİN (S) ƏBU TALİBLƏ SÖHBƏTİ

Əgər o, kafir və ya müşrik olsaydı, Peyğəmbər (s) risalətə seçildiyi gün əmisi Abbasla birlikdə Əbu Talibin yanına gedib ona " Ey əmi, Allah-Təala məni, işimi açıqlamaqla vəzifələndirdi. Məni peyğəmbər seçdi. Mənə necə yardım edəcəksən?" və ya "Mənə qarşı necə davranacaqsan? " - deyə buyurduqda, Qureyşin böyüyü, itaət edilən bir şəxs və Rəsuli-əkrəmin (s) himayədarı olduğu halda, yeni bir din gətirən peyğəmbərə qarşı ərəblərin sahib olduğu təəssübkeşliklə o dəqiqə əleyhinə qiyam, təhdid edər və mane olmağa çalışardı! Əgər Həzrət Muhəmmədin (s) etiqad və peyğəmbərliyini qəbul etməmiş olsaydı, o zaman ən azı köməyini əsirgəyər, Rəsulullahı qovar, kömək edəcəyi haqda söz verməz, hətta onu həbs belə etdirə bilərdi. Beləcə, dinini qoruyar və dindaşlarını da razı salardı.

Necə ki,  Azər də qardaşı oğlu İbrahimi(ə) eynən bu vəziyyətdə rədd etmişdir.

## IBRAHİMİN(Ə) BESƏTİN ƏVVƏLLƏRİNDƏ ƏMİSİ AZƏRLƏ SÖHBƏTİ

Allah-Təalanın Quranda xəbər verdiyinə görə, Həzrət İbrahimin (ə) peyğəmbərliyə seçildikdə, əmisi Azərin yanına gedərək belə dedi: **" Atacan, mənim üçün [vəhydən] bir elm gəlmişdir ki, sənə gəlməmişdir. Buna görə, mənim tabeliyimdə ol ki, səni düz bir yola hidayət edim."**[13]

Əmisi cavabında dedi: " **Ey İbrahim! Sənmi mənim tanrılarımdan üz çevirirsən?! Əgər bundan əl çəkməsən,səni daşlayacağam və [get] uzun bir müddət məndən uzaq ol!"**[14]

Amma Əbu Talib (r.ə) yardım istəyən Peyğəmbərə (s) belə buyurmuşdu: **«Qalx ey qardaşımın oğlu. Şübhəsiz ki, sən şərafət baxımından ucasan, qəbilə baxımından böyük bir məqama sahibsən, ata baxımından digərlərindən daha yüksəkdəsən. Allah Təalaya and olsun, sənə əziyyət verən hər kəsə qarşı kəskin qılınclarla mübarizə aparacaq, səni qoruyacağam. Allah-Təalaya and olsun ki, ərəblər, sahibi**

[13] Məryəm, 43

[14] Məryəm, 46

**qarşısında zəlil olan heyvan kimi sənin qarşında zəlil olacaq və diz çökəcəklər!"**

Daha sonra İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi>> kitabının (Misir çapı) 3-cü cildinin 306-cı səhifəsində va Səbt ibn Covzinin isə «Təzkirə» kitabının 5-ci səhifəsində qeyd etdikləri bu şeri Peyğəmbərə (s) xitabən oxudu:

Allaha and olsun ki, Qüreyş sənə çata bilməz,

Torpağa başlarını qoyana qədər.

Qorxmadan vəzifəni yerinə yetir.

Müjdələyirəm, gözlər bununla aydınlansın.

Məni dəvət etdin, yaxşılığımı istədiyinə inanıram.

Sən doğrulardansan, əvvəldən də əmindin.

Elə bir din gətirdin ki, sən

Bütün dinlərdən yaxşı olduğunu bilirəm.

Əgər qınaq və pislənilmədən qorxmasaydım,

Din yolunda nə qədər comərd olduğumu görərdin.

Xülasə, Əbu Talib (r.ə) Peyğəmbərə (s) mane olmadı, təhdid edib həbsə atmadı, rədd edib qətl etmədi, əksinə, bu gözəl cümlələrlə Onu təşviq etdi. Vəzifəsini elan etməsini istədi və Ona qorxmamasını söylədi. Bütün gözlərin Onun dəvətilə

aydınlanmasını arzu etdi. Rəsulallahın (s) bu iddiasında doğruluğunu, əvvəldən də əmin olduğunu və dininin bütün dinlərdən yaxşı olduğunu etiraf etdi.

Əlbəttə ki, Əbu Talibin (r.ə) ərz etdiyimdən əlavə digər bir çox şerlərini İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 3-cü cildi və digərləri də bu mövzuyla əlaqəli əsərlərində uzun-uzadı nəql etmişlər. Lakin məclisin vaxtını almamaq üçün bu qədərilə kifayətlənirik. Zənn edirəm, misal üçün bu qədər də kifayətdir.

Zəhmət olmasa, Allahı göz önünə alın, insaf üzrə hökm verin: bu söz və şerlərin müəllifini kafir, müşrik saymaq düzgündürmü? 0, mömin, müvəhhid və Allaha tapınan bir insan deyildimi? Böyük və dəyərli alimləriniz də bu mənanı təsdiq etmişlər.

Şeyx Süleyman Bəlxi Hənəfinin «Yənabiül-məvəddə» kitabının 52-ci babını mütaliə edin. O, sözü gedən kitabında Cahiz Mötəzilinin Əbu Talib (r.ə) haqqında belə dediyini nəql etmişdir: «Qüreyşin şeyxi olan Əbu Talib Peyğəmbərin (s) qoruyucusu, yardımçısı, dərin məhəbbətlə sevəni, himayədarı və tərbiyəçisi idi. O, Rəsulallahın (s) peyğəmbərliyini qəbul etmiş və Peyğəmbərin sirəsi haqqında bir çox şerlər söyləmişdir».

İnsaflı, təssübsüz hər bir insan bir az düşündükdən sonra Əbu Talibin (r.ə) iman gətirdiyini mütləq təsdiq edəcəkdir. Amma Üməyyə övladları Müaviyənin (yeri Cəhənnəm olsun!)

əmri üzrə 70 il müvəhhidlərin ağası Həzrət Əliyə (ə) və Peyğəmbərin (s) iki dəyərli nəvəsi Həsən və Hüseynə lənət oxudular. Onların əleyhinə saysız hesabsız hədis uydurdular. Bu səbəbdən çox asan bir şəkildə Həzrət Əlinin (ə) atasının da kafir olaraq dünyadan getdiyi və Cəhənnəm əhli olduğu haqda da hədis uydurmaları məlumdur. Hər mövzuda Onu incitdikləri kimi, bu mövzuda da o uca vilayət məqamını incitdilər.

Bu hədisi rəvayət edən məlun Muğeyra ibn Şöbə Həzrət Əlinin (ə) baş düşməni və Müaviyənin isə ən yaxın dostu idi. Əbu Talibin (r.ə) iman gətirdiyi hər iki firqədən ağıl sahibləri yanında Günəşdən daha aydındır! Xaricilər, nasibilər və onların günümüzə qədər gələn tərəfdarları Əbu Talibin (r.ə) küfrünü iddia edir və qafil xalq da adət üzrə buna inanırlar. Hər şeydən daha qəribə və qəmləndirici qəziyyə də budur ki, küfrlərinə dair bir çox dəlil olan Əbu Süfyan, Müaviyə va Yezidi mömin, hətta Peyğəmbərin (s) xəlifəsi sayır, lakin iman gətirdiyinə dair bir çox dəlil olan Əbu Talibi kafir və müşrik sayırlar!>>

**Şeyx:** «Görəsən, Müaviyə ibn Əbu Süfyanı kafir saymağınız və daim ona lənət oxumağınız doğrudurmu?! Sizin iki böyük xəlifə olan Müaviyə və Yezidə (r.ə) lənət oxuyub kafir deməyinizin dəlili nədir? Xüsusilə də, Müaviyə vəhy katibi və möminlərin dayısıdır».

**Dəvətçi:** «Müaviyəni «möminlərin dayısı» adlandırmağınızın dəlili nədir?»

**Şeyx:** «Açıq-aydındır; çünki Müaviyənin bacısı Ümmü-Həbibə Rəsulallahın (s) həyat yoldaşı və möminlərin anasıdır. Bu səbəbdən, Müaviyə də möminlərin dayısıdır».

**Dəvətçi**:«Sizə görə ümmül-möminin Aişənin məqamı daha ucadır, yoxsa Müaviyənin bacısı Həbibənin?"

**Şeyx**:«Hər ikisi də ümmül-möminindir, amma Aişənin məqamı hamısından daha ucadır».

## MUHƏMMƏD İBN ƏBU BƏKR HƏZRƏT ƏLİNİN (Ə) TƏQİBÇİSİ OLDUĞU ÜÇÜN MÖMİNLƏRİN DAYISI SAYILMIR

**Dəvətçi: «**Dediyiniz qaydaya əsasən, Peyğəmbərin (s) xanımlarının bütün qardaşları möminlərin dayısıdır! O zaman nə üçün Muhəmməd ibn Əbu Bəkri möminlərin dayısı saymırsınız?! Halbuki, onun atası Müaviyədən daha uca va bacısı da onun bacısından daha üstündür. Bu səbəbdən də Müaviyənin möminlərin dayısı olması həqiqət deyildir və onun üçün bir şərəf də sayılmaz!

Əgər Ümmül-mömininin qardaşı olmaq bir şərafət sayılmış olsaydı, onda Rəsulallahın (s) həyat yoldaşı Səfiyyənin atası yəhudi olan Hay ibn Əxtəb də şərafət sahibi olardı! Belə bir halda bilin ki, Ümmül-möminin və ya möminlərin dayısı olmaq özü-özlüyündə bir şərafət sayıla bilməz. Ən əsası risalət ailəsinə müxalif olub-olmamaq məsələsidir. Müaviyə(yeri Cəhənnəm olsun!) Əhli-beytlə müharibəyə qalxdı,

müvəhhidlərin ağası Həzrət Əliyə, Rəsulallahın (s) iki nəvəsi Həsən və Hüseynə lənət oxudu. İmam Həsən (ə) kimi şərəfli bir insanı, neçə səhabələri və təmiz şiə müsəlmanları qətlə yetirdi.

Mövzumuz ilə əlaqəli olaraq Əbül-Fərəc İsfahaninin «Məqatilut-Talibiyyin», İbn Əbdülbirrin «İstiab», Məsudinin «İsbatul vəsiyyə» və digərlərinin də öz kitablarında rəvayət etdiyi kimi, Əsmayi-Cudə Müaviyənin əmri və təşviqi ilə İmam Həsəni (ə) zəhərlədi. Hətta ibn Əbdülbirr və Təbərinin yazdığına görə, İmam Həsənin (ə) şəhadət xəbərini eşidən Müaviyə təkbir gətirərək, ətrafındakılarla birlikdə sevinərək, şadyanalıq etdi. Əlbəttə, bu cür lənətli bir insan sizin nəzərinizdə gərək möminlərin dayısı olsun!

Amma Muhəmməd ibn Əbu Bəkr vilayət məqamının tərbiyə etdiyi xalis şiələrdən biri idi və Əhli-beytə xitabən belə deyirdi: Ey Fatimənin oğulları, siz mənim sığınacağımsınız, Qiyamətdə sizinlə tərəzim ağırlaşar. Sizinlə olan dostluğum həqiqiləşərsə, hər hansı bir itin hürməyindən qorxmaram.

Muhəmməd, Əbu Bəkrin oğlu və Ümmül-möminin Aişənin qardaşı olmasına baxmayaraq, onu möminlərin dayısı saymamış, lənətləmiş; hətta atasının mirasından belə məhrum etmişlər.

Əmr ibn As və Müaviyə ibn Xudeyc Misiri fəth etdikdə Muhəmməd ibn Əbu Bəkrə su belə vermədilər və onu susuz halda qətlə yetirdilər. Daha sonra onu ölmüş uzunqulağın

qarnına qoyaraq yandırdılar. Müaviyə bunu eşidən kimi sevincindən az qalmışdı ki, havalansın.

Siz bu hadisəni eşitdikdə, " bu lənətlilər möminlərin dayısı və Əbu Bəkrin oğlu Muhəmmədə necə oldu belə etdilər və necə oldu onu belə çirkin bir şəkildə şəhid etdilər " deyib üzülmürsünüz, amma Müaviyənin lənətləndiyini eşitdikdə qəmlənirsiniz və onu möminlərin dayısı bildiyi üçün ehtiramını saxlayırsınız!!

Bu halda təsdiq edin ki, bunlar Peyğəmbərin (s) Əhli beytilə savaşmışlar. Muhəmməd də Əhli-beytin(ə) dostu olduğundan onu möminlərin dayısı saymır və bu cür zülm və əziyyətlə qətlə yetirilməsinə heyfslənmirsiniz. Amma Cəhənnəm əhli olan Müaviyəni, Əhli-beytin(ə) baş düşməni olduğu və Onları hər yerdə lənətlədiyi halda möminlərin dayısı sayır və tərəfkeşliyini edirsiniz. İnad və təəssübdən Allaha sığınıram!

## MÜAVİYƏ VƏHY KATİBİ DEYİL, NAMƏLƏRİN KATİBİ İDİ

Müaviyə vəhy katibi deyildi! Çünki o, hicri 10-cu ildə vəhy dövrünün sonlarında müsəlman oldu. Müaviyə namələrin katibi idi! Müaviyə Peyğəmbərə(s) olduqca əziyyətlər vermiş, olduqca pis sözlər söyləmiş və Məkkə fəthində müsəlman olan atası Əbu Süfyana məktublar yazaraq: «Niyə müsəlman oldun?»,-deyə onu danlamışdı. Bu səbəbdən müsəlmanlar

arasında etibarsız bir insan kimi tanınmışdır. Peyğəmbərin (s) əmisi Abbas Müaviyənin bu rüsvaydan, utandırıcı vəziyyətdən xilas olması və müsəlmanlığı qəbul etdiyi üçün Rəsulallahdan (s) ona bir imtiyaz verməsini istədi. Peyğəmbər (s) də Abbasın xahişindən sonra onu məktublarının katibi etdi.

## MÜAVİYƏNİN LƏNƏTLƏNDİYİNƏ VƏ KAFİRLİYİNƏ DAİR DƏLİLLƏR

Bundan əlavə, onların küfrü haqqında ayələr, rəvayətlər və etdiyi çox sayda pis işlərə görə bir çox dəlillər vardır.

**Şeyx**: «Ayə və hədislərdən olan dəlillər eşidilməlidir! Zəhmət olmasa, bu müəmmaların aradan getməsi üçün iddia etdiyiniz ayə və rəvayətləri bizə də söyləyin».

**Dəvətçi**: «Təəccüblənməyin, ortada bir müəmma yoxdur. Lakin bunun müqabilində dəlillər olduqca çoxdur. Vaxt qısa olduğu üçün onlardan sadəcə bəzilərinə işarə edəcəyəm. Yoxsa bütün dəliləri zikr etsəm, bu mövzu özü-özlüyündə bir kitab olar!

Mövzu ilə əlaqədar olaraq Müslim «Səhih» kitabında belə rəvayət edir: «Müaviyə Rəsulallahın (s) hüzurunda olanları yazırdı».

Mədaini isə belə deyir: «Zeyd ibn Sabit vəhy yazır, Müaviyə isə Peyğəmbər (s) üçün Onunla ərəblər arasındakı mövzuları yazırdı».

## MÜAVİYƏ VƏ YEZİDİN LƏNƏTLƏNDİYİNƏ DƏLALƏT EDƏN AYƏ VƏ RƏVAYƏTLƏR

1. Allah-Təala «İsra» surəsinin 60-cı ayəsində belə buyurur: **«Sənə göstərdiyimiz o yuxunu və Quranda lənətlənən ağacı, ancaq insanları sınamaq üçün meydana gətirdik. Biz onları qorxuduruq. Bu, onlara böyük bir azğınlıqdan başqa bir şey verməz».**

İmam Sələbi, imam Faxri Razi və digər müfəssirlərinizin rəvayət etdiyinə görə, Peyğəmbər (s) röyasında bəni-Üməyyənin meymunlar şəklində öz minbərinə çıxıb-düşdüyünü gördü. Cəbrayıl (ə) bundan sonra zikr olunmuş ayəni nazil etdi. Bu ağacdan qəsd bəni Üməyyə soyudur.

Allah-Təala, başı Əbu Süfyan ilə Müaviyə olan bəni-Üməyyəni lənətlənmiş bir ağac olaraq zikr etmişdir; aydınlaşdığı kimi, bu ağacın bir möhkəm budağı olan Müaviyə də məlundur.

2. «Muhəmməd» surəsinin 22 və 23-cü ayələrində belə buyurur: «**Əgər (Peyğəmbərdən) üz döndərsəniz sizdən yer üzündə fitnə fəsad törətmək (cahiliyyət dövründə olduğu kimi) qohumluq tellərini qırmaq gözlənilməzmi?! Onlar (münafiqlər, fitnə-fasad törədənlər) Allahın lənət etdiyi (qulaqlarını) kar və gözlərini kor etdiyi kimsələrdir!"**

Bu ayə açıq şəkildə yer üzündə fəsad çıxaranları və yaxınları ilə əlaqəni kəsənləri lənətləyir. Müaviyədən daha

böyük pozğunçuluq edən və yaxınları ilə əlaqəsini kəsən kim vardır? Onun xilafəti zamanında çıxartdığı fitnələr hər kəsə məlumdur. Əlavə olaraq kəsdiyi qohumluq əlaqəsinin özü də lənətləndiyinə sübutdur.

3.**«Əhzab» surəsinin 57-ci ayəsində də belə buyurur: «Allah və Rəsulunu incidənlərə Allah dünyada və Axirətdə lənət etmiş va onlar üçün həqarətli bir əzab hazırlamışdır».**

Şübhəsiz, Əmirəl-mömininə, Rəsulallahın (s) iki reyhanı Həsən (ə) və Hüseynə (ə) va xas səhabəsi Əmmar və digərlərinə əziyyət etmək də Peyğəmbərə əziyyətdir. Bu ayəyə görə də o müqəddəs insanlara əziyyət edən Müaviyə dünya və Axirətdə lənətlənmişdir.

4.«Mömin» surəsinin 52-ci ayəsində də belə buyurur: «**Elə bir gün ki, zalımlara üzr diləmələri heç bir fayda verməyəcəkdir. Onları lənət və axirət yurdunun pis əzabı gözləyir!**>>

5.«<Hud» surəsinin 18-ci ayəsində isə belə buyurur:"...**Bilin ki. zalımlar Allahın lənətinə gələcəklər!>>**

6.«Əraf» surəsinin 44-cü ayəsində belə buyurur: «**...Elə bu zaman aralarında bir carçı «Allah zalımlara lənət etsin»,-deyə səslənəcək».**

Zalımlar haqqında nazil olan bu və bənzər ayələr açıq şəkildə hər zalımın məlun olduğunu buyurur. Dost və yad - heç kim Müaviyənin açıq zülmlərini inkar edə bilməz. Zalım olduğu

üçün də Allahın lənətinə gəlmişdir. Buna görə də, Allahın lənətlədiyi kəsə biz də lənət deyirik.

7.<<Nisa» surəsinin 93-cü ayəsində isə belə buyurur: **«Kim bir mömini qəsdən öldürərsə, cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər,(axirətdə) onun üçün böyük əzab hazırlayar».**

## MÜAVİYƏNİN İMAM HƏSƏN (Ə), ƏMMAR, HƏCƏR İBN ƏDİY, MALİK ƏŞTƏR VƏ MUHƏMMƏD İBN ƏBU BƏKR KİMİ MÖMİNLƏRİ QƏTLƏ YETİRMƏSİ

Bu ayə, bir mömini bilərəkdən öldürənin Allahın lənətinə gəldiyini və onun yerinin də Cəhənnəm olduğunu bildirir. Zəhmət olmasa, insafla söyləyin, Müaviyə möminləri qətlə yetirməmişdirmi?! Həcər ibn Ədiy və 7 yoldaşını onun əmrilə qətlə yetirmədilərmi?! Əbdür-Rəhman ibn Həssan Gənəzi diri-diri basdırmadılarmı?!

Ibn Əsakir və Yaqub ibn Süfyan öz «Tarix» kitablarında, Beyhəqi «Dəlail»də, İbn Əbdür-Rəhman «İstiab»da və İbn Əsir «Kamil» kitabında rəvayət etdiyi kimi səhabənin böyüklərindən olan Həcəri Müaviyənin əmrilə, işgəncə verərək öldürdülər. Həcərin günahı təkcə Həzrət Əlini (ə) lənətləməməsi və Müaviyənin tərəfdarı olduğunu söyləməməsi idi.

Görəsən, Peyğəmbərin (s) böyük nəvəsi «Kisa» əshabının dördüncüsü olan Həzrət Həsən (ə) möminlərin böyüklərindən

və Cənnət əhli olan gənclərin iki ağasından biri deyildimi?! Məsudi, İbn Əbdül-Birr, Əbül-Fərəc İsfahani, Məhəmməd ibn Səd («Təbaqat»da), Səbt ibn Covzi («Təzkirə»də) və digər bir çox böyük alimlərinizin öz kitablarında yazdığına görə, Müaviyə Cödə üçün zəhər göndərdi və ona: «Həsən ibn Əlini öldürsən, sənə 100 min dirhəm verər və oğlum Yezidlə evləndirərəm»- deyərək vəd etdi. (Həzrətin şəhadətindən sonra Müaviyə ona 100 min dirhəm verdi, amma oğluyla evləndirmədi.)

Həzrət Həsənin (ə) şəhadəti bir möminin qətlindən əlavə, daha çox Peyğəmbəri (s) qəmləndirən bir hadisədir. Zikr olunan iki ayənin açıq hökmünə baxmayaraq, hələ də Müaviyəyə lənət etməkdə tərəddüd edirsinizmi?! Böyük səhabədən olan Əmmar da Siffeyn döyüşündə Müaviyənin əmri ilə öldürülmədimi?! Böyük alimlərinizin də eyni fikrə gəldiyi kimi, Peyğəmbər (s) də Əmmar haqqında belə buyurmamışdımı?! : **" Ey Əmmar, səni tüğyan əhlindən olan bir qrup öldürəcəkdir"**.

Böyük möminlərdən minlərcə insanın Müaviyə tərəfindən qətl edildiyinə şübhəniz varmı?! Dinin kəskin qılıncı və təmiz ürəkli bir mömini olan Malik Əştər də Müaviyənin əmri ilə zəhərləndirilmədimi?! Müaviyənin Misirdəki iki adamı Əmr ibn As və Müaviyə ibn Xudeyc həzrət Əlinin(ə) Misir valisi Muhəmməd ibn Əbu Bəkri işgəncəylə öldürüb, ölmüş uzunqulağın qarnına qoyaraq yandırmadılarmı?! Əgər Müaviyənin öldürtdüyü möminlərin siyahısını saymalı olsam, bir gecə deyil, kim bilir neçə gecə davam edər!

# BUSR İBN ƏRTATIN 30 MİN MÖMİNİ MÜAVİYƏNİN ƏMRİLƏ ÖLDÜRMƏSİ

Müaviyənin bütün əməllərindən daha pisi, onun əmri ilə qaniçən Busr ibn Ərtatın minlərlə Əli(ə) tərəfdarını rəhimsizcəsinə, qəddarcasına qətlə yetirməsidir. Əbül-Fərəc İsfahani, Əllamə Səmhudi " Tarixül-Mədinə"də, İbn Xəlkan, ibn Əsakir, Təbəri öz "Tarix"ində, ibn Əbil-hədid " Nəhcül-bəlağənin şərhi"nin 1ci cildində və digər alimlərinizin də öz kitablarında yazdıqları kimi Müaviyə, Busra böyük bir orduyla Mədinə, Məkkə, Səna və Yəmənə doğru hərəkət etməsini əmr etdi. Əbül-Fərəcin rəvayət etdiyinə görə Zəhhaq ibn Qeysə də belə dedi: " Əli ibn Əbu Talibin şiəsi və əshabını harada tapsanız, orada da öldürün; uşaq və qadınlara belə rəhm etməyin".

Bu səbəbdən 3 min nəfərlik böyük orduyla Mədinə, Səna, Yəmən, Taif və Nəcrana hücum etdilər. Yolda tapdıqları və o bölgələrdəki bütün möminləri, hətta qadın və uşaqları belə qətlə yetirdilər. Tarix bu utandırıcı qətliamlara şahid oldu. Vaxt olmadığından bu cinayətləri qısa olaraq nəql edirəm.

Sonda Yəmənə çatdıqda oranın valisi olan Abdullah ibn Abbas ibn Əbdül-Müttəlibin evinə getdilər. Abdullah şəhərdən qıraqda idi. Onun Süleyman va Davud adında iki kiçik uşağının başını anasının qucağında kəsdilər!

İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 121-ci səhifəsində belə deyir: «Od vurub yandırdıqlarından başqa 30 min insanı qətlə yetirdilər».

Siz ağalar, Quranın məlun oğlu məlunu - Müaviyəni dünya və axirətdə lənətləməsi haqqında bəyanına hələ də şəkk və şübhə edirsiniz?!

## MÜAVİYƏNİN HƏZRƏT ƏLİNİ (Ə) LƏNƏTLƏMƏYİ ƏMR ETMƏSİ VƏ ƏLEYHİNƏ HƏDİS UYDURMASI

Müaviyənin küfrünə və məlun olduğuna dair ən əhəmiyyətli dəlil, Həzrət Əlini (ə) lənətləməsi və xalqı da bu böyük günaha məcbur etməsidir. Şiə-sünni, hətta xarici tarixçilərin belə qeyd etdiyi kimi, namazın qunutlarında və cümə namazının xütbələrində bu çirkin əməl və bidət yerinə yetirilmiş, bir çox insan lənət demədiyi üçün də qətlə yetirilmişdir. Bu cinayətlər Ömər ibn Əbdül-Əzizin dövrünə qədər davam etdikdən sonra o, bu bidəti aradan qaldırdı.

Şübhəsiz ki, müvəhhidlərin imamı, Peyğəmbərin (s) qardaşı, Həzrət Fatimənin həyat yoldaşı və möminlərin əmiri Həzrət Əliyə (ə) həyatda ikən və ya vəfatından sonra lənət oxuyan və lənət oxumağı əmr edən məlun və kafirdir!

Çünki imam Əhməd «Müsnəd», imam Nəsai «Xəsaisul-Ələvi», imam Sədəbi və imam Fəxri Razi «Təfsir» kitablarında, həmçinin İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi», Məhəmməd ibn Yusif «<Kifayaut-talib», Səbt ibn Covzi

«Təzkirə», Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə", Mirseyid Əli Həmədani «Məvəddətül-qurba», Deyləmi «Firdovs», Müslim ibn Həccac «Səhih», Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-sual», İbn Səbbağ Maliki «Füsulul mühimmə», Hakim «Müstədrək», Xətib Xarəzmi «Mənaqib», Ibrahim Həmvini «Fəraid», İbn Məğazeli «Mənaqib», İmamul-harəm «Zəxairul-üqba», İbn həcər «Səvaiq» kitabında və xülasə, böyük alimləriniz fərqli təbirlərlə qısa və ya ətraflı şəkildə Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər: **«Əlini söyən məni söymüşdür; məni söyən isə Allahı söymüşdür».**

Bəziləri də bu mövzuda başqa hədislər rəvayət etmişdir ki, ümumi olaraq Əliyə (ə) əziyyət verənin məlun olduğuna dəlalət edir. Məsələn; Deyləmi «Firdovs» və Süleyman Hənəfi «Yənabiül məvəddə» kitabında fərqli sənədlərlə, digərləri də əvvəlki gecələr bəzisinə işarə etdiyim kimi, Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər: **«Əliyə əziyyət verən, mənə əziyyət vermişdir. Allahın lənəti olsun mənə əziyyət verənə>>.**

İbn Həcər «Səvaiqül-mühriqə» kitabında ümumi olaraq «Əhli beyti (ə) söyən və lənət oxuyan» babında Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir: **«Əhli-beytimi söyən Allahdan və İslamdan dönmüşdür. Allahın lənəti olsun itrətim haqqında mənə əziyyət verənə».**

O halda, Müaviyə namazın qunutlarında Həzrət Əliyə (ə) və Rəsulallahın (s) iki nəvəsi Həsən və Hüseynə, Ibn Abbasa və Malik Əştərə lənət oxuduğu üçün özü lənətlik və məlundur!

Bunu İbn Əsir «Kamil» kitabında və digərləri də öz əsərlərində rəvayət etmişlər.

İmam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında fərqli yollarla Rəsulallahdan (s) belə rəvayət etmişdir: **«Əliyə əziyyət verən Qiyamətdə yəhudi və ya nəsrani olaraq həşr olacaqdır».**

Siz də bilirsiniz ki, İslamın zəruri hökmlərindən biri Allah və Peyğəmbəri (s) söyənin kafir və nəcis olmasıdır. Bunu deyən kəs nəcis və qətli vacibdir! Əvvəlki gecələr ətraflı şəkildə Rəsulallahın (s) belə buyurduğunu zikr etmişdim: **«Əlini və Əhli-beytimi söyən, lənət deyən və təhqir edən məni və Allahı söymüş, lənətləmiş və təhqir etmişdir».**

Mötəbər kitablarınızda yer alan bu cür rəvayətlərin hökmünə görə Müaviyə, heç şübhəsiz, məlun və kafirdir!

Muhəmməd ibn Yusif «Kifayəut-talib» kitabının 10-cu babında öz sənədləri ilə və digərləri də burada xüsusi olaraq qeyd etmək istədiyim bu rəvayəti nəql etmişlər: «Abdullah ibn Abbas Səid ibn Cübeyrlə birlikdə Zəmzəmin kənarında bir qrup Şam əhlinin Həzrət Əlini söydüklərini gördükdə, ayağa qalxaraq onlara xitabən belə dedilər: «Hansınız Allah-Taalanı söyürdü?» Onlar: «Heç birimiz Allah-Təalanı söymədik»-dedilər. Bu cavablarından sonra «Hansınız Rəsulallahı (s) söyürdü?»-deyə soruşduqda, onlar yenə: «Bizdən heç kim Peyğəmbəri (s) söymədi»-dedilər. Daha sonra Şam əhlindən: «Hansınız Əli ibn Əbu Talibi söyürdü?»,-deyə soruşduqda, onlar «Bəli, biz Əlini söyürdük»-dedilər. Abdullah ibn Abbas belə buyurdu:

**«Rəsulallahın yanında şahid olun ki, mən O Həzrətin bilavasitə Əliyə belə buyurduğunu eşitdim: «Ya Əli, səni söyən məni söymüşdür, məni söyən Allah-Təalanı söymüşdür; kim əlini söyərsə, Allah-Təala onu üzüstə Cəhənnəmə atacaqdır».**

## HƏZRƏT ƏLİNİN (Ə) DÜŞMƏNİ KAFİRDİR

Bu dəlillərdən əlavə, öz alimlərinizdən Həzrət Əlini söyənin və Ona düşmən olanın kafir olduğuna dair çox sayda hədis nəql edilmişdir. Məsələn: Siyyuti və imamSələbi «Təfsir» kitablarında, həmçinin Mirseyid Əli Həmədani «<Məvəddətül-qurba», Əhməd ibn Hənbəl «Müsnəd», İbn Həcər «Səvaiq», Xarəzmi «Mənaqib», İbn Məğazəli Şafei «Fəzail», Süleyman Bəlxi Hənəfi «Yənabiül məvəddə», İbn Əbil-hədid mötəzili «Nəhcül-bəlağənin şərhi», Təbərani «Ovsəd», Imamul-harəm «Zəxairul-üqba», Nəsai «Xəsaisul Ələvi», Gənci Şafei «Kifayəut-talib», Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süal», Səbt ibn Covzi «Təzkirətul-xəvass», Ibn Səbbağ <<Füsulul-mühimmə» və digərləri də öz kitablarında fərqli ibarələrlə Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu rəvayət etmişlər: <**<Əlini, yalnız mömin sevər və ona, ancaq kafir nifrət edər».**

Əvvəlki gecələr qeyd etdiyim kimi, bəzi rəvayətlərdə də «...təkcə münafiq nifrət edər» şəklində qeyd olunmuşdur.

Aydındır ki, hədisdə yer alan «kafir» və «münafiq» kəlmələri Həzrət Əlinin (ə) düşməninin odda yanacağına

dəlalət edir. Çünki Allah-Təala Qurani-məciddə kafir və münafiqlərin yerinin Cəhənnəm olduğunu buyurmuşdur.

Bu səbəbdən Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut talib" in 3-cü babının sonunda sənədi Məhəmməd ibn Mənzur Tusidən belə rəvayət edir: «Biz imam Əhməd ibn Hənbəlin (Hənbəlilərin imamı) yanında idik. Bir nəfər ondan: «Ey Əbu Abdullah, Həzrət Əlinin «**Mən Cəhənnəmi bölənəm»** sözü haqqında nə deyə bilərsiniz?»,-deyə soruşduqda, İmam Hənbəl belə dedi: «Bunu heç kim inkar edə bilməz. Çünki Rəsulallah (s) həzrət Əliyə belə buyurmuşdur: «**Səni, yalnız mömin sevər və ancaq münafiq nifrət edər».** Mən də: «Bəli, elədir» dedim. İmam Hənbəl daha sonra mövzunu izah edərək belə dedi: «Söyləyin, möminin yeri haradadır? Biz: «Cənnətdədir»-dedik. Təkrar: «Münafiqin yeri haradadır?»,-deyə soruşdu. Biz: «Cəhənnəmdədir»,-deyə cavab verdikdə, İmam Hənbəl dedi: «Bu halda, Əlinin Cəhənnəmi bölən olduğu doğrudur» .

Yəni Peyğəmbərin (s) buyurduğuna və «Nisa» surəsinin 145-ci ayəsinə əsasən, Əlinin (ə) düşməni münafiqdir: **«Şübhəsiz ki, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Onlara heç vaxt yardım edən tapmazsan"**[15]

Bu halda Həzrət Əlinin (ə) düşməni Cəhənnəmin ən alt qatında olacaqdır. Bu ayəyə əsasən, münafiqlərin əzabı kafirlərin əzabından daha şiddətlidir.

---

[15] Nisa, 145

Mötəbər kitablarınızda yer aldığı kimi, Peyğəmbər (s) belə buyurmuşdur:**"Əliyə qarşı qəzəblənən mənə qarşı qəzəblənmişdir. Mənə qarşı qəzəblənənsə Allah-Təalaya qarşı qəzəblənmişdir».**

Bu cür rəvayətlər o qədər çoxdur ki, mənəvi təvatür dərəcəsinə çatmışdır».

**Şeyx:** «Sizin kimi bir şəxsə əshabı ittiham etmək yaraşırmı? halbuki, Allah-Təala bir çox ayədə onları tərifləmiş, müjdələmiş, bağışlamış və onlardan razı olduğunu bildirmişdir. Mömimlərin dayısı Müaviyə də dəyərli əshabdandır. Daha doğrusu, bu ayələrin əhatəsindədir. Səhabəyə xəyanət, Peyğəmbərə və Allaha xəyanət deyilmi?!>>

## PEYĞƏMBƏRİN (S) ƏSHABI ARASINDA YAXŞI VƏ PİS İNSANLAR ÇOXDUR

**Dəvətçi**: «Unutmadınızsa, əvvəlki gecələr səhabə mövzusunu sizlər üçün açıqladım. İndi də cavabsız qalmasın deyə, qısa olaraq ərz edim: Heç kim səhabəni mədh edən ayələri inkar etmir. Amma səhabə anlayışına diqqət etsəniz,səhabəni mədh edən ayələrin ümumi bir anlam ifadə etdiyini görərsiniz. Bu ayələr işığında bütün əshabı təmiz, adil, pisliklərdən pak, günahdan uzaq saya bilmərik.

Firuzabadinin da «Qamus» kitabında dediyi kimi, «səhibəhu>> «samiahu» qəlibindəndir və «onunla yaşadı və məşvərət etdi» mənasındadır. Ürfdə isə «qısa və ya uzun sürən

birlik» və «yardım» mənasında da istifadə edilir. Daha doğrusu, bir çox Quran ayəsi və hədisdə də yer aldığı kimi, Peyğəmbərin (s) əshabı müsəlman və ya kafir, yaxşı və ya pis, müttəqi və ya fasiq, mömin və ya münafiq, Rəsulallahla məşvərət edən kimsələrdir. Bu səbəbdən də səhabə ləfzini, sadəcə Cənnət əhli və Allahın razı olduğu kimsələr haqqında istifadə etməyiniz doğru olmadığı kimi, əql və nəqllə də uyğun deyildir.

Mövzunun aydınlaşması və beləcə, haqdan uzaqlaşmış səhabələrin təsirində qalmamağınız və «səhibəhu», «sahib», «musahib» və «əshab» kəlmələrinin mömin, kafir, münafiq, yaxşı və pis, ümumi anlamda istifadə edildiyini bilməyiniz üçün, xüsusilə əvvəlkilərə əlavə, bəzi ayə və hədislərə qısa olaraq işarə etmək istəyirəm. «Nəcm» surəsinin 2-ci ayəsində müşriklərə xitabən buyurulur: **«Sizin sahibiniz (Peyğəmbər) nə haqq yoldan çıxmış, nə də azmışdır»**. «Səba» surəsinin 46-cı ayəsində isə buyurulur: «**De: «Mən sizə ancaq bir öyüd verəcəyəm: Allah üçün iki-iki və bir-bir qiyam edin! [Allahı nəzərə alaraq Peyğəmbərin barəsində] dərindən düşünün.[Görəcəksiniz ki, sizin yoldaşınızda bir divanəlik əsəri yoxdur. O, qabaqdakı şiddətli əzabla xəbərdarlıq edən bir peyğəmbərdir»;** «Kəhf» surəsinin 34-cü ayəsində buyurulur: «Onun başqa sərvəti də var idi. Öz yoldaşı ilə danışarkən ona dedi: **«Mən mal-dövlət baxımından səndən daha varlıyam, qohum-əqrəba baxımından da səndən daha güclüyəm»;** Eyni surənin 37-ci ayəsində buyurulur: «Onunla söhbət edən yoldaşı ona dedi: **«Səni əvvəlcə torpaqdan,sonra nütfədən (rüşeymdən) yaradan və daha sonra səni adam**

**şəklinə salan Allahı inkar edirsənmi?»;** «Əraf» surəsinin 184-cü ayəsində buyurulur: **«Məgər düşünmürlər ki, onların yoldaşlarında (Peyğəmbərdə) heç bir cünunluq (dəlilik) əsər-əlaməti yoxdur?!»;** «Ənam» surəsinin 71-ci ayəsində buyurulur: **«[YaMuhəmməd!] de: «Biz Allahı qoyub, bizə bir xeyri olmayan və zərər verə bilməyən şeyə yalvaraqmı? Və Allah bizi düzgün yola yönəltdikdən sonra yer üzündə şaşqın dolaşarkən şeytanların azdırdığı adam kimi geriyəmi (küfrə) göndəriləcəyik. Halbuki, dostları onu: «Bizə tərəf gəl!». deyərək haqq yola çağırırdılar. De: <<[Əsl] hidayət Allahın hidayətidir...>;**

«Yusif» surəsinin 39-cu ayəsində, Yusif (ə) peyğəmbər zindanda kafir olan iki yoldaşına xitabən belə buyurur **«Ey mənim iki zindan yoldaşım! Ayrı-ayrı (dağınıq) tanrılar yaxşıdır, yoxsa har şeyə qadir və qalib olan tək Allah?».**

Misal olaraq zikr etdiyim bu ayələrdən də anlaşıldığı kimi «səhibəhu», «əshab», «sahib» və «musahib» kəlmələri lüğət baxımından müsəlman və ya möminlə əhatəli deyildir; müsəlman, kafir, mömin, münafiq, yaxşı və ya pisliyə də aid edilmişdir. Çünki bildirdiyim kimi, lüğətdə məşvərət edilən adama «musahib» və «əshab» deyilir. Daha doğrusu, «Rəsulallahın əshabı» dedikdə, ayələrdən də anlaşıldığı kimi Peyğəmbərlə (s) məşvərət edən nəzərdə tutulur. Əlbəttə, Xatəmül-ənbiya (s) ilə məşvərət edənlər və əshabı arasında yaxşı və ya pis, mömin və ya münafiq olan bir çox insan var idi. Əshabı tarifləyən ayələr ümumi anlam ifadə etməz! Əksinə, sadəcə əshabın yaxşılarına aiddir.

Biz də qəbul edirik ki, Peyğəmbərin (s) böyük əshabı böyük peyğəmbərlərdən heç birinin əshabı kimi deyildir. Bədr, Ühüd, Hüneyn və digər döyüşlərdə imtahan vermiş, Rəsulallahın (s) əmri altında həva-həvəsinə qapılmadan mübarizə aparmış, o həzrətdən bir an belə uzaqlaşmamışlar. Lakin əshab arasında pis qəlbli, hiyləgər, münafiq, Peyğəmbər (s) və Əhli-beytin (ə) düşməni olanlar da çox idi. Məsələn: Abdullah ibn Ubey. Əbu Süfyan, Həkəm ibn As (Rəsulallahın qovduğu Osmanın əmisi), Əbu Hüreyrə, Sələbə, Yezid ibn Əbu Süfyan, Valid ibn Uqbə, Həbib ibn Müslim, Səmurə ibn Cündəb, Əmr ibn As, Busr ibn Ərtat, Muğeyrə ibn Şöbə, Müaviyə ibn Əbu Süfyan və xarici Zis-Sədiyyə kimiləri də Peyğəmbərin (s) həyatında və ya vəfatından sonra böyük fitnələr qoparmış, dindən dönmüş və fəsad çıxarmışlar.

Müaviyə bilavasitə Peyğəmbərin (s) lənətlədiyi bir kəsdir, Rəsulallahın vəfatından sonra da fürsət tapdıqda Osmanın qanını bahanə edib qiyam etmiş, bir çox müsəlman qanının tökülməsinə səbəbkar olmuşdur. Əmmar kimi təmiz səhabələr, Peyğəmbərin (s) də xəbər verdiyi kimi, bu fitnədə şəhid edilmişdir. Bunu daha əvvəlki gecələrdə təfərrüatı ilə danışmışdım».

**Şeyx**: «Qəribədir, Peyğəmbərin (s) əshabının mürtəd olduğunu, fitnə və fəsad çıxartdığını necə söyləyirsiniz?!>> .

**Dəvətçi**: «Mən söyləmirəm, ayələr və rəvayətlər bəyan edir; bir az diqqət etsəniz, əsla, təəccüb etməzsiniz. Allah-Təala «Ali İmran» surəsinin 144cü ayəsində belə buyurur: **«...İndi o**

**(Peyğəmbər) ölsə və ya öldürülsə siz geri dönəcəksinizmi? (Əqidənizdən əl çəkəcəksinizmi?...)».**

«Münafiqun» surəsi və digər ayələrdə əshab açıq-aydın qınanılır. Ayrıca Buxari, Müslim, İbn Əsakir, Yəqubi Sufyan, Əhməd ibn Hənbəl, İbn Əbdülbirr və başqa böyük alimlərinizin də rəvayət etdiyi bir çox rəvayətlərdə pis əshab tənqid olunur, küfr və nifaqları fərdi və ya cəm olaraq rəvayət edilir. Vaxt az olduğundan, təəccübünüz aradan getsin deyə, sadəcə bir neçəsinə işarə edəcəyəm. Beləcə, yaxşı səhabələri yaxşı və pis səhabələri isə pis bilməyin lazım olduğunu anlayar və artıq: «Həzrət Əlinin (ə) düşmənlərinin, o Həzrəti lənətləyənlərin, Peyğəmbərin (s) təmiz əshabını və nəslini qətlə yetirənlərin, Allah-Təala və Rəsuluna düşmən olanların küfrlərinə dəlil nədir?»,-deyə soruşmazsınız.

Buxari iki hədisi bir az fərqli şəkildə Səhl ibn Səd və Abdullah ibn Məsuddan nəql edərək Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: **«Mən sizdən əvvəl hovuzun kənarında sizi gözləyəcəyəm. Sizdən bir qrupu görmədikdə: «Ey Rəbbim, əshabım haradadır?»>,-deyə soruşacağam». Allah-təala belə buyuracaq: «Səndən sonra nələr baş verdiyini, nə etdiklərini və dində nələr etdiklərini bilmirsən».**

Imam Əhməd ibn Hənbəl «Müsnəd», Təbərani «Kəbir» və Əbu Nəsr isə «İbanə» kitabında İbn Abbasdan nəql edərək Peyğəmbərin (s) belə buyurduğunu yazmışlar: **«Sizi Cəhənnəmə düşməkdən uzaqlaşdıran şeyləri sizlərə izah etdim, yenə də deyirəm: oddan çəkinin, Allahın dinini təhrif**

**etməyin. Mən öldükdə sizdən əvvəl Kövsər hovuzuna çatacağam. Orada yanıma gələnlər qurtuluşa çatanlardır. Orada mənə, İlahi əzaba düçar olan bir qrupu göstərərlər». Mən: «Ey Rəbbim, bunlar mənim ümmətimdir» deyərəm. Belə xitab edilər: «Bunlar səndən sonra mürtəd olaraq, cahiliyyət dinlərinə döndülər».**

Təbəraninin «Kəbir» kitabındakı rəvayətində isə belə qeyd olunmuşdur: **«Sən onların nələr etdiklərini belə bilməzsən! Bunlar səndən sonra dində bidət çıxartdılar, cahiliyyətə döndülər».**

Doğrudan da, ürək ağrıdır. Dinsiz bir kafiri -Müaviyəni (necə ki, bir az qabaq lənətə layiq olduğunu və kafirliyini bəyan etdim) və küfrünü əvvəlki gecələr isbat etdiyim oğlu Yezid kimi kafir və dinsizi müsəlman və ya mömin saymağınız, onların İslam və iman əhli olduğunu söyləməyiniz və bunu isbat etmək üçün dəlillər gətirməyiniz, xilafət və Cənnət əhli olduğunu iddia etməyiniz çox qəribədir. Halbuki, onların küfrü insaflı əhli-sünnət alimlərinin mötəbər kitablarında da yer almışdır və hətta bu mövzuda müstəqil kitablar da yazmışlar.[16]

Lakin bunun müqabilində Əbu Talib (r.ə) kimi müvəhhid və mömin bir şəxsi kafir sayırsınız! Əlbəttə, bu cür inanclar Həzrət Əliyə (ə) kin və küdurətdən qaynaqlanır və bu israr və

---

[16] Məsələn, Əbül-Fərəc, ibn Covzi və böyük alim Seyid Muhəmməd ibn Əqil Ələvi bu mövzuda kitab yazmışdır.

uyğunsuz kəlmələr o həzrətin - Allah dostunun, imamın və Peyğəmbərin (s) qəlbini yaralayır. Başqa bir tərəfdən Müaviyə və Yezid kimi küfr və nifaqı sabit olan insanları müdafiə etməyə çalışır, müctehid elan edir, küframiz hərəkətlərini ictihadlarından sayır və təmizə çıxarmaq üçün zəif dəlillərə istinad edirsiniz. Lakin açıq-aydın dəlillərlə mömin olduğu bəlli olan Əbu Talibi rədd edib, kafir olduğunu elan edirsiniz.

Bilmirəm, nə vaxta qədər sunni qardaşlar bir ovuc xarici, nasibi, Əməvi və tərəfdarlarının təsiri altında qalacaqlar?! Onlara kor-koranə təqlid edəcəklər, inanclarına uyacaqlar?! Onlar sünni müsəlmanların gözünün açılmasını, həqiqətləri aydın şəkildə görmələrini istəmirlər.

## ƏBU TALİBİN İMANINI İSBAT EDƏN DƏLİLLƏR

Peyğəmbərin (s) buyurduğu kimi, Qurani-kərimin bərabəri olan, icması müsəlmanlara höccət sayılan və öz alimlərinizin də rəvayət etdiyi elm, zöhd və təqva əhli olan Əhli-beyt (ə) Əbu Talibin (r.ə) iman əhli olduğunu və dünyadan mömin halda ayrıldığını söyləmədilərmi?

Rical alimlərinizin etibarını təyid etdiyi Əsbəğ ibn Nəbatə Həzrət Əlidən (ə) belə rəvayət etməmişdirmi?! **«Allaha and olsun ki, atam, babam Əbdül-Mütəllib, Haşim va Əbdül-Mənaf, əsla, bütə sitayiş etməmişdir».**

Yəni bir olan Allaha inanmış, Kəbəyə doğru ibadət etmiş və İbrahimin hənif dininə tabe olmuşlar. Əmirəl-möminin və

Əhli-beyti (ə) bir kənara qoyub məlun Muğeyrə, Əməvilər, xaricilər, nasibilər və Həzrət Əlinin (ə) baş düşmənlərinin ardıcılı olmağınız və Əbu Talibin (r.ə) açıq-aydın sözlərini təvil etməyiniz doğrudurmu?

Əbu Talibin (r.ə) mömin və müvəhhid olduğunu söyləyən Həzrət Əlini (ə) təyid edən dəlillərdən biri də Rəsulallahla (s) Həzrət Xədicənin evlilik xütbəsidir. Səbt ibn Covzi «Təzkirə» kitabının 11-ci babının 170-ci səhifəsində belə rəvayət edir: «Nigah məclisi təşkil olunduqda Əbu Talib (r.ə) bir xütbə oxudu; bu xütbəsi onun müvəhhid olduğuna və tək olan Allaha inandığına dəlalət edir. Əbu Talib (r.ə) bu xütbədə belə demişdi: «**Həmd olsun Allah-Təalaya ki, bizləri İbrahimin, İsmayılın, Məaddın və Muzirin nəslindən etdi. Bizləri öz Evinin qoruyucuları etdi. Bizlərə hər kəsin yönəldiyi bir Evi əmniyyət yeri olan bir hərəmi qərar verdi və bizləri insanlara hakim etdi...».**

Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabının 73 cü səhifəsinin əvvəlində (İstanbul çapı) Müvəffəq ibn Əhməd Xarəzmi və Məhəmməd ibn Kəbdən nəql edərək belə yazır: «Əbu Talib (r.ə), Peyğəmbərin (s) Əlinin ağzına mübarək ağız suyunun tökdüyünü gördükdə: **«Niyə belə etdin?»,-deyə soruşdu. Rəsulallah cavabında (s) buyurdu: «Bu ağız suyu iman və hikmətdir». Əbu Talib belə dedi: «Oğlum, Peyğəmbərin (s) yardımçısı və vəziri ol».**

Görəsən, bu dəlillər Əbu Talibin (r.ə) imanına dəlalət etmirmi?! Əbu Talib (r.ə), Peyğəmbərin (s) bu işinə və eləcə də

12 yaşındakı oğlu Əlinin Ona yardım etməsinə mane olmur, əksinə bilavasitə Rəsuli-Əkrəmə yardımçı olmasını əmr edir.

## CƏFƏR TƏYYARIN ATASININ ƏMRİ İLƏ İMAN GƏTİRMƏSİ

Alimləriniz öz kitablarında və o cümlədən, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» adlı kitabında belə yazmışdır: «Bir gün Əbu Talib (r.ə) məscidə daxil olduqda Peyğəmbərlə (s) Əlinin (ə) namaz qıldığını gördü. Həmin an yanında olan və hələ müsəlman olmayan Cəfəri-Təyyara belə dedi: «Sən də əmin oğlunun yanına get və onunla namaz qıl». Bundan sonra Cəfər də Peyğəmbərin (s) sol tərəfinə keçərək namaza durdu. Əbu Talib (r.)) daha sonra bu şeri oxudu:

Əli və Cəfər mənim etibar etdiklərim,

Çətin günlərdə yardımçılarımdır.

Ey Əli və Cəfər! Peyğəmbərə yardımçı olun,

Çünkü o, mənim qardaşımın oğludur.

Allaha and olsun, Peyğəmbərdən əl çəkməyəcəyəm,

Çünki Muhəmməd şərəfli və nəcabətlidir.

Tarixçi və alimlərinizin də bildirdiyi kimi, Cəfərin müsəlman olması və Peyğəmbərlə (s) birlikdə namaz qılması belə bilavasitə Əbu Talibin əmrilə olmuşdur. Daha doğrusu,

müşrik və kafir, həm də Qüreyşin rəisi olan Əbu Talib (r.ə) kimi müqtədir bir atanın böyük bir iddiada olan və yeni bir din gətirən qardaşı oğluna və övladlarının belə Ona tabe olmasına mane olmaması, hətta təşviq belə etməsi, ağlın qəbul edə biləcəyi bir şey deyildir. Kafir olan bir şəxs oğluna «Get əmin oğluna iman et və ona tabe ol» deyib, özü də ruhi və cismi bütün gücüylə öz dininin ən böyük düşməni olan birini dəstəkləyib. Ona yardım edərmi? Ey ağıl sahibləri ibrət alın!

Sünni və şiənin - bütün üləmanın rəvayət etdiyi kimi, Qüreys Haşim oğullarına iqtisadi məhdudiyyət qoyarkən, Əbu Talib (r.ə) 4 il ərzində Onu ardıcıl olaraq qorudu. Bütün Haşim övladlarıyla birlikdə öz yardımını Rəsulallahdan (s) əsirgəmədi. Müşriklərin sui-qəsd planından xəbər tutduqda Peyğəmbərin yanına gəlib, Onu yuxudan oyadaraq, etibarlı bir yerə aparıb, oğlu Əlini (ə) də Onun yerinə qoydu. Beləcə, Peyğəmbəri orada yatmış bilən düşmən Onu öldürmək istədikdə, Rəsulallahın yerinə Həzrət Əlini görürdü.

Allah xatirinə söyləyin, müşrik bir insan nübuvvət iddiasında olan və müşrikləri zəlalət əhli olaraq qəbul edən bir insanı bu qədər ciddiyyətlə qoruyarmı? Əlbəttə ki, xeyr! Daha doğrusu, bütün bu fədakarlıqlar və ciddiyyətlər onun iman gətirdiyini göstərir.

İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»ndə, Səbt ibn Covzi «Təzkirətul-xəvassil-ümmə»də Məhəmməd ibn Sədin «Təbaqat»ından, o da Vaqididən nəql edərək və Əllamə Seyid Muhəmməd ibn Seyid Rəsul Bərzənci «Kitabul-İslam fil-əmm

və abai-seyyidil-ənam» kitabında (İbn Səddən nəql edərək) İbn Əsakir və digərləri də səhih sənədlərilə Məhəmməd ibn Ishaqdan Həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət edir: **«Atam Əbu Talib (r.ə) vəfat etdikdə Peyğəmbərə (s) xəbər verdim. Rəsulallah (s) hönkür hönkür ağladı və mənə belə buyurdu: «Get onu yu, kəfənlə, məzara qoy, Allah-Təala onu əfv və rəhmət etsin».**

Allah xatirinə insafla hökm verin, Islamda kafir yuyulurmu? Kəfənlənirmi? Peyğəmbəri-əkrəmin (s) kafirlər üçün əfv və rəhmət dilədiyi söylənilə bilərmi? Hətta söylənildiyinə görə, Rəsulallah günlərcə evindən çıxmadı və onun üçün Allahdan mərhəmət dilədi. Görəsən, Peyğəmbər (s) Quranda Allah-Təalanın belə buyurduğunu görməmiş ola bilərmi?: **«Heç şübhəsiz, Allah özünə şərik qoşanları bağışlamaz; bundan başqa olan (günahları) isə dilədiyi kəs üçün bağışlar..."**[17]

Allah-Təala açıq şəkildə müşrikləri bağışlamayacağını söylədiyi halda, Peyğəmbər (s) müşrik üçün bağışlanma diləyə bilərmi? Halbuki, müşrik üçün rəhmət və əfv diləmək haramdır. Ayrıca, yumaq və kəfənləmək də müsəlmanlara aiddir, kafirlər üçün caiz deyildir. Rəsulallahın (s) Əbu Talib (r.ə) üçün bağışlanma diləməsi və Həzrət Əliyə (ə) yuyub-kəfənləməsini əmr etməsi, onun Allaha iman və təslimiyyətinə açıq-aydın dəlildir.

---

[17] Nisa, 116

Haqq və insaf gözüylə baxın! Səbt ibn Covzinin «Təzkirə>> kitabını oxuyun və orada Həzrət Əlinin (ə) atası haqqındakı bu ağlayıb-oxşamasını oxuyun:

Ey Əbu Talib, sən sığınanların sığınacağı,

Çətinə düşənlərə rəhmət, qaranlıqların işığı idin.

Ölümünlə himayəndə olanlar zəif vəziyyətə düşdü,

Allahın rəhməti sənə nazil oldu, səni Cənnətə apardı.

Peyğəmbərin (s) ən yaxşı əmisi idin;

Ona və dininə yardım etdin.

Görəsən, tövhid abidəsi Əmirəl-möminin Əli (ə) kimi bir şəxsin, kafir bir insan üçün bu şəkildə ağlayıb-oxşaması inandırıcı bir işdirmi? Bütün bu dəlillər Əbu Talibin (r.ə) mömin olaraq öldüyünə dəlalət edir. Yoxsa, Peyğəmbər (s) onun yuyulmasını, kəfənlənməsini, dəfn edilməsini istəməz, ona ağlamaz və Allahdan bağışlanma diləməzdi. Halbuki, Peyğəmbər (s) də, təkcə Allah üçün sevər və təkcə Allah üçün nifrət edərdi: dostluğu və düşmənçiliyi Allah üçün idi. Peyğəmbər (s), müşrik və üsyankar olan birinə, əmisi olduğu üçün ağlamadı və rəhmət dilədi».

**Şeyx:** «Əgər Əbu Talib (r.ə) müsəlman idisə, nə üçün Həmzə, Abbas və digər qardaşları kimi iman gətirdiyini açıqlamadı?»

**Dəvətçi**: «Şübhəsiz, Abbas, Həmzə və Əbu Talib arasında böyük bir fərq vardır. Çünki Həmzə bütün Məkkə əhlinin qorxduğu cəsur və güclü bir insan idi. Əlbəttə, onun İslama iman gətirdiyini zahir etməsi Peyğəmbəri (s) düşmənlərin şərindən qorumuşdur.

## ABBASIN İMANI GİZLİCƏ İDİ

Amma Abbas müsəlman olduğunu dərhal aşkar etmədi. Bu səbəbdən İbn Əbdülbirr «Istiab» kitabında belə rəvayət edir: «Abbas Məkkədə müsəlman oldu, amma xalqdan bunu gizlətdi. Peyğəmbər (s) hicrət etmək istədikdə, o da Rəsulallahla birlikdə getmək istədi. Amma Peyğəmbər ona Məkkədə qalmasını buyurdu. O, Məkkədəki xəbərləri Rəsulallaha çatdırırdı. Bədir Qazvəsində kafirlər Abbası özlərilə gətirdilər, məğlub olduqda Abbas da əsir düşdü. Xeybər günü vəziyyət münasib olduqda, o, iman gətirdiyini açıqladı".

Şeyx Süleyman Bəlxi Hənəfi də «Yənabiül-məvəddə»nin (İstanbul çapı) 56-ci babının əhatəsində İmamul-hərəmin Şərif Əbu Cəfər Əhməd ibn Abdullah əhatəsində Təbəri Şafeinin «Zəxairul üqba» və Əbülqasim İlahinin «Fəzail» kitablarından nəql edərək belə yazır: «Elm əhli Abbasın əvvəlcədən müsəlman olduğunu bilir. Amma Abbas iman gətirdiyini

gizlədirdi. Bədir günü Peyğəmbər (s) Abbasın öldürülməməsini əmr etdi. Çünki o, istəmədən, kafirlərin təzyiqi altında döyüşə qatılmışdı. Rəsulallahla hicrət etmək istədiyi halda, Peyğəmbər (s) onun Məkkədə qalmasını və Onu məlumatlandırmasını istəmişdi. Əbu Rafi, Abbasın İslamı seçib izhar etdiyini xəbər verdikdə onu azad buraxdı».

## ƏBU TALİBİN İMANINI GİZLƏTMƏSİNİN SƏBƏBİ

Amma Əbu Talib (r.ə), əgər iman gətirdiyini zahir etmiş olsaydı, artıq iş bitərdi. Çünki o zamanlar Peyğəmbərin (s) yardımçısı yox idi. Daha doğrusu, bütün Qüreyş və ərəblər Haşim övladları əleyhinə qiyama qalxar və risaləti yox edərdi. Bu səbəbdən Əbu Talib (r.ə) iman gətirdiyini gizlətdi və Qüreyşə mane olmağa çalışdı. Onlar da Əbu Talibə ehtiram olaraq ciddi qərarlar qəbul edə bilmirdilər. Beləcə, iman gətirdiyini zahir edə biləcəyi bir zamanı gözləyirdi. Belə oldu. O, həyatda olduğu müddətdə Peyğəmbər (s) könül rahatlığı içində vəzifasini yerinə yetirdi. Əbu Talib besətin 10-cu ilinin axırlarında vəfat etdikdə Cəbrayıl (ə) nazil olaraq belə ərz etdi: **«Məkkədən çıx, Əbu Talibdən sonra artıq sənə yardım edəcək kimsə yoxdur».**

**Şeyx**: «Görəsən, Əbu Talib Peyğəmbər (s) zamanında İslamı seçdiyini açıqlamışdımı? Ümmət bunu bilirdimi?»

**Dəvətçi**: «Bəli, bilirdi. Bütün ümmət onun adını ehtiramla yad edirdi».

**Şeyx:** «Peyğəmbər (s) dövründə müsəlman olduğu bilinirdisə, necə oldu ki, 30 il sonra (sizin fikrinizə əsasən) uydurulan bir hədis məşhurlaşdı və gün kimi aydın bir həqiqət aradan getdi?!"

**Dəvətçi:** «Bu, İslamda qırılan ilk şüşə (aradan gedən ilk həqiqət) deyildir. Peyğəmbər (s) dövründə bir çox hadisə, bilindiyi halda, sonradan uydurulan hədislərlə ortadan qaldırılmışdır. Hətta bir çox dini hökmlər belə illər keçdikdən sonra bəzilərinin diqtəsi ilə dəyişmiş va başqa bir şəklə salınmışdır».

**Şeyx**: «O çoxlardan birini misal göstərə bilərsinizmi?»

**Dəvətçi**: «Vaxtımız dar olduğu üçün, yalnız hamısından əhəmiyyətli bir mövzunu zikr etmək istəyirəm. Bu, Quranda da yer alan mütə nigahı (siğə) və nisa həccidir.

Qurani-kərimin hökmü və iki firqənin ittifaqilə mütə Peyğəmbər (s) zamanında məşhur və istifadə olunan bir əməl idi. Əbu Bəkr ərəfəsində və Ömərin xilafətinin ilk illərində də ümmət arasında tətbiq olunurdu. Amma Ömər belə dedi: «Peyğəmbər dövründə olan iki mütəni mən haram edirəm və edənləri cəzalandıracağam>>.

Yəni Allahın halalı 13 əsrdir ki, haram edilmişdir. Ömərin bu sözü gücləndi və Qurani-kərimin, Xatəmül-ənbiyanın (s) və əshabın açıq bəyanlarına baxmayaraq, kor-koranə, heç bir dəlil olmadan əmrə itaət edildi. Beləcə, hər iki mövzu da təhrif edildi. İndi də əhli-sünnət qardaşları Peyğəmbərin (s) bu gözəl sünnəti

və Allahın halalını şiə müsəlmanların bidəti olaraq adlandırırlar. Hal-hazırda da əhli-sünnət bunu qəbul etmir. Dəlillərini də bəyan etsək, yenə də rədd edirlər. Halbuki, hər iki mütə Peyğəmbər (s) dövründə halal idi. Bilavasitə xəlifənin öz əmri ilə Allahın bu halalı haram edildi.

Quranda bildirilən, Peyğəmbərin (s) həyatında istifadə edilən, əshabın da qəbul etdiyi və Əbu Bəkr ilə Ömərin təyidi ilə belə açıq bir İlahi hökm - Quranda və sizin mötəbər kitablarınızda da halal olduğu söyləndiyi halda - bilavasitə Ömər tərəfindən, heç bir ayə və hədisə əsaslanmadan haram edilmişdir. Bütün bunlara baxmayaraq, siz Əbu Talibin (r.ə) imanını şübhə altına alıb, küfründən danışırsınız!>>

**Şeyx:** «Siz milyonlarla müsəlmanın neçə əsr Qurani-kərimə və sünnətə zidd əməl etdiyini söyləmək istəyirsiniz?! Halbuki, biz də bütün dünyada sünni kimi tanınırıq. Yəni Peyğəmbərin (s) sünnətinə bağlıyıq. Şiələr də Peyğəmbərin (s) sünnətindən üz çevirdikləri üçün rafizi adlandırılmışdır!>>

## HƏQİQƏTDƏ SÜNNİLƏR RAFİZİ, ŞİƏLƏR İSƏ SÜNNİDİR

**Dəvətçi:** «Zahirən siz özünüzü sünni, şiə müsəlmanlarını da rafizi adlandırırsınız. Lakin insafla hökm etsəniz və köhnə fikirlərinizi də kənara qoysanız görərsiniz ki, həqiqətən, Peyğəmbərin (s) sünnətinə bağlı olanlar şiələrdir, rafizilər isə sizlərsiniz; çünki Quran və sünnətdən üz çevirirsiniz>>.

**Şeyx**: «Afərin! Milyonlarla təmiz, pak müsəlmanı rafizi saydınız. Buna dəliliniz nədir?>>

**Dəvətçi**: «Siz də yüz milyondan çox təmiz müsəlmanı və Peyğəmbərin (s) Əhli-beytinə (ə) tabe olan şiə müsəlmanları rafizi, kafir və müşrik sayırsınız. Halbuki, əvvəlki gecələrdə bəyan etdiyim kimi, Rəsulallah (s) Qurani-kərimə və Əhli-beyta (ə) tabe olmağı əmr etmişdir. Qəsdən Əhli-beytdən (ə) üz çevirib, başqalarına tabe olursunuz! Peyğəmbər (s) zamanında Quran hökmünə əsasən tətbiq edilən sünnətdən çəkinib, ilk iki xəlifənin hökmüylə onları tərk edirsiniz. Peyğəmbərin (s) sünnət və sirətinə tabe olanları rafizi, müşrik və kafir sayırsınız. Tərk olunan hökmlərin biri haqda Quranda - «Ənfal» surəsinin 41-ci ayəsində belə buyurulur: **«Bilin ki, qənimət olaraq ələ keçirdiyiniz hər hansı bir şeyin xumsu (beşdə biri) Allah-Təalaya, Rəsuluna, onun qohum-əqrəbalarına, yetimlərə, yoxsullara və müsafirlərə aiddir...>>.**

Peyğəmbər (s) həyatda ikən bu hökm tətbiq olunur, qənimətlərin xumsu, (beşdə biri) yaxınları və qohum-əqrabaları arasında paylanırdı. Amma sonradan bu əməl tərk edildi. Xülasə, əgər hamısına işarə etsəm, söz uzanacaq.

Şiə müsəlmanların Peyğəmbərin (s) sirət-sünnətinə tabeliyinə və sizlərin Rəsulallahın sirət-sünnətilə əshabın əməlindən uzaqlaşıb rafizi olduğuna ən böyük dəlil mütə mövzusudur.

Mütə Allahın hökmü, Rəsuli-əkrəmin (s) sünnəti və əshabın əməli ilə Peyğəmbər ərəfəsində Əbu Bəkrin xilafətində və Ömərin xilafətinin əvvəllərində halal idi və tətbiq edilirdi. Amma Ömərin siyasətinə görə, söylədiyi bir tək sözlə Allahın halalı haram edildi, Peyğəmbərin (s) sünnəti tərk olundu. Buna baxmayaraq, özünüzü sünni, Quran və sünnətə bağlı şiə müsəlmanlarını isə rafizi sayırsınız!

Cahil xalqı elə bir şəkildə başdan çıxartdınız ki, tam 14 əsrdir ki, bizi rafizi və müşrik sayırlar. Siz sünnilər məşhurun «kasa təamdan istidir" sözünə əsasən, Ömər öz sözünü isbat etmək üçün heç bir dəlil gətirmədiyi halda, siz sünnilər kitablarınızda bir çox dəlil gətirərək Ömərin sözünün haqq və Quran, sünnət və səhabənin əməlinin batil olduğunu bəyan edirsiniz!

**Şeyx: «**Mütənin halal olduğu mövzusundakı dəliliniz nədir? Hansı dəlillə Ömərin Allahın sözü və Peyğəmbərin (s) sünnətinə zidd əməl etdiyini iddia edirsiniz?>>

## MÜTƏNİN HALAL OLDUĞUNA DAİR DƏLİLLƏR

**Dəvətçi**: «Bunun dəlilləri çoxdur. Əvvəla; Qurani-məcid «<Nisa» surəsinin 24-cü ayəsində belə buyurur: «**...İstifadə (yaxınlıq) etdiyiniz qadınların mehriyyələrini verin...>>.**

Şübhəsiz, Qurani-kərimin hökmləri, onları nəsx edən (aradan aparan) başqa ayələr olmadıqda. Qiyamətə qədər

qüvvədədir. Bu xüsusda nəsx edən başqa bir ayə olmadığı üçün bu hökm əbədi olaraq qüvvədə qalır».

**Şeyx:** «Bu ayələrin daimi nigahla əlaqəli olmadığını haradan bilirsiniz? Çünki ayənin davamında onların mehriyyələrinin verilməsi əmr edilir».

**Dəvətçi**: «Bu açıqlamanız məntiqsizlikdir. Çünki böyük alimlərinizdən Təbəri «Təfsiri-kəbir»in 5-ci və imam Fəxri Razi «Məfatihul-ğeyb»in 3-cü cildində və digərləri də mötəbər kitablarında bu ayəni öz mütə babında qeyd etmişlər. Müfəssir və alimlərinizin də bəyan etdiyi kimi, «Nisa» surəsi İslamda evliliyin növlərini bəyan edən bir surədir.

Allah-Təaala daimi nigah mövzusunda «Nisa» surəsinin 3-cü ayəsində belə buyurur: «...**Sizin üçün halal olan iki, üç və ya dördə qədər ayrı qadınlarla nigah edin. Əgər onlarla ədalətlə rəftar eda bilməyəcəyinizə əmin deyilsinizsə, təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə (evlənin!)...>**>.

«Nisa» surəsinin 25-ci ayəsində cariyələr haqqında belə buyurur:**<<Sizdən azad və mömin qadınlarla evlənməyə maddi imkanları çatmayanlar, malik olduqları mömin cavan (kənizlərdən) alsın. Allah imanınızı daha yaxşı bilir, sizlər bir birinizdənsiniz, (hamınız Adəmdənsiniz). Namusunu qoruyan, zinakarlıq etməyən və gizlində dostu olmayan cariyələrdə sahiblərindən icazə alıb evlənin və mehriyyələrini şəriətə müvafiq şəkildə ödəyin!>>**

Mütə haqqında «Istifadə etdiyiniz qadınların mehriyyələrini verin» ayəsi nazil olmuşdur. Əgər bu ayə daimi nigah haqqında nazil olmuş olsaydı, o zaman bir surədə daimi nigah təkrarlanmış olardı. Bu da qaydaya zidd bir şeydir. Mütə haqqında nazil olduğu üçün də özü özlüyündə bir hökm olduğu anlaşılır.

Ayrıca, təkcə şiələr deyil, bütün müsəlmanlar İslamın əvvəllərində mütənin məşhur olduğunu qəbul edir. Böyük əshab da Peyğəmbər (s) zamanında bu hökmə əsasən əməl etmişdir. Əgər bu ayə daimi nigah haqqında idisə, o zaman bütün müsəlmanların inandığı mütə ayəsi hansıdır?

Müfəssirlərin də dediyi kimi, mütə ayəsi budur. Bu mövzuda bir nəsxedici ayə də nazil olmamışdır. Mötəbər kitablarınızda da bu qeyd edilmişdir.

## ƏHLİ-SÜNNƏT QAYNAQLARINDA MÜTƏNİN HALAL OLDUĞUNA DAİR HƏDİSLƏR

«Səhihi-Buxari» və Əhməd ibn Hənbəlin «Müsnəd»ində Əbu Rəcadan, o da Imran ibn Həsindən belə nəql edilir: «Mütə ayəsi Allahın kitabında nazil oldu. Biz da Rəsulallah (s) vəfat edənə qədər ona əməl etdik. Peyğəmbər onu nəhy etmədi və Quran da haram bilmədi. Adi bir adam öz nəzəri ilə istədiyini söylədi». Buxari də: «Bu adam Ömər ibn Xəttabdır»»-deyir.

Müslim ibn Həccacın «Səhih» kitabının 1-ci cildinin 535-ci - Mütə nigahı babında belə yer almışdır: «Həsən Həlvayi

Əbdür-Rəzzaqdan, o da Ibn Cureyhdan, o da Ətadan belə rəvayət edir: «Abdullah Ənsari ümrə üçün Məkkəyə gəldi. Onun evinə getdim. İnsanlar ondan bəzi məsələ və hədisləri soruşurdu. Söz mütəyə gəldikdə belə dedi: «Bəli, biz həm Rəsulallah (s), həm Əbu Bəkr və həm də Ömər zamanında mütə edirdik».

Həmçinin, eyni kitabın (Misir nəşri hicri 1306-cı il) 1-ci cildinin 467-ci səhifəsində - Mütə babında Əbu Nəzrədən belə rəvayət edilir: «Mən Cabir ibn Abdullahın yanında idim. Bir nəfər gəlib belə dedi: «Abdullah ibn Zubeyr və İbn Abbas iki mütə (həcc və qadın mütəsi) haqqında ixtilafa düşüblər». Cabir belə dedi: «Rəsulallah (s) zamanında biz də onları edirdik. Lakin Ömər qadağan edəndən sonra etmədik».

Əhməd ibn Hənbəl «Müsnəd» kitabının 1-ci cildinin 25-ci səhifəsində Əbu Nəzrənin rəvayətini başqa yolla nəql edir. Hər ikisi də bir başqa yerdə Cabirin belə dediyini rəvayət edirlər: «Biz də Peyğəmbər (s) zamanında bir ovuc xurma, üyüdülmüş buğda və un qarşılığında Ömər, Əmr ibn Harisə qadağan edənə qədər mütə edirdik».

Həmidi isə «Cəmun-beynəs-səhiheyn» kitabında Abdullah ibn Abbasdan belə nəql edir: «Biz Peyğəmbər (s) zamanında mütə edirdik. Amma Ömər, xilafəti zamanında belə dedi: «Allah-Təala Rəsuluna istədiyini halal edirdi. Amma o indi həyatda yoxdur. Quran da öz yerində qalsın. Həce və ya ümrəyə başladıqda Allahın buyurduğu kimi sona çatdırın.

Qadınlarla mütə etməyə tövbə edin. Hansı kişi mütə edərsə və onu mənim yanıma gətirsələr, onu daşqalaq edərəm».

Bu cür rəvayətlər mötəbər kitablarınızda olduqca çoxdur. Bunlar mütənin Peyğəmbər (s) zamanında mövcud və məşhur olduğunu, əshabın da əməl etdiyini və sonradan öz xilafəti dövründə Ömərin qadağan etdiyini isbat edir.

Ayrıca, bir qrup əshab və başqaları da məsələn; Übey ibn Kəb, İbn Abbas, Abdullah ibn Məsud, Sə**id ibn Cubeyr və s. mütə ayəsini belə qiraət edərdilər: «Fəstəmtətum bihi minhunnə ila əcəlin musəmmə» (Bəlli bir zamana qədər mütə edincə).**

Bu səbəbdən Zəməxşəri «Kəşşaf»da İbn Abbasdan nəql edərək, Muhəmmad ibn Cərir Təbəri «Təfsiri-kəbir"də (sözü gedən ayənin təfsirində), imam Fəxri Razi "Məfatihul-ğeyb'in 6-cı cildində (bu ayənin təfsirində) və imam Nəvəvi «Nigahul-mütə» kitabının 1-ci babında Mazəridən Qaz Əyyazın sözünü «Şərhi-səhihi-Müslim»dən nəql edərək vəhy katibi Abdullah ibn Məsudun bu ayəni eyni şəkildə qiraət etdiyini rəvayət edir.

İmam Fəxri Razi də Übey ibn Kəb və İbn Abbasın sözünü rəvayət etdikdən sonra belə deyir: «Ümmət bu qiraət mövzusunda bu iki nəfəri inkar etməmişdir». O halda, bizim zikr etdiyimizin səhihliyi mövzusunda icma vardır!>>

Başqa bir səhifədə də cavab olaraq belə deyir: «Bu qiraət mütənin məşhur olduğuna dəlalət edir və bu mövzuda ixtilafımız yoxdur».

**Şeyx**: «Rəsulallah (s) zamanında məşhur olsa da, sonradan nəsx edilmədiyi mövzusundakı dəliliniz nədir?»

**Dəvətçi**: «<Nəsx edilmədiyi və məşhur olduğu haqqında bir çox dəlil vardır. Ən əhəmiyyətli dəlil Peyğəmbərin (s) dövründə Ömərin xilafətinin ortalarına qədər məşhur olmasıdır; daha doğrusu, nəsx edilməməsidir. Əshabın böyükləri də bilavasitə buna əməl etmişdir. Qeyd edim ki, ən böyük dəlil, bilavasitə alimlərinizin də rəvayət etdiyi kimi, Ömərin minbərə çıxaraq belə deməsidir: «Peyğəmbər dövründə mövcud olan iki mutəni mən haram edirəm və buna əməl edənləri də cəzalandıracağam». Bəzi rəvayətlərdə isə; «Mən nəhy edirəm>> şəklində yer almışdır».

**Şeyx:** «Sözünüz doğrudur, Peyğəmbər (s) dövründə bir çox şey ilk mərhələdə istifadə edilirdi. Amma sonradan qadağan edilmişdir. Bu mütə də ilk əvvəl məşhur idi, amma sonradan nəsx edilmişdir».

**Dəvətçi:** «Dinin təməli Qurandır. Quranda yer alan hər hökmün nəsx edicisi də, bilavasitə Quranda olmalı və Peyğəmbər (s) tərəfindən ifadə edilməlidir. Söyləyin, Qurani-kərimin hansı surəsində, hansı ayəsində bu hökm nəsx edilmişdir?>>

**Şeyx:** «Möminun» surəsinin 6-cı ayəsi bunun nəsixidir ki, belə buyurur: **«Ancaq zövcələri və malik olduqları kənizləri istisnadır. Onlar buna görə, əsla, qınanmazlar»**.

Bu ayə halal olmanın iki səbəbini bəyan edir: 1. Zövciyyət (ər arvad); 2. Cariyə sahibi olmaq. Daha doğrusu, bu ayə mütəni nəsx etmişdir».

**Dəvətçi**: «Bu ayədə mütənin nəsx edildiyinə dair heç bir dəlil yoxdur. Əksinə, təyid vardir. Çünki mütə də zövciyyət hökmündədir. Mütə nigahında olan qadın kişinin həqiqi zövcəsidir. Əgər bu şərtlə qadın həqiqi zövcə olmasaydı, Allah-Təala mütə ayəsində mehriyyələrinin verilməsini əmr etməzdi!

Bundan əlavə, «Möminun» surəsi «Məkki», «Nisa» surəsi isə «Mədəni»dir. Daha doğrusu, Məkki olan ayə, Mədəni olan ayədən əvvəldir. Mütə nigahından əvvəl nazil olduğu halda bu ayə necə nəsx edici ola bilər? Sizin iddianıza görə isə nasix (nəsx edən), mənsuxdan (nəsx olunmuşdan) əvvəl nazil olmuşdur!

Ey bəsirət əhli, ibrət alın!

## SƏHABƏNİN BÖYÜKLƏRİ VƏ TABEİN, HƏTTA MALİK MÜTƏ AYƏSİNİN NƏSX EDİLMƏDİYİNİ HÖKM EDİR

Bundan əlavə, səhabə və tabein böyükləri də mütə ayəsinin nəsx edilmədiyinə hökm etmişlər. Məsələn: Abdullah ibn Abbas, Abdullah ibn Məsud (vahy katibi), Cabir ibn Abdullah Ənsari, Sələmə ibn Əkva, Əbuzər Ğaffari, Səbərə ibn Məbəd, Əkva ibn Abdullah Əsləmi və İmran ibn Həsin kimiləri bu ayənin nəsx edilmədiyini bəyan etmişlər. Böyük alimləriniz də əshaba tabe olaraq nəsx edilmədiyini qeyd etmişlər.

Məsələn: Zəməxşəri «Kəşşaf» kitabında İbn Abbasın «Mütə ayəsi Qurani-kərimin möhkəm ayələrindəndir» sözünü rəvayət edərkən, «Bu ayə nəsx edilməmişdir» deyir.

Malik ibn Ənəs də (Malikilərin imamı) mütənin qanuni və caiz olduğuna hökm və nəsx edilmədiyini bəyan etmişdir.

Molla Səd Təftəzani «Şərhi-məqasid», Bürhanəddin hənəfi "hidayət", İbn hacər Əsqalani «Fəthul-bari» və digərləri də öz kitablarında Malikin bu fitvasını rəvayət etmişlər: «Mütə caizdir. Çünki mübah və qanunidir. İbn Abbasdan halal olduğu rəvayət edilir. Məkkə və Yəmən, Malikin əshabının çoxu da bu mövzuda ona tabe olmuşdur».

Bir başqa yerdə isə belə deyir: «Mütə caizdir. Çünki mübahdır; nəsx edəni zahir olana qədər baqidir».

(Anlaşıldığı kimi, Malik vəfat etdiyi hicri 179-cu ilinə qədər də hələ mütə nigahının nəsx edildiyinə dair hər hansı hökm eşitməmişdi. Beləliklə, xəlifə Ömərin sözü öz qüvvəsini tapsın deyə, bunun sonradan uydurulduğu anlaşılır.)

Zəməxşəri, Bəğəvi və imam Sələbi kimi böyük təfsirçiləriniz İbn Abbasın və əshabın böyüklərinin əqidəsini qəbul etmiş və mütənin halal olduğunu açıq-aydın bəyan etmişlər.

**Şeyx**: «Mütə, irs, talaq, iddə və nəfəqə kimi zövciyyət hökmlərinə sahib olmadığına görə, həqiqi zövcə ola bilməz».

## ZÖVCİYYƏTİN BÜTÜN HÖKMLƏRİ MÜTƏ NİGAHINDA OLAN QADINA DA ŞAMİLDİR

**Dəvətçi**: «Anlaşıldığı kimi, bizlərə pis gözlə baxdığınız üçün, əsla. şia kitablarını oxumamısınız. Yoxsa etiraz etməz və dəlillə istisna edilənlərdən başqa zövciyyətin bütün hökmlərinin mütə haqqında da keçərli olduğunu bilərdiniz. Mütə də, şübhəsiz, nigahın bir növüdür. Daimi əqdin hökmləri ona da şamil olur. Ümmətə asanlıq olsun və zinanın qarşısı alınsın deyə, bəzi şərtləri aradan qaldırılmışdır.

Şərtlərinə gəldikdə, əvvəlcə bilməlisiniz ki, mirasın daimi əqdin hökmlərinin ayrılmaz bir hissəsi olduğu qəti deyildir. Qadın bir çox hallarda, daimi əqd hökmündə olmasına baxmayaraq, mirasdan məhrum ola bilər. Məsələn; kitab əhlindən olan, həyat yoldaşına qarşı üsyan edən və ya ərini öldürən qadın daimi əqddə olduğu halda mirasdan məhrum olur.

İkinci: Mütə-əqdində olan qadının mirasdan məhrum olması da qəti deyildir. Müctehidlərin və alimlərin bu haqda fikirləri müxtəlifdir. Necə ki, sizin alimlərinizin də əhkamda fərqli baxışları vardır..

Üçüncü; Şiə alimlərinin icmasına görə, mütə əqdində olan qadın iddəsini gözləməlidir. Ən az iddə isə 45 gündür. Əgər əri ölərsə 4 ay 10 gün olan vəfat iddəsini gözləməlidir. Bu qadın

(əri ölmüş) istər əlaqə görmüş olsun, istərsə da olmasın. İstər yaisə[18] olsun, istər olmasın fərqi yoxdur.

Dördüncü; Nəfəqə [19] haqqı da daimi əqdin qəti şərtlərindən biri olduğu halda, deyildir. Bir çox qadın, daimi əqddə nəfəqə haqqından da məhrumdur. Əhli-Kitab, ərinə qarşı üsyan edən və ya öldürən qadın kimi.

Beşinci; Müddətin bitməsi onun talağı sayılır. Həmçinin, kişinin qalan müddəti bağışlaması da onun talağı yerinə keçir.

Bu halda söylədiyiniz şərtlər evliliyin zəruri, sabit şərtlərindən deyildir. Bu səbəbdən şiələrin boyük alimi, bəşərin nabiğəsi Əllamə Hilli (r.ə) də böyük alimlərinizlə mübahisə edərkən bu dəlilləri daha ətraflı və daha kamil bir şəkildə bəyan

---

[18] heyz qanının görülməməsi haləti( qadınların 50 yaşdan sonra heyz olmadığı dövr)

[19] Nəfəqə dedikdə, ailənin vəziyyəti ilə uyğun və münasib olan tərzdə yaşayış xərci (yəni, ev, geyim, yemək və s.) nəzərdə tutulur ki, ər ailə vəziyyəti ilə uyğun və habelə, adi tarzdə öz həyat yoldaşını ev, geyim, yeməklə təmin etməlidir.

etmişdir. Vaxt az olduğuna görə, mən qısa ərz etməyə çalışdım."[20]

**Şeyx**: «Bu ayədən başqa bir çox hədis mütənin bilavasitə Peyğəmbər (s) tərəfindən nəsx edildiyini bəyan edir»

**Dəvətçi**: «Zəhmət olmasa, söyləyin, nəsx hökmü harada varid olmuşdur?"

**Şeyx**: «Bu mövzuda fərqli rəvayətlər vardır; bəzisinə görə Xeybərdə, bəzisinə görə Məkkə fəthində, bəzisinə görə Vida həccində, bəzisinə görə Təbuqda, bəzisinə görə isə UmratulTəzada>>.

## NƏSX HÖKMUNÜN RƏSULALLAHIN (S) DÖVRÜNDƏ OLMADIĞINA DAİR DƏLİLLƏR

**Dəvətçi**: «Hədislərdəki bu ziddiyyətlər bilavasitə belə bir hökmün olmadığını göstərir. Belə hədislərə necə etimad edilə bilər?! Bundan əlavə, «Kutubi-Sittə», «Cəmun-beynəs-səhiheyn», «Cəmun beynəs-sihahis-sittə», «Müsnəd» və digər

[20] Ətraflı məlumat əldə etmək istəyənlər Əllamə Hillinin «Mubahəsətu-saniyyə və muarizatun nəsriyyə" kitabına və digər əsərlərinə müraciət edə bilərlər.

mötəbər kitablarınızda da səhabədən mütənin Ömərin xilafəti dövrünə qədər nəsx edilmədiyi rəvayət edilir.

Hamısından ən əhəmiyyətlisi də böyük alimlərinizin rəvayət etdiyi Ömərin bu sözüdür: «Peyğəmbər zamanında mövcud olan iki mütəni mən haram edirəm». Əgər bu mövzu bir hədis və ya ayə ilə nəsx edilmiş olsaydı, xəlifə bunun bilavasitə hədis və ya Quranla qadağan etdiyini və daha doğrusu, əməl edənlərin Qurani-kərim və hədis əsasında cəzalandırılacağını bəyan edərdi! Üstəlik, onun belə söyləməsi, bilavasitə özünün haram etməsindən daha təsirli olardı!

Əgər sözünüz doğrudursa və Quranda bir nəsix varsa, bu halda Abdullah ibn Abbas, İmran ibn Həssin, Əbuzər Ğəffari, Abdullah ibn Məsud, Cabir ibn Abdullah, Əbu Səid Xidri, Sələmə ibn Əkvə və digər əshab və tabeinlər mütəyə necə əməl etmişlər? Buxari və Müslim kimi bir çox alim, mühəddis və tarixçiləriniz də bunu açıq şəkildə qeyd etmişlər. Bütün bunlar, onların Ömərin xilafətinə qədər mütəyə əməl etdiklərinə dəlalət edir.

Ayrıca, Peyğəmbər (s) vəfat edənə qədər də nəsx edildiyini eşitmədiyimiz üçün əməl etdik» deyirdilər. İmam Əhməd ibn Hənbəl «Müsnəd»ində Əbu Rəcadan, o da Imran ibn Həssindən bu mənaya işarə edən bu sözü rəvayət edir: «Mütə ayəsi Allahın kitabında nazil oldu və biz də Peyğəmbər (s) zamanında buna əməl etdik. Heç bir nasix (nəsx edən) nazil olmadı və Peyğəmbər (s) də vəfat edənə qədər buna mane olunmadı».

İmran ibn Həssinin daha əvvəl rəvayət etdiyim hədisində də nə Qurani-kərimin, nə də Peyğəmbərin(s) mütəni qadağan etmədiyi ifadə edilmişdir. Bu halda, kitab və sünnətdə bir nasix və nəhy olmadığı üçün Qiyamətə qədər bu hökm qüvvədədir!

Necə ki, Əbu İsa Muhəmməd ibn Isa ibn Surə Tirmizi öz «Sünən»ində, bu kitab sizin altı səhih kitabdan biridir - İmam Əhməd ibn Hənbəl «Müsnəd»in 2-ci cildinin 95-ci səhifəsində avə İbn Əsir «Camiul-üsul» kitabında müxtəlif sənədlərlə belə rəvayət etmişlər: «Şamdan olan bir nəfər Abdullah ibn Ömər ibn Xəttabdan: «Qadın mütəsi haqqında nə deyirsiniz? »,-deyə soruşduqda, o, <<halaldır»,-deyə cavab verdi. Şamlı: «Amma atan qadağan etdi» dedikdə, o belə dedi: «Atam qadağan etsə də, Peyğəmbərin (s) əmri atamın qadağasından üstündür və mən Rəsulallahın (s) əmrinə tabeyəm».

Amma söylədiyiniz hədislər Ömərin sözünü doğrultmaq üçün sonradan uydurulan hədislərdir. Bilin ki, mövzu, açıqlanmağa ehtiyac olmayacaq qədər açıq-aydındır. Ömərin sözündən başqa mütəni haram edəcək heç bir doğru dəliliniz yoxdur».

**Şeyx**: «Bilavasitə Ömərin sözü də müsəlmanlar üçün böyük bir sənəddir. Çünki əgər xəlifə Peyğəmbərdən (s) bir şey eşitməsəydi, rəvayət etməzdi!>>

**Dəvətçi**: «İnsaflı və düşüncəli bir alimdən, sadəcə Ömərə olan hədsiz sevgisinə görə belə şeylər söyləməsi gözlənilə bilməz! Çünki fikir və düşüncə lazımdır. Siz Ömər ibn Xəttabın

sözünü müsəlmanlar üçün bir sənəd olduğunu bəyan edirsiniz. Halbuki, Peyğəmbərdən(s) Ömərin sözünün sənəd olduğuna və əməl edilməsinin vacibliyinə dair bir hökmün belə olmadığını bir az düşünən hər kəs anlayacaqdır.

Bilavasitə öz mötəbər kitablarınızda yer alan bir çox rəvayət də Əhli-beytə(ə), xüsusilə də Əmirəl-möminin Əliyə (ə) tabe olmağımızı əmr edir ki, bunlardan bəzisinə əvvəlki gecələr işarə etmişdim. Əhli beytin (ə) bütün üzvləri mütənin nəsx edilmədiyini ifadə etmişlər.

Ömərin Peyğəmbərdən(s) bir şey eşitmədiyi təqdirdə bunu söyləməyəcəyini bəyan etməyiniz, əsla, doğru deyildir! Əvvəla; əgər xəlifə Nəbiyyi-əkrəmdən(s) belə bir nəsxi eşitmiş olsaydı, bunu Rəsulallahın (s) dövründən öz dövrünə qədər əvvəlcədən ifadə etməsi lazım idi. Çünki böyük sahabələrin əməl etdiyini gördükdə, ən azı pislikdən çəkindirmək üçün, bu əməlin nəsx edildiyini və əməl edilməməsini söyləməsi lazım gəlirdi. Bu halda, nə üçün əvvəllər nəhy etmədi?

İkincisi: Peyğəmbər (s) tərəfindən söylənən və yayılan hər hökmün nəsxi də, bilavasitə Özü (s) tərəfindən ifadə edilməlidir. Bu səbəbdən üsul elmində də bəyan edildiyi kimi, bəyanın hacət vaxtından ötürülməsi caiz deyildir.

Xatəmül-ənbiya (s) dövründə qanuni olan bir hökmün nəsxinin Ömərdən başqa kimsəyə söyləməməsi və Ömərin də xilafətinin sonlarında məlum bir şəxsə müxalifət olsun deyə, siyasi baxışla haram olduğunu elan etməsi doğrudurmu?.

Görəsən, ümmət, sizə görə nəsx edilmiş bir hökmlə əməl etdiyi üçün günahkar deyilmi və şəriətə zidd bir iş etməmişdirmi?! Xalqa elan edilməyən və sizə görə nəsx edilmiş bu əməlin günahkarı bilavasitə Peyğəmbər (s) deyilmi? (nəuzubillah) Çünki beləcə, Allahın Ona bildirdiyi nəsxi (hökmü nəsx edəni), sizə görə, O, ümmətə bildirməmişdir. Sadəcə Ömərə demiş, Ömər də xilafətinin sonunda haram olduğunu elan etmişdir! Ömərdən məqamı daha yüksək olan Əbu Bəkr də xilafəti ərəfəsində bu nəsx edilmiş hökmü elan etməmiş və qarşısını almamışdır. Rəsulallahın (s) hökmləri elan etmədiyini və ümmətin də bilmədiyindən nəsx edilmiş bir hökmə əməl etdiyini söyləmək küfr deyilmi?!

Üçüncüsü; əgər mütə Peyğəmbər (s) zamanında nəsx edilmişdisə və Ömər də bunu Rəsuli-Əkrəmdən (s) eşitmişdisə, qadağan edəndə bu hökmü Rəsulallaha istinad etməli idi və bilavasitə O Həzrətin bunu nəsx etdiyini, əməl edilməməsini, daha doğrusu, əməl edənlərin cəzalandırılacağını bəyan etməsi lazım gəlirdi. Beləcə, Peyğəmbərin sözünə əsaslanmasının ümmət arasındakı təsiri də daha çox olardı!

Peyğəmbər (s) zamanında halal olduğunu, lakin özünün bunu haram etdiyini söyləməsi və bunu edənləri daşqalaqla qorxutmasi doğru deyildir! Halal və haramı təyin etmək qeybla əlaqəsi olan Peyğəmbərin (s) vəzifəsidir, yoxsa xalqın seçdiyi bir xəlifənin?

Hələ də, həqiqətən, başa düşə bilmədim ki, Ömər hansı dəlillə Allahın halalını haram etdi və hansı cəsarətlə haram

etdiyini elan etdi? Hətta Peygəmbər (s) belə hökmləri təbliğ edərkən özünün halal və ya haram etdiyini söyləməz, Allahın əmri olduğunu elan edərdi.

Amma Ömər tam bir cəsarətlə belə demişdi:«Peyğəmbər

zamanında mövcud olan iki mütəni mən haram edirəm və edəni də cəzalandıracağam!>>.

Ey bəsirət sahibləri, ibrət alın!»

## MÜCTEHİD HÖKMLƏRİ DƏYİŞDİRƏ BİLƏRMİ?

**Şeyx:** «Bildiyiniz kimi, bəzi alimlərimizin inancına görə, Peyğəmbər (s) də şəri hökmlərdə bir müctehid idi. Daha doğrusu, başqa bir müctehid, ictihadla ilk hökmü, yəni halal və ya haramı dəyişdirə bilər. Bax, bu səbəbdən Ömər: «Mən onları haram edirəm>buyurmuşdur!>>

**Dəvətçi:** «Siz ağalardan bir xətanı düzəltmək üçün başqa xətalara düşəcəyinizi, doğrusu, gözləmirdim. Zəhmət olmasa, Allah Təala rizası üçün yaxşı düşünün, nəss (dəlil) qarşısında ictihad doğrudurmu? Peyğəmbəri (s) bu qədər alçaldıb, Öməri də bu qədər yüksəldərək iki müctehid kimi qarşı-qarşıya qoymağınız doğrudurmu? Sizin bu dediyiniz Quran ayələrinə zidd deyilmi? İndi vaxt dar olduğundan, sadəcə bu ayələrdən bəzisinə işarə edirəm:

Allah-Təala «Yunus» surəsinin 15-ci ayəsində belə buyurur: <<... **Onlara de ki, «Mən onu özbaşına dəyişə**

**bilmərəm. Mənə vəhy olandan başqa bir şeyə tabe deyiləm...>>**

Peyğəmbər (s) belə öz meyli ilə vəhy olmadan hökmləri dəyişdirə bilmədiyi halda, necə olur vəhydən tamamilə uzaq olan Ömər halal və haramı dəyişdirə bilir?! Halbuki, Quran Peyğəmbər (s) haqqında «Nəcm» surəsinin 3-cü və 4-cü ayələrində belə buyurur: **«0, həva-həvəs üzündən danışmır. Bu,ancaq endirilmiş vəhydir».**

Həmçinin, «Əhqaf» surəsinin 8-ci ayəsində belə buyurur:**«Və ya deyərlər: «[Muhəmməd] özündən onu uydurmuşdur». De:«Əgər onu mən özümdən uydurmuşamsa, məni Allahın[cəzalandırmasından qurtarmağa] heç bir şeyə malik deyilsiniz. O, sizin [Quran haqqında] dedi-qodularınızı yaxşı bilir...>>**

Bu ayələr Peyğəmbərin (s) tam mənasıyla İlahi hökmlərə itaət etməsinin vacibliyini göstərir. O halda, nə Ömərin, nə də bir başqa birinin ilahi hökmləri dəyişdirməyə və halalı haram etməyə qətiyyətlə, haqqı yoxdur!».

**Şeyx:** «Şübhəsiz, xəlifə Ömər ümmətin səlahını bu hökmün nəsxində görmüşdür. Çünki bu gün də bəzilərinin bir saat və ya bir ay və yaxud bir il müddətində bir qadınla mütə əqdi bağlayıb hamilə və ya hamilə olmadan tərk etdiklərini görürük. Bu isə fəsadın yayılmasına səbəb olur».

**Dəvətçi:** «Bağışlayın, sizin bu bəyanınız çox gülüncdür. Necə olur, bir ovuc şəhvətpərəst insanın etdiklərini Allahın halal və haramına meyar sayırsınız?!

Əgər bir ovuc şəhvətpərəst insanın etdiyini meyar götürsəniz. onda belə çıxır ki, daimi nigah da haramdır! Çünki bəzi insanlar məqam, mal və ya digər şeylər üçün əsil-nəcabətli bir qadınla daimi nigah bağlayıb, sonra da çox rahat bir şəkildə onu atıb gedirlər. Bu halda dediyinizə görə, daimi nigahın da yanlış olduğunu söyləmək lazımdır!

Xalqa dini aşılamaq, dini vəzifələrini onlara söyləmək lazımdır. Bir insan dindar olub daimi nigahla evlənməkdən məhrum qalırsa, zina etməyəcəyi üçün gedib mütə əqdi bağlayacaq. Bu adam dindar olduğu üçün məcburən mütənin şərtlərini araşdıracaqdır. Çünki hər hökmün şərtləri olduğunu, əvvəl şərtlərinin həqiqiləşməsinin zəruriliyini, daha sonra da əməl etməsi lazım gəldiyini biləcəkdir. Bu səbəbdən, kişi evləənərkən qadına mütədən sonra gözləyəcəyi 45 günlük müddətdə rahat yaşaya biləcəyi miqdarda mehriyyə verəcəkdir.

Ayrıldıqdan sonra da qadının hamilə qalıb-qalmadığını araşdırmalıdır. Əgər qadən hamilədirsə, o uşaq özünün olduğu üçün qadını qorumalıdır. Uşaq olduqdan sonra ona (uşağa) baxmaq məcburiyyətindədir.

Əgər bu şərtlərə riayət etməzsə, siz düşünmədən o dəqiqə halal olan bir hökmün nəsx edildiyini iddia edə bilməzsiniz!

Üstəlik, dediyiniz doğru olsa belə, cəmiyyətin faydasını Allah Təala və Peyğəmbər (s), heç şübhəsiz, Ömərdən daha yaxşı bilir! Bu halda, na üçün cəmiyyətin xeyri üçün əshabı bundan uzaqlaşdırmadılar?! Əgər Peyğəmbər (s) nəhy etməmişsə, heç bir imam və xəlifə «məsləhət» üzrə, Allahın halal etdiyini haram edərak mütəni qadağan edə bilməz!

## MÜTƏNİN QADAĞAN EDİLMƏSİ ZİNANIN ARTMASINA SƏBƏB OLDU

Əgər diqqət etsəniz, mütə hökmünün fəsada səbəb olmadığını görərsiniz. Əksinə, mütəni qadağan etmək zinanı artırdı. Çünki daimi nigahla evlənə bilməyən gənc, mütəni də Ömər qadağan etdiyi üçün, şəhvətinə hakim ola bilmədikdə, məcburan zina edəcəkdir. Zinanın yayıldığı cəmiyyətlərdə isə hörmət pərdələri yırtılır, insanlıq namusu sarsılır, bir çox cinsi xəstəliklər əmələ gəlir və ailələr dağılır. Bu səbəbdən imam Əhməd Sələbi və Təbəri öz «Təfsir» kitablarında, imam Əhməd ibn Hənbəl isə «Müsnəd»də mütə ayəsinin təfsirində sənədiylə Həzrət Əlidən (ə) belə rəvayət edir: **«Ömər mütəni qadağan etməsəydi, pis insanlardan başqa heç kim zina etməzdi».**

Həmçinin, İbn Cureyh və Əmr ibn Dinar Abdullah ibn Abbasdan belə rəvayət edir: «Mütə rəhmətdir. Allah-Təala

onunla Muhəmmədin ümmətinə rəhmət etmişdir. Əgər Ömər qadağan etməsaydi, pislərdən başqa heç kim zina etməzdi>>.

Bu halda Peyğəmbərin (s) əshabının da buyurduğu kimi, mütə zinanın səbəbi deyildir. Əksinə, mütəni qadağan etmək zinanı artırır. Daha doğrusu, Allah-Təalanın Peyğəmbər (s) vasitəsilə cəmiyyətə bildirdiyi hökmlər Qiyamətə qədər bütün insanlığın xeyrinədir. Mütənin haram olduğunu söyləyən əqidənin batil olduğu haqda bir çox dəlil vardır. Amma bura yeri deyildir.

Biz də bu mövzunu ayrıca bəhs etmirdik. Mən, sadəcə Peyğəmbər (s) dövründə qanuni olan bir əməlin uydurulan hədislərlə dəyişdirildiyinə misal çəkmək istəmişdim.

İstədim biləsiniz ki, Allahın bir çox hökmləri dəyişdirilmiş, halal və haramlarla oynanılmışdır.

Şiə və sünni üləmasının ittifaq etdiyi xums və iki mütə hökmü Peyğəmbər (s) dövründə ümmət arasında geniş yayılmış və tətbiq edilən bir şey idi. Sonradan Ömər öz arzusu ilə, heç bir dəlil olmadan halalı haram etdi. Indi də milyonlarla müsəlman heç bir dəlil olmadan, sadəcə atalarının izi ilə gedərək bu inancı müdafiə edirlər. Halbuki, öz mötəbər kitablarınızdakı hədislər və Quran ayələri xums və bu iki mütə hökmlərinin nəsx edilmədiyini açıq şəkildə bəyan edir.

Buna baxmayaraq, nəsx edildiyi haqqında heç bir dəlil olmayan bu hökmlərə əməl edənləri azğın və zəlalət əhli sayırsınız. Daha doğrusu, ümmət arasında Əbu Talibin (r.ə)

mömin və müsəlman olduğu bilindiyi halda, Zihzah hədisi uydurularaq, tam əks göstərilmişdir. Xalq da düşünmədən təqlid edərək həqiqətləri ayaqlar altına atmışdır. Düşünən va elm sahibi olan insanlar üçün bu qədər dəlil kifayətdir. Bəsirət əhlinin də bildiyi kimi, Əbu Talibin iman gətirdiyi haqqında bir çox dəlil vardır, biz də mövzunu araşdırmağa çalışdıq. Həzrət Əlinin (ə) düşmənləri xaricilər, nasibilər və Əməvilər Əbu Talibin (r.ə) dirilib kəlmeyi-şəhadəti söyləmiş olduğunu görsələr belə, yenə təvil edəcək, başqa mənaya yozacaqlar!

Bu mövzuda daha çox məlumat əldə etmək istəyənlər Cəlaləddin Siyyuti, Əbülqasim Bəlxi, Məhəmməd ibn Əshəq, İbn Səd, İbn Quteybə, Vaqidi, imam Mosuli, Şovkani, imam Təlməsani, imam Qirtəbi, Əllamə Bərzənci, imam Şərani, imam Səcmi Əbu Cəfər İsqafi və digərlərinin kitablarına müraciət etsinlər.

Onların hamısı da Əbu Talibin (r.ə) iman gətirdiyini qəbul edirlər və bu mövzuda müstəqil kitablar yazmışlar. Xüsusilə bu söylənənlərdən də başa düşüldüyü kimi, nəsil, soy baxımından Əli (ə) böyük bir məqama sahibdir. Əshabdan heç kəs o müqəddəs məqamda deyildir:

Həqiqət gün kimi ortadadır, kimsəyə gizli deyildir; Ancaq anadangəlmə kor olanlar, Ayı görə bilmirlər.

# HƏZRƏT ƏLİ (Ə) KƏBƏDƏ DOĞULMUŞDUR

Əmirəl-möminin Əlinin (ə) digər seçilən xüsusiyyəti də doğulduğu məkandır. Həzrət Adəmdən Həzrət Muhəmmədə (s) qədər heç bir peyğəmbər və vəsi bu böyük xüsusiyyətə sahib ola bilməmişdir. O, (ə) soy və yaradılışındakı nuraniyyət baxımından seçilmiş olduğu kimi, doğulduğu yer baxımından da seçilmişdir; O, bu mövzuda da təkdir. Həzrət Əli Kəbədə doğulmuşdur.

Isa ibn Məryəmin doğumu əsnasında qeybi bir səs Onu məsciddən bayıra çıxartdı. Bu səs belədeyirdi: «Evdən (Beytül müqəddəsdən) bayıra çıx, bu ev ibadət yeridir, doğum yeri deyil».

Amma Həzrət Əlinin (ə) doğumu yaxınlaşdıqda anası Əsəd qızı Fatimə Kəbəyə çağrılmışdı. Həm də, təsadüfən məsciddə olan və bir anda doğan bir qadın kimi deyil, onu rəsmən Kəbənin içərisinə apardılar. Amma bəzi cahillər Fatimənin məsciddə olduğunu, ani sancılandığını və çıxa bilmədiyi üçün orada doğduğunu zənn edirlər. Halbuki elə deyildir! Əsəd qızı Fatimə doğacağı ay Məscidül-hərama getmiş, orada sancılanmış və Kəbənin ətrafında Allah-Təalaya doğuşunun asan olması üçün dua etmişdi. Anidən Kəbənin divarı[21] yarıldı və ya bağlı qapısı açıldı (rəvayətlərdə hər ikisi qeyd olunur): Bir

---

[21] Kəbənin divarı o zamanlar Məscidül-həramın ortasında idi.Yerdə olan qapısı hər zaman bağlı olur,sadəcə xüsusi mövsümlərdə açılırdı.

səs eşidildi: «**Ey Fatimə Kəbəyə daxil ol!»** Ətrafda olanların gözləri qarşısında Fatimə Kəbəyə girdi, qapı və ya divar ilk halına döndü. Hər kəs təəccüb etdi, orada olan Abbas hadisəni gördükdə o dəqiqə Əbu Talibə xəbər verdi. Kəbənin açarları Əbu Talibdə (r.ə) idi.O, tələm-tələsik gəldi və nə etdilərsə, heç cür qapını aça bilmədilər.

Fatimə tam 3 gün, zahirən heç bir yemək və baxıcı olmadan Kəbədə qaldı. Bütün Məkkədə onun barəsində danışılırdı. Üçüncü gün girdiyi yerdən də çıxdı. Xalq Fatimənin qucağında ay parçası kimi bir uşaq olduğunu gördü:

Allahın şiri vücuda gəldi.

Pərdənin arxasında var olan gəldi.

Həzrət Əli (ə) bax, beləcə Kəbədə doğulma şərafətinə sahib oldu. O Həzrətin (ə) anası xüsusi bir dəvətlə dəvət edilmişdi. Bu hadisə hər iki məzhəbin ittifaq etdiyi mövzudur. Heç kəs belə bir üstünlüyə sahib ola bilməmişdir. Bu səbəbdən Hakim <<Müstədrək>> və İbn Səbbağ Maliki «Fusulul-mühimmə» kitabının 1-ci fəslinin 14-cü səhifəsində belə deyir: «Həzrət Əlidən əvvəl heç kəs Kəbədə doğulmamışdır. Allah-Təala Onu ucaltmaq, mərtəbəsini yüksəltmək və ikram olsun deyə, sadəcə Ona bu şərafəti vermişdir.

## HƏZRƏT ƏLİNİN (Ə) ADININ QEYB ALƏMİNDƏN QOYULMASI VƏ ƏBU TALİBİN MÜVƏHHİD OLMASI BARƏSİNDƏ DİGƏR BİR DƏLİL

Bu mövzuda Həzrət Əlinin (ə) şərafətini artıran digər bir xüsusiyyət də, adının qeyb aləmindən seçilməsidir».

**Şeyx:** «Qəribə şeylər bəyan edirsiniz. Məgər Əbu Talib peyğəmbər idi ki, ona «Uşağının adını Əli qoy»,-deyə vəhy olunsun?! Bu şiələrin Ona qarşı sevgisindən uydurduqları bir şeydir! Yoxsa bunun başqa bir yolu yoxdur! Ata-anası öz iradədəri ilə onun adını Əli qoymuşdur, bunun qeyb aləmilə heç bir əlaqəsi yoxdur!>>

**Dəvətçi:** «Mənim sözümdə sizi təəccübləndirəcək heç bir qəribəlik yoxdur, çünki bütün səmavi kitablarda Muhəmməd (s) və Əlinin (ə) adı, Peyğəmbər və imam olaraq zikr edilmişdir. «Muhəmməd» və «Əli" adını Allah-Təala yaradılışdan minlərlə il əvvəl seçmişdir. Bütün göylərdə, Cənnət qapılarında və ərşdə qeyd edilmişdir. Bunun Əbu Talibin (r.ə) zamanına məxsus olmasından söz belə gedə bilməz!>>

**Şeyx:** «Bu sözünüz güluv (şişirtmə) deyilmi? Siz Həzrət Əlini (r.ə) yaradılışdan əvvəl mələkut aləmində Peyğəmbər (s) ilə birlikdə zikr etməklə həddi aşırsınız. Halbuki, Peyğəmbərin (s) adı da varlığı kimi hər şeydən üstündür və tayı-bərabəri yoxdur! Alimlərinizin bu fitvasına görə azanda, iqamədə də Peyğəmbərin adının ardınca Əlinin adı zikr edilir».

**Dəvətçi:** «(Gülərək) Ağalar bu sözlərimin güluvla heç bir əlaqəsi yoxdur. Onun adını mələkut aləminə mən yazdırmadım,

mənə istinad etməyin. Allah-Təala Onun adını Peyğəmbərin (s) adıyla birlikdə qeyd etmişdir. Bu səbəbdən öz mötəbər kitablarınızda bu mövzuda bir çox hədis vardır».

**Şeyx:** «Siz daha da güluv edərək Əlinin (ə) adını Allahın adıyla zikr etdiniz. Zəhmət olmasa, işarə etdiyiniz rəvayətlərdən misal çəkin».

## ƏRŞİ-ƏLADA ALLAH VƏ PEYĞƏMBƏRİN (S) ADINDAN SONRA ƏLİNİN (Ə) ADININ YAZILMASI

**Dəvətçi:** «Muhəmməd ibn Cərir Təbəri «Təfsiri-kəbir"də, İbn Əsakir «Tarix»də Həzrət Əlinin (ə) əhvalatları daxilində, Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib»in 62-ci babına daxil edərək, Hafiz Əbu Nəim «Hilyətül-övliya»da və Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə» kitabının 238-ci səhifəsində, 56-cı bab, 52-ci hədis (İstanbul çapı) sənədilə imamul-hərəmiş-şərif Əhməd ibn Abdullah Təbəri Şafeinin «Zəxairul-üqba» kitabından nəql edərək fərqli təbirlərlə Əbu Hüreyrədən Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişlər: **«Ərşin sütununa «La ilahə illallah vəhdəhu la şərikə lah və Muhəmmədun əbdi və rəsuli, əyyədtuhu bi-Əliyy ibn Əbu Talib» yazılmışdır**»[22]

---

[22] Allah birdir, Allahdan başqa tanrı yoxdur, bərabəri və ortağı da yoxdur. Muhəmməd mənim qulum və rəsulumdur və Mən onu Əli ilə gücləndirdim.

Cəlaləddin Siyyuti «Xəsaisul-kübra»nın 1-ci cildinin 10-cu səhifəsində və «Dürrul-mənsur»da «İsra» surəsinin əvvəlində İbn Ədiy və İbn Əsakirdən nəql edərək Ənəs ibn Malikdən Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişlər:<Merac gecəsi ərşin sütununda belə yazıldığını gördüm:**«La ilahə illallah Muhəmmədun Rasulullah, əyyədtuhu bi-Əliyyin»**[23]

«Yənabiül-məvəddə»nin 207-ci səhifəsində imamul-hərəmin «Zəxairul-üqba»sından nəql olunaraq Peyğəmbərin (s) belə buyurduğu rəvayət edilir: **«Merac gecəsi yüksək mələkut aləminə çatdıqda, ərşin sağ sütununa baxdım. Orada belə yazılmışdı: «Məhəmməd Allahın Rəsuludur, onu Əli ilə təyid və Ona Əli ilə yardım etdim>>.**

«Yənabiül-məvəddə» kitabının 234-cü səhifəsində, 19-cu hədisdə «Imamul-hərəmin kitabus-Səbin» kitabında Fəqih Vasiti ibn Məğazeli Şafeinin «Mənaqib»indən nəql edərək, Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba»nın 6-cı məvəddəsində 2 hədis, Xətib Xarəzmi «Mənaqib»də, İbn Şirəveyh «Firdovs»da, İbn Məğazəli Şafei «Mənaqib»də, Cabir ibn Abdullahdan Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişlər:**«Cənnətin qapısında belə yazılmışdır: La ilahə illallah,**

[23] Allahdan başqa tanrı yoxdur. Muhəmməd Allahın elçisidir və onu Əli ilə gücləndirdim.

**Muhəmmədun Rəsulullah, Əliyyun vəliyyullah, əxu Rəsulillah qəblə ən yəxluqəs-səmavati vəl-ərzi bi əlfəy amin**[24]

İndi ağlıma başqa bir gözəl hədis gəldi. Yaxşı olardı burada istifadə olunsun: Fəqih Mirseyid Əli Həmədani Şafei «Məvəddətül-qurba» kitabının 8-ci məvəddəsində Peyğəmbərin (s) Əliyə (ə) belə buyurduğunu rəvayət edir: «**Dörd yerdə sənin adını öz adımın yanında gördüm:**

1.**Merac gecəsi Beytül-müqəddəsə çatdıqda, orada daşa yazıldığını gördüm: «La ilahə illəllah Muhəmmədun Rəsulullah (s) əyyədtuhu bi-Əliyyu vəzirihi**»[25]

**2.Sidrətul-müntəhaya çatdıqda orada belə qeyd edildiyini gördüm: «İnni ənəllah la ilahə illa ənə vəhdi və**

---

[24] Allahdan başqa tanrı yoxdur. Muhəmməd Allahın elçisidir. Əli Allahın vəlisi və Peyğəmbərin qardaşıdır, göylə yer yaradılmadan min il əvvəl

[25] Allahdan başqa tanrı yoxdur. Muhəmməd Allahın rəsuludur və onu vəziri olan Əli ilə təyid etdim.

**Muhammadun səfvəti min xəlqi əyyədtuhu bi Əliyyin vəzirihi və nəsərtuhu bihi"**[26]

**3.Rəbbül-aləminin ərşinə çatdıqda,sütunlarına belə yazıldığını gördüm: «İnni ənəllah, la ilaha illa ənə, Muhəmmədun həbibi min xəlqi,əyyədtuhu bi-Əliyyin vəzirihi və nəsərtuhu bihi"**[27]

**4.Cənnətə çatdıqda qapısında belə yazıldığını gördüm: «İnni ənəllah, la ilaha illa ənə, Muhəmmədun həbibi min xalqi, əyyədtuhu bi-Əliyyin vəzirihi və nəsərtuhu bihi»**[28]

İmam Sələbi «Kəşfül-bəyan» təfsirində, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 23-babında hafiz Əbu Nəim İsfahanidən nəql edər; Muhəmməd ibn Cərir «Təfsir"də, İbn Əsakir "Tarix" kitabında Ibn Abbas və Əbu Hüreyrədən nəql

---

[26] Mən Allaham, Məndən başqa tanrı yoxdur. Muhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdim.

[27] Mən Allaham, Məndən başqa tanrı yoxdur. Muhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdim.

[28] "Mən Allaham, Məndən başqa tanrı yoxdur, təkəm. Muhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdim.

edərək **«O,səni yardımıyla dəstəkləyəcəkdir…** [29] ayəsinin həzrət Əli (ə) haqqında nazil olduğunu rəvayət edərək Rəsulallahın (s) belə buyurduğunu nəql etmişdir**:<<Ərşdə belə yazıldığını gördüm:«<La ilahə illəllah vəhdəhu la şərikə ləh Muhəmmədun əbdi və Rəsuli, əyyədtuhu və nəsərtuhu bi-Əliyyibn Əli Talib»**[30]

Həmçinin, «Şəfa» və «Mənaqib» kitablarında bu məzmunda başqa hədislər də rəvayət edilir.

Beləcə bilin ki, " Muhəmməd " və " Əli" adlarının onlara verilməsinin bizimlə heç bir əlaqəsi yoxdur; Onların adları bilavasitə Allah tərəfindən seçilmişdir.

İmam Sələbi "Kəşfül-bəyan " təfsirində, ŞeyxSüleyman Bəlxi Hənəfi "Yənabiül-məvəddə" nin 24cü babında Fəqih Vasiti ibn Məğazeli Şafeidən **"Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr aldı və tövbə etdi. Şübhəsiz, Allah tövbələri qəbul edən və mərhəməti bol olandır"**[31] **ayəsinin təfsirində,** Səid ibn Cubeyr və İbn Abbasdan belə rəvayət edir: " **Peyğəmbərdən(s) Adəmin aldığı və tövbəsinin qəbuluna səbəb olan kəlmələr nələrdir? - deyə soruşduqda o Həzrət belə buyurdu: " Allahdan Muhəmməd, Əli, Fatimə, Həsən və**

[29] Ənfal, 62

[30] Allahdan başqa ilah yoxdur,birdir,bərabəri yoxdur. (ardı ..)

[31] Bəqərə, 37

**Hüseynin haqqı üçün bağışlanmasını istədi. Allah-təala da tövbəsini qəbul edib onu bağışladı."**

Zənn edirəm, şiə alimlərinin yanında mütəvatir olan, sizin böyük alimlərinizin kitablarında yer alan bu qədər hədis sizin birinci sualınız üçün kifayətdir.

Amma Əbu Talibin(r.ə) peyğəmbərliyi və vəhyin ona nazil olması mövzusunda yenə də səhv edirsiniz. Bildiyiniz kimi,vəhy

**...Muhəmməd mənim qulum və elçimdir. Onu, Əli ibn Əbu Talib ilə gücləndirdim və yardım etdim.**

və ilham üçün bir qrup dərəcə və mərtəbələr vardır ki, indi onları bəyan edəcək imkanımız yoxdur. Bundan əlavə, bu mərtəbələr nübuvvət məqamına xas bir şey də deyildir. Lüğət baxımından vəhy bir fərdin digərlərindən gizli və tez xüsusi bir şəkildə məlumatlanması hadisəsidir. Bir çox insan və heyvan vəhy və ilhamlarla tanınmışdır. Məsələn; bal arısı, Musanın anası və digərləri.

Bal arısı peyğəmbər olmadığı halda Allah-təala ona vəhy etmişdir. Bu səbəbdən " Nəhl" surəsinin 68ci ayəsində belə buyurur: **" Rəbbin bal arısına [belə] vəhy etdi: " Dağlarda, ağaclarda və alaçıqlarda( damlarda, pətəklərdə) özünə yuva sal".**

Həmçinin, Həzrət Musanın(ə) anası haqqında da, peyğəmbər olmadığı halda, "Qəsəs" surəsinin 7ci ayəsində belə buyurur: " Musanın anasına vəhy etdik : **" Musanı əmizdir**

**və ondan ötrü qorxduğun zaman onu dənizə at. Qorxma, qəm yemə! Biz onu sənə qaytaracağıq və onu peyğəmbərlərdən edəcəyik ".**

Belə ki, Allah-Təalanın insana yol göstəriciliyi də, sadəcə vəhy yoluyla deyildir, bəzən bir səslə də qullarına yol göstərir. Bu səbəbdən bu iş dəfələrlə təkrarlanmış və Quranda da yer almışdır. Məsələn: «Məryəm» surəsinin 24-cü ayəsində belə buyurur**: «Bu zaman onun [ayağı] altından (bir səs) onu səslədi: «Qəm yemə! Rəbbin sənin üçün [ayağının]altından bir bulaq axıtdı.**

Bu təqdirdə, Allah-Təala bəzən vəhy və bəzən də bir səslə, peyğəmbər olmadığı halda məs: Musanın (ə) və İsanın (ə) analarına, insana və hətta heyvana məs: bal arısına yol göstərir. Bax, bu əsas üzrə Əbu Talibə də övladının adının qoyulmasında köməklik etmişdir. Buna baxmayaraq, heç kim Əbu Talibin (r.ə) peyğəmbər olduğunu söyləməmiş, ona vəhy verildiyini də iddia etməmişdir. Səmavi bir səs və ya yeni doğulan uşağın adının yazıldığı bir lövhənin nazil olması sayəsində köməklik edilmişdir. Böyük alimləriniz də mötəbər kitablarında bunu zikr etmişlər».

**Şeyx:** «Alimlərimiz harada belə bir şeyi yazmışlar?!>>

## HƏZRƏT ƏLİNİN (Ə) ADININ QOYULMASI ÜÇÜN LÖVHƏNİN NAZİL OLMASI

**Dəvətçi**:" Bir çox kitablarınızda mövcuddur. Bu anda yaddaşımda olan Mirseyid Əli Həmədani «Məvəddətül-qurba>>> kitabının 8-ci məvəddəsində Abbas ibn Əbdul-Mütəllibdən nəql edərək, Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 56-cı babında və Muhəmməd ibn Yusif Gənci Şafei də «Kifayəut-Talib>> kitabında 100 babdan sonra 7-ci babında az bir fərqliliklə belə rəvayət etmişlər: «Əli doğulduqda anası, atasının adı olan «Əsəd» adını ona verdi. Əbu Talib bu adla razı olmadı və ona belə dedi: «Ey Fatimə, bu gün Əbu Qubeys dağına (bəzilərinə görə isə, Məscidül-hərəmə) gedək. Allahdan bu uşaq üçün ad istəyək».

Birlikdə axşam olduqda Əbu Qubeys dağına (və ya Məscidül hərəmə) gedib, dua etdilər. Əbu Talib (r.ə) duasını şer şəklində belə bəyan etdi:

Ya Rəbbim! Ey qaranlıq gecənin sahibi! Və aydınladan ayın Rəbbi! Gizli əmrini bizə bəyan et. Bu körpənin adını nə qoyaq?

O anda göydən bir səs gəldi; Əbu Talib başını qaldırdıqda, üzərində dörd sətirdən ibarət yaşıl bir lövhə gördü. O dəqiqə lövhəni götürüb bağrına basdı. Üzərində bu şer yazılmışdı:

Sizlərə təmiz bir uşaq verdik; O, pak, seçilmiş və bəyəndiyim biridir. Adı Allah-Təala tərəfindən Əlidir; ki, Əliyyül-Əladan alınmışdır.

Gənci Şafei isə "Kifayəut-talib" adlı kitabında qeybdən bir səsin gəldiyini və Əbu Talibə cavab olaraq belə deyildiyini yazır:

Ey Peyğəmbərin Əhli-beyti! Sizlərə təmiz bir övlad verdim. Onun adı Əlidir; Əliyyül-Əladan alınmışdır.

Əbu Talib çox sevindi və səcdə etdi. Daha sonra on dəvə qurban kəsdi və o lövhəni Məscidül-hərəmdə asdı. Haşim övladları Qureyşə qarşı o lövhə ilə öyünürdü. O lövhə Həccacın Abdullah ibn Zubeyrlə etdiyi döyüşə qədər orada dururdu, sonra isə itdi. "

(Bu rəvayət də Əbu Talibin (r.ə) müvəhhid olduğunun bir dəlilidir. Çünki Allahdan bir ad istəyir, Ondan bir lütf gördükdə də elə həmin an səcdəyə qapanır. Görəsən, bir nemətə yetişdikdə şükr səcdəsinə qapanan bir insan müşrik ola bilərmi? Cahillik, köhnəlik və inaddan Allaha sığınıram!)

## İMAM ƏLİNİN (Ə) ADI AZAN VƏ İQAMƏNİN BİR HİSSƏSİ DEYİLDİR

"Alimlərinizin bu fitvası üzündən azanda da Peyğəmbərin (s) adından sonra Əlinin adı zikr edilir " sözünüzə gəldikdə, əminliklə deyə bilərəm ki, qəsddən səhvə yol verdiniz. Həzrət Əlinin (ə) adının azan və iqamənin bir hissəsi olduğuna dair nümunə üçün müctehidlərimizin bir fitvasını göstərsəydiniz, çox yaxşı olardı! Halbuki, bütün şiə alimləri öz istidlal və əhkam risalələrində Həzrət Əlinin (ə) vilayət şəhadətinin azanın bir cüzi olmadığını bəyan etmişlər. Həzrət Əlinin(ə) adını azan və

iqamədə onların bir cüzi olaraq söyləmək haramdır. Əgər niyyət əsnasında hamısını Həzrət Əlinin (ə) adıyla birlikdə qəsd edərsə, həm haramdır, həm də əməli batildir. Amma təbərrük məqsədilə və Peyğəmbərin(ə) adından sonra bir cüzü olmadığı bilib söyləyərsə, eybi yoxdur, gözəldir də. Çünki Allah-Təala da, əvvəlcədən zikr etdiyim kimi, Rəsulallahın (s) adını xatırladığı hər yerdə Əlinin (ə) adını xatırladır. Boş yerə çaxnaşma salmağa çalışırsınız!

Artıq əsl mövzumuza qayıdaq. Siz ağalar diqqətlə baxsanız görərsiniz ki, səhabədən heç kəs soy və irq baxımından Həzrət Əli (ə) ilə eyni məqamda deyildir.

## HƏZRƏT ƏLİNİN (Ə) ZÖHD VƏ TƏQVASI

Təqva və zöhd baxımından da heç kim Həzrət Əliyə (ə) çata bilməz. Çünki ümmətin də icma etdiyi kimi Peyğəmbərdən (s) sonra Ondan daha təqvalı və zahid bir kimsə tarixdə görülməmişdir. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» və Muhəmməd ibn Təlhə Şafei də «Mətalibus-süal» kitabında zamanın ən böyük zahidlərindən olan Ömər ibn Əbdül-Əzizdən belə rəvayət edir: **«Bu ümmətin içində Peyğəmbərdən (s) sonra Əlidən daha zahid və təqvalı bir kimsəni tanımırıq».**

Molla Əli Quşçi bütün təəssüb və inadına baxmayaraq, bir çox yerdə belə deyir: **«Ağıllı insanların ağlı Əli (ə) haqqında heyrətə gəlir. Çünki O, gəlmiş və keçmişlərin üzərinə qələm**

**çəkmişdir».** «Şərhi-Təcrid» kitabında yazır: «Əlinin halını və həyat tərzini eşitmək insanda təəccüb hissi doğurur.

## ABDULLAH RAFENİN RƏVAYƏTİ

Abdullah Rafe belə rəvayət edir: «Bir gün Həzrət Əlinin (ə) evinə getdim, Ona ağzıbağlı bir torba gətirdilər. Qapağını açdıqda kəpəkli unla dolu olduğunu gördüm. Ondan bir miqdar yedi, üstündən su içdi və Allah-Təalaya şükr etdi. Mən belə dedim: «Ey Əbəl-Həsən, torbanın ağzını niyə möhürləmisən?» Həzrət Əli (ə) belə buyurdu: **«Çünki Həsən və Hüseyn mənə şəfqətlidirlər; içinə yağ və ya ləziz bir şey tökməmələri üçün və Əlinin nəfsi ləzzət almasın deyə, ağzını bağlayıram>>.**

(Şübhəsiz, insanın nəfsi, dünyəvi halal ləzzətlər içində get-gedə üsyana düşür və onu Allahın zikrindən uzaqlaşdırır).

Həzrət Əli(ə), bax, bu səbəbdən nəfsə məğlub olmamaq üçün ləzzətli yeməklər yeməkdən çəkinirdi.

## SUVEYD İBN ĞƏFLƏNİN RƏVAYƏTİ

Süleyman Bəlxi "Yənabiül-məvəddə"nin 51ci babında Əhməd ibn Qeysdən, Muhəmməd ibn Təlhə Şafei "Mətalibus-sual"da, Xətib Xarəzmi "Mənaqib"də və Təbəri "Tarix" kitabında Suveyd ibn Ğəflədən belə rəvayət edir: " Bir gün Həzrət Əlinin (ə) yanına getdim. İyi mənə yetişən bir qab süd gətirib Həzrət Əlinin (ə) önünə qoydular. Həzrət Əlinin (ə)

əlində kəpəkli və qurumuş arpa çörəyi var idi. Çörək o qədər bərk idi ki, İmam (ə) onu əli ilə yox, dizi ilə qırdı. O, qurumuş çörəyi süddə isladıb yeyirdi. Mənə də təklif etdikdə, oruc olduğumu söylədim. O Həzrət(ə) belə buyurdu: **" Həbibim Rəsulallahdan(s) eşitmişəm ki, buyurub: " Hər kəs oruc tutub, canı istədiyi halda Allahın rızası üçün yeməzsə, Allah-Təala ona cənnət yeməklərini yedirdər".**

Suveyd belə davam edir: " Əmirəl-mömininin(ə) halına çox acıdım, yanımda duran xidmətçisinə: " Allahdan qorxmursanmı?! Çörəyi, arpanın kəpəyini ayırmadan bişirirsən?! - deyərək etiraz etdim. Xidmətçi : " Allaha and olsun ki, Onun özü kəpəyi ayırmamağımı əmr etmişdir" - dedi.

Həzrət Əli(ə): "Fizzəyə nə deyirdin?" - deyə soruşdu. Mən də, dediklərimi bir-bir ona söylədim. Həzrət Əli(ə) buyurdu: **" Anam-atam Rəsulallaha fəda olsun. O da çörəyin kəpəyini ayırmazdı və dünyadan köçənə qədər belə buğda çörəyi yemədi".**

## HƏZRƏT ƏLİNİN (Ə) HALVA YEMƏMƏSİ

Müvəffəq ibn Əhməd Xarəzmi və Şafei fəqihi İbn Məğazeli " Mənaqib" kitablarında belə rəvayət edirlər: "Həzrət Əliyə(ə) zahiri xilafəti ərəfəsində bir az halva gətirdilər. O, barmağı ilə bir miqdar alıb iylədi və belə buyurdu: **" Necə də gözəl rəngi və iyi vardır. Amma Əli onun dadını bilmir" ( Yəni indiyə qədər halva yeməmişəm).**

Ondan**: «Ey Əli, halva yemək sizə haramdırmı?»,-deyə soruşulduqda belə buyurdu:«Allahın halalı haram olmaz. Amma məmləkətdə aclar olduğu halda, mənim qarnım necə tox ola bilər?! Hicaz ətrafında ac qarınlar, ərimiş ciyərlər varkən, mən tox qarınla necə yata bilərəm?! Əmirəl-möminin olduğum halda, möminlərin dərd və çətinliklərindən necə uzaq dura bilərəm?!»**

Həmçinin, Xarəzmi Ədiyy ibn Sabitdən belə rəvayət edir: «Bir gün Həzrət Əliyə şirniyyat gətirdilər; amma O, nəfsinə hakim olaraq yemədi».

Bunlar Həzrət Əlinin (ə) yemək tərzi idi; bəzən sirkə, bəzən duz. bəzən bir az göyərti, bəzən də qurumuş arpa çörəyi ilə bir miqdar süd yeyərdi. Heç vaxt iki növ yemək yeməzdi.

Hicri 40-cı ildə Ramazan ayının 19-cu gecəsində, yəni Əbdurrəhman ibn Mülcəm Muradi tərəfindən şəhadət zərbəsinə məruz qaldığı gecə qızı Ümmü-Gülsümün qonağı idi. İftar üçün Həzrət Əliyə (a) çörək, süd və duz gətirdilər. Həzrət Əli (ə) qızı Ümmü-Gülsümü o qədər sevməsinə baxmayaraq, narazı halda buyurdu: **«Sənin qədər atasına əziyyət edən bir qız görmədim». Ümmü-Gülsüm: «Atacan, mən nə etdim?»,-deyə soruşduqda Əmirəl-möminin (ə) belə buyurdu: «Atanın bir süfrədə iki cür yemək yediyini harada görmüsən?»**

Daha ləzzətli olan südü götürməyi əmr etdi; sadəcə çörək və duz ilə iftar etdi. Sonra belə buyurdu: **«Dünyanın halalında hesab, haramında isə əzab vardır».**

## HƏZRƏT ƏLİNİN (Ə) PALTARI VƏ GEYİMİ

İmam Əlinin (ə) paltarı da olduqca sadə idi. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»ndə, İbn Məğazali «Mənaqib»də, Əhməd ibn Hənbəl «<Müsnəd>də, Səbt ibn Covzi «Təzkirə»də və digər alimləriniz də öz kitablarında belə yazmışlar: «Həzrət Əlinin paltarı 5 dirhəmə aldığı köhnə bir parçadan idi».

Mümkün olduğu qədər paltarını xurma lifləri ilə yamayırdı, ayaqqabısı da xurma liflərindən toxunmuşdu.

Muhəmməd ibn Təlhə Şafei "Mətalibus-süal"da, Süleyman Bəlxi Hənəfi "Yənabiül-məvəddə"də və ibn Əbil-hədid mötəzili "Nəhcül-bəlağənin şərhi"ndə belə yazır : " Xilafəti dövründə Həzrət Əlinin (ə) paltarında o qədər yamaq var idi ki, əmisi oğlu Abdullah ibn Abbas Onu bu vəziyyətdə görüb narahat oldu. O(ə), bu narahatçılığı duyub belə buyurdu: **" O qədər libasına yamaq vurmuşam ki, artıq yamaqdan utanıram. Amma Əlinin dünya zinəti ilə nə işi var! Fani olan və əbədi qalmayan nemətlərə necə sevinə bilərəm!"**

Başqa biri : " Nə səbəbdən xilafətdə olduğunuz bir vaxtda yamaqlı paltar geyinib, özünüzü düşmənlər qarşısında gülünc hala salırsınız?"- deyə etiraz etdikdə Həzrət cavabında belə buyurdu: **" Bu qəlbi yumşaldan, insandan kibri uzaqlaşdıran və mömini özünə qapadan bir paltardır".**

Həmçinin, Muhəmməd ibn Təlhə "Mətalibus-süal", Xarəzmi " Mənaqib", İbn Əsir " Kamil" və Süleyman Bəlxi

"Yənabiül-məvəddə" kitabında belə rəvayət edir: " Əlinin və köləsinin paltarı birdir. Aldığı hər iki paltar da eyni şəkildə və eyni dəyərdədir; birini özü geyinir, digərini də köləsi Qənbərə verirdi".

Bax bunlar, alimlərinizin də yazdığı kimi Həzrət Əlinin(ə) yemək və geyim tərziydi; vaxt az olduğundan bu qədəri ilə kifayətətlənirəm, həqiqətən,  Həzrət Əlinin(ə) yaşayışı, ağılları riqqətə gətirən bir həyat tərzidir.

Həzrət Əlinin(ə) özü quru arpa çörəyi yediyi halda, fəqirlərə, yetimlərə, yoxsullara buğda çörəyi, şəkər, bal və xurma verərdi. Özü yamaqlı paltar geydiyi halda , yetimlərə və dul qadınlara ən gözəl paltarlar verərdi.

## ZURARIN MÜAVİYƏ İLƏ SÖHBƏTİ

Həzrət Əlinin (ə) dünyaya xitabən söylədiyi sözlər, Onun zöhdünü, təqvasını və dünyaya etimadsızlığını göz önündə canlandırır. Bu səbəbdən böyük alimlərinizdən İbn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"ndə, Hafiz Əbu Naim İsfəhani " Hilyətül-övliya"nın 1ci cildinin 84cü səhifəsində, Abdullah ibn Amir Şəbravi Şafei «Kitabul-ihtaf bi hubbil-əşrafın 8-ci səhifəsində, Muhəmməd ibn Təlhə «Mətalibus-süal»un 33-cü səhifəsində, Nurəddin ibn Səbbağ Maliki «Fusulul-mühimmə»nin 128-ci səhifəsində, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiül-məvəddə»nin 51-ci babında, Səbt ibn Covzi «Təzkirə»nin 5-ci babının 69-cu səhifəsinin sonunda və digər

alim və tarixçiləriniz də öz əsərlərində Haviyə əhli[32] Müaviyə ilə Zurar ibn Zəmurə arasında olan söhbəti təfərrüatı ilə rəvayət etmişlər. Söhbətin sonunda Zurar, Müaviyənin yanında Həzrət Əlini (ə) belə vəsf etmişdir: «Qaranlıq bir gecədə Əlini gördüm. Saqqalını tutub ilan vurmuş adam kimi qıvrılırdı, hüzünlü bir halda ağlayaraq belə deyirdi: «**Ey dünya, məndən başqasını aldat, mən sənə aldanmaram, mən sənə üç dəfə talaq verib boşadım. Artıq sənə tərəf dönmərəm; çünki sənin ömrün qısa, təhlükən çox böyük, ləzzətin çox azdır. Ey vay olsun ömrə, uzun yolçuluğa və təhlükəli yola>>.**

Müaviyə Həzrət Əliyə (ə) qarşı o qədər daşqəlbli olmasına baxmayaraq, Zurarın bu sözləri qarşısında ağlayaraq belə dedi: «Allah Əliyə rəhmət etsin, Allaha and olsun ki, o, belə idi».

Başqa bir yerdə isə Müaviyə belə demişdir: «Dünya qadınları Əli kimi birini doğmaqdan məhrumdur».

## ZÖHDƏ GÖRƏ PEYĞƏMBƏRİN (S) ƏLİYƏ (Ə) MÜJDƏSİ

Həzrət Əlinin (ə) zöhd həyatı Peyğəmbərin (s) müjdələdiyi İlahi bir feyzdir. Bu səbəbdən Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-talib»in 46-cı babında sənədi Əmmar Yasirdən nəql edərək Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişdir: **«Ey Əli, dünyadakı zöhdün səbəbilə Allah-Təala səni, insanlardan**

[32] Cəhənnəm əhli

**heç kimi ziynətləndirmədiyi bir zinətlə zinətləndirmişdir.Çünki Allah Təala dərgahında zöhddən daha sevimli bir şey yoxdur. Nə sən dünyəvi ləzzətlərdən faydalandın və nə də dünya səni ağuşuna ala bildi. Allah-Təala səni yoxsullarla dostluğa müvəffəq etmişdir. Onlar sənin imamətinə inanmışlar. Mən də onların sənə itaətindən xoşhal oluram. Səni sevənlərin, imamətini təsdiq edənlərin xoş halına! Sənin düşmənlərinə, sənə iftira və yalan atanların vay halına! Səni sevənlər və imamətini təsdiq edənlər Cənnətdə sənin qonağın olacaq və sənin əzəmətli sarayında səninlə birlikdə olacaqlar. Allah-təala sənin düşmənlərini , Qiyamət günü yalançıların olduğu yerdə cəzalandıracaqdır!"**

Həzrət Əli(ə) o qədər təqvalı və zöhd əhliydi ki, dost düşmən hər kəs onu " İmamul-Muttəqin" ( Müttəqilərin İmamı) adlandırırdı. Həzrət Əlini(ə) bu sifətlərilə , cəmiyyətə tanıdan ilk kəs, bilavasitə Peyğəmbər (s) idi. Vaxtımız dar olduğundan bunlardan sadəcə bir neçəsinə, işarə etmək istəyirəm.

## ALLAH VƏ PEYĞƏMBƏRI, ƏLİNİ "MÜTTƏQİLƏRİN İMAMI" DEYƏ İNSANLARA TƏQDİM EDİR

İbn Əbil-hədid "Nəhcül-bəlağənin şərhi"nin 2ci cildinin 45ci səhifəsində, Hafiz Əbu Nəim İsfəhani "Hilyətül-övliya"da, Mirseyid Əli Həmədani "Məvəddətül-qurba"da, Muhəmməd ibn Yusif Gənci Şafei "Kifayəut-talib" in 54cü babında, Ənəs ibn Malikdən belə rəvayət edirlər: **" Peyğəmbər (s) bir gün mənə: " Ey Ənəs, mənə dəstəmaz suyu gətir-deyə buyurdu. Mən də**

**durub dəstəmaz suyu gətirdim. Peyğəmbər (s) dəstəmaz aldıqdan sonra, iki rəkət namaz qıldı və ardınca mənə belə buyurdu : " Ey Ənəs, bu qapıdan ilk gələcək kəs, müttəqilərin imamı, müsəlmanların ağası, möminlərin mövlası, vəsilərin sonuncusu, əl və ayaqları (dəstəmaz əzaları) nurlu olanların qabaqcılıdır."**

Ənəs sözünün davamında belə deyir: **" Mən qəlbimdə bu gələcək kişinin ənsardan biri olmasını istədim. Amma elə bu an qapıdan Əli içəri daxil oldu və Rəsulallah (s) belə buyurdu: " Gələn kimdir?" Dedim: " Əbu Talib oğlu Əlidir". Peyğəmbər (s) sevinc içində qalxıb, Həzrət Əlini qarşıladı, əlini boynuna salıb tərini sildi. Həzrət Əli belə dedi: " Ya Rəsulallah, bu gün mənimlə qeyri-adi davranırsan, əvvəl davrandığından fərqli olaraq". Peyğəmbər (s) belə buyurdu: " Niyə görə də belə etməyim. Çünki sən mənim tərəfimdən risalətimi xalqa çatdıracaqsan, onlara səsimi xatırladacaqsan və məndən sonra ixtilafa düşdükləri mövzuları bəyan edəcəksən».**

Həmçinin, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildində və Hafiz Əbu Naim isə «Hilyə» kitabında belə rəvayət edir: **«Bir gün Həzrət Əli Peyğəmbərin (s) hüzuruna gəldikdə, Rəsulallah: «Müsəlmanların mövlası və müttəqilərin imamı! Mərhaba, xoş gəldin»,-deyə buyurdu. Ardınca: «Bu nemətə qarşı şükrün necədir?»,-deyə soruşdu. Həzrət Əli cavabında belə dedi: «Mənə verilən nemətlərin müqabilində Allaha həmd edirəm. Mənə şükür nemətini verməsini diləyirəm və mənə verdiklərini artırmasını umuram».**

Muhəmməd ibn Təlhə Şafei «Mətalibus-süal»un 1-ci babının 4 cu fəslində bu hədisi rəvayət edir və bu dəlillə Həzrət Əlini Müttəqilərin imamı və təqva əhlinin ən üstünü olduğunu isbat edir.

Hakim «Müstədrək»in 3-cü cildinin 138-ci səhifəsində, Buxari və Müslim isə «Səhih»lərində Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edirlər: **«Əli haqqında mənə üç şey vəhy edilmişdir; O. müsəlmanların mövlası, müttəqilərin imamı, əl, ayaq və üzü nurlu olanların qabaqcılıdır».**

Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talib»in 45-ci babında, sənədilə Abdullah ibn Əsəd ibn Zürarədən nəql edərək Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişdir: **«Məni Merac gecəsində, lal-cəvahiratdan tikilmiş və par-par yanan qızıla döşənmiş bir saraya gətirdilər. Mənə üç şey vəhy və əmr edildi ki, Əlinin (ə) üç xisləti vardır, O müsəlmanların mövlası, müttəqilərin imamı və dəstəmaz əzaları nurlu olanların qabaqcılıdır».**

İmam Əhməd ibn Hənbəl də «Müsnəd» kitabında Rəsuli əkrəmin (s) Həzrət Əliyə belə buyurduğunu rəvayət edir: **«Ey Əli, sənin üzünə baxmaq ibadətdir. Şübhəsiz ki, sən müttəqilərin imamı və möminlərin mövlasısan; səni sevən məni sevmişdir və məni sevən Allahı sevmişdir. Sənə qarşı üsyan edən mənə qarşı üsyan etmişdir və mənə qarşı üsyan edən də Allaha qarşı üsyan etmişdir».**

Şübhəsiz, bəzi düşüncəsiz insanların da xəlifə və sultanları həddindən artıq tərifləməsi tarixlərdə qələmə alınmışdır. Amma Peyğəmbər (s) kimi haqq və həqiqət abidəsi olan bir insan, əsla, bir kəsi əbəs yerə ali məqam və sifətlərlə xüsusiyyətləndirməz! Onun ağzından çıxan hər kəlam həqiqətdir. Bu səbəbdən Quran bela buyurur: «O, arzusuna görə danışmaz; Onun (söylədikləri) yalnız vəhiydir»[33]

Xüsusilə də, Merac gecəsi Ona, Əlinin müttəqilərin imam olduğu əmr edildiyini bildirir.

Bu halda Peyğəmbərin (s) Allahın əmrilə Həzrət Əlini, heç kəs haqqında söyləmədiyi bir sifətlə xüsusiyyətləndirməsi, Onun (ə) məqam, fəzilət və təqvasını göstərməsi baxımından kifayətdir. Bütün səhabələr arasında təkcə Həzrət Əlini (ə) «müttəqilərin imamı" adlandırmış və dəfələrlə onu bu ləqəblə çağırmışdır. Əlbəttə, bir insanın təqva əhlinin imamı olması üçün bilavasitə özünün, tam mənasıyla, müttəqi və örnək olması lazım gəlir.

Əgər Həzrət Əlinin (ə) təqva və zöhd dünyasını hər incəliyi ila aldatmaq istəsək, onda üst-üstə yığılan cildlərlə kitablar meydana gəlmiş olar».

---

[33] Nəcm, 3-4

**Şeyx:** «Mövlamız Əli (ə) haqqında söylədikləriniz azdır hələ.Həqiqətən, Müaviyənin də dediyi kimi:«Qadınlar Əli ibn Əbu Talib kimi bir kəsi doğmaqdan qısırdır».

**Dəvətçi:** «O halda Həzrət Əlinin (ə) əshab arasında təqva əhlinin abidəsi olduğu və Peyğəmbərin (s) Allahın əmrilə Onu müttəqilərin imamı qərar verdiyi aşkar oldu. Həzrət Əli (ə) əsil nəcabət baxımından üstün olduğu kimi, təqva baxımından da hər kəsdən üstündür. Burada bir söz ağlıma gəldi, icazənizlə sizə bir sual verim».

**Şeyx:** «Rica edirəm, buyurun».

**Dəvətçi:** «Görəsən, əshab arasında təqva əhli olan Həzrət Əli kimi bir kəs, məqam düşgünü, dünyapərəst və nəfsinə uyan ola bilərmi?

**Şeyx**: «Əsla! Əli (ə) haqqında belə bir şey düşünmək olmaz.Dediyiniz kimi, dünyaya üç dəfə talaq verib boşayan və bu cümlələrlə dünyaya etinasızlığını göstərən bir kəs necə dünyaya meyilli ola bilər?! Həzrət Əlinin məqamı vəsf edilənlərdən daha ucadır. Həmçinin, düşünüləsi belə mümkün deyildir».

**Dəvətçi**: «Bu halda o təqva abidəsinin bütün əməlləri Allah-Təala üçündür, Ondan başqası üçün bir addım belə atmamışdır.Harada haqqı görsə, onu qəbul edərdi».

**Şeyx:** «Aydındır ki, Həzrət Əli (ə) haqqında bundan başqa bir şey bilmirik».

## HƏQİQƏT ƏHLİ İNSAFLA HÖKM VERSİN

**Dəvətçi:** «Bu halda bildiyiniz kimi, Peyğəmbərin (s) vəfatından sonra, Həzrət Əli (ə) vəsiyyətə görə Rəsulallahın yuyulması, kəfənlənməsi və dəfni ilə məşğul ikən, Bəni-Saidə Səqifəsində bir qrup toplanaraq, Əbu Bəkrə beyət etmişdi. Həzrət Əlini də beyətə dəvət etdikdə, görəsən, O, nə səbəbdən beyət etmədi?

Əgər Əbu Bəkrin xilafəti haqq, icma məsələsi sabit və haqqaniyyət dəlili olmuş olsaydı, Həzrət Əli (ə) təqva və zöhd abidəsi olduğu halda bəhanə gətirib, haqdan üz çevirməzdi. Çünki Peyğəmbərin (s) da buyurduğu kimi, haqq harada olsa Əli də orada olmalıdır.

Təqvalı və müttəqi şəxs haqdan üz çevirməməlidir. Sənədlərini də əvvəlki gecələr zikr etdiyim hədislərdə Peyğəmbər (s) belə buyurur: **«Əli haqladır, haqq da Əli ilə>>.**

Əgər o hadisələr haqq və Əbu Bəkrin xilafətə seçimi doğru olmuş olsaydı, Həzrət Əli (ə) onu məhəbbətlə qarşılayar və əsla müxalifət etməzdi.

Daha doğrusu, Həzrət Əlinin (ə) müxalifətinin iki səbəbi ola bilər; ya Əli haqqa zidd davranmış, Peyğəmbərin (s) əmrinə üsyan edərək Onun xəlifəsinə beyət etməmişdir; ya da xilafətin seçimi və icma yolunun haqqa ziddiyyətli olduğunu görüb, bu işləri siyasi bir oyun bilmişdir.

Peyğəmbərin (s) də buyurduğu kimi, daim haqla olan, «Müttəqilərin imamı» adlandıran, dünya əhli olmayan, məqam və mövqe arxasınca qaçmayan, dünyaya üç dəfə talaq verib boşayan, zahiri riyasət arxasınca olmayan Əli kimi bir şəxsiyyət haqqında birinci ehtimal, əsla, doğru deyildir. Daha doğrusu, xilafəti siyasi bir oyun bildiyindən və Allah-Təala və Rəsulunun rizasına zidd olduğundan beyət etməkdən çəkinmişdir».

**Şeyx:** «Mövlamız Əlinin (r.ə) beyət etmədiyi haqda dediyiniz sözlər təəccüblüdür. Halbuki, bütün hədis və tarix kitablarımız mövla Əlinin Əbu Bəkrə beyət etdiyini və icmadan üz çevirmədiyini yazır».

**Dəvətçi**:«Əvvəlki gecələr təfsilatıyla ərz etdiyim şeyləri unutmağınız daha təəccüblüdür. Halbuki, mən qeyd etdim ki, sizin böyük alimləriniz, hətta Buxari və Müslimin «Səhih"lərində Həzrət Əlinin (ə) dərhal beyət etmədiyi qeyd edilmişdir.

Bir çox alimlərinizin etiraf etdiyinə görə, birinci gün zorla məscidə gətirildisə də belə, beyət etməyərək, evinə dönmüşdü. Ibrahim ibn Səd Səqəfi (ö/t: 283-cü il), İbn Əbil-Hədid, Təbəri və digər etibarlı alimləriniz bu məsələdə ittifaq edərək belə yazmışlar. «Həzrət Əli (ə) 6 ay sonra beyət etdi».(Yəni əvvəlki gecələrdə təfsilatı ilə ərz etdiyim kimi, Həzrət Fatimənin (ə) vəfatından sonra (ikrahla) beyət etmişdir.)

Fərz edək ki, beyət etdi, amma nə səbəbdən 6 ay müxalifətdən sonra? Əksinə, bu xilafətin doğru olmadığı üçün

onlarla mübarizə apardı. Halbuki, Həzrət Əli (ə) kimi təqva abidəsi olan bir insan haqdan üz çevirməzdi>>.

**Şeyx:** «Hər halda bunun bir səbəbi vardır. Özləri nə etdiklərini daha yaxşı bilirlər. 1300 il sonra bizim, böyüklərin işlərinə və ixtilaflarına qarışmağımızın nə anlamı var!». (Məclisdə olanların gülüşməsi.)

**Dəvətçi**: «Mən bu qədər cavabınızla yetindim; çünki sizin məntiqli bir cavabınız olmadığı üçün bu cür cavablara yönəldiniz. Halbuki, mövzu ağıllı və insaflı kimsələrin nəzərində əlavə heç bir dəlilə ehtiyac yoxdur.

Böyüklərin ixtilafına qarışmamaq mövzusuna gəldikdə; əgər o işin bizə bir aidiyyatı olmazsa, onların ixtilafına qarışmağımız doğru deyildir. Amma siz, xüsusilə bu mövzuda səhv edirsiniz. Hər ağıllı müsəlman həqiqi bir dinə sahib olmalıdır; təqlidi dinə deyil! Dində araşdırmanın yolu bax, budur. Biz tarixi araşdırdıqda Peyğəmbərin (s) vəfatından sonra ümmətin və böyük səhabələrin iki yerə ayrıldıqlarını görürük. Bu halda haqlı olanı təqib edə bilmək üçün hansının haqq olduğunu araşdırmaq məcburiyyətindəyik. Kor-koranə atalarımızı təqib etmək və heç bir araşdırma aparmamaq, əsla, doğru deyildir».

Şeyx: «Hər halda, siz Əbu Bəkrin xilafətinin haqq olmadığını söyləmək istəyirsiniz. Əgər Əbu Bəkrin xilafəti haqsız və Həzrət Əli (ə) haqlı olmuş olsaydı, o halda həzrət Əli kimi cəsur və haqqın icrası üçün böyük bir qeyrət göstərən bir

kəs, başqaları da onu bu işə təşviq etdiyi halda, nə səbəbdən qiyam etmədi? Dediyiniz kimi, niyə 6 ay sonra beyət etdi? Hətta namazlarda iştirak edir, lazım olan anda xəlifələrin istişarə (məsləhət) məclislərində iştirak edərək mühüm nəzərlər irəli sürüb, məsləhət verirdi>>.

## PEYĞƏMBƏRLƏRİN ÜMMƏTLƏRİ ARASINDA QİYAM ETMƏMƏLƏRİ YARDIMÇILARININ OLMAMASI SƏBƏBİLƏDİR

**Dəvətçi:**«Əvvəla; ənbiya və vəsilərin bütün əməlləri öz iradələri ilə deyil, İlahi əmrlər əsasında idi. Daha doğrusu, onları «nə səbəbdən qiyam etmədilər, susdular düşmənlərin qarşısından qaçdılar və ya gizləndilər», - deyə günahlandırmaq olmaz.

Böyük ənbiya və vəsilərin tarixini araşdırsaq, bu cür hadisələrlə çox rastlaşarıq. Xüsusilə Quran bu hadisələrin bəzisini qeyd etmişdir. Onlar tərəfdarlarının olmaması səbəbindən susmuş, oturmuş, qaçmış və ya gizlənmişlər. Məsələn: «Qəmər» surəsinin 10-cu ayəsində Şeyxul-Ənbiya Həzrət Nuh (ə) peyğəmbərin bu sözü buyurulur: **«Nuh Rəbbinə dua edib: «Mən (öz qövmüm içində) məğlub oldum, buna görə də (onlardan) intiqam al!»-dedi>>.**

«Məryəm» surəsinin 48-ci ayəsində həzrət İbrahimin əmisi Azərdən yardım diləyib mənfi cavab aldıqdan sonra belə buyurduğu nəql edilmişdir: «Mən sizi və sizin Allahdan başqa

tapındığınız bütləri tərk edib, bir kənara çəkilir və öz Rəbbimə dua edirəm...>>

Həzrət İbrahim əmisi Azərdən bir kömək görmədikdə xalqdan uzaqlaşıb, tənha guşəyə çəkildi. İmam Əli (ə) da lazımlı tərəfdar və yardımçı tapa bilmədiyi üçün bir guşəyə çəkildi».

**Şeyx:** «Zənn edirəm, bu «guşəyə çəkilmə»dən məqsəd qəlbi uzaqlaşmadır. Yəni onlardan məkan olaraq deyil, qəlbən uzaqlaşdı».

**Dəvətçi**: «Əgər hər iki firqənin təfsirinə baxsanız, bu uzaqlaşmanın qəlbi deyil, məkani uzaqlaşma olduğunu görərsiniz. Bu səbəbdən imam Fəxri Razi «Təfsiri-kəbir» kitabının 51-ci cildinin 809-cu səhifəsində belə deyir: «Guşəyə çəkilmək bir şeydən uzaqlaşmaq mənasındadır. Həzrət İbrahimin tənha guşəyə çəkilməsi məkan və yol baxımından onlardan uzaqlaşmasıdır».

Seyr ərbabının yazdığı kimi, həzrət İbrahim Babildən Fars dağlarına hiçrət etdi. İnsanlardan uzaqlaşıb, 7 il o dağların ətəyində yaşadı. Daha sonra Babilə döndü, dəvətini açıqladı və bütləri sındırdı. Buna görə də onu tutub oda atdılar. Allah-Təala da odu sərin edərək Ibrahimi (ə) qorudu. Beləcə, risalət əmrini aşkara çıxartdı. <<Qəsəs>> surəsinin 21-ci ayəsində həzrət Musa haqqında belə buyurulur: «(Musa) qorxu içində (ətrafina) göz qoya-qoya oradan (şəhərdən) çıxıb «Ey! Rəbbim! Məni bu zalım tayfanın əlindən qurtar»-dedi>>.

Allahın böyük peyğəmbərləri belə qorxu içində olduqları halda Rəsuli-Əkrəmin (s) vəsisi tənha bir guşəyə çəkilə bilməzmi?

Allah-Təala Əraf» surəsinin 150-ci ayəsində bəni-İsrailin həzrət Musanın vəd olunan kitabı - Tövratı gətirməsi üçün Tur dağına getdikdən sonra Samirinin hiyləsi ilə qızıldan düzəldilmiş buzova sitayiş etdikləri zaman Musanın xəlifəsi olan Harunun sükutunu rəvayət etdikdən sonra belə buyurur: «...Qardaşının başından tutub özünə tərəf çəkməyə başladı. Harun dedi: «Anam oğlu! Bu qövm məni zəif gördü və az qala məni öldürəcəkdilər...>>

## XİLAFƏT BARƏSİNDƏ ƏLİ(Ə) İLƏ HARUN(Ə)-IN OXŞARLIĞI

Quran ayələrinin də bəyan etdiyinə görə həzrət Peyğəmbər(s) va həzrət Musanın (ə) xəlifəsi olan həzrət Harun tənha olduğuna görə ümmətin azğınlıq etdiyi bir vaxtda susaraq, qiyam etməmişlər.

Həzrət Peyğəmbər (s) da həzrət Əlini (ə) Harunun bir bənzəri saymış və Harunun məqamına sahib olduğunu açıq-aşkar bəyan etmişdir. Həzrət Əli (ə) də baş verən bu hadisələrin qarşısında özünü tənha gördükdə Harun kimi səbir və təhəmmül etmişdir.

Bu səbəbdən əvvəlki gecələr ərz etdiyim və böyük alimlərinizin də kitablarında yer alan rəvayətlərə əsasən,

həzrət Əli (ə) zor gücünə məscidə gətirilib beyət etməsi üçün başının üstünə qılınc çəkildikdən sonra Peyğəmbər(s)-in qəbrinin üstünə getmiş və Harunun Musaya söylədiyi bu sözü təkrar etmişdi: «Anam oğlu! Bu qövm məni zəif gördü və az qala məni öldürəcəkdilər» Yəni ey Rəsulallah, bax, bu ümmət məni tək-tənha qoydu onlar da məni zəif görüb öldürmək istədilər.

Hətta Peyğəmbər (s) belə Məkkədə 13 il sükut etdi və sonda da gecə ikən vətənindən qaçmaq məcburiyyətində qaldı. O da əvvəlki peyğəmbərlər kimi tərəfdarları və dostları olmadığı üçün səbir etmiş, sonra da qaçmışdı. Təhəmmül edilə bilməyən işlərdən qaçmaq Peyğəmbərlərin sünnətidir. Hətta həzrət Peyğəmbər(s) qüdrətli olduğu bir vaxtda belə qövmünün bütün bidətlərini aradan aparmadı>>.

**Şeyx:** «Həzrət Peyğəmbər (s)-in bidətləri aradan aparmadığına necə inana bilərik?»>

**Dəvətçi**: «Həmidi "Cəmun-bəynəs-Səhiheyn» və imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında Peyğəmbər(s)-in Ümmül-möminin Aişəyə belə buyurduğunu rəvayət etmişlər: **«Əgər insanlar cahiliyyət dövrünə yaxın olmasaydı və qəlbən inkar edəcəklərindən qorxmasaydım, Kəbəni söküb həzrət İbrahim(ə) dövründə olduğu kimi bayırda qalan bölümlərini də içinə alar və evi yerə oturdardım. Şərq və qərb tərəfə iki qapı açardım və təməlini həzrət İbrahimin bina etdiyi təməl üzərində qurardım».**

Ağalar, bir az insaflı olun! Rəsulallah (s) hətta Onun kimi böyük məqama sahib ilahi bir insan belə -səhabəsi arasında şirk və küfrün əsərlərini aradan aparmaqda ehtiyatlı davranırsa (alimlərinizin yazdığına görə) və İbrahimin binasında edilən bidətləri dəyişdirib əsl şəklinə döndərə bilmirsə inadkar, boşboğaz və kinli bir qövm qarşısında həzrət Əli(ə)-ın ehtiyat etməsi adi bir haldır?! Çünki onlar fürsət axtarıb, dinə böyük bir zərbə vurmaq istəyirdilər. Bu səbəbdən Vasiti, İbn Məğazeli Şafei və Xətib Xarəzmi öz «Mənaqib»lərində Peyğəmbər(s)in həzrəti Aişəyə belə buyurduğunu rəvayət edirlər: **"Ya Əli!Ümmət sənə qarşı kinlidir. Məndən sonra sənə qarşı hiylə işlədəcək, daxillərində olan aşkara çıxacaqdır. Allah-Təalanın sənə mükafat verməsi üçün səbr etməni vəsiyyət edirəm."**

## PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA İMAM ƏLİNİN(Ə) MÜXALİFLƏRİLƏ SAVAŞMAMASININ SƏBƏBİ VƏ ALLAH-TƏALA ÜÇÜN SUSUB SƏBR ETMƏSİ

Həzrət Əli(ə) yalnız özünü düşünməyən yeganə qəhrəman idi. O, təkcə Allahı görürdü, bütün varlığı Allahda fənaya çatmışdı. Özünü, yaxınlarını, imaməti, xilafəti və riyasəti yalnız Allah-Təala üçün istəyirdi, düşmənləri qarşısında haqqını əldə etmək üçün  qiyam etməməsi də Allah - təala üçün idi. O, insanların təfriqəyə düşüb cahiliyyətə dönməsindən qorxurdu.

Bu səbəbdən Həzrət Fatimə(ə) haqqı qəsb edildikdən sonra ümidsizcəsinə evinə dönüb Həzrət Əliyə(ə) belə ərz etdi:

**"Ana bətnindəki uşaq kimi evinə qapanmısan. İttiham edilmiş bir müttəhim kimi evində gizlənmisən. Qartalların qanadını qırdın. İndi zəif quşların qanadında aciz qalmısan, onlara gücün çatmır?! Halbuki, Əbu Bəkr zorla atamın övladları üçün qoyduğu mirası əlimdən alır, mənə qarşı açıq-aşkar düşmənçilik edir, mübarizə aparır".**

Həzrət Əli(ə) bu uzun xitabı diqqətlə dinlədi. Sonra qısa bir cavabla onu sakitləşdirdi: **" Ey Fatimə, mən din və haqqı alma xüsusunda mümkün olduğu qədər səy göstərdim. Sən bu dinin davamlı qalmasını və atanın dininin minarələrdən yüksəlməsini istəyirsənmi?"** Fatimə: **" Bu, mənim ən böyük arzumdur"** - dedi. Həzrət Əli (ə) dedi: **" Bu halda, səbr etməyin lazımdır. Atan-Xatəmül-ənbiya mənə vəsiyyət etmişdir. Səbr etməyimin vacib olduğunu bilirəm. Düşmənləri zəlil edəcək və haqqını onlardan alacaq gücə sahibəm. Amma bil ki, o zaman din aradan gedər. Bu halda, Allah və din üçün səbr et. Çünki Axirət sənin üçün qəsb edilən haqqından daha yaxşıdır."** Həzrət Əli (ə) fitnə-fəsad qalxmasın deyə, səbr edərək İslamı qorumağa çalışırdı. Öz xütbə və bəyanlarında da dəfələrlə buna işarə etmişdir.

## PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA HƏZRƏT ƏLİNİN (Ə) QİYAM ETMƏMƏSİNİN SƏBƏBİ HAQDA SÖZLƏRİ

Mötəbər alimlərinizdən Ibrahim ibn Məhəmməd Səqəfi, İbn Əbil-hədid(«Nəhcül-bəlağənin şərhi»ndə) və Əli ibn

Muhəmməd Həmədani belə rəvayət edir: «Təlhə və Zübeyr beyətlərini pozub Bəsrəyə tərəf getdikdə, Həzrət Əli (ə) xalqa məscidə toplaşmağı əmr etdi. Masciddə oxuduğu xütbədə Allah-Təalaya həmd-səna etdikdən sonra belə buyurdu: «Allah-Təala Peyğəmbərini aramızdan apardıqdan sonra; **«Biz Peyğəmbərin (s) Əhli-beyti, yaxınları, varisi, itrəti və dostlarıyıq. Onun rütbə və məqamına ən layiq olanlarıq. Onun haqqı və hakimiyyəti xüsusunda ixtilaf etməyin»dedik. Amma bir qrup münafiq əl-ələ verərək xilafəti bizdən alıb, bir-birinə həvalə etdilər. Allaha and olsun, buna görə hamımızın gözləri və qəlbləri ağladı, köksümüz kinlə doldu.**

**Allaha and olsun ki, küfrə dönəcəklərindən və fitnəyə düşəcəklərindən qorxmasaydım, xilafəti dəyişərdim. Müsəlmanlar mənə beyət edənə qədər onlar xilafətlə məşğul oldular. Təlhə və Zübeyr o gün mənə ilk beyət edənlərdən idi. Bu gün müsəlmanlar arasında fitnə salıb, onları bir-birilə vuruşdurmaq üçün Bəsrəyə doğru yola düşdülər>>**.

Həmçinin, İbn Əbil-hədid və böyük alimlərinizdən Kələbi Həzrət Əlinin (ə) Bəsrəyə doğru hərəkət edərkən xalqa belə xitab etdiyini rəvayət edir: **«Peyğəmbər (s) vəfat etdikdan sonra Qüreyş əleyhimizə birləşərək, bütün insanlardan daha layiq olduğumuz o haqqı bizdən aldı. Mən müsəlmanların təfriqəyə düşməsindən qorxaraq səbir etməyin daha məqsədəuyğun olduğunu gördüm. Çünki əgər səbir etməsəydim, müsəlmanlar arasında ixtilaf çıxar, qan tökülərdi. Çünki müsəlmanlar İslama yeni gəlmişdilər».**

Aydın olduğu kimi, həzrət Əlinin (ə) Əbu Bəkrin xilafətinə qarşı susması razı olmasından irəli gəlmirdi. Çünki Əmirəl-möminin (ə) bir yandan fitnə və qan tökülməsindən, digər bir tərəfdən də dinin aradan gedib, müsəlmanların küfrə üz tutmasından qorxurdu.

Bu səbəbdən 6 ay ərzində susmuşdur. Hər kəs Əmirəl-mömininin xilafətə qarşı olduğunu anlamış və alimlərinizin yazdığına görə dinin qorunması üçün beyət etmişdir. Onlara, xilafətdən razı olduğu üçün deyil,həqiqətdə İslama yararı olduğuna görə yardımçı olmuşdur.

Bu səbəbdən Malik Əştər vasitəsilə Misir xalqına ünvanladığı məktubda bunu ifadə etmiş, həm sükutu və həm də beyətinin bilavasitə din üçün olduğunu açıq-aydın bəyan etmişdir. İbn Əbil hədid <<Nəhcül-bəlağənin şərhi»nin 4-cü cildinin 164-cü səhifəsində bu məktubu belə rəvayət etmişdir: **«Allah-Təala, Muhəmmədi aləmlər üçün qorxuducu, rəsulları üçün də şahid olaraq göndərdi. O, rehlət etdikdən sonra müsəlmanlar xilafət xüsusunda çəkişməyə başladılar. Allah-Təalaya and olsun, Peyğəmbərdən sonra bu işi Əhli-beytindən alacaqlarını, mənə mane olacaqlarını ağlıma belə gətirmədim. Baxdım, bir də nə gördüm! İnsanlar filankəsə beyət edir! İnsanların dindən döndüklərini, xalqı Muhəmmədin dinini süqut etdirməyə çağırdıqlarını gördükdə, səbir etdim. Lakin bu hadisələr cərəyan etdikcə İslama yardımçı olmasam, onda bir boşluğun yaranacağı və ya yıxılacağından qorxdum. Çünki bu müsibət, mənim üçün az bir zaman sürəcək, sonra ilğım kimi itəcək, bulud kimi dağılıb-**

**gedəcək olan xilafətimdən, sizə əmir olmağımdan daha böyükdür. O an ki, iş başına gəldim, batil yox olana qədər, din tam istiqrara, sabitliyə qovuşana qədər mücadilə etdim».**

İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 2-ci cildinin 35-ci səhifəsində, İbrahim ibn Səd ibn Hilali Səqəfidən, o da «Rical» kitabından, o da Əbdurrəhman ibn Cündəbdən, o da atasından belə rəvayət edir: «Misir düşmənlər tərəfindən fəth edilib Muhəmməd ibn Əbu Bəkr şəhadəta yetişdikdən sonra həzrət Əli (ə) uzun bir xütbə oxudu. Misir əhlinə yazdığı məktubdakı cümlələri eynilə ifadə etmiş və Peyğəmbərdən (s) sonra müsəlmanların ürəkağrıdıcı vəziyyətini dilə gətirmişdir. O, xütbədə belə buyurur: **«Bir nəfər mənə belə dedi: «Ey İbn Əbu Talib, sən bu xilafət işinə çox hərissən!». Mən də cavabında dedim: «Siz məndən daha tamahkar və o məqamdan daha uzaqsınız. Hansımız bu mövzuda daha hərisik? Allah-Təala və Rəsulunun bizlər üçün qərar verdiyi mirası və haqqı istəyən mənəm, yoxsa haqqımı əlimdən alan, mənimlə haqqım arasında maneə olan sizlər?». O, bu sözləri eşitcək çaşıb qaldı, cavab verməkdə aciz oldu. Şübhəsiz, Allah-Taala zalım qövmü hidayətə çatdırmaz».**

Bu sözlərdən və vaxt olmadığı üçün söyləmədiyim digər bəyanlardan da anlaşıldığı kimi, həzrət Əlinin (ə) susub qiyam etməməsinin və (alimlərinizin nəzərinə görə) 6 aydan sonra beyət etməsinin əsl səbəbi, dinin yox olması və müsəlmanlar arasında fitnə və təfriqənin çıxmasının qarşısını almaq idi. Bu, Onun xilafətdən razı olduğu anlamında deyil. Çünki o gün həzrət Əli (a) qiyam etmiş olsaydı, onu dəfələrlə qiyama təşviq

edənlər tez ətrafına toplaşar və beləcə, daxili müharibə başlayardı. Peyğəmbər (s) dünyadan yenicə getdiyi, müsəlmanlar cahiliyyət dovrünə yaxın olduğu və hələ iman da qəlblərinə yerləşmədiyi üçün xaricilər, yəhudilər, xristianlar, müşriklər və hamısından da əhəmiyyətlisi münafiqlər bir bəhanə tapıb İslam dininin izzət və əsaslarını təhlükəyə sala bilərdilər. Həzrəti Əli (ə) həqiqətləri və Rəsuli-əkrəm (s) xəbər verdiyinə görə - bu yolla dinin əsasının tamamilə qoruna biləcəyini bildiyindən, dinin məsləhəti üçün səbir etməyi qiyam etməkdən daha məqsədəuyğun gördü. Çünki qiyam etsəydi, müsəlmanlar arasında fitnə düşər, bu halda düşmənlərin əlinə fürsət keçər və bununla da din təhlükəyə məruz qalardı.Peyğəmbər (s) dinin aqibəti haqqında xəbər vermişdi: müsəlmanlar zəlil bir vəziyyətə düşəcək və bir müddət İslam dini geriləyəcəkdi.

Əmirəl-möminin öz haqqının isbatı üçün 6 ay səbir etdi. Bir çox toplantılarda münazirə və mübahisələrdə haqqı aşkar etdi. Əvvəlki gecələr söylədiyim kimi, beyət etmədi. Amma qiyam da etmədi. Bəhslərdə haqqı isbat etməyə çalışdı.

## ŞİQŞİQİYYƏ XÜTBƏSİ

Bu səbəbdən Şiqşiqiyə xütbəsində bu mənaya işarə edərək belə buyurmuşdur: **«Allah-Təalaya and olsun ki, Əbu Quhafə (Əbu Bəkr), xilafətimə nisbətdə dəyirman daşının mili kimi olduğunu bildiyi halda, xilafəti bir köynək kimi geyindi. Sel (elm və hikmət) məndən axar və heç bir quş (elm və bilik**

**fəzasında) mənim uçduğum yerlərə uça bilməz. Mən belə olmağıma baxmayaraq, xilafətlə arama bir pərdə çəkdim, onu özümdən ayrı saldım. Başladım düşünməyə: kəsilmiş əllə (əsgər olmadan) hücuma keçim, yoxsa qaranlıq korluğa (xalqın azmasına) səbir edim? Ela bir qaranlıq, korluq ki, bu, böyüyü tamamilə kiçildir, kiçiyi bütünlüklə qocaldır. Mömin kəs də Rəbbinə yetişənə qədər bu qaranlıqda zəhmətdən zəhmətə düşür. Gördüm ki, səbir etmək daha zəruridir. Gözümdə tikan, boğazımda sümük olduğu halda səbir etdim. Mirasımın əlimdən alındığını görürdüm. Nəhayət, birincisi (Əbu Bəkr) yolunu tamamlayıb xilafəti özündən sonrakının (Ömərin) qucağına atdı...>>.**

Bu xütbə başdan sona qədər həzrət Əlinin (ə) daxili dünyasındakı dərdlərini göstərir. Məclis bundan artığına yol vermir. Bir miqdar muradım sübuta yetdisə və Əmirəl-möminin daxili təəssüratından xəbər verildisə güman edirəm, kifayət edər».

## ŞİQŞİQİYYƏ XÜTBƏSİNƏ OLAN İRAD VƏ CAVABI

**Şeyx**: «Əvvəla; bu xütbədə onun daxili dərdlərini göstərən bir dəlil yoxdur. Bu xütbə tam şəkildə həzrət Əliyə aid deyildir; Şərif Seyid Razinin ifadələri ilədir. Həzrət Əli (ə) xəlifələrin xilafətindən şikayətçi deyildi. Onlardan tam şəkildə razı idi!>>

**Dəvətçi:** «Bu bəyanınız hədsiz dərəcədə inadkar olduğunuzdan xəbər verir. Çünki həzrət Əlinin (ə) xilafət

mövzusundakı şikayətlərini daha əvvəldən ərz etmişdim. Əmirəl-mömininin ürəkağrısı ilə söylədikləri ancaq bu xütbə ilə bitmir ki, qüsur tapasınız. Bu xütbəni Seyid Raziyə şamil etməyinizsə inadınızı, məntiqsiz və təəssübkeş sələflərinizə təqlid etdiyinizi göstərir!

Son vaxtlar bəzi təəssübkeşlər inadkarcasına şəkk-şübhə yaratmağa çalışmışlar. Sünni və şiə məzhəbindən «Nəhcül-bəlağə»yə şərh verən 40-dan çox alimdən heç biri belə bir şey söyləməmişdir.

## SEYİD RƏZİNİN ŞƏXSİYYƏTİ HAQDA

Böyük təqva sahibi Seyid Razi belə bir şeyi həzrət Əliyə (ə) istinad etməkdən munəzzəhdir. «Nəhcül-bəlağə»nin xütbələrini diqqətlə oxuyanlar ondakı fəsahət, bəlağət, ləfzi-cazibəni, yüksək mənanı, elmi və fəlsəfi xəzinələri anlamışlar. Sadəcə Seyid Rəzi deyil, heç kim qeyb aləminə bağlanmadan bu cür ecazkar sözlər söyləyə bilməz. Bu səbəbdən böyük alimlərinizdən olan İzzəddin Əbdül-həmid ibn Əbil-hədid Mötəzili və axırıncı alimlərdən Misir diyarının müftisi Şeyx Məhəmməd Əbdüh bu xütbədəki ecazkarlığı, məna gözəlliyi və üslubun qətiyyətlə həzrət Əliyə aid olduğunu etiraf etmiş və söylənilən kəlmələrin Rəsulallahın kəlamından sonra Allahın kəlamının altında, amma insanların kəlamının üstündə olduğunu vurğulamışdır. Bundan başqa, Seyid Rəzinin nəsr və şerləri həm şiə, həm də sünni mənbələrində mövcuddur.

Bunları uyğunlaşdırdıqda, aralarında böyük bir fərq olduğunu görmək olar.

Hardadır torpağın təmiz aləmlə yoldaşlığı?

Hardadır zərrənin günəşlə bərabərliyi?

Bu səbəbdən İbn Əbil-hədid Musəddiq ibn Şəbibdən, o da İbn Xəşşabdan belə rəvayət edir: «Təkcə Seyid Razi deyil, heç kim bu üslub və gözəl tərzdə bu cür kəlmələr ifadə edə bilməz. Rəzinin sözləri, bu xütbələrin kəlmələrindən çox uzaq və fərqlidir. Müqayisə belə edilə bilməz!

## ŞİQŞİQİYYƏ XÜTBƏSİ KİTABLARDA SEYYİD RƏZİNİN DOĞUMUNDAN ƏVVƏL YAZILMIŞDIR

Elmi qayda və əqli ölçülərdən də əlavə, şiə və sünni tarixçi və hədisçilərinin çoxu Seyid Razi və mərhum atası Əbu Əhməd Nəqibut Talibiyyin doğulmazdan əvvəl bu xütbəni rəvayət etmişlər: Bu səbəbdən İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»ndə belə deyir: «Bu xütbəni Mötəzilə imamı olan, yəni hələ Seyid Razi doğulmazdan əvvəl Abbasi xəlifəsi Müqtədar Billahın dövründə yaşayan ustadım Əbülqasım Bəlxinin kitablarında çox gördüm. Əbülqasım Bəlxinin tələbəsi olan və Seyid Razinin doğumundan əvvəl vəfat edən məşhur mütəkəllim Əbu Cəfər ibn Qubbənin «Kitabul-insaf»inda da gördüm».

Həmçinin, İbn Xəşşab adıyla tanınan Şeyx Əbu Əbdillah ibn Əhməddən belə rəvayət edir: «Bu xütbəni Seyid Razidən 200 il əvvəl yazılmış kitablarda da gördüm. Hətta bəzi ədəbiyyatçılar bu xütbəni hələ Seyid Rəzinin atası Əbu Əhməd Nəqibut-Talibiyyin dünyaya gəlməmiş bir tarixdə qələmə almışlar».

Kəmaləddin Məysəm ibn Əli ibn Məysəm Bəhrani «Nəhcül bəlağənin şərhi»ndə belə deyir: «Bu xütbəni iki yerdə gördüm. Birincisi, Seyid Rəzinin doğumundan 60 il öncə, Vəzir ibn Firatın xəttilə yazılmışdı. İkincisini, Seyid Rəzinin doğumundan əvvəl vəfat edən Əbül-Qasım Kəbinin tələbəsi Əbu Cəfər ibn Qubbanin «Kitabul insafında gördüm».

Beləliklə, bu dəlillərlə sözü gedən xütbəni rədd edən bəzi çağdaş alimlərin nə qədər təəssübkeş, kinli və inadçı olduqları ortaya çıxdı.

Bu xütbəylə əlaqəli olan nəzərləriniz, əvvəlki gecələrdə rəvayət etdiyim, mötəbər kitablarınızda da yer alan Həzrət Əlinin (ə) ürəkağrısıyla ifadə edən digər xütbə və sözləri olmadığı təqdirda diqqət çəkə bilərdi. Halbuki, İbn Əbil-hədid "Nəhcül-bəlağə"nin şərhi» kitabının 2-ci cildinin 561-ci səhifəsində həzrət Əlinin (ə) xütbəsini ətraflı olaraq belə rəvayət edir: «Rəsulallah (s), başı köksümdə olduğu halda vəfat etdi. Mən Onu yuyarkən mələklər yardım edirdi. Ona namaz qılıb qəbrə qoydum. Həm sağlığında, həm vəfatında Ona məndən daha yaxın, bu işə məndən daha layiq kim var! Bir düşünün, düşməninizlə döyüşmək niyyətinizdə sadiq olun.

Özündən başqa ilah olmayan Allah-Təalaya and olsun ki, mən düz, haqq yoldayam; onlar, ayaqları axsadan batil yoldadırlar>>.

Bütün bunlara baxmayaraq, həzrət Əlinin, müxaliflərini haqq qəbul etdiyini, onlara qəzəblənmədiyini və razı olduğunumu bəyan edirsiniz? Möhtərəm Şeyx, haqq və aydın həqiqətlər bu cür sözlərlə örtülə bilməz! Zəhmət olmasa, «Tövbə» surəsinin 32-ci ayəsini dərindən oxuyun. Allah-Təala buyurur: **«Onlar Allahın nurunu (dəlillərini, İslam dinini, Quranı) batil sözləri ilə söndürmək istəyirlər. Halbuki, kafirlər istəməsə də, Allah öz nurunu (dinini) tamamlayacaqdır»**. Bu təqdirdə, siz də təsdiq edəcəksiniz.

Allahın yandırdığı məşəli,

Cahil üfürərsə, yanar saqqalı.

**Şeyx:** «Vaxt çox gec oldu, siz də yoruldunuz. Yorğunluğunuz da məlumdur. Məclisi burada bitirək, davamı Allahın iznilə sabah axşama qalsın».

## ONUNCU GECƏ

### 3 şaban, bazar günü 1345-ci il (1924)

Üçüncü imamımız həzrət Hüseynin(ə) mübarək doğum gününün gecəsi idi. Bu münasibətlə qonaqlar kütlə-kütlə axışıb gəlirdilər. Şərbət və şirniyyat paylanılırdı. Elə təzəcə söhbətə başlamaq istəyirdik ki, Nəvvab Əbdülqəyyum Xan da gəldi. Hal-əhval soruşduqdan sonra söhbətə başladı.

**Nəvvab:** «Qibləsahib! Çox üzr istəyirəm, bir sualım var. İzn versəydiniz, məclis rəsmən başlamazdan əvvəl deyərdim».

**Dəvətçi**: «Rica edirəm, buyurun, sizi dinləyirik.

## ÖMƏRİN ELMİ MƏQAMI HAQQINDA SUAL VƏ ONUN CAVABI

**Nəvvab**: «Bu gün səhər dostlardan bir qrupu evimdə toplanaraq sizin insani keyfiyyətlərinizi, həqiqəti çatdıran gözəl bəyanınızı xatırlatdılar. Əvvəlki gecələrdə etdiyiniz söhbətləri qəzet və jurnallardan oxuyur, müzakirə edirdilər.

İslam təməyüllü kollecdə[34] 4 təhsil alan oğlum mənə belə dedi: «Bir neçə gün əvvəl ustadlarımızdan biri dərsdə dedi: «Əsri səadətdə Mədinədə böyük fəqihlərdən biri də Ömər ibni Xəttab idi. O, Quran, elmi və fiqhi məsələlər haqqında elm sahibi idi. Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Abdullah ibn Abbas, Əkrəmə, Zeyd ibn Sabit və digər alimlər arasında Ömər daha alim və seçgin idi. Bütün səhabədən elmi və fiqhi baxımdan üstün olan Əli belə bəzi fiqhi mövzularda aciz qaldıqda Ömərə müraciət edib, onun elmindən istifadə edir, bir çox elmi və fiqhi müşküllərini onun sayəsində həll edirdi!» Evimə gələnlər də bunu təsdiq edərək «Alimlərimiz Ömərin

---

[34] “Vaskul" adlanan bu kollec Pişavər şəhərinin kənarında yerləşən yeni bir mədəniyyət mərkəzidir. H.q. 1330-cu ildə, Əhli-sunnətin böyük şəxsiyyətlərindən sayılan möhtərəm Nəvvab Sahibzadə Əbdülqəyyum Xan tərəfindən təqribən 10 min rupiyə tikilmişdir. Burada 500dən çox şagird və tələbə elmi-ibtidai təhsildən ali təhsilin yüksək mərtəbələrinə qədər yiyələnə bilir. Mərkəzin həyətində ucaldılan məsciddə 5 vaxt namaz qilirlar. Şimal tərəfində elmi və dini konfranslanın keçirilməsi üçün salon mövcuddur. Həftədə bir gün elmi konfranslar təşkil olunur. Orta təhsildən yuxarı bütün tələbələr dini konfranslarda iştirak edirlar. Məni də bu tədbirlərdə iştirak etməyə dəvət etdilər. Dörd yüzə yaxın tələbənin qarşısında bir saatlıq çıxış etdim.Sonra kitabxananın xatirə dəftərinə bəzi fikirlərimi yazib imzaladim.

elm və əməl baxımından əsrinin dahilərindən olduğunu açıq-aydın bəyan etmişlər»-dedilər. Mənim din və tarix haqqında tam savadım olmadığı üçün susdum. Dostlara və xüsusilə də oğluma bu mövzunu sizdən soruşacağım barədə söz verdim. Burada - şiə və sünni alimlərin hüzurunda bizlərə səhabənin elmi məqamını bəyan edin. Zəhmət olmasa, bu mövzunu geniş şəkildə izah edin ki, hər kəs istifadə edə bilsin. Beləcə, hər səhabənin elmi dəyərini bilək. Hansı səhabə elmi baxımdan daha üstündür, xəbərdar olaq. Dostlarım və oğlum da buradadır. Bizləri məlumatlandırsanız, çox şad olarıq»

(O məktəbdə tarix, coğrafiya və ingilis dili müəllimi olan şiə alimi Yusif Əli Şahdan bu haqda məlumatı olub olmadığını soruşdum. O, hansı müəllimin olduğunu bilmədiyindən və bu haqda heç bir şey eşitmədiyini bildirdi.

**Dəvətçi:** «Hər kim söyləyibsə də, çox qəribədir. Bilmirəm bu sözləri nəyə əsaslanaraq söyləmişdir?! Adi insanların sözlərində ifrat, təfrit ola bilər; lakin bir müəllimin sözləri dəlil və məntiqə əsaslanmalıdır. Bu elmsiz və fanat müəllim hər kimdirsə, əvvəlki alimlərin heç birinin iddia etmədiyi bir iddia irəli sürmüşdür. Mütəəssib İbn həzmi Zahiri və buna oxşar digər alimləriniz bu cür bənzər şeylər söyləmişlərsə də, böyük alimləriniz tərəfindən rədd edilmişlər.

Hətta Ömərin özü də heç vaxt belə bir iddiada olmamış, heç bir aliminizin kitabında belə bir şey ifadə edilməmişdir. Ömər ibn Xəttabın tərcümeyi-halını yazan alimlər də daha çox onu siyasi baxımdan araşdırmış, elmi mövzusu haqqında heç

bir açıqlama verməmişlər. Belə olmuş olsaydı, tərcümeyi-halında onun elmi haqqında da məxsus bir bab açardılar. Əksinə, şiə və sünni kitablarında Ömərin elmi və fiqhi məsələlər haqqında bir o qədər biliyə malik olmadığını və çətinliyə düşdükdə imam Əli (ə), Abdullah ibn Məsud və digər Mədinə fəqihlərinə müraciət etdiyini qeyd etmişlər. Xüsusilə də İbn Əbil-hədidin rəvayət etdiyinə görə, Ömər hər zaman soruşulan suallara cavab verə bilmək üçün Mədinə fəqihlərindən Abdullah ibn Məsudun yanına çağırılmasını israr edirdi».

**Şeyx:** «(Əsəbiləşərək) hansı kitabda Ömərin dini və fiqhi mövzularda elmsiz olduğu yazılmışdır?!».

**Dəvətçi:** «Əvvəla; rica edirəm əsəbiləşməyin. On gecədir ki, açıq-aşkar bizi təhqir edib, «kafir», «müşrik» və «bidət əhli>> adlandırırsınız; amma bütün bunlara baxmayaraq, əsla, yerimdən belə qalxmadım, əsəbiləşmədim və sizə dəlillə cavab verməyə çalışdım. Əgər sizin də bir dəliliniz varsa buyurun, məni susdurun! Hər ağıllı və insaflı insan dəlil və bürhanlar qarşısında, əsla, inad etməməli, əsəbiləşməməli, əksinə təslim olmalıdır. Çünki əsəbiləşmək insanın yadlar qarşısında gülünc hala düşməsinə səbəb olur.

Çox məntiqsiz danışırsınız. Mən Ömərin dini mövzularda elmsiz olduğunu söyləmədim; elmi və fiqhi məsələlərdə ətraflı biliyə malik olmadığını dedim. Bu bir iddia deyildir, əksinə isbat da edə bilərəm>>.

**Şeyx:** «Ömərin dini məsələlərdə ətraflı biliyə malik olmadığı mövzusundakı dəliliniz nədir?»

**Dəvətçi**: «Dəlilim şiə və sünni mənbələrində yer alan rəvayətlərdir. Tarixçilərinizin də yazdığına görə, Ömərin özü də bunu dəfələrlə etiraf etmişdir».

**Şeyx:** «Əgər bildiyiniz rəvayətlər varsa, zəhmət olmasa, bəyan edin».

## BİR QADININ ŞƏRİ MƏSƏLƏDƏ ÖMƏRİ DEDİYİ SÖZƏ GÖRƏ PEŞMAN ETMƏSİ

**Dəvətçi:** «İndi hafizəmdə olan bir neçə rəvayət nəql edəcəyəm. Zəhmət olmasa, siz də bir az insaflı olun. Böyük alimlərinizdən: Cəlaləddin Siyyuti: «Dürrül-Mənsur», c: 2, səh: 133; İbn Kəsir: «Təfsir», c: 1, səh: 468; Cərullah Zəməxşəri: «Kəşşaf», c: 1, səh: 357; Fazil Nişapuri: «Ğaraibul-Quran», c: 1, «Nisa» surəsinin təfsiri; Qirtəbi: «Təfsir», c: 5, səh: 99; İbn Maccə Qəzvini: «Sünən»in haşiyəsində, c: 1; Sindi: «Sünən», c: 1, səh: 583; Beyhəqi: «Sünən», c: 7, səh: 233; Qəstalani: «İrşadus-sari şərhi Səhihi-Buxari», c: 8, səh: 57; Müttəqi hindi: «Kənzul-ümmal», c: 8, səh: 298; Hakim Nişapuri:«Müstədrək», c: 2, səh: 177; Əbu Bəkr Baqilani: «Təmhid», səh: 199 İcluni «Kəşful-Xifa», c: 1, səh: 270; Qazi Şovkani: «Fəthül-qədir», 1, səh: 407; İbn Əbil-hədid: «Nəhcül-bəlağənin şərhi», c: 1, səh: 61 c: 3, səh: 96; Zəhəbi: «Təlxisu-Müstədrək»; Həmidi: «Cəmun-beynəs Səhiheyn»; Fəqih Vasiti İbn Məğazəli Şafei:

«Mənaqib»; İbn Əsir «Nihayə» və digər bir çox alimləriniz fərqli ləfz və təbirlərlə öz kitablarında səhih olduğunu bildirərək belə bir rəvayət nəql etmişlər. «Bir gün Ömər xalqın qarşısında xütbə oxuyaraq dedi: «Hər kim evlənərkən mehriyəsini 400 dirhəmdən çox təyin edərsə, bilsin ki, ona hədd vuracağam və bu miqdardan artığını ondan alıb, beytül-mala qatacağam».

Bir qadın durub yüksək bir səslə belə dedi: «Ey Ömər! Sənin sözün daha üstündür, yoxsa Allahın sözü?» Ömər: «Əlbəttə, Allahın sözü»,-deyə cavab verdi. Qadın dedi: «Allah-Təala «Nisa» surəsinin 20-ci ayəsində belə buyurmurmu?: «Əgər bir qadını boşayıb yerinə başqa bir qadını almaq istəsəniz, onlardan birinə çoxlu mal vermiş olsanız belə, ondan heç bir şeyi geri almayın...>> Ömər bu ayəyə və qadının verdiyi cavaba çaşıb-qalaraq belə dedi: «Hamı, hətta evlərində pərdə arxasında oturan qadınlar belə Ömərdən daha elmli və fəqihdir».

Daha sonra minbərin üstünə çıxaraq belə dedi: «Sizə 400 dirhəmdən çox mehriyyə verməyi qadağan etdiyimə baxmayaraq, hər kəs istəsə malından daha çoxunu verə bilər, bunun bir maneəsi yoxdur».

Bu rəvayətdən də anlaşıldığı kimi, Ömər Qurani-kərim və fiqhi hökmlərdən agah deyildi. Yoxsa alim bir qadın qarşısında bu vəziyyətə düşməz və «qadın düzgün qərar verdi, kişi isə xəta!" deməzdi.

**Şeyx:** «Xeyr elə deyil, Ömər xalqı sünnətə tabe olmağa çağırırdı. Çünki şəri baxımdan mehrin çoxu caiz olsa da, tərk etmək üstündür. Fəqir insanları nəzərə almaq lazımdır. Buna görə də o Peyğəmbərin (s) xanımlarına verdiyi mehri bütün qadınlar üçün ölçü qoymaq istəyirdi.

**Dəvətçi:** «Bu qəbulolunmaz bir üzrdür. Xəlifə belə bunu nəzərə almamışdır. Əks təqdirdə, acizlik və xəta etdiyini deməz, hər kəsin,hətta pərdə arxasındakı qadınların belə özündən daha fəqih olduğunu bəyan etməz və o qadının qarşısında sizin dediyinizi təkrarlayardı. Bundan əlavə, hər ağıllı insanın da bildiyi kimi, sünnət olan bir şey üçün harama girmək olmaz. Çünki Qurani-kərimin qadın üçün təyin etdiyi mehri beytül-mala qatmaq, əsla, caiz deyildir. Bütün bunlardan əlavə, haram və günah olmayan belə bir şey üçün hədd təyin etmək olduqca yersiz bir şeydir. İslami fiqhdə belə bir hədd yoxdur. Əgər siz bilirsinizsə, bəyan edin. Əgər yoxdursa, bilin ki, o halda o müəllimin iddiası yersizdir!

## PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA ÖMƏRİN «O HƏZRƏT HƏLƏ ÖLMƏMİŞDİR» FİKRİNİ İZHAR ETMƏSİ

Xəlifənin adəti bu idi ki, harada qanun pozulurdusa, əhatəsində olanları qorxutmaq üçün əsəbi halda hədd təyin edəcəyini bəyan edirdi. Buna görə Əhməd ibn Hənbəl «Müsnəd»də, Həmidi «Cəmun beynəs-Səhiheyn»də, Təbəri «Tarix»də və digər alimləriniz də öz kitablarında belə rəvayət

etmişlər: «Rəsulallah dünyadan köçdükdən sonra Ömər Əbu Bəkrin yanına gedib belə dedi: «Qorxuram ki, Peyğəmbər ölməmiş, dost və düşmənin tanımaq üçün hiylə etmişdir. Və ya Musa kimi qeyb olmuşdur; yenidən gələcək və özünə müxalifət edənləri cəzalandıracaq. O halda kim «Muhəmməd öldü deyərsə» ona hədd təyin edərəm».

Ömərin bu sözlərini eşidən Əbu Bəkr də şəkk etdi. Bunu eşidən insanlar iztiraba düşdü və aralarında ixtilaf çıxdı. Həzrət Əli (ə) bunu eşitdikdə o dəqiqə xalq arasına çıxaraq belə buyurdu: **«Ey insanlar, bu nə cahilanə sözlərdir. Siz Allahın bu ayəsini unutdunuzmu?: «Şübhəsiz ki, sən öləcəksən, onlar da öləcəklər». Peyğəmbər bu ayənin hökmünə əsasən dünyadan köçmüşdür».**

Beləcə, imam Əli insanları Rəsuli-Əkrəmin öldüyünə inandırdı. Ömər də: «Sanki bu ayəni eşitməmişdim>>-dedi.

Ibn Əsir «Kamil» və «Nihayə»də, Zəməxşəri «Əsasul bəlağə»də, Şəhristani «Miləl və Nihəl»in 4-cü müqəddiməsində və digər alimləriniz də öz kitablarında belə yazmışlar: Ömərin: «Peyğəmbər ölməmişdir»,-deyə fəryad etdiyini eşidən Əbu Bəkr ona belə ded**i:«Allah-Təala belə buyurur: «Şübhəsiz ki, sən öləcəksən, onlar da öləcəklər»**. Həmçinin, bu ayəni oxudu**: «Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz?»**[35] Bunu eşidən Ömər susdu və <<Bu

[35] Ali-İmran, 144

ayəni sanki heç eşitməmişdim, indi öldüyünə yəqin etdim»-dedi. Allah eşqinə, o müəllimin boş iddialar irəli sürdüyünü indi təsdiq edirsinizmi?

## ÖMƏRİN, ZİNA EDƏN 5 KİŞİNİN RƏCM[36] EDİLMƏSİNƏ DAİR ƏMRİ VƏ HƏZRƏT ƏLİNİN,ONU BU HÖKMDƏN AGAH ETMƏSİ

Həmidi «Cəmun-beynəs-Səhiheyn» kitabında belə rəvayət edir: «Ömərin xilafəti dövründə beş nəfəri onun hüzuruna gətirib, bunların bir qadınla zina etdiyini söylədilər. Ömər həmin beş nəfərin elə o dəqiqə rəcm edilməsini əmr etdi. Bu əsnada məscidə gələn həzrət Əli (ə) hökmü eşitdikdə Ömərə dedi:

**-Bu barədə Allahın hökmü, sənin verdiyin hökmdən fərqlidir.**

Ömər:

**-Ey Əli, zina etdikləri sabitdir; hökmləri də rəcmdir.**

Əli:

[36] Daşqalaq

**-Zina hökmü insanlara müxtəlif cür şamil olur və bu hökmlər də, bir-birindən fərqli olur; hal-hazırda fərqli məqamdır.**

Ömər:

**-Bu halda Allahın və Rəsulunun hökmünü bəyan et. Çünki Peyğəmbər dəfələrlə «Əli ən elmli olanınız və ən yaxşı hökm verəninizdir» buyurmuşdur.**

Həzrət Əli (ə) o beş nəfərin gətirilməsini tələb etdi. Birinin boynunun vurulmasını, ikincisinin rəcm edilməsini, üçüncüsünə 100, dördüncüsünə 50, beşincisinə isə 25 qamçı vurulmasını əmr etdi. Ömər təəccüb içində dedi:

**-Ey Əli, bu necə işdir? Bir hökm haqqında beş fərqli hökm verdin!**

Həzrət Əli (ə) buyurdu:

**-Birincisi zimmə əhli idi; müsəlman qadınla zina etdiyi üçün İslam zimmətindən çıxmışdı. Bunun da hökmü öldürmək və boyun vurmaq idi. İkincisi evli idi; bu səbəbdən onu daşladıq. Üçüncüsü subay idi; 100 qamçı zina etmə həddini vurduq. Dördüncüsü qul idi; ona, azad şəxsin həddinin yarısını təyin etdik və 50 qamçı vurduq. Beşincisi də ağılsız idi; bu səbəbdən 25 qamçı vurduq.**

Ömər:

**-Əli olmasaydı, Ömər həlak olardı. Ey Əli, sənin olmadığın ümmət arasında bir gün belə yaşamaq istəmirəm.**

## ÖMƏRİN HAMİLƏ BİR QADININ RƏCM EDİLMƏSİ ƏMRİNİ VERMƏSİ VƏ HƏZRƏT ƏLİNİN, ONU BU İŞDƏN ÇƏKİNDİRMƏSİ

Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 58-ci babının sonunda - Əli ibn Əbu Talibin (ə) mənqəbətində, imam Əhməd ibn hənbəl «Musnəd»də, Buxari «Səhih»də, Həmidi «Cəmun beynəs-Səhiheyn"də, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul Məvəddə»nin 14-cu babının 75-ci səhifəsində Xarəzminin «Mənaqib» kitabından, imam Fəxri Razi «Ərbəin»in 466-cı səhifəsində, Muhubiddin Təbəri «Riyazun-nəzrə»nin 2-ci cildinin 196-cı səhifəsində, Xətib Xarəzmi «Mənaqib»in 48-ci səhifəsində, Muhəmməd ibn Təlhə Şafei «Mətalibus-sual"un 13-cü və İmamul hərəm «Zəxairul-uqba» kitabının 80-ci səhifəsində belə rəvayət edir**: «Ömər ibn Xəttabın yanına hamilə bir qadını gətirdilər və o, zina etdiyini etiraf etdi. Ömər də bu səbəbdən onun rəcm edilməsini əmr etdi. Həzrət Əli Ömərə belə dedi: «Sənin hökmün qadın haqqında keçərlidir; lakin bətnində olan körpə haqqında labüd deyil. Çünki körpə günahsızdır və qətli caiz deyildir».**

Əmirəl-mömininin bu sözündən sonra qadını buraxdılar. Ömər belə dedi**: «Qadınlar Əli kimi bir şəxsi dünyaya gətirməkdə acizdir. Əgər Əli olmasaydı, Ömər həlak olardı.**

**Allahım, Əli həyatda olmadıqda məni heç bir qarışıq-dolaşıq müşküllə baş başa qoyma»**.

## ÖMƏRİN, DƏLİ BIR QADININ RƏCM EDİLMƏSİNİ ƏMR ETMƏSİ VƏ HƏZRƏT ƏLİNİN(Ə)BU İŞƏ MANE OLMASI

Həmçinin, imam Əhməd ibn Hənbəl "Müsnəd"də, İmamül-hərəm Əhməd ibn Abdullah Şafei " Zəxairül-üqba"nın 81ci səhifəsində, Süleyman Bəlxi Hənəfi " Yənabiül-məvəddə" nin 14cü babının 75ci səhifəsində (Həsən Bəsridən nəqlən), ibn Həcər " Fəthül-bari"nin 12ci cildinin 101ci səhifəsində, Əbu Davud " Sünən"in 2ci cildinin 227ci səhifəsində, Səbt ibn Covzi "Təzkirə"nin 87 ci səhifəsində, ibn Maccə " Sünən"in 2ci cildinin 227ci səhifəsində,Nişapuri " Müstədrək"in 2ci cildinin 59cu səhifəsində, Qəstəlani " İrşadus-sari" nin 10 cu cildinin 9cu səhifəsində ,Beyhəqi "Sünən"in 8ci cildinin 264cü səhifəsində, Muhubiddin Təbəri " Riyazun-nəzrə"nin 196cı səhifəsində, Buxari "Səhih"in "La yurcumul Məcnun vəl-Məcnunə" babında və digər alimləriniz də öz kitablarında belə rəvayət etmişlər: **" Bir gün dəli bir qadını Ömərin yanına gətirdilər. Qadın zina etmişdi. Zina etdiyini etiraf etdikdə, Ömər onun rəcm edilməsini əmr etdi. Onun bu əmrini eşidən Həzrət Əli (ə) buyurdu: " Nə edirsən? Mən Peyğəmbərin belə buyurduğunu eşitdim: "Üç nəfər barədə qələm yazmır: oyanana qədər yatandan, sağalana və ağlı başına gələnə qədər dəlidən və həddi-büluğ olana qədər uşaqdan". Bundan sonra o dəli qadını buraxdılar."**

İbn Səmman "Müvafiqə"kitabında bu cür bir çox hədis rəvayət etmişdir. Bəzi kitablarda da Ömərin etdiyi bu cür xətalardan yüzdən çoxunu rəvayət etmişlər. Amma vaxt olmadığı üçün misal olaraq bu qədəri ilə kifayətlənirəm.

Belə olan təqdirdə siz ağalar da qəbul etməlisiniz ki, bu iddiaları irəli sürən o elmsiz müəllim tamamilə hadisələrdən xəbərsizdir; nəfsani arzuları və təəssübünə görə danışmışdır! Ondan mütləq bunun dəlilini soruşmaq lazımdır. Əsla, heç bir dəlil gətirə bilməz. Şiə və sünni nəzərində də qəti olduğu kimi, əshab arasında Əmirəl-möminin həzrət Əlidən(ə) daha elmli və fəqih bir kəs yoxdur.

## İBN SƏBBAĞ MALİKİNİN HƏZRƏT ƏLİNİN ELM VƏ FƏZİLƏTLƏRİ HAQQINDA BƏYANI VƏ PEYĞƏMBƏR TƏRƏFİNDƏN QAZİLİYƏ TƏYİN OLUNMASI

İbn Səbbağ Maliki «Fusulul-mühimmə»nin 3-cü fəslinin 17-ci səhifəsində imam Əli (ə) haqqında belə deyir: **«Həzrət Əlinin elmlərindən biri fiqh elmidir. O, bu mövzuda insanların təlimçisi, halal və haramın qaynağının bilicisidir. Şübhəsiz, Əli bütün çətin hökmləri bilir və onların həqiqətlərini tanıyırdı. Hər hökmü yerində və məqamında görürdü. Rəsulallah (s) da bu səbəbdən hökm elmini Əliyə xas etmişdi>>.**

Buna görə imam Bəğəvi «Məsabih» kitabında Ənəsdən belə rəvayət edir: «Peyğəmbər, əshabından hər birini layiq

olduğu bir işə təyin etdikdə, Əlini də hökm və əhkam məsələlərində məsul edərək belə buyurdu:" **Əli hamınızdan daha yaxşı hökm verəndir».**[37]

Həmçinin, Muhəmməd ibn Təlhə Şafei bu hədisi «Mətalibus sual fi mənaqibit Ali-Rəsul» kitabının 22-ci səhifəsində Qazi Bəğəvidən rəvayət etdikdən sonra belə deyir: «Bu hədis də göstərir ki, Peyğəmbər (s) bütün elmləri Əliyə xas etmişdir. Çünki hökm vermə haqqı bütün elmləri bilən şəxsə məxsusdur. Eləcə də, həmin şəxs əqli kamala çatmalı, haqqı batildən ayıra bilməli, qəflət və qələtdən uzaq olmalıdır).

İbn Səbbağ daha sonra bir çox dəlillərlə imam Əlinin (ə) ümmət arasında ən elmli və fəzilətli olduğunu bəyan edir.

Bu halda, siz ağalar söylədiyim hədislər haqqında yaxşı-yaxşı düşünüb, öz alimlərinizin sözlərilə müqayisə etsəniz, bu müəllimin elmsizliyini təsdiq edərsiniz. Həqiqətən də, onun bu iddiası yersizdir. Çünki imam Əlinin (ə) məqamı digər

---

[37] Yəni Əli hamınızdan daha fəqih və elmi daha genişdir. Çünki hökm vermək üçün bütün hökmləri bilməkdən əlavə, alimlərin mövzu ilə əlaqəli kitablarında bildirdiyi bir qrup şərtlər də lazımdır. Dost, düşmən - hər kəsin ittifaq etdiyi kimi, bütün bu şərtlər həzrət Əlidə (ə) mövcuddur və Peyğəmbər (s) da bu səbəbdən «Əli sizin ən yaxşı hökm verəninizdir»,-deyə buyurmuşdur.

səhabələrin məqamıyla müqayisə edilməkdən münəzzəhdir. Bu müəllim şahdan daha çox şahlıq etmişdir. Çünki bilavasitə Ömər həzrət Əli qarşısında acizliyini etiraf etmiş və xilafəti dövründə, alimlərinizin də rəvayət etdiyi kimi 70 dəfə; «**Əli olmasaydı Ömər həlak olardı»**demişdir. Ömər, əsla özünə belə bir şeyin istinad edilməsinə razı ola bilməzdi.

Həqiqətən, bu cür mədhlər sahibinin də razı olmadığı şeylərdir. Bu elmsiz və təəssübkeş müəllimin əksinə olaraq imam Əhməd ibn Hənbəl «Müsnəd»də, İmamul-hərəm Əhməd Məkki Şafei «Zəxairul üqba»da, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddə»nin 56-cı babında və Muhubiddin Təbəri «Riyazun-nəzrə» kitabının 2-ci cildinin 195-ci səhifəsində Muaviyənin belə dediyini rəvayət edir: **«Ömər ibn Xəttab hər hansı bir çətinliklə qarşılaşdıqda Əliyə müraciət edər və hökmü ondan alardı>>.**

Əbül-həccac Bəlvi «Əlifba» kitabının I cildinin 222ci səhifəsində belə nəql edir: «Muaviyə həzrət Əlinin şəhadətini eşitdikdə belə dedi: «**Əli ibn Əbu Talibin ölümü ilə elm və fiqh də aradan getdi».**

Səid ibn Museyyibdən isə belə dediyini nəql edir**: «Ömər, Əbəl-həsənin (həzrət Əli) olmadığı zamanda müşküllərlə qarşılaşmaqdan Allaha sığınırdı>>.**

Əbu Abdullah Muhəmməd ibn Əli həkim Tirmizi «Fəthul mubin>> risalasinin şərhində belə deyir: «Əshab Quran hökmlərində Əliyə müraciət edir, ondan fitva alırdı. Buna görə

Ömər dəfələrlə belə demişdir: «**Əli olmasa Ömər həlak olardı».** Peyğəmbər (s) də belə buyurmuşdur: **«Ümmətimin ən alimi Əli ibn Əbu Talibdir».**

Tarix və hədis kitablarında da yer aldığı kimi Ömər elmi mərtəbələr və fiqhi məsələlərdən xəbərsiz idi. Çox aşkar hökmlərdə belə xəta edir və ətrafında olan səhabələrin hər biri onun xəta etdiyini anlayırdı».

**Şeyx**: «Xəlifə haqqında belə şeylər demək, əsla, doğru deyildir! Xəlifənin dini hökm və məsələlərdə səhv etməsi, əsla, mümkün deyildir!>>

**Dəvətçi**: «Bunu mən söyləmirəm, böyük alimləriniz həqiqəti kəşf etmiş və öz mötəbər kitablarında yazmışlar>>.

**Şeyx:** Zəhmət olmasa, onlardan bəzisini sənədləri ilə bəyan edin ki, yalan və doğru ortaya çıxsın və iftira edən rüsvay olsun!>>

Dəvətçi: «Ömərin yüzə yaxın səhvi qeyd edilmişdir. Amma bu anda, ağlıma gəldiyi qədəri ilə və vaxtı da nəzərə alaraq, onlardan sadəcə birini ərz etmək istəyirəm.

## ÖMƏRİN HƏZRƏTİ PEYĞƏMBƏRİN ZAMANINDA TƏYƏMMÜM HAQQINDA SƏHVİ, XİLAFƏTİ DÖVRÜNDƏ İSƏ SƏHV HÖKM VERMƏSİ

Müslim ibn Həccac «Səhih»in «Təyəmmüm» babında, həmidi «Cəmun beynəs-Səhiheyn»də, imam Əhməd ibn Hənbəl «Müsnəd»in 4-cü cildinin 265 və 319-cu səhifələrində, Beyhəqi «Sünən»in 1-ci cildinin 209-cu səhifəsində, Əbu Davud «Sünən»in 1-ci cildinin 53-cü səhifəsində, İbn Maccə «Sünən»in 1-ci cildinin 200-ci səhifəsində, imam Nəsai «Sünən»in 1-ci cildinin 59-61-ci səhifələrində və digər alimləriniz də öz kitablarında fərqli yollar va təbirlərlə belə rəvayət etmişlər: «Ömərin xilafəti zamanında bir nəfər gəlib ona belə dedi: «Mən cünub oldum, amma su tapa bilmədim. Nə edəcəyimi də bilmirəm». Ömər dedi: «Su tapmayana qədər namaz qılma, su tapdıqda qüsl edərsən». Orada olan Əmmar ibn Yasir dedi: «Ey Ömər, deyəsən unutmusan; səfərlərin birində mən və sən qüsl etmək istədik. Su olmadığına görə sən namaz qılmadın, mən də təyəmmüm üçün bütün bədənimi torpağa sürtməli olduğumu düşündüyüm üçün yerdə yuvarlandım və sonra namazımı qıldım. Peyğəmbərin (s) yanına gedib qəziyyəni danışdıqda, O, gülərək: «**Təyəmmümdə iki əlini birlikdə torpağa vurmağın, hər ikisini birlikdə alnına sürtməyin, sonra sol əlinin içini sağ əlinin üstünə, sağ əlinin içini də sol əlinin üstünə məsh etməyin kifayətdir»**-buyurdu».

Bu halda niyə «Namaz qılma» deyirsən? Ömərin verə biləcəyi bir cavabı olmadığı üçün «Ey Əmmar, Allahdan qorx»-

dedi. Əmmar: "Bu hədisi rəvayət etməyə izn verirsənmi?»,-deyə soruşdu. Ömər də «İstədiyini et»,-deyə cavab verdi.

Ağalar, əgər mötəbər səhih kitablarınızda yer alan bu hədis üzərində yaxşı-yaxşı düşünsəniz, o müəllimin yersiz olaraq Ömərin, səhabənin ən böyük fəqihi olduğunu söylədiyini siz də anlayarsınız.

Gecə-gündüz vətənində və səfərdə Peyğəmbər (s) ilə olan və Rəsulallahdan su olmadığı təqdirdə təyəmmüm etməyi eşidən və bundan başqa, «Su tapa bilməsəniz təmiz torpağa təyəmmüm edin ayəsini oxuyan bir fəqih necə müsəlmana səhv hökm verə bilər?! «Əgər su tapa bilməsən namaz qılma» deyə bilər?! Halbuki, Quran su olmadığı təqdirdə təmiz torpağa təyəmmüm edilməsini əmr edir!

Ayrıca, təyəmmüm məsələsi də, dəstəmaz və qusül kimi, insanların belə bildiyi bir hökmdür. Peyğəmbərin (s) səhabəsi və xəlifəsinin dini hökmləri başqasına öyrətməsi üçün özünün də mütləq onları bilməsi lazımdır. Ömərin qəsdli olaraq hökmü səhv söylədiyini və dini təhrif etmək istədiyini demirəm. Amma ola bilər ki, məsələləri qavramaq və hökmləri əzbərləmək üçün hafizəsi zəif idi.

Bilavasitə öz alimlərinizin yazdığına görə, Ömər böyük alim olan səhabə Abdullah ibn Məsuda «Yanımdan ayrılma, məndən sual soruşulduqda sən cavab ver» demişdir. İndi siz ağalar, belə məsələləri bilməyə etinasız olan biri ilə, əhkamın bütün təfərrüatını ən incə tərəflərinə qədər bilən və elmi və

əməli hökmlərin ovcunun içində olan biri arasında nə qədər fərq olduğuna özünüz hökm verin.

**Şeyx**: «Peyğəmbərdən (s) başqa dini hökmlərin xırdalığını və ən incə təfərrüatını kim qavraya bilərdi?».

**Dəvətçi**: «Şübhəsiz, Rəsulallahdan (s) sonra, imam Əli istisna olmaqla, səhabədən heç kəs belə bir elmə sahib deyildir. Bilavasitə həzrət Peyğəmbər imam Əlinin bütün səhabədən alim və elmli olduğunu açıq-aydın bəyan etmişdir.

## BÜTÜN ELMLƏR HƏZRƏT ƏLİNİN YANINDA ƏLİNİN İÇİ KİMİ İDİ

Buna görə xətiblər xətibi Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib» kitabında belə rəvayət etmişdir: «Ömər bir gün təəccüblü halda həzrət Əliyə belə dedi:

- Necə olur ki, səndən soruşulan bütün hökmlərə heç düşünmədən cavab verirsən?

Həzrət Əli ovucunu açaraq buyurdu:

-Əlimdə neçə barmaq var?

-Beş.

-Niyə düşünmədən, o dəqiqə cavab verdin?

-Düşünməyə ehtiyac duymuram; beş barmağın gözümün önündədir.

-Bax, bütün elm və hökmlər mənim qarşımda bu əlimin içi kimi aydın görünür. Buna görə də suallara cavab verərkən düşünməyə əsas belə görmürəm.

Özünüz düşünün, o cür böyük bir mədəniyyət mərkəzində işləyən bir müəllimin təəssüb və ya sevgiyə görə dəlilsiz danışması - «Ömər elə bir böyük alim idi ki, elmin qapısı olan həzrət Əli belə hökmləri ondan soruşurdu» deməsi vicdansızlıq deyilmi?!

## MÜAVİYƏNİN HƏZRƏT ƏLİNİN MƏQAMINI MÜDAFİƏ ETMƏSİ

İndi ağlıma gələn və dediklərimə dəlil olan bu rəvayəti də sizlərə danışmaq istəyirəm: İbn Həcər Məkki «Səvaiq» kitabının 11-ci babının 5-ci «Məqdəs"nin 110-cu səhifəsində - 14-cü ayənin təfsirində belə yazır: «İmam Əhməd, həmçinin Mirseyid Əli Həmədani «Məvəddətul-qurba»da və İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabında belə rəvayət edir: «Bir nəfər gəlib Müaviyəyə sual verdi. Müaviyə: «Get, Əlidən soruş, o daha elmlidir»,-deyə cavab verdi. O: «Sənin cavab verməyin Əlinin cavab verməsindən daha gözəldir» dedikdə Müaviyə qəzəblənərək belə dedi: «Peyğəmbərin elm verdiyi kəsimi bəyənmirsən? Rəsulallah ona belə buyurmuşdu:**«Sən mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən.Bu fərqlə ki,**

**məndən sonra Peyğəmbər yoxdur». Ömər də nə vaxt çətin bir hökmlə qarşılaşsaydı Əlidən öyrənərdi>>**.

Görürsünüzmü, fəzilət, düşmənlərin belə şahidlik etdiyi bir şeydir. Əlinin (ə) ən böyük düşməni olan Müaviyənin bu etirafı da Əmirəl-mömininin həqiqət məqamını göstərməyə kifayətdir.

Böyük alimlərinizdən Nurəddin ibn Səbbağ Maliki «<Fususul mühimmə»də, Muhəmməd ibn Təlhə Şafei «Mətalibus-sual»da, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Xətib Xarəzmi «Mənaqib»də, Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»də və digərləri öz mötəbər kitablarında belə qeyd etmişlər: «Ömər ibn Xəttab 70 dəfə **«Əli olmasaydı Ömər həlak olardı»** demişdir. Əli olmadığı təqdirdə qarışıq məsələlərdə çıxılmaz vəziyyətə düşəcəyini etiraf etmiş, həlak olacağını bildirmişdir».

## ÖMƏRİN ÇƏTİN SUALLAR QARŞISINDA ACİZLİYİNİ, ƏLİ OLMADIĞI TƏQDİRDƏ İŞİN ÇƏTİNƏ DÜŞDÜYÜNÜ ETİRAF ETMƏSİ

Nurəddin Maliki «Fususul-mühimmə» kitabının 1-ci fəslinin 3 cü bölümünün 18-ci səhifəsində belə rəvayət edir: «Bir nəfəri Ömərin yanına gətirərək ondan «Necə gecələdin?»,-deyə soruşdular. O, belə dedi: «Fitnəni sevdiyim, haqdan xoşlanmadığım, yəhudi və nəsraniləri təsdiq etdiyim,

görmədiyim şeyə iman etdiyim və yaradılmamış şeyi etiraf etdiyim bir halda sübhü açdım>>.

Ömər, həzrət Əlini çağırtdırdı və Ona hadisənin nədən ibarət olduğunu dedilər. Əmirəl-möminin belə buyurdu: **«Doğru demişdir. Fitnəni sevməsindən məqsəd, Allahın da Quranda buyurduğu kimi, övladı və malı sevməkdir. Çünki Allah-Təala belə buyurur: «Şübhəsiz ki, mallarınız və övladlarınız sizin üçün bir fitnədir...»** [38] Haqdan xoşlanmamasından məqsəd ölümdür. Buna görə Quran belə buyurur: **«Ölüm sərxoşluğu haqq və həqiqət olaraq gəlmişdir...>>**[39]

Yəhudi və nəsraniləri təsdiq etməsindən məqsəd Allah-Təalanın bu sözüdür: «**Yəhudilər: «Nəsranilər bir şey üzrə deyildir»-dedilər. Nəsranilər də: «Yəhudilər bir şey üzrə deyildir»-dedilər». (Yəni yəhudilər nəsranilərin, nəsranilər də yəhudilərin haqq olmadığını bəyan və bir-birini yalanla ittiham edirlər).**

Bu ərəb kişi isə belə deyir: **«Mən hər iki firqəni təsdiq edirəm, yəni hər iki firqəni yalan sayıram».**

---

[38] Ənfal, 28

[39] Qaf, 19

**Görmədiyi şeyə iman gətirməsindən məqsəd, görmədiyi Allah-Təalaya iman gətirməsidir. Yaradılmayan şeyi etiraf etməsindən məqsəd də qiyamətdir ki, hələ yaradılmamışdır."**

İmamın sözlərindən təsirlənən Ömər belə dedi: **«Əlinin olmadığı zaman müşküllərdən Allaha sığınıram».**

Bu hadisəni Muhəmməd ibn Yusif «Kifayətut-Talib» kitabının 57-ci babında başqa bir yolla daha geniş şəkildə Huzeyfə ibn Yəmandan, o da Ömərdən rəvayət edir.

Bu cür hadisələr Ömər və Əbu Bəkr zamanında çox olmuşdur. Onlar cavab verə bilmədikdə imam Əlini (ə) köməyə çağırmışlar. Xüsusilə də yəhudi və nəsrani alimləri və ya materialist düşüncəli insanların suallarına ancaq həzrət Əli cavab verə bilirdi.

Ömər Rum padşahının soruşduğu suallara cavab vermək üçün də həzrət Əliyə (ə) müraciət etmişdir. Bu hadisəni öz möhtərəm alimləriniz kitablarında yazmış və nəql etmişlər: Buxari və Müslim öz «Səhih»lərində; Nişaburi: «Təfsir»; Şafei Fəqihi Ibn Məğazəli: «Mənaqib»; Həmidi: «Cəmun-beynəs-Səhiheyn»; imam Əhməd: «Müsnəd»; Qazi Fəzlullah ibn Ruzbahan Şirazi: «Ibtalul-batil>>; Səmhudi: «Cəvahirul-əqdeyn»; Muhəmməd ibn Təlhə Şafei: «Mətalibus-süal», bab: 4, səh: 13; Ibn Səbbağ Maliki (ö: 855): «Fusulul-mühimmə», səh: 18; İbn həcər Əsqalani (ö: 852): «Təhzibut təhzib», səh: 338 (Çap: HeydərAbad Dekn); Muhubiddin Təbəri: «Riyazun-nəzrə»c: 2, səh: 194; İbn Əsir Cəzri (ö: 360): «Əsədul ğabə», c:

4, səh: 22; Ibn Quteybə Deynəvəri (ö: 276): «Təvilu muxtəlifil-hədis», səh: 201-202 (Misir çapı); Ibn Əbdülbirr Qirtəbi (e: 463): «İstiab», c: 2, səh: 474, c: 3, səh: 39; İbn Kəsir: «Tarix» c: 7, səh: 359; Muhəmməd ibn Yusif Gənci Şafei (ö: 658): «Kifayətut Talib», bab: 57; Cəlaləddin Siyyuti: «Tarixul-xüləfa», səh: 66; Seyid mömin Şəblənçi: «Nurul-əbsar», sah: 73; Nurəddin Əli ibn Abdullah Səmhudi: «Cəvahirül-əqdeyn»; hacı Əhməd Əfəndi: «Hidayətul Murtəb», səh: 146, 152; Muhəmməd ibn Əli Səbban: «İsafur Rağibin», sah: 152; Yusif Səbt ibn Covzi: «Təzkirətu-Xəvassil ümmə», bab: 6, səh: 87; İbn Əbil-hədid (ö: 655): «Nəhcül-bəlağənin şərhi», c: 1, səh: 6; Əli Quşçi «Şərhi-təcrid», səh: 407; Xətib Xarəzmi: «Mənaqib», səh: 48, 60; mütəəssib mövla İbn həcər Məkki (ö: 973): «Səvaiq», səh: 78; İbn hacər Əsqalani: «İsabə», c: 2, səh: 509; İbn Qəyyum Cəvziyə: «Turukul-hikəmiyyə», səh: 47, 53 və s.

Xülasə, təvatürü ilə rəvayət edildiyi kimi, Ömər bir çox hallarda imam Əliyə müraciət etməklə çıxılmaz vəziyyətdən xilas ola bilmişdir. Bu səbəbdən bəzən belə demişdir: **«Əlinin olmadığı zaman müşküllərlə qarşılaşmaqdan Allaha sığınıram».** Bəzən də belə demişdir: **«Əli olmasaydı Ömər həlak olmuşdu», «Əli olmasaydı Ömər, hardasa həlak olacaqdı>>.**

Bu elmsiz müəllimin əksinə olaraq şafei fəqihi İbn Məğazeli «Mənaqib» və həmidi «Cəmun-beynəs-Səhiheyn» kitabında belə rəvayət edir: «Xəlifələr hər zaman həzrət Əli ilə məsləhətləşirdilər. Din və dünya işlərində fitva mərkəzi Əli idi.

Xəlifələr Onun əmr və sözlərini dinləyir, əməl və istifadə edirdilər».

## HƏZRƏT ƏLİ XİLAFƏT MƏQAMINA DAHA LAYİQ İDİ

Biz də bunlardan bəzisinə işarə etdik. Bu halda Əmirəl-möminin həzrət Əlinin digər kamalatları və haqqında rəvayət edilən o qədər nəslərdən əlavə, nəql edilən bu rəvayət və hökmlər də bəsirət sahibi olan hər kəs üçün Onun imamət, höccət və digərlərindən üstünlüyünə ən böyük dəlildir. Çünki ələmiyyət (hər kəsdən elmi çox olmaq) insanın, digər kamallara sahib olduğu təqdirdə, üstün və layiqliyinə ən böyük dəlildir. Buna görə də «Yunus» surəsinin 35-ci ayəsində aydın şəkildə buyurulur: **«...Eləsə, haqqa yönəldən tabe olmağa daha layiqdir, yoxsa doğru yola çatdırılmadıqca özü hidayətə çatmayan? Sizə nə oldu? Necə hökm edirsiniz?»**

Əlbəttə, hidayət yolunu bilən, bilməyən və hidayətə möhtac olan insanlar üçün tabe olunmağa daha layiqdir. Bu ayə, imamət, xilafət, dini və dünyəvi ümumi riyasət və Peyğəmbərin (s) yerinə keçmədə əqli bir qayda olan məfzulun fazilə (aşağı olanın üstün olana) tərcih (üstün) edilməyəcəyinin ən böyük dəlilidir. Buna görə «Zümər» surəsinin 9-cu ayəsində sual inkar formasında verilərək belə buyurulur: **<<...De ki, heç bilənlərlə bilməyənlər bir olarmı?...>>**

## İNSAFLA HÖKM VERMƏK LAZIMDIR

Ağalar zəhmət olmasa, Allahın rızası üçün adətlərinizi və təəssübünüzü bir kənara qoyub insafla hökm verin. Zahiri və batini elmlərdə elmi üstünlüyü günəşdən aydın olan, şiə, sünni, hətta dindən uzaq kəslərin belə qəbul və Peyğəmbərin (s) tövsiyə etdiyi bir şəxsin üzərinə kölgə salmaq insafa sığarmı? Onu həqiqətən hiylə siyasətlə işdən uzaqlaşdırmadılarmı? Məgər bütün əshab və ümmət arasında Xatəmül-ənbiyanın elm qapısı, müttəqilərin imamı və müsəlmanların mövlası olacaq və xilafətə hər kəsdən önə keçirə biləcəyiniz başqa bir kəs vardırmı? Əgər Peyğəmbərdən sonra ümmət arasında imam Əlidən daha elmli, təqvalı və zahid bir kəsi tapa bilməsəniz, bu halda ağlın hökmü ilə təsdiq edin ki, Əli haqq üzrə olan bir imam, xəlifə, Rəsulallahın vəsisi və xilafətə ən layiq olan kəsdir. Lakin təəssüflər olsun ki, belə bir insan hiylə və oyunla işdən uzaqlaşdırıldı».

**Şeyx**: «Həzrət Əlinin (r.ə) elmi və əməli fəzilətləri hər kəsin ittifaq etdiyi bir şeydir. Bir ovuc inadçı, təəssübkeş və cahil istisna olmaqla heç kim bunu inkar etməmişdir. Amma bu da qətidir ki, Əli (r.ə) bilavasitə özü xəlifələrin xilafətini qəbul etmiş, onların qabaqcıllıq haqqına təslim olmuşdur. Biz nə üçün, sizin təbirinizlə, şahdan çox şahlıq edək? 1300 il sonra bir-birimizlə savaşıb Əlinin (ə) haqqının qəsb edildiyini soraq? Niyə sülh içərisində olmayaq? Tarixin və alimlərinizin də təsdiq etdiyi kimi, Peyğəmbərdən (s) sonra Əbu Bəkr, Ömər və Osman sıra ilə xilafətə keçmişlər. Biz də həzrət Əlinin Rəsulallahla (s) olan yaxınlığı, elmi və əməli üstünlüyünü qəbul edərək bir

yerdə yaşayaq. Digər dörd əhli-sünnət məzhəbi bir-birilə vəhdət halında olduğu kimi, şiə də bizə yaxınlaşsın, uzaq durmasın.

Əlbəttə, biz də həzrət Əlinin (r.ə) elmi və əməli məqamını inkar etmirik. Amma siz də təsdiq edərsiniz ki, yaş, siyasət, ehtiyat, təhəmmül və düşmənlər qarşısında səbir nöqtəsində, əlbəttə ki, Əbu Bəkr daha üstündür və bu baxımdan ümmətin də icmasıyla xilafətə keçdi. Əli isə gənc və təcrübəsiz olduğu üçün xilafət gücünə sahib deyildi. Buna görə 25 il sonra xilafətə keçdikdə, siyasi gücü olmadığına görə, o qədər qan töküldü və fəsad meydana gəldi!>>

**Dəvətçi**: «Birdən-birə çox mövzuya toxundunuz. Etdiyim qeydlərə əsasən hamısına ayrı-ayrılıqda cavab vermək məcburiyyətindəyəm.

## OĞRU VƏ ZƏVVARIN HEKAYƏSİ

Əvvəla; həzrət Əlinin (ə) öz rizayəti ilə xilafəti qəbul etdiyini bəyan etdiniz. Burada ağlıma bir şey gəldi, misal olsun deyə, ərz edim. İranda məşrutiyyətin ilk illərində şəhərlər arası yollar çox təhlükəli idi. Quldurlar zəvvarları qarət etdiyinə görə, müqəddəs məkanların ziyarətçiləri çətinliklə gedib-gəlirdilər. Ziyarət karvanları yolda quldurların hücumuna məruz qalır, insanlar əsir alınır, malları

aralarında bölüşdürülürdü. Günlərin bir günü bu karvanların birində yaşlı bir oğru mallar arasında kəfən gördükdə

sahibindən onun nə olduğunu soruşdu. Ziyarətçi kəfənin öz malı olduğunu söylədi. Oğru: «Mənim kəfənim yoxdur, bu kəfəni mənə bağışla ki, halal olsun»-dedi. Ziyarətçi dedi: «Bütün malım sizin olsun. Amma kəfəni mənə verin; çünki ömrümün sonudur, bunu zorla almışam. Bu mənim ümid vəsiləmdir».

Oğru nə qədər israr etdisə də ziyarətçi vermədi. Oğru qamçını onun üstünə çəkərək «Verməsən, halal edənə qədər səni döyəcəyəm!>> dedi. Bir az qamçının tamını dadan yazıq ziyarətçi: «Yaxşı-yaxşı, halal etdim, ananın südü kimi halal olsun»,-deyə bağırdı. (Məclisdəkilərin gülüşməsi)

Əlbəttə, yəqin ki, əfv edərsiniz. Məni daha yaxşı anlayasınız deyə, misalı bu təşbihlə dedim. Deyəsən, əvvəlki gecələr söylədiyim qəti tarixi dəlilləri unutmusunuz. Halbuki, İbn Əbil-hədid, Cövhəri, Təbəri, Balazəri, Ibn Quteybə, Məsudi və digərlərinin də şahidlik etdiyi, kimi həzrət Əlinin (ə) evinə od vurdular. Onu başıaçıq, əbasız zorla məscidə apardılar, üstünə qılınc çəkdilər, «Beyət et, yoxsa boynunu vurarıq!» dedilər.

Allah xatirinə insafla hökm edin, rizayət və təslimiyyətin mənası budurmu? Əgər çaxnaşma salmaq, evinin qapısını yandırmaq, qılınc çəkmək və təhdidlə beyət almaq riza və istəyin göstəricisidirsə, bəs görəsən zorbalıq və cəbrin mənası nədir?

İnşallah, evə gedəndən sonra insafla qəzetlərdə yer alan əvvəlki açıqlamalarımı bir daha diqqətlə oxusanız, həzrət Əlinin

(ə), əsla, razı olmadığını açıq-aydın görərsiniz. Bizi o oğrular kimi başımıza vuraraq <həzrət Əli razı idi» söyləməyə məcbur edirsinizsə, o başqa məsələ...

İkincisi; 1300 ildən sonra diqqətli olmağımız dava etməməyimizin vacibliyini söylədiniz. Əvvəla; biz heç kimlə dava etmədik, etməyəcəyik də. Sadəcə olaraq hücumlar qarşısında özümüzü müdafiə edirik. Əhli-sünnət qardaşlar şiələrə hücum edir, mallarını və canlarını halal bilirlər. Savadsız xalqa müşrik və kafir olduğumuzu söylədiyinizə görə, biz də məcburən kafir və müşrik deyil, müvəhhid və mömin olduğumuzu isbat edirik və bu təkallahlılıq əqidəsi də iftixarımızdır!

## DİNİ İNANCLAR KOR-KORANƏ OLMAMALIDIR

Üçüncüsü: əvvəlki gecələrdə bildirdiyim kimi, dini inanclar təqlid üzrə olmamalıdır. Tarixdə də yer aldığı və bəyan etdiyiniz kimi, dörd xəlifə növbə ilə xilafətə keçdilər. Bizim də kor-koranə adətlərin təsiri altında qalaraq hər şeyi qəbul etməyimiz, əsla, doğru deyildir. Halbuki, əqli və nəqli dəlillər də inancların araşdırmalara əsaslanmasını, təqliddən uzaq olmasını təsdiq edir.

Yenə təkrar edirəm; ümmətin əksəriyyəti və böyük tarixçilərin yazdığına görə, Peyğəmbərdən (s) sonra insanlar iki hissəyə ayrıldı. Bir qrup Əbu Bəkrə beyət edilməsini söylədi, digər bir qrupu da haqqın Əli ilə olduğunu və Peyğəmbərin (s);

**«Əliyə itaət mənə itaətdir və Əliyə müxalifət mənə müxalifətdir»** buyuraraq müsəlmanlardan həzrət Əli üçün beyət aldığını ifadə etdi.

Belə olduqda hamımız iki tərəfin də dəlillərini dinləmək, araşdırmaq və tədqiq etmək məcburiyyətindəyik. Hansının haqq olduğunu görsək, ona da tabe olarıq. Əlbəttə, əql, nəql və məntiq üzrə olan yol haqlıdır.

## MƏN DƏ DİNİ TƏHQİQ YOLU İLƏ QƏBUL ETDİM

Siz mənim atalarıma tabe olaraq, kor-koranə haqq şiə məzhəbini qəbul etdiyimi zənn edirsiniz?! Xeyr, Allaha and olsun ki, özümü tanıdığım gündən bəri daim haqqı araşdırdım. Əvvəl Allah-Təala haqqında diqqətli araşdırmalar apardım, materialistlərin inanclarını gözdən keçirtdim və sonda, Allaha çox şükür, tövhidi seçdim. Daha sonra peyğəmbərlərin risalətini və dəvətçilərin yolunu araşdırdım. Kitablarını oxuyaraq hər qrupun alimlərilə müzakirələr apardım.

Sonda dəlil və bürhan üzrə əcdadım Rəsulallahın (s) müqəddəs dini - İslamı qəbul etdim. Peyğəmbərdən (s) sonra ata-babalarımın təsiri altında qalaraq kor-koranə əməl etmədim. Şiə və sünni məzhəbinin dəlillərini tədqiq etdim, yüzlərlə müxalif kitab oxudum. Allaha and olsun ki, sizin mötəbər kitablarınız arasından həzrət Əlinin (ə) xilafət və vilayət həqiqətini təhqiq edərək tapdım.

İmamət və xilafət xüsusunda şiə alimlərindən daha çox sünni alimlərinin kitablarını oxuduğumu söyləyə bilərəm. Çünki imamətin isbatı nöqtəsində sizin alimlərinizin kitablarında olan dəlillər, şiə alimlərinin kitablarında mövcud olan dəlillərdən daha kamil şəkildə yer almışdır. Amma siz, təəssüflər olsun ki, o ayə və rəvayətləri üzdən, ötəri, biz isə diqqətlə oxuyuruq. Siz atalarınıza tabe olaraq həzrət Əlinin (ə) xilafəti haqqındakı açıq-aşkar nəslər olan ayə və rəvayətləri gülünc bir şəkildə təvil edir, həqiqi mənasından uzaqlaşdırırsınız. Halbuki, sizin öz alimlərinizin kitablarını diqqətlə oxuyanlar, istər-istəməz həzrət Əlinin (ə) Allahın vəlisi, Rəsulallahın (s) xəlifəsi və insanlara höccət olduğunu təsdiq edirlər.

Dördüncüsü; tarixçilərin sözünə tabe olaraq Əbu Bəkr, Ömər və Osmanı Əlidən qabağa keçirməyin vacibliyini bəyan etdiniz. Bu sözünüz əql və nəqlə ziddir. Çünki insanla heyvanın fərqi ağıl, elm və fikirdir; insan kor-koranə ata-babalarını təqlid edə bilməz. Bir az düşünün: bir müctehid ölər və yerini bir cahil tutarsa, xalq ona kor korana təqlid etməlidirmi?

Xüsusilə də əgər onun fiqh və elmdən xəbərsiz olduğu anlaşılarsa, ağıl və rəvayətin də hökm etdiyi kimi onu təqlid etmək haramdır. Bir alim olduğu halda cahili önə keçirmək caiz deyil! O halda qaydalar və alimlərinizin nəqllərinə əsasən, həzrət Əlinin nəslərdən əlavə elmi məqamı sabit olursa, deməkxilafət işində birinciliyi də əql və nəql üzrə sabit olur. Peyğəmbərin (s) elm qapısı olan Əlidən (ə) üz çevirmək əqlən və nəqlən qınanılmışdır. Tarixi vaqiələr baxımından, əlbəttə, Rəsulallahdan (s) sonra Əbu Bəkrin 2 il 3 ay, Ömərin 10 və

Osmanın 12 il xilafətdə qaldığını və hər birinin öz dövründə bir qrup xidmətlər etdiyini də qəbul edirəm. Amma bunlar da əql və nəqlə əsasən həzrət Əlini onlardan sonraya keçirməyimizə şərait yaratmaz. Çünki böyük alimlərinizdən Şeyx Süleyman Bəlxi hənəfi «Yənabiul-məvəddə» kitabının 37-ci babının 112-ci səhifəsində «**Onları tutun, çünki onlar sorğuya çəkiləcəklər»** ayəsinin təfsirində, hamısı Firdovsi Deyləmi, Əbu Nəim İsfahani, «Məğazi» kitabının müəllifi Muhəmməd ibn Əshaq Muttəlibi, Hakim, Həmvini, Xətib Xarəzmi və İbn Məğazelidən, bəzisi İbn Abbasdan, Əbu Səid Xudridən və bəzisi isə İbn Məsud vasitəsi ilə Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: «**Onlar həzrət Əlinin vilayətinə görə sorğu-suala çəkiləcəklər».**

Həmçinin, Səbt ibn Covzi «Təzkirətu-Xəvassil-ümmə»nin 10-cu səhifəsində və Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib» kitabının 62-ci babında Ibn Cərir, o da Ibn Abbasdan bu ayənin təfsirində, Əli vilayəti haqqında sorğuya çəkiləcəklərini rəvayət etmişdir.

## PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİYƏ İTAƏT ETMƏYİ ÜMMƏTƏ ƏMR ETMƏSİ

**Bunlardan əlavə, «Peyğəmbər sizə nəyi verdisə onu alın, nəyi qadağan etdisə ondan çəkinin»** ayəsinə əsasən də müsəlmanlar Xatəmül-ənbiyanın (s) əmr etdiyinə tabe olmaq məcburiyyətindədir. Rəsulallahın sizin mötəbər kitablarınızda da yer alan əmrlərinə müraciət etdikdə, Peyğəmbərin ümmət

arasında həzrət Əlini (ə) elm qapısı olaraq tanıtdığını, itaətini əmr etdiyini və Ona itaətin Özünə itaət olduğunu bəyan etdiyini görürük. Buna görə Əhməd Hənbəl «Müsnəd»də, İmamul-hərəm «Zəxairul-üqba»da, Xarəzmi «Mənaqib»də və digərləri öz kitablarında bunu açıq şəkildə yazmışlar.

Süleyman hənəfi «Yənabiul-məvəddə»də və Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib» kitabında Rəsuli-Əkrəmin (s) belə buyurduğunu rəvayət edir: **«Ey ənsar camaatı, sizi, məndən sonra sarıldığınız təqdirdə, əsla, azmayacağınız doğru yola hidayət edimmi?» Xalq: «Bəli»dedikdə, Peyğəmbər (s) belə buyurdu: «Bu, Əlidir.Onu sevin, ona ikram edin və tabe olun; çünki Əli Quranladır, Quran da Əli ilə. O, sizi hidayətə çatdırar, fəlakətə aparmaz. Sizə bu söylədiklərimi mənə Cəbrayıl xəbər verdi>>.**

Əvvəlki gecələr sənədini də dəlil gətirdiyim və böyük alimlərinizin rəvayət etdiyi kimi Peyğəmbər (s) Əmmar Yasirə belə buyurdu: «**Bütün insanlar bir yolda getsə Əli isə digər bir yolda, sən Əlinin yolu ilə get və insanlardan uzaqlaş>>.**

Həmçinin, dəfələrlə fərqli məkan və zamanlarda belə buyurmuşdur: «**Əliyə itaət edən mənə itaət etmişdir, mənə itaət edən də Allaha itaət etmişdir».**

Bunları keçən gecələrdə sənədləri ilə daha ətraflı şəkildə açıqlamışdım. Bu cür hədislər sizin kitablarınızda olduqca çoxdur və mənəvi təvatür dərəcəsinə çatmışdır. Bunların

hamısında da Peyğəmbər (s) başqalarının yolu ilə deyil, Əlinin yolu ilə getməyi əmr etmişdir.

Sizin kitablarınızda Rəsuli-əkrəmin özündən sonra sirati müstəqimə yetişmə yolunun və ya elm qapısının Əbu Bəkr, Ömər və ya Osman olduğunu buyurduğuna dair, bir dənə də olsun, rəvayət görmədim. Əgər siz görmüsünüzsə və ya uydurulmuş birtərəfli Bəkrilər və Əməvilərin tərəfdarlarının söylədiyi hədislər deyildirsə, buyurun söyləyin, çox məmnun olarıq.

Bütün bunlara baxmayaraq, siz Rəsulallahın elm qapısı, sirati müstəqimə yetişmək yolu, vəsisi və xəlifəsi olan Əlini dördüncü mərtəbəyə layiq bilməyinizi, Peyğəmbərin (s) Əliyə (ə) tabe olması haqda kitablarınızda yazılan saysız-hesabsız rəvayətləri görməməzliyə qoymağınızı, kor-koranə tarixi qəbul etməyinizi və barələrində heç bir rəvayət olmayan kəslərə tabe olmağınızı bəyan edirsiniz?! Belə bir şey mümkündürmü? Əgər dediyinizi etsək, əql və nəql baxımından gülünc vəziyyətə düşmərikmi? Allah-Təala qarşısında cavabdeh olmarıqmı? Sizin dediyiniz kimi hərəkət etsək, Rəsulallahın əmrinə müxalif olmarıqmı? Bu mövzuda hökm verməyi siz ağaların vicdanına, insafına buraxıram.

## ƏHLİ-SÜNNƏT ALİMLƏRİ ŞİƏLƏRLƏ HƏMKARLIQ ETMƏK İSTƏMİR

Beşincisi; dörd məzhəbin (Hənəfi, Maliki, Hənbəli, Şafei) bir birilə uzlaşdığı kimi, bizim də uzlaşmağımızın zəruriliyini vurğuladınız. Bunun da həyata keçməsi qeyri-mümkün bir şeydir. Çünki sizlər heç bir dəlil olmadan şiə müsəlmanları və Əhli-beyt (ə) tərəfdarlarını rafizi, müşrik və kafir sayırsınız. Mömin və müşrik, əsla, bir araya gələ bilməz! Yoxsa hənəfi, Maliki, hənbəli, Şafei qardaşları ilə ittihad və ittifaq etmə nöqtəsində biz sizdən daha iddialıyıq.

Əlbəttə, açıq-aşkar həqiqətləri bildirməkdə hamımız azad olmalı, bir-birimizi narahat etməməliyik. Dörd məzhəb əməldə azad olduğu kimi Peyğəmbər (s) Əhli-beytinin tərəfdarları da azad olmalıdırlar.

Amma dörd məzhəbdə bu qədər ixtilaflara baxmayaraq, hətta bəzən bir-birlərini kafir və fasiq saydıqları halda, siz hamısını müsəlman sayır və əməldə onlara azadlıq verirsiniz. Lakin zavallı şiə müsəlmanları müşrik və kafir elan edərək rədd edirsiniz. Onlara əməl və ibadət azadlığı vermirsiniz. Belə olan halda necə ittihad və birlik əldə edə bilərik?

## TÜRBƏTƏ SƏCDƏ ETMƏ MÖVZUSUNDA İXTİLAF

Türbətə səcdə etmə məsələsində ortalığa vəlvələ salırsınız. Bunu xalqın gözündə bütpərəstlik elan edir, müvəhhid şiələri bütpərəst sayırsınız. Halbuki, Allah-Təala və

Peyğəmbərin (s) əmri ilə torpağa səcdə edirik. Çünki Quranda da səcdə əmr edilmişdir və sizin də bildiyiniz kimi səcdə alnı yerə qoymaqdır. Amma nəyə səcdə ediləcəyi haqda aramızda ixtilaf vardır».

**Şeyx:** «Niyə siz də ixtilaf çıxmaması və aradakı məyusluğun ortadan qalxması üçün digər müsəlmanlar kimi səcdə etmirsiniz?»

**Dəvətçi**: «Niyə siz Şafeilər, hənəfi, Maliki və hənbəlilərlə ən əhəmiyyətli məsələlərdə ixtilaf halındasınız, hətta bəzən bir-birinizi kafir və fasiq sayırsınız. Niyə ixtilaf çıxmasın deyə hamınız eyni şeyə inanmırsınız?»

**Şeyx**: «Fəqihlərin fitvası fərqlidir. Bu dördündən hansına tabe olsaq doğrudur və savab qazanarıq».

## HƏQİQƏTİN TƏƏSSÜRLƏ AŞKAR EDİLMƏSİ

**Dəvətçi:** «Zəhmət olmasa, Allah xatirinə insaflı olun. Necə olur ki, dörd məzhəb imamına itaət etməkdə Əllamə Muqrizinin «Xətət>> kitabında etiraf etdiyi kimi Beybərəsin əmrlərinə kor-koranə itaət etməkdən başqa heç bir dəliliniz yoxdur-ən təməl məsələlərdəki bütün ixtilaflarınıza baxmayaraq, sırf tabe olduğunuz üçün savab əldə edirsiniz, lakin digər tərəfdən elm və təqva abidəsi, öz mötəbər kitablarınızda elm və fiqh xüsusundakı üstünlükləri barədə o qədər rəvayət nəql edilən, Rəsuli-Əkrəmdən (s) yetişən aşkar dəlillərə əsasən Qurani-kərimin bərabəri, tabeçiliyi nicat,

müxalifətçiliyi isə fəlakət sayılan Əhli-beyt davamçılarını müşrik və kafir sayırsınız?!

Bu halda siz də qəbul edərsiniz ki, bədbinlik və məyusluq ixtilaf və ayrılıq səbəbi ilə deyildir, Əhli-beytin (s) qəzəb və sevgisi ilə əlaqəli bir hadisədir. Bu vəziyyət gözəl əxlaq və sifətlərə sahib olmaq, daxilini hər növ düşmənçilik, kin və həsəddən təmizləmək və insaflı olmaq sayəsində ortadan qalxa bilər. İxtilafa qalsa, üsul və füruda əhli-sünnət arasında da bir çox ixtilaf vardır. Dörd imamın fitvaları və alimlərinizin verdiyi hökmlər, ümumilikdə Qurani-kərimin bəyanına zidd olduğu halda siz, əsla, bir-birinizə qarşı pisniyyətli deyilsiniz. Amma Quran hökmünə əsasən torpağa səcdə edən şiə müsəlmanları müşrik, kafir və bütpərəst

sayırsınız»).

**Şeyx**: «Əgər iddianız təkcə boş söz deyil həqiqətdirsə, ond zəhmət olmasa, əhli-sünnət alimlərinin harada Quranın bəyanına zidd hökm verdiyini açıqlayın!»

**Dəvətçi**: «Bir çox hökmdə bəyan nəssin, hətta cumhurun (fəqihlərin) fitvasının əksinə hökm vermişlər. Vaxt kifayət qədər olmadığı üçün hamısını qeyd edə bilməyəcəyəm. Bundan başqa, bir çox böyük alimləriniz dörd məzhəb arasındakı ixtilaflar haqqında çox sayda kitab yazmışlar. Şeyx Tusinin «Məsailul-xilafi-fil-fiqh» kitabına müraciət edin. O, bu kitabda «Təharət» babından «Diyat» babına qədər bütün mövzuda İslam fəqihlərinin ixtilaflarını heç bir xüsusi fikrindən

istifadə etmədən bir yerə toplamış və elm əhlinə təqdim etmişdir.Hamısını rəvayət etmək mümkün olmasa da, misal və siz ağaların da bizim iftira etmədiyimizi bilməsi üçün bir mövzuya qısa olaraq toxunmaq istəyirəm. Biliniz ki, alimləriniz Qurani-kərimin aydın bəyanına zidd fitvalar vermişlər».

**Şeyx:** «Buyurun, söyləyin. hansı mövzuda alimlər nəssə zidd hökm vermişlər?>>

## SU OLMADIQDA DƏSTAMAZ VƏ QÜSL YERİNƏ TƏYƏMMÜM ETMƏK LAZIMDIR

**Dəvətçi:** «Bildiyiniz kimi, «Təharət» babında əməllərdən biri də mütləq su ilə dəstəmaz və qüsl almaqdır. Bəzən bunlar vacib, bəzən sünnət və bəzən də müstəhəbdir. Buna görə «Maidə» surəsinin 6-cı ayəsində belə buyurulur: **«...Namaz qılmağa qalxdığınız zaman üzünüzü və dirsəklərlə bərabər əllərinizi yuyun...>**>

Bu əsas üzrə dəstəmaz xalis və təmiz su ilə alınmalıdır. Təmiz suyun olmadığı yerdə isə Quran «Nisa» surəsinin 43-cü ayəsində belə əmr edir: «**...Su tapa bilməsəniz, təmiz torpağa təyəmmüm edin. Sonra üzünüzə və əllərinizə sürtün».**

Bu iki hökmdən başqa bir hökm bəyan edilməmişdir. Əvvəla; dəstəmaz üçün su lazımdır. Su tapılmazsa və ya bir maneə olarsa dəstəmaz yerinə təyəmmüm edilir. Bu hökm vətəndə də, qürbətdə də eynidir. Bu mövzuda bütün məzhəb fəqihləri ittifaq etmişlər.

## ƏBU HƏNİFƏNİN, SƏFƏRDƏ OLANIN SU TAPA BİLMƏDİYİ TƏQDİRDƏ QÜSL VƏ DƏSTAMAZI NƏBİZLƏ[40] ALA BİLƏCƏYİNƏ DAİR FİTVASI

Amma Əbu Hənifənin fitvaları ümumilikdə qiyas üzrədir. Burada da səfərdə su tapılmadığı təqdirdə xurma nəbizilə (şirəsi ilə) də dəstamaz alına biləcəyini söyləyir. Halbuki, hər kəsin bildiyi kimi nəbiz, xurma və bənzəri şeylərlə qarışıq olan sulu bir maddədir. Bununla dəstamaz almaq caiz deyildir. Yəni Quran namaz qılmaq üçün xalis və təmiz su olmadıqda, təmiz torpağa təyəmmümü əmr edir. Əbu Hənifənin nəbizlə dəstamaz alınıb qüsl edilə biləcəyini söyləməsi, Qurani-kərimin hökmlərinə açıq-aşkar müxalifdir. Buxari «Səhih» kitabında «Nəbiz və uyuşdurucu maddələrlə dəstəmaz almaq caiz deyildir» adında bir babı təxsis etmişdir».

**Hafiz:** «Baxmayaraq ki, mən şafeiyəm, amma sizin kimi su olmadıqda təyəmmüm edilməsinin zəruriliyi inancındayam. Bizim məzhəbə görə nəbizlə dəstəmaz almaq caiz deyildir. Zənn edirəm, Əbu Hənifənin bu fitvası şöhrətdən başqa bir şey deyildir!».

**Dəvətçi**: «Açıq-aşkar həqiqəti yəqin bildiyiniz halda sahibinin də razı olmadığı bir iddia irəli sürdünüz. Əbu Hənifənin bu fitvası şöhrət deyil, mütəvatirdir. Yaddaşımda

[40] Xurma şirəsi

olduğu qədəriylə imam Fəxri Razi «Məfatihul-qeyb» kitabının 3-cü cildinin 552-ci səhifəsində «Maidə» surəsindəki təyəmmüm ayəsinin təfsirində belə deyir: «Şafeiyə görə xurma şirəsi ilə dəstamaz almaq caiz deyildir. Əbu Hənifəyə görə isə səfərdə olarkən caizdir».

Böyük filosof İbn Rüşd «Bidayətul-müctehid»də Əbu Hənifənin fitvasını rəvayət etmişdir».

**Şeyx:** «Əbu Hənifənin nəss əleyhinə fitva verdiyini necə söyləyə bilirsiniz?! Halbuki bir çox rəvayətlər Peyğəmbərin (s) belə etdiyini xəbər verir».

**Dəvətçi:** «Hafizənizdə olan o rəvayətlərdən birini nəql eda bilərsinizmi?»

**Şeyx:** «Məsələn: Əmr ibn Hərisin köləsi Əbu Zeyd, Abdullah ibn Məsuddan belə rəvayət edir: «Rəsulallah Ləylətul-Cinndə soruşdu: «Yanında təmiz su varmı?». O, su qabında təkcə nəbiz olduğunu söylədi. Peyğəmbər belə buyurdu: «Təmiz xurma və təmiz su». Sonra da onunla dəstəmaz aldı».

Həmçinin, Abbas ibn Vəlid ibn Subeyhi Dəməşqi, Mərvan ibn Muhəmməd ibn Tahiridən, o da Abdullah ibn Luheyədən, o da Qeys ibn həccacdan, o da Xənəş Sənanidən, o da Abdullah ibn Abbasdan, o da Abbas ibn Məsuddan belə rəvayət edir: «Rəsulallah Ləylətul Cinndə soruşdu: «Yanında su varmı?». O da yanında sadəcə nəbiz olduğunu söylədi. Peyğəmbər belə

buyurdu: «Təmiz xurma və təmiz su, əlimə tök». Daha sonra belə qeyd edir: «Mən tökdüm, o da dəstamaz aldı».

Şübhəsiz ki, Peyğəmbər (s) bizim üçün bir höccətdir. Hansı nəss və dəlil Rəsulallahın əməlindən daha üstün ola bilər? Bu səbəbdən böyük imamımız Əbu Hənifə də Peyğəmbərin əməlinə istinadən nəbizlə dəstamaz almağın caiz olduğuna fitva vermişdir».

**Dəvətçi**: «Zənn edirəm sükut etsəydiniz, bu bəyanınızdan daha yaxşı olardı. Doğrusunu desəm, mövzunun aydınlaşması üçün dəlil gətirməyinizə sevindim. Əhli-sünnət qardaşları bizim haqlı olduğumuzu bilsinlər. Onların imamları mənasız bir iş tutmuş, düşünmədən qiyas üzrə hökm vermişlər.

Əvvəl hədisin raviləri və sənədi haqda danışaq, daha sonra əsl mövzuya aydınlıq gətirərik. Birincisi; Əmr ibn Hərisin köləsi Əbu Zeyd halı məchul bir kəsdir, hədis əhli yanında rədd edilmişdir. Məsələn: Tirmizi, Zəhəbi «Mizanul-etidal»da və digərləri belə deyir: «Bu adam tanınmır. Abdullah ibn Məsuddan rəvayət etdiyi hədis, əsla, doğru deyildir».

Hakim isə belə deyir: «Bu məchul adamdan bu hədisdən başqa bir rəvayət nəql edilməmişdir». Buxari də onu zəif sayır, həmçinin, Qəstəlani və Şeyx Zəkəriyyə Ənsari «Səhihi-Buxari»yə yazdıqları şərhlərində «La yəcuzul-vuzuu bin-nəbiz və la muskir» babında onun zəif olduğunu yazmışlar.

İkinci hədisə gəlincə; o da bir neçə baxımdan məhduddur. Əvvəla; sözü gedən hədisi bu yolla ibn Maccədən başqa heç bir alim rəvayət etməmişdir.

İkincisi; alimlərinizin öz «Sünən»ində bunu rəvayət etməməsi də həmin hədisin ravilərinin etibarlı olmadığını göstərir.

Buna görə Zəhəbi «Mizanul-etidal» kitabında Abbas ibn Vəlidin etibarlı olmadığını yazmışdır. Bir çox rical alimləri onu rədd etmişdir.

Mərvan ibn Muhəmməd Tahiri, Mürciyə məzhəbindəndir. İbn həzm və Zəhəbi onu zəif saymışdır. Rical alimləriniz Abdullah ibn Luheyəni də zəif saymışlar. Böyük alimlərinizin belə etibarlı saymadığı ravilərin rəvayət etdiyi bu hədis öz-özlüyündə etibarını itirir.

Üçüncüsü; alimlərinizin Abdullah ibn Məsuddan nəql etdiyi rəvayətlərə görə, Ləylətul-Cinndə Peyğəmbərin (s) yanında heç kim yox idi. Buna görə Əbu Davud «Sünən»də - «Babul-vuzu»da, Tirmizi isə «Səhih»ində Əlqəmədən belə rəvayət edir: «Abdullah ibn Məsuddan Ləylətul-Cinndə Peyğəmbərin yanında kimlərin olduğu soruşulduqda, o: «Bizdən heç kim yox idi»,-deyə cavab verdi>>.

Dördüncüsü; Ləylətul-Cinn Məkkədə hicrətdən əvvəl idi. Təyəmmüm ayəsi isə ümumun ittifaqı ilə Mədinədə nazil olmuşdur. Bu halda bu hökm əvvəli nəsx etmişdir. Bu səbəbdən imam Şafei, imam Malik və digər böyük alimləriniz

bunu caiz bilməmişlər. Mədinədə nazil olan bu hökmə görə vətəndə və ya səfərdə su olmadıqda təyəmmüm etmək lazımdır.

Bu ayənin Mədinədə nazil olmasından sonra su tapa bilmədikdə zəif bir hədisə əsaslanaraq nəbizlə dəstəmaz alına biləcəyinin söylənilməsi çox qəribədir. Bundan da qəribəsi, sizin bu zəif hədisi və buna söykənən Əbu Hənifənin hökmünü Qurani-kərimin açıq hökmünə qarşı müdafiə etmənizdir!».

**Nəvvab:** «Qibləsahib! Nəbizdən məqsəd içilməsi haram olan məstedici şərabdırmı?>>

**Dəvətçi:** «Nəbiz iki növdür: birincisi məstedici deyil və halaldır. Suya şirin olması üçün bir az xurma tökərlər. Xurmalar çökdükdən sonra səthdə qalan şirəli suya nəbiz deyilir. İkinci növü isə məstedici və haramdır. Bizim bəhsini etdiyimiz və Əbu Hənifənin də dəstəmaz üçün icazə verdiyi nəbiz, halal olan nəbizdir. Yoxsa haram olan nəbiz mövzusunda heç bir ixtilaf yoxdur. Buna görə daha əvvəl Buxarinin «Səhih» kitabında «La yəcuzul-vuzuu bin-nəbizi və la muskir»[41] adı altında bir bab ayırdığını ərz etmişdim.

[41] Nəbiz və uyuşdurucu maddələrlə dəstəmaz almaq caizdeyil

## ƏHLİ-SÜNNƏTİN FİTVASINA ƏSASƏN DƏSTƏMAZDA AYAQLARIN YUYULMASI QURANIN NƏSSİNƏ AÇIQ-AŞKAR ZİDDİR

Dəstəmaz haqqındakı qəti bir hökm - əvvəl oxuduğum ayədə də bəyan edildiyi kimi başı, ayaqları isə topuğa qədər məsh etməkdir. Buna görə müqəddəs Kitabda belə buyurulur: «Başınızı, topuğa qədər də ayaqlarınıza məsh edin»[42]

Yumaqla məsh arasında çoxlu fasiləyə baxmayaraq, bütün fəqihləriniz ayaqları yumaq deməklə Quranın nəssinə açıq-aşkar zidd fitva vermişlər».

**Şeyx:** «Ayaqların yuyulması haqda bir çox rəvayət vardır."

**Dəvətçi:** «Əvvəla; deyim ki, ancaq nəssin təyid etdiyi rəvayətlər qəbul edilə bilər. Nəslərə müxalif olan rəvayətlər məhduddur. Açıq-aşkar nəssin xəbəri-vahid ilə nəsx edilməsi (aradan getməsi) mümkün deyildir!

Ayə açıq-aşkar məshi əmr edir. Diqqət etsəniz görərsiniz ki, Qurani-kərimin zahiri də bu mənaya dəlalət edir. Çünki Allah-Təala ayənin əvvəlində belə buyurur: «Fərcilu vucuhəkum və əydiyakum...>> (Üzünüzü və əllərinizi yuyun...) və «əydiyakum»dakı «vav»ı atf (bağlayıcı) vasitəsi ilə üzdən sonra əllərin yuyulmasının zəruriliyini əmr edir. İkinci hökmdə

[42] Maidə, 6

isə belə buyurur: «Vəmsəhu biruisukum və ərculəkum» (Başınızı məsh edin və topuğa qədər ayaqlarınızı da)

«Ərculəkum»dakı atf (bağlayıcı) «vav» ilə əvvəlkinə, yəni «biruisukum»kəlməsinə atf edərək ayaqların da məsh edilməsini əmr edir. Üzün və əllərin yuyulmasına hökm edildiyi kimi, burada baş və ayaqların məsh edilməsi də əmr edilir. Şübhəsiz, yumaq məshin yerini ala bilməz. Yəni üz və əlləri vacib olaraq yumaq lazım olduğu kimi, baş və ayaqları da vacib olaraq məsh etmək lazımdır. Birini (başı) məsh edərkən digərini (ayaqları) yumaq, əsla, doğru deyildir. Əks təqdirdə, iki cümlə arasındakı «vav» hərfi mənasız olur.

Bundan başqa, İslami hökmlərdə çətinlik və məşəqqət yoxdur. Hər ağıllı insanın da qəbul edəcəyi kimi, ayaqları yumaq məsh etməkdən daha məşəqqətlidir. Ayaqları məsh etmək asan olduğu üçün şəri hökmlər də buna hökm etmişdir. Elə ayənin zahiri də bunu göstərir.

Imam Fəxri Razi də bu ayənin təfsirində, Qurani-kərimin zahirinə görə məshin vacibliyi haqda uzun açıqlamalar vermişdir. Lakin vaxt məhdud olduğundan təfsilatı ilə demək imkanımız yoxdur. İstəyənlər həqiqətləri tapmaq üçün Fəxri Razinin «Təfsir»inə müraciət edə bilərlər.

## ÇƏKMƏ VƏ CORABIN ÜZƏRİNƏ MƏSH ETMƏK, QURANIN HÖKMÜNƏ ZİDDİR

İstər səfərdə və yaxud hər bir halda fəqihləriniz bu barədə ixtilaf ediblər. Kitabi-məcidin hökmlərinin əksinə olan ən qəribə hökm isə ayaqların yuyulmasından başqa, çəkmə və corabın üzərinə məsh edilməsidir. Burada da Qurani-kərimin açıq hökmlərinə zidd nəzərlər verilmişdir (Çünki Quran çəkmə və ya corabların üzərinə deyil, məhz ayaqların üzərinə məsh edilməsini əmr edir). Bu hökmləri də ilk hökmlərinə, yəni ayaqların yuyulması hökmünə ziddir. Ayaqların məsh edilməsinə icazə vermədiyi halda, necə olur ki, ayaqqabı və ya corabın məsh edilməsinə icazə verir?! Hər kəsin bildiyi kimi, ayaqqabı və ya corablara məsh etmək, ayaqlara məsh etməkdən ayrı bir şeydir.

Ibrət alın, ey bəsirət sahibləri!>>

**Şeyx:** «Bir çox rəvayət Peyğəmbərin (s) dediyimiz qaydada məsh etdiyinə dəlalət edir. Bu səbəbdən fəqihlər Rəsulallahın bu əməlini məsh etmənin dəlili bilmişlər».

**Dəvətçi:** «Dəfələrlə söylədiyim kimi, Xatəmül-ənbiyanın (s) da buyurduğuna əsasən Quranla uyğun gəlməyən hər rəvayət mərduddur. Çünki bir çox insan dini təhrif etmək üçün Peyğəmbərdən (s) hədis uydurmuşdur. Buna görə sizin alimləriniz də bir çox rəvayəti, uydurma olduğu üçün, rədd etmişdir.

Bilməlisiniz ki, bunu caiz bilan rəvayətlər də Qurani-kərimin açıq hökmünə ziddir və rəvayətlər arasında böyük bir ziddiyyət vardır və alimləriniz də bunu etiraf etmişlər. Məsələn: hikmətli alim İbn Rüşd Əndəlusi «Bidayətul-müctehid» va «Nihayətul-muqqəsəd» kitabının 1-ci cildinin 15 və 16-ci səhifələrində belə deyir: «Bu mövzudakı ixtilaf, aidiyyətli rəvayətlər arasındakı ziddiyyətdən və təsirlərin fərqliliyindən qaynaqlanır».

Bu halda Qurani-kərimin açıq hökmlərinə zidd olan hədislərə əsaslanmaq əqli və elmi baxımdan rədd olunmuşdur. Çünki bildiyiniz kimi, sadəcə Quranla uyğun gələn hədislər qəbul edilə bilər. Qurani kərimin açıq hökmlərinə zidd olan rəvayətlər etibarsızdır.

## QURANIN ZİDDİNƏ OLARAQ ƏHLİ-SÜNNƏTİN ƏMMAMƏYƏ MƏSH ETMƏSİ

Buna görə bu ayədə də açıq-aydın «Başınıza məsh edin>> buyurulur. Şiə alimləri Əhli-beytə tabe olaraq və həmçinin Şafei, Maliki, Hənəfi və digərləri başın məsh edilməsini açıq şəkildə bəyan etmişdir. Amma təəssüflər olsun ki, İmam Əhməd ibn Hənbəl, İshaq, Suri, Əvzai və başqaları əmmaməyə də məsh edilməsinin caiz olduğunu söyləmişlər. Necə ki, imam Fəxri Razi «təfsiri-kəbir»də bunu nəql etmişdir. Halbuki, ağlı olan hər kəs qulağa məshin başa məshdən ayrı olduğunu bilir. Baş: ət, dəri, sümük və saçlardan ibarətdir. Əmmamə isə başa qoyulan bir parçadır; aralarında böyük bir fərq vardır.

## DİQQƏT ETMƏK VƏ İNSAFLA HÖKM VERMƏK LAZIMDIR

Bütün fiqhi məsələlərdə dörd məzhəb arasında təharətdən diyə məsələlərinə qədər böyük ixtilaflar vardır və ümummlikdə də Qurana zidd hökmlər mövcuddur. Amma buna baxmayaraq, əhli-sünnət qardaşları bir-birinə qarşı pis olmamış və hər kəs öz məzhəbinə görə əməl etmişdir. Bütün ölçülərin əksinə olaraq nəbizlə dəstəmaz almağa icazə verən Əbu Hənifəni və hənəfiləri müşrik elan etmirsiniz. Həmçinin, Qurani-kərimin hökmlərinə zidd hökm verən digər alimləri də rədd etmirsiniz. Amma Əhli-beytin əmrlərinə söykənən, buyruqlarıyla əməl edən şiə müsəlmanları təhqir edirsiniz. Qurani kərimin bərabəri olan Əhli-beytə tabe olanları rafizi, müşrik və kafir sayırsınız. Əvvəlki gecələrdə açıq-aşkar şiə müsəlmanların müşrik olduğunu söylədiniz. İndi də niyə digər müsəlmanlar kimi namaz qılmadıqlarını bəyan edirsiniz?! Halbuki, beş vaxt namazın vacibliyi barədə eyni duşüncədəyik, aramızda ixtilaf yoxdur. Fəri mövzularda isə bütün müsəlman firqələri arasında ixtilaflar mövcuddur. Əbəl həsən Əşəri ilə Basil ibn Əta arasında əsli və fəri məsələlərdə ixtilaf vardır. Həmçinin, sizin dörd müctehidinizlə Əbu Hənifə, Malik, Muhəmməd, Əhməd, Həsən, Davud, Kəsir, Əbu Sir, Əvzai, Sufyani Suri, Həsən Bəsri, Qasim ibn Salam və digər böyük alimləriniz arasında da böyük ixtilaflar və həmçinin, pak ailənin İmamları ilə sizin fəqihlər arasında da fərq vardır.

Əgər fəqihlərin fitvaları araşdırılırsa, bəs niyə əhli-sünnətin fərqli firqələri araşdırılmır? Halbuki, Qurani-kərimin aydın nəssinə qarşı hökm verdikdə açıq-aşkar nəsləri təvil edirlər. Digər fəqihlər iss başqa hökmlər verdikdə, o digərlərinin əməl və fitvasını nə şirk, nə də küfr saymırlar.

Digər bir çox məsələ kimi şəri bir ixtilaf olan torpağa səcdə mövzusunda da, təəssüflər olsun ki, ortalığa vəlvələ salıb, şiə müsəlmanların müşrik və bütpərəst olduğunu elan etdiniz. Amma qurumuş nəcisə səcdəni belə görməməzliyə vurur, etina etmirsiniz! Halbuki, insafla baxsanız şiə alimlərinin Əhli-beytə tabe olaraq verdiyi hökmlərin sizin alimlərin verdiyi hökmlərə nisbətən Qurani kərimin hökmlərinə daha yaxın olduğunu görərsiniz.

Məsələn: Sizin alimləriniz pambıq, yun, ipək, dəri və başqa xam mallardan hazırlanan şeyləri də yer sayır və üzərinə səcdə edirlər. Halbuki, yer üzündə heç bir ağıllı insan bu toxunma maddələrin yerin bir parçası olduğunu qəbul etməz. Hətta bu cür düşünənlərə gülərlər.

Əhli-beytə tabe olan və **«Yerə və yerdən bitənlərə - yeyilməyən və geyilməyən şeylərə - səcdə edilməlidir»** deyən şiə müsəlmanları müşrik sayırsınız, ancaq qurumuş nəcisə səcdə edənləri müşrik saymırsınız! Aydındır ki, İlahi əmr əsasında yerə səcdə etmək, xalçaya səcdə etməkdən fərqlidir».

**Şeyx:** «Siz Kərbəladan alınan torpaq parçasına səcdə edir, onu bir büt kimi qucağınızda daşıyır və o torpağa səcdənin

vacib olduğunu bəyan edirsiniz. Bu əməl açıq-aşkar İslami əmrlərə ziddir!>>.

**Dəvətçi:** «Bu fikirləri, heç şübhəsiz, ata-babalarınız uşaqlıqdan bəri beyninizə doldurmuş və siz də, kor-koranə qəbul etmisiniz. Bu mövzuda heç bir dəliliniz yoxdur. O cür təmiz, müqəddəs torpağa «büt» adlandırmaq sizin kimi insaflı və ziyalı bir alimə yaraşmaz.Şübhəniz olmasın, ilahi ədalət məhkəməsində bu iftiralara görə cavab verəcəksiniz! Təmiz torpağı büt və müvəhhidləri müşrik saydığınız üçün sorğuya çəkiləcəksiniz! Nəzərlərin araşdırması həva-həvəsə görə deyil, sənəd və dəlilə əsasən aparılmalıdır. Əgər şiənin istidlali (dəlillərə əsaslanan) fiqh kitablarına və ümumən əllərdə çox görünən və çap olunan risalələrə baxsanız, iradlarınıza asanlıqla cavab tapar və bu şəkildə etiraz etməz, şiələrə iftira atmazsınız.

## ŞİƏLƏR KƏRBƏLA TORPAĞINA SƏCDƏ ETMƏYİ VACİB BİLMİRLƏR

Əgər şiə alimlərinin bütün istidlalı və əməli fiqh kitablarından Karbəla torpağına səcdə etmənin vacib olduğunu bildirən bir dənə bela fitva göstərsəniz, elə bu dəqiqə bütün dediklərinizə təslim olarıq. Bütün şiə kitablarında Quran-kərimin əmrinə əsasən təmiz torpağa, daşa, quma, çınqıla - mədəni olmayan şeylərə səcdə edilmənin zəruriliyi qeyd olunmuşdur. Səcdə, yeyilməmək və geyilməmək şərti ilə,

yerdən bitən şeylərə edilməlidir. Bunlardan biri olmazsa, digərinə səcdə edilməlidir».

**Şeyx:** «O halda niyə Kərbəladan gətirilən torpaq parçasını özünüzlə daşıyır, namaz əsnasında ona səcdə edirsiniz?>>

## ŞİƏLƏRİN SƏCDƏ ÜÇÜN MÖHÜRLƏRİ YANLARINDA DAŞIMALARININ SƏBƏBİ

**Dəvətçi**: «Yanımızda daşımağımın səbəbi, təmiz torpağa səcdə etmək üçündür. Ev və məscidlərin əksəriyyətində yer xalça ilə örtülür və yerə səcdə etməyə mane olur. Namaz əsnasında xalçaları qaldırmaq mümkün deyildir. Qaldırsaq da, çox vaxt yer, səcdə edilməsi mümkün olmayan əşyalarla döşənmiş olur. Bunlara da səcdə etmək caiz deyil. Bu səbəbdən torpaq parçasını yanımızda daşıyırıq ki, namaz əsnasında ona səcdə edək. Çünki bizə təmiz toprağa səcdə etmək əmr olunmuşdur.

Demək olar ki, çox vaxt çirkli torpaqlarla qarşılaşırıq. Elə bu səbəbdən yanımızda daşıdığımız təmiz torpağa səcdə edirik».

**Şeyx:** «Bildiyimiz kimi, bütün şiələr Kərbəladan götürülmüş torpaq parçasını yanında daşıyırlar və ona səcdənin vacib olduğu qənaətindədirlər!>>

## KƏRBƏLA TORPAĞINA SƏCDƏ ETMƏYİN SƏBƏBİ

**Dəvətçi:** «Kərbəla torpağına səcdə etdiyimiz doğrudur; lakin vacib deyil. Daha əvvəl də bəyan etdiyim kimi, bizə təmiz torpağa səcdə etmək əmr olunmuşdur. Amma pak Əhli-beytdən (ə) - hər bir şeyin xüsusiyyətini bildirdiyi üçün - nəql olunan rəvayətlər Kərbəla torpağına səcdənin vacib deyil, ən üstün, fəzilətli və çoxlu savaba malik olduğunu ifadə edir. Təəssüflər olsun ki, xarici və nasibilərə aldanan bir qrup iftiraçı və yalançılar şiə müsəlmanların məhz imam Hüseynə (ə) tapındıqları üçün o həzrətin mübarək məzarından götürülən torpağa səcdə etdiklərini söyləyirlər. Halbuki, bizə görə bu, küfrdür. Biz Hüseynə (ə), Əliyə (ə), hətta və Muhəmmədə (s) belə tapınmırıq. (Kim buna inanırsa kafirdir!) Biz sadəcə Allah-Təalaya ibadət edir və təkcə Onun qarşısında səcdə edirik. Bizə təmiz toprağa səcdə etmək İmamların göstərişinə əsasən əmr olunub. Kərbəla torpağına isə vacibdir deyə yox, yalnız savab və fəzilətli olduğu üçün səcdə edirik»».

**Şeyx**: «Kərbəla torpağının fəzilətli müxtəlif təsirli və xüsusiyyətlərə malik olmasının, həmçinin səcdə üçün başqa torpaqlardan üstünlüyünün dəlili nədir?»

## KƏRBƏLA TORPAĞININ XÜSUSİYYƏTLƏRİ VƏ RƏSULALHIN (S) BƏYANI

**Dəvətçi:** «Əvvəla; hər şeydə, hətta torpaqlar arasında bela fərq vardır. Hər torpağın bəlli təsir və xüsusiyyətləri vardır ki, bunu da elm adamları bilirlər.

İkincisi; Kərbəla torpağı təkcə Əhli-beyt İmamları zamanında deyil, bilavasitə Peyğəmbər zamanında da Həzrətin (s) diqqət mərkəzində idi. Bunlar sizin öz alimlərinizin mötəbər kitablarında da yazılmışdır. Məsələn: Cəlaləddin Siyyutinin «Xəsaisul-kubra" kitabında (heydər Abad Dekn çapı, h.q: 1320) Kərbəla haqqında Əbu Nəim İsfahani, Beyhəqi və Hakim və digərləri kimi alim və etimad ravilərinizdən möminlərin anası Ümmü-Sələmə, Aişə, Ümmül-Fəzl İbn Abbas və Ənəs ibn Malik vasitəsilə bir çox rəvayət nəql edilir: **«Həzrət Hüseyn Peyğəmbərin qucağında oturmuşdu. Rəsulallah (s) əlindəki qırmızı torpağı öpüb, ağlayırdı. «Bu torpaq nədir?», deyə soruşdum. O, belə buyurdu: «Cəbrayıl mənə xəbər verdi ki, Hüseynim İraq torpaqlarında öldürüləcəkdir. Bu torpağı mənə oradan gətirib. Mən də Hüseynim üçün baş verəcək müsibətlərə ağlayıram».**

Daha sonra həmin torpağı Ümmü-Sələməyə verərək belə buyurdu: «**Bu torpağın qan rənginə döndüyünü görəndə bil ki, Hüseynim öldürülüb».**

Ümmü-Sələmə o torpağı şüşənin içində saxlayırdı. Hicri 61-ci il Aşura günü torpağın rənginin qan rənginə döndüyünü gördü və beləcə, İmam Hüseynin öldürüldüyünü anladı>>.

Şiə alim və fəqihlərinin mötəbər kitablarında təvatürlə (ardıcıl və fasiləsiz olaraq məsumlardan birinə yetişən hədis və s.) yer aldığı kimi, həm Peyğəmbər (s) və həm də Qurani-kərimin bərabəri olan Əhli-beyt (ə) İmamları bu torpağa xüsusi ehtiram göstərirdilər. Həzrət Hüseynin şəhadətindən sonra ilk

olaraq imam Səccad (ə) o torpaqdan təbərrük üçün götürüb bir kisəyə qoyaraq üzərinə səcdə edirdi. Əlavə bir təsbeh də düzəlmişdi və onunla zikr edirdi.

Digər bütün Imamlar da təbərrükən o torpaqdan təsbeh və səccadə düzəldir, şiə müsəlmanları da savab əldə etmək üçün bu işə təşviq edirdilər. Allah-Təalaya səcdə edilməsi üçün təkidlə təmiz torpağa, daha çox savab qazanmaq üçün isə Kərbəla torpağına səcdə edilməsini tövsiyə edirdilər.

**Şeyx**: Əbu Cəfər Muhəmməd ibn Həsən (r) Tusi «Misbahul müctehid» kitabında belə rəvayət edir: «**İmam Sadiq (ə) imam Hüseynin (ə) torpağından bir miqdarını sarı bir parçaya tökərək, namaz əsnasında ona səcdə edirdi>>.**

Bu yolla şiələr bir müddət torpağı özləri ilə gəzdirirdilər. Sonralar torpağı, dağılmaması üçün, bir miqdar su ilə qarışdırıb, bu günkü möhkəm möhür halına gətirdilər. Təbərrük üçün yanlarında daşıyır, namazda ona səcdə edirdilər. Bu səbəbdən çox zaman torpaq olmadıqda yerə və ya təmiz daşlara səcdə edir və fərzlərini yerinə yetirirdilər.[43]

---

[43] h.q. 1374-cü ildə həccə getmişdim. Axşam namazına bir saat qalmış Beyrut təyyarəsi ilə Mədinəyə endik. Vaxt gec olduğu üçün o çöldə namaz qıldım. Oradakılar yanımda bir torpaq parça olmadan torpağa səcdə etdiyimi gördükdə, çox təəccübləndilər. Namazı qıldıqdan sonra məndən "Sən bütpərəst şiələrdən deyilsənmi?»,-deyə soruşdular. Mən də

Bu qədər sadə bir hadisə üçün vəlvələ salıb, bizi müşrik, kafir, bütpərəst adlandıraraq insanları aldatmağınız doğrudurmu? Siz Quran hökmlərinə belə zidd olan məzhəb imamlarınızın hökmlərinə tabe olub, onların söz və əməllərini dəlil saydığınız kimi, biz də Əhli-beyt İmamlarının (ə) sözlərinə

---

belə cavab verdim: Mən şiə olduğum üçün fəxr edirəm! Əksinə, müvəhhid və Allah-Təalaya tapınanlardanam. Sizin bu sözünüz şiələrə iftiradır.Çünki onlar da təmizqəlbli müvəhhidlərdir. Onlar dedilər: «Biz onların üzərindəki bütləri çıxarıb qırırıq. Siz necə şiəsiniz ki, yanınızda büt yoxdur?!

Onların bu sözünə cavab olaraq dedim: «Bu sözləriniz yanlış və iftiradır. Şiələr bütpərəstlikdən uzaqdır. Biz, Quranın hökmünə əsasən, təmiz torpağa səcdə edirik. Bu səbəbdən təmiz torpağa əlimiz çatmadıqda, səcdə etmək üçün bir miqdar təmiz torpaq daşıyırıq. Burada torpaq təmiz olduğu için birbaşa yerə səcdə etdim. Bunlar müsəlmanlar arasında fitnə yaratmaq istəyən xarici və nasibilərin iftirasıdır. Siz əhli-sünnət qardaşları aldadıblar; siz də onlara aldanaraq şiə müsəlmanları müşrik, bütpərəst sayırsınız».

Beləcə, qürub vaxtına qədər, əksərən vəhhabi olan, camaatla söhbət etdim. Hamısı təsirlənərək istiğfar etdilər. Əl verərək, boynuma sarıldılar. Daha sonra bir-birimizdən ayrıldıq. Ey bəsirət sahibləri, ibrət alın!

tabe olur, onların əmrlərinə görə əməl edirik. Lakin aramızda fərq var: sizin Peyğəmbərdən (s) Əbu Hənifəyə, Nümana, Muhəmmədə, Əhmədə və ya Malika tabe olmaq barədə bir dənə də olsun belə məqbul dəliliniz yoxdur. Onları alim bildiyiniz üçün tabe olursunuz. Lakin biz, Rəsulallahın dəfələrlə buyurduğu kimi, Qurani-kərimin bərabəri, qurtuluş gəmisi və elm qapısı olan Əhli-beytə tabe oluruq! Onların arxasınca getmək nicata,onlardan uzaq düşməksə həlak olmağa səbəb olur.

Bu rəvayətlərdən bəzisinə əvvəlki gecələr toxunmuşdum. Peyğəmbərin də buyurduğu kimi, Əhli-beyt bizim üçün höccətdir. Biz də bu səbəbdən Onların əmrlərinə tabe olur, dediklərinə əməl edirik.

## ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ƏMƏLİ QƏRİBƏDİR

Amma çox qəribədir ki, sizin alimləriniz dörd məzhəb imamları və digərlərinə etiraz etmirlər. Əbu hənifə su olmadıqda nəbiz ilə dəstəmaz alınmasını əmr etdikdə şafeilər, malikilər və hənbəlilər etirazını bildirmir və ya imam Əhməd Allahın görülməsini söylədikdə və yaxud əmmamə üzərindən məsh etməyi caiz bildikdə digərləri onu tənqid etmirlər. Həmçinin, niyə onların, səfərdə ləvatı, turumuş peyinə səcdə etməyi və oxşar bir çox qəribə fitvalarını tənqid etmirlər?!

Amma Əhli-beyt (ə) imamlarından biri Kərbəla torpağına səcdə etməyin fəzilət və savab olduğunu söylədikdə fəryad

edir, şiə müsəlmanları bütpərəst sayır və qardaş qanı axıdırsınız. Yadların müsəlmanlara hakim olmaları üçün bu əməlinizlə onlara yol açırsınız! Xülasə, dərdimiz çoxdur...

Sözü burada saxlayıb, əsl mövzuya dönək. Bizim məzlumcasına fəryadımız Qiyamətdə Peyğəmbərin (s) qarşısında təsirli olacaq!

Yaş baxımından böyük olduğu üçün Əbu Bəkrin xilafətə daha layiq olduğunu söyləməyiniz də çox qəribədir. Təəssüflər olsun ki, əvvəlki gecələr qəti əqli və nəqli dəlillərlə, icma və yaş böyüklüyü dəlilinizi batil etdiyim halda, yenidən bu mövzuya qayıdırsınız və belə təkrar mətləblərlə məclisin vaxtını almaq istəyirsiniz. Əvvəlki gecələr kifayət qədər açıqlama vermişdim. Lakin buna baxmayaraq, yenə də sizi cavabsız qoymaq istəmirəm.

Necə olur, insanlar siyasətə görə yaşın böyük olması zəruriyyətini başa düşürlər, amma (nauzubillah) Allah-Təala və Peyğəmbəri yox?! Yadınızdan çıxarmayın ki, Rəsulallah <<Bəraət» (Tövbə) surəsinin ilk ayəsini təbliğ etmə məsuliyyətini yaşlı Əbu Bəkrdən alaraq, gənc Əliyə vermişdi!>>

**Nəvvab**: «Qibləsahib! Yenə sözünü kəsdiyim üçün bağışlayın. Bu hadisəni, zəhmət olmasa, ötürməyin. Əvvəlki gecələrdən birində də bu mövzuya toxunmuşdunuz. Biz buradakı alimlərimizdən soruşduqda «əhəmiyyətli bir iş deyildi»-deyib, qənaətbəxş bir cavab vermədilər. Zəhmət olmasa, indi söyləyin. Peyğəmbər (s) harada və niyə Əbu Bəkri

(r.z) bu məsuliyyətdən azad edərək, Əliyə (r.ə) həvalə etmişdir? Xahiş edirəm, müəmmanın aradan getməsi üçün daha aydın danışın».

## "BƏRAƏT" SURƏSİNİN MƏKKƏ CAMAATINA TƏBLİĞ EDİLMƏSİ VƏZİFƏSİNDƏN ƏBU BƏKRİN AZAD EDİLƏRƏK,ƏLİNİN TƏYİN OLUNMASI

**Dəvətçi: "**Şiə və sünni - bütün tarixçilərin rəvayət etdiyinə görə, Qurani-kərimin 9cu surəsi olan "Bəraət" surəsinin ilk ayələri müşriklərin məzənməti üçün nazil olduqda, Peyğəmbər (s) Əbu Bəkri çağıraraq, ilk 10 ayəni ona verib, həcc mövsümündə Məkkə əhlinə oxumasını əmr etdi. Əbu Bəkr yolda ikən Cəbrayıl nazil olaraq, Peyğəmbərə(s) belə dedi: **" Allah-Təala sənə salam verir və belə buyurur: " Risalətini ancaq sən və səndən olan biri əda edə bilər".**

Bu səbəbdən Peyğəmbər (s) Həzrət Əlini çağırdı və onu, bu böyük işlə vəzifələndirərək, belə buyurdu: **"Get, Əbu Bəkri harada görsən, "Bəraət" surəsinin ayələrini ondan al, özün apar və Məkkə müşrikləri üçün qiraət et".**

Həzrət Əli elə o dəqiqə hərəkət edərək, Zil-huleyfədə Əbu Bəkrə çatdı və ona Peyğəmbərin əmrini dedi. Ayələri alaraq, Məkkədə Rəsulallahın risalətini təbliğ etdi. Ayələri məkkəlilərə oxuduqdan sonra Mədinəyə qayıdıb, Peyğəmbərin hüzuruna gəldi."

**Nəvvab:** " Bu hadisə bizim mötəbər kitablarımızda yer almışdırmı?"

**Dəvətçi** : " Ərz etdim ki, bu mövzuda şiə və sünni tarixçiləri eyni fikrə gəlmişlər(icma etmişlər). Amma əmin olmağınız üçün, hal-hazırda hafizəmdə olan bir neçə mənbəni qeyd edim ki, həqiqətlər açıq-aydın ortaya çıxsın":

Buxari " Səhih" cüz:4,5 , Əbdi " Cəmun-beynəs-Səhhahis Sittə"  c.2, Beyhəqi "Sünən",səh:9, 224, Tirmizi " Cami", c.2, səh:135, Şəvkani " Təfsir", c.2, səh:319, Muhəmməd ibn Təlhə Şafei "Mətalibus-sual", səh:17, Təbəri "Riyazun-nəzrə", səh: 147, "Zəxairül-üqba", səh: 69, Səbt ibn Covzi " Təzkirətu-xəvassil-ummə", səh:22, İbn Kəsir "Tarixi-Kəbir, c.5, səh:38, c.7, səh:357, ibn Həcər Əsqalani " İsabə", c.2 səh: 509, Təbəri "Camiul-bəyan", c.10, səh:41, İbn Kəsir " Təfsir", c.2, səh:333, Alusi "Ruhul-məani", c.3, səh:268, ibn Həcər "Səvaiq", səh.19, Heysəmi «Məcməuz-zəvaid», c: 7, səh: 29; İmam Əhməd ibn Hənbəl: «Müsnəd» c: 1, səh: 3, 151, c: 3, səh: 283, c: 4, səh: 164 və 166; Hakim: «Müstədrəku-kitabi-Məğazi», c: 2, səh: 51, c: 2, səh: 331; Mövla Əli Müttəqi: «Kənzul-ummal», c: 1, səh: 246, 249, c: 6, səh: 154; Şeyx Süleyman Bəlxi: «Yənabiul-məvəddə», bab: 18 (müxtəlif yollarla əhli-sünnət alimlərindən nəqlən); Cəlaləddin Siyyuti: «Dürrül Mənsur», c: 3, səh: 208 («Bəraət» surəsinin ilk ayəsinin təfsirində); İmam Əbu əbdürrəhman Nəsai: «Xəsaisul-Ələvi», səh: 14 (bu babda 5 hədis rəvayət etmişdir); Məhəmməd ibn Yusif: «Kifayətut-Talib», bab: 62, səh: 125 (Əbu Bəkrdən, hafiz Əbi Nəimdən, hafiz Dəməşqinin «Müsnəd»indən fərqli yollarla müsnəd

olaraq nəql etmişdir); İmam Sələbi: «Kəşfül-bəyan»; Mövla Əli Müttəqi: «Fəzailu-Əli>; Əbu Davud: «Sünən»; Şafeilərin fəqihi İbn Məğazəli: <<Fəzail»>; Xarəzmi: «Mənaqib» və s...

**Seyyid Əbdülhəyy:** «Peyğəmbərin (s) bütün əməli və sözləri Allah-Təala tərəfindəndir. Bu halda niyə əvvəl bu məsuliyyəti Əliyə (r.ə) vermədi, amma Əbu Bəkrə verdi və sonra da Allahın əmri ilə Əli gedib Əbu Bəkri yolun yarısından geri qaytardı?>>

**Dəvətçi**: «Bu hadisənin əsl səbəbi barədə sizin və bizim kitablarımızda heç bir səbəb bəyan edilmədiyi üçün, biz də bir şey demirik. Amma şəxsi fikrimizə görə, bu hadisə də həzrət Əlinin (ə) məqamını başqalarına isbat etmək üçün gerçəkləşmişdi ki, siz də 1340 il sonra siyasətçi və ya yaşda böyük olduğuna görə Əbu Bəkrin xilafətə daha layiq olduğunu söyləməyəsiniz. Əgər əvvəl bu məsuliyyəti imam Əliyə (ə) versəydi, adi bir iş sayılardı və sizin üçün bu hədislə həzrət Əlinin fəzilətlərini isbat edə bilməzdik. Çünki siz həzrət Əlinin xilafət məqamındakı fəzilətini isbat edən hər hədisi məntiqsiz təvillərlə, çox gülünc də olsa, təvil edirsiniz.

Beləliklə, həzrət Əlinin (ə), yaşı az olmasına baxmayaraq, digor yaşlı insanlardan daha fəzilətli və qabaqcıl olduğu aydınlaşmış oldu.Həzrət Peyğəmbər (s) əvvəl ayələri Əbu Bəkrə təslim etmişdi. Əbu Bəkr yola düşdükdən sonra imam Əlini (ə) onun arxasınca göndərərək, ayələri ondan almasını əmr etmişdi. Əbu Bəkr bu işin səbəbini soruşduqda, Rəsulallah bu işə Allah-Təala tərəfindən məsul edildiyini, özünün və ya

özündən olan birinin bu ayəlari xalqa çatdırmasının zəruriliyini bəyan edir. Bu səbəbdən Əbu Bəkrin yolun yarısından qaytarılaraq bu məsuliyyətdən kənarlaşdırılıb, həzrət Əlinin (ə) təyin olunması, Əmirəl-mömininin məqamına üstünlüyünü, digərlərindən daha üstün və daha qabaqcıl olduğunu isbat etmir.

Həmçinin, bu hadisə Allah-Taalanın risalətinin, yəni nübuvvət və xilafətin yaşlılıq və ya gəncliklə əlaqəsi olmadığını isbat edir.

Xülasə, burada minlərlə tükdən də zərif, incə nöqtə vardır. Əgər Əbu Bəkrin ilk xəlifə olmasının səbəbi onun siyasətçiliyi və yaşlılığı olsaydı, belə müqəddəs bir işdən kənarlaşdırılmazdı. Çünki risalətin təbliği, yalnız və yalnız Peyğəmbərə (s) və Onun xəlifəsinə xasdır».

**Seyyid**: «Bəzi rəvayətlərdə Əbu Hüreyrədən belə nəql edilmişdir: «Əli (r.ə) Əbu Bəkrlə (r.z) birlikdə Məkkəyə getmək üçün məsul oldu. Əbu Bəkr insanlara həcc mərasimini öyrədəcək, Əli də «Bəraət» surəsini qiraət edəcəkdi». Beləliklə aydın olur ki, hər ikisi risaləti təbliğ etməkdə eynidir».

**Dəvətçi:** «Əvvəla; bu rəvayəti Əbu Bəkrin tərəfdarlanı uydurmuşdur. Çünki başqaları bunu rəvayət etməmişdir.

Əvvəldə qeyd etdim ki, Əbu Bəkrin kənarlaşdırılıb, imam Əlinin (ə) bu risalətin təbliği üçün göndərildiyi barədə ümmət ittifaq[44] etmişdir və bu hədis təvatür[45] həddinə çatmışdır. Bildiyiniz kimi, əgər xəbəri-vahid[46] olan bir rəvayət bir çox səhih rəvayətlərə zidd olarsa, hədisçilər və üsul alimlərinin qanunu əsasında o, tərk edilməlidir. Bu xəbəri-vahid səhih olsa belə, zənnə əsaslanır. Zənn olan bir hədisə istinad edib, təvatür həddinə çatan hədisi tərk etmək caiz deyildir!

Bir daha deyirəm: Əbu Bəkrin kənarlaşdırılması, Əlinin (ə) bu işə təyini,Əbu Bəkrin kədərli halda Mədinəyə geri dönməsi, Peyğəmbərin (s) onunla danışıb təsəlli verməsi və bunun Allahın əmri olduğunu söyləməsi qətidir. Bu hadisə birincilik haqqının yaşla heç bir əlaqəsinin olmadığını isbat edir. Əqli və rivai[47] dəlillər ümmət arasında birincilik haqqının elm, savad və təqva ilə olduğunu göstərir.

Elm, fəzilət və təqva baxımından üstün olanlar cəmiyyətdə birincilik haqqına sahibdirlər!

---

[44] Bütün tərəflər bu məsələdə müttəfiqdirlər

[45] Doğru və dildən-dilə keçən xəbər

[46] Ravisi yalnız bir nəfər olan xəbər

[47] Nəqli( rəvayətə əsaslanan)

Buna görə də Peyğəmbər (s) belə buyurmuşdur: **«İnsanlar ölüdür, elm əhli isə diri».** Bu səbəbdən imam Əlini digərlərindən önə keçirərək, «**Əli mənim elm qapımdır»-demişdir.**

Bu halda Rəsulallahın elm qapısı digərlərindən daha üstün və öndədir.Əlbəttə, Peyğəmbərə itaətdə əzm göstərənlərin fəzilətli şəxslər olduğunu danmırıq. Amma onların fəziləti, əsla, Nəbiyyi-əkrəmin elm qapısı ilə müqayisə edilə bilməz. Çünki Onun məqam və mərtəbəsi üstünlük, ucalıq məqamıdır.

Əgər səhabədən kiminsə birincilik haqqı olmuş olsaydı, Peyğəmbər (s) ümmətə ona tabe olmağı əmr edərdi. Şübhəsiz, bu cür ilahi əmrlərin yaşlılıq və gəncliklə heç bir əlaqəsi yoxdur. Allah-Təala bu məqama kimi layiq görərsə, gənc və ya yaşlı olmasından asılı olmayaraq, ümmətə ona itaət etməyi əmr edər.

## PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİNİ QAZİLİK VƏ XALQIN HİDAYƏTİ ÜÇÜN YƏMƏNƏ GÖNDƏRMƏSİ

Böyük alimləriniz həzrət Əlinin (ə), xalqın hidayəti və onların arasında hökm verməsi üçün, Yəmənə göndərilməsini əhatəli şəkildə rəvayət etmişlər. Xüsusilə də imam Nəsai «Xəsaisul-Ələvi»də 6 hədis rəvayət etmişdir. Raqib İsfahani «Muhazaratul-Üdəba» kitabının 2-ci cildinin 212-ci səhifəsində və digərləri sənədlərilə qısa olaraq belə rəvayət etmişlər: «Peyğəmbər (s) həzrət Əlini qazilik və xalqın hidayəti üçün

Yəmənə göndərmək istədi. O: «Mən gəncəm. Məni qövmün yaşlılarına hökm verməyə necə göndərirsən?»-dedikdə,Rəsulallah buyurdu: «Allah-Təala qəlbini (qazilik elminə) hidayət, dilini isə sabit edəcəkdir».

Əgər yaşlılıq qabaqcıllıq haqqı olsaydı, Əbu Bəkr kimi yaşlı səhabələrə baxmayaraq, Rəsulallah niyə Yəmənə həzrət Əlini göndərdi? Bundan da anlaşılır ki, insanları hidayət və onların arasında qazilik etmədə yaşlılıq və gəncliyin heç bir əlaqəsi yoxdur. Sadəcə elm, fəzilət, təqva və xüsusi bir nəss lazımdır ki, Qurani-kərim va rəvayətlərdə belə bir nəss[48] ancaq həzrət Əli üçün vardır.

## HƏZRƏT ƏLİ (Ə) PEYĞƏMBƏRDƏN (S) SONRA ÜMMƏTİN HİDAYƏTÇİSİDİR

Buna görə «Rəd» surəsinin 7-ci ayəsində buyurulmuşdur: «Sən ancaq insanları Allahın əzabı ilə qorxudansan və hər cəmiyyətin bir hidayət rəhbəri vardır".

Peyğəmbərdən (s) sonra ümmətin rəhbəri həzrət Əli və Əhli beytdir. Buna görə imam Sələbi «Təfsiri-Kəşfül-bəyan»da, Təbəri «Təfsir»də, Muhəmməd ibn Yusif «Kifayətut-Talib»in 62-ci babında (İbn Əsakirin «Tarix»indən sənədilə nəql edir),

[48] Dəqiqlik, aydınlıq, iki mənası olmayan

Şeyx Süleyman Bəlxi «Yənabiul-Məvəddə»nin 26-cı babının sonunda Sələbi, Həmvini, hakim Əbül-Qasım Həskai, Ibn Səbbağ Maliki və Mirseyid Əli Həmədanidən və «Mənaqibu-Xarəzmi»dən nəqlən, onlar da İbn Abbas, Həzrət Əli (ə) və Əbu Bureydə Əsləmidən fərqli təbirlərlə 11 rəvayət nəql etmişlər.

Onların hamısının xülasəsi belədir: «Bu ayə nazil olduqda Peyğəmbər əlini sinəsinə qoyub: **«Mən insanları qorxudanam>> buyurdu. Sonra da əlini həzrət Əlinin (ə) sinəsinə qoyub buyurdu: «Sən hidayət rəhbərisən; doğru yola hidayət olanlar məndən sonra hidayəti səninlə tapar>>.**

Əgər başqaları haqqında da belə nəslər olsaydı, biz də onlara tabe olardıq. Amma təkcə Əli (ə) haqqında olduğu üçün, gənc və yaşlılığa baxmadan, ona itaət etmək məcburiyyətindəyik.

## HƏZRƏT ƏLİNİN QARŞILAŞDIĞI MƏKRLİ MANEƏLƏR VƏ HƏQİQİ SİYASƏTLƏ MƏCAZİ SİYASƏT ARASINDAKI FƏRQ

Sizin: «Əlinin gənc və təcrübəsizliyinə, xilafət gücünə sahib olmadığına, 25 il sonra xilafətə gəldikdə də siyasətsizliyinə görə bir çox qanlar töküldü və üsyanlar baş qaldırdı» sözünüzə gəlincə:bilmirəm bu bəyanı qəsdənmi etdiniz, ya unutqanlıqdan, yoxsa atalarınıza tabe olmaqdan qaynaqlanır?! Əks təqdirdə alim və diqqətli bir insan, əsla, belə bir şey söyləməz. Siyasətdən məqsədiniz nədir, bilmirəm. Əgər

məqsəd, məqam və mövqe qorumaq üçün istifadə olunan iftira, yalan, hiylə və siyasətbazlıqdırsa, etiraf edim ki, həzrət Əli (ə) belə bir siyasətə sahib deyildi və əsla, belə bir siyasətçi olmamışdır! Çünki bunlar siyasətin həqiqi mənası deyildir; əksinə pislik, hiylə və hoqqabazlıqdır!

Məqam düşgünü olan insanlar öz məqamlarını qorumaq və hədəflərinə çatmaq üçün bundan istifadə edirlər. Həqiqi siyasət, ədalət va insafla hər şeyi yerinə oturtmaqdır. Bu cür siyasət, mövqe düşgünü olmayanlara məxsusdur. Onlar, sadəcə haqqın icrasını istəyərlər. Həzrət Əli (ə) də haqq, həqiqət, ədalət, insaf və sədaqət əhli olduğu üçün başqalarında olan o «siyasət»dən münəzzəh idi! Buna görə də Əmirəl-möminin xəlifə olan kimi bütün hakim və məmurlarını dəyişdirdi. Əmisi oğlu Abdullah ibn Abbas və başqaları bütün bölgələrin hakim və məmurlarına, özləri könüllü təslim olmayana qədər, bu hökmün icrasının dayandırmasını söylədilərsə də, həzrət Əli (ə) razılaşmadı: «Zahiri siyasəti qorumaq üçün yaxşı düşünürsünüz; amma heç bilirsinizmi ki, mən o zalım hakimləri özbaşına buraxıb, zahiri siyasət əsasında onlarla razı olduğum təqdirdə Allah yanında etdikləri bütün işlərə görə məsuliyyət daşıyacağam? Hesab günü cavab verməli olacağam? Bilin ki, Əli, əsla, belə bir şey etməz"

Əmirəl-möminin ədaləti qorumaq üçün o dəqiqə hakimləri öz vəzifələrindən kənarlaşdırdı və buna görə Müaviyə, Təlhə, Zübeyr və digərləri üsyan etdilər. Müxalifət bayraqlarını yüksəldərək həva həvəsləri üzrə qan tökdülər. Təbəri «Tarix»də, İbn Əbdürəbbih «İqdül-Fərid»də və İbn Əbil-

hədid isə «Nəhcül-bəlağənin şərhi» kitabında açıq-aydın şəkildə həzrət Əlinin dəfələrə belə buyurduğunu qeyd etmişdir: **«Əgər din, təqva, ədalət və insafı gözləməsəydim, bütün ərəblərdən daha zirək, hiyləgər və dahi olardım>>.**

Ağalar, yanlış düşünürsünüz, boş sözlərin təsiri altına düşmüsünüz. Elə bilirsiniz həzrət Əlinin (ə) dövründə baş verən üsyanlar İmamın siyasətsizliyindən qaynaqlanır? Halbuki, vəziyyət sizin dediyiniz kimi deyildi. Əksinə bir qrup dəlillər var idi ki, vaxt az olduğundan mövzunun aydınlaşması üçün onlardan sadəcə bəzisinə işarə edəcəyəm.

## HƏZRƏT ƏLİNİN XİLAFƏTİ DÖVRÜNDƏKİ QİYAMLARIN SƏBƏBLƏRİ

Əvvəla; 25 ilə yaxın bir zamanda insanlar həzrət Əliyə (ə) qarşı düşmənçilik və kinlə tərbiyə edilmişdi. Belə olan təqdirdə o dəqiqə Onun xilafətini qəbul edə bilməzdilər. Buna görə xilafətinin ilk günlərində əşrəfdən [49] biri həzrət Əlini (ə) məsciddə - minbərdə görəndə yüksək səslə belə demişdi: «Xəlifə Ömərin yerinə minbərdə Əlini görən gözlərim kor olsun>>.

[49] O dövrün nüfuzlu şəxslərindən biri

İkincisi; dünyaya aludə olan insanlar Onun ədalətini qəbul edə bilmirdilər. Xüsusilə də Osman zamanında Əməvi hakimləri mütləq azadlığa sahib idilər. Buna görə də öz arzu və istəklərini təmin edəcək bir insanın iş başına gəlməsini istəyirdilər. Müaviyənin hakimiyyəti dövründə isə bütün arzuları həyata keçdi və dünyəvi hədəflərinə çatdılar.

Həzrət Əliyə (ə) ilk beyət edənlərdən olan Təlhə və Zübeyr İmamdan istədikləri məqamı ala bilmədikdə, o dəqiqə beyətlərini pozub, Cəməl və Bəsrə fitnəsini meydana çıxartdılar.

Üçüncüsü; diqqətlə tarixi araşdırıb insafla hökm versəniz, həzrət Əlinin xilafətinin ilk günlərində insanları fitnə və fəsada təşviq edənin, qan tökməyə çağıranın kim olduğunu açıq-aydın görərsiniz. Şübhəsiz ki, bu kimsə Aişədir. Sünni və şiənin bütün mühəddis və tarixçilərinin yazdığı kimi, Aişə, evdən çıxmamasını əmr edan Peyğəmbərə (s) müxalifət edərək dəvəyə minib Bəsrəyə getmiş, fitnə-fəsad yaratmış, bir çox müsəlmanın qanının tökülməsinə səbəb olmuşdur.

Dördüncüsü; bu fitnə-fəsadların və qan tökülməsinin səbəbinin həzrət Əlinin (ə) siyasətsizliyi olduğunu dediniz. Bunlar sizin tarixə diqqət etməməyinizdən irəli gəlir. Əksinə, 25 il ərzində Ona kin bəsləyənlər, Aişənin düşmənçiliyi və dünyapərəstlərin arzuları bütün bu fitnə və fəsadlara bais olmuş və haqsız yerə qan tökmüşdür. Zənnə qapılıb, həzrət Əlini (ə) bütün bu baş verənlərdə ittiham edirsiniz. Halbuki, əslində, bütün zahiri döyüşlərin və tökülən qanların səbəbi Aişə idi. Peyğəmbərin (s) bütün qadağalarına baxmayaraq, o, imam

Əliyə (ə) qarşı qiyam etmişdi. Əgər Aişə qiyam etməsəydi, heç kim Əmirəl-mömininin qarşısında qiyam edə bilməzdi. Çünki Peyğəmbər belə buyurmuşdur: **"Əli ilə döyüşən mənimlə döyüşmüşdür"**.Daha doğrusu, insanları cəsarətləndirən Aişə idi. O. Cəməl döyüşünü başlamaqla, həzrət Əlini pisləyib, təhqir etməklə xalqı cəsarətləndirdi.

## PEYĞƏMBƏRİN (S) BƏSRƏ, SÜFFEYN VƏ NƏHRƏVAN DÖYÜŞLƏRİNDƏN XƏBƏR VERMƏSİ

Həzrət Əlinin (ə) münafiqlərlə və Bəsrə, Süffeyn və Nəhrəvandakı müxaliflərə qarşı döyüşləri, Peyğəmbərin (s) kafirlərlə döyüşü kimi idi».

**Şeyx:** «Müsəlmanlarla döyüşmək necə müşriklərlə savaşmaq kimi sayıla bilər?!>>

**Dəvətçi:** «Çünki Əhməd ibn Hənbəl «Müsnəd»də, Səbt ibn Covzi «Təzkirə»də, Süleyman Bəlxi «Yənabiul-Məvəddə»də, imam Nəsai «Xəsaisul-Ələvi»də, Muhəmməd ibn Təlhə Şafei «Mətalibus süal»da, Muhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib»in 37-ci babında və İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 67-ci səhifəsində rəvayət etdiyi kimi, Peyğəmbər (s) Əlinin (ə) döyüşlərini «nakisin», «qasitin» və «mariqin» döyüşləri adlandırmışdır. «Nakisin»dən məqsəd Təlhə, Zübeyr və ətrafındakılar, «qasitin>dən məqsəd Müaviyə və tərəfdarları və «mariqin»dən məqsəd isə Nəhrəvan xariciləridir.

Bunların hamısı üsyan əhli və qətlləri də vacib idi. Peyğəmbər (s) bu döyüşləri əvvəlcədən xəbər vermiş və onlarla savaşmağı əmr etmişdi.

Muhəmməd ibn Yusif «Kifayətut-Talib» kitabının 37-ci babında istinad edərək Səid ibn Cübeyrdən, o da İbn Abbasdan Peyğəmbərin (s) Ümmü-Sələməyə belə buyurduğunu rəvayət etmişdir: "**Bu Əli ibn Əbu Talib... Əti mənim ətim, qanı mənim qanımdır. O, mənə nisbətdə, Harunun Musaya olan nisbəti kimidir; bu fərqlə ki, məndən sonra Peyğəmbər olmayacaqdır.**

**Ey Ümmü-Sələmə, bu Əli möminlərin əmiri, müsəlmanların ağası, elmimin xəzinəsi, vəsim və daxil olunan elm qapımdır. O. mənim dünya və axirətdə qardaşımdır, uca məqamda mənimlə birlikdədir. O, qasitin, nakisin və mariqin ilə döyüşəcəkdir."**

Muhəmməd ibn Yusif daha sonra bu hədis haqqında şəxsi nəzərini bildirərək belə deyir: «Bu hədisdə Rəsulallah (s) həzrət Əlinin üç qrupla savaşacağını xəbər vermişdir. Peyğəmbərin vədi haqdır. Peyğəmbərin ona bu üç qrupla döyüşməsini əmr etmişdir».

Buna görə Məxnəf ibn Suleym belə deyir: «**Rəsulallahın böyük səhabələrindən olan Əbu Əyyub Ənsari bir orduyla döyüşə hazırlaşdı. Ona dedim: «Ey Əba Əyyub Ənsari, sən Peyğəmbərin yanında müşriklərlə savaşdın, indi də müsəlmanlarla döyüşə hazırlaşırsan?». Dedi: «Peyğəmbər (s)**

**mənə nakisin, qasitin və mariqin ilə döyüşməyimi əmr etmişdir».**

Həzrət Əlinin (ə) bu üç qrupla etdiyi savaşın kafir va müşriklərlə etdiyi döyüş kimi olduğunu söyləməyim, bilavasitə böyük alimlərinizin nəql etdiyi bir rəvayətdə yer almışdır. Məsələn: İmam Əbdürrəhman Nəsai «Xəsaisul-ələvi»nin 155-ci hədisində (Əbu Səid Xədridən müsnəd olaraq). Süleyman Bəlxi «Yənabi»nin 59-cu səhifəsində, 12-ci babında «Cəmul-Fəvaid»dən, o da Əbi Səiddən belə rəvayət edir: **«Biz əshabla oturub, Peyğəmbəri (s) gözləyirdik.Rəsulallah, nəleyninin**[50] **qayışı qopmuş bir halda gəlib, ayaqqabısını Əliyə verdi. Əli ayaqqabını təmir edərkən Peyğəmbər (s) buyurdu: «Mən müşriklərlə Qurani-kərimin tənzili, nazil olması və zahiri üçün savaşdığım kimi, sizdən biri də Qurani-Kərimin təvili və mənası üçün savaşacaq». Əbu Bəkr: «Bu mənəmmi?>>,-deyə soruşdu. Peyğəmbər: «Xeyr»-buyurdu. Ömər soruşdu: «Bu mənəmmi?» Peyğəmbər buyurdu: «Xeyr! O kəs indi ayaqqabımı təmir edəndir». (Yəni Əlidir)**

Bu hədis, həzrət Əlinin (ə) döyuşlərinin haqq üzrə aparılan cihad Qurani-kərimin açıq-aşkar həqiqəti, tənzili və mənasının qorunması üçün olduğunu aydın şəkildə göstərir.

Həzrət Əlinin (ə) üç döyüşü, Rəsulallahın (s) da buyurduğu kimi, müsəlmanlarla aparılan döyüş deyildi. Çünki Peyğəmbər

[50] Arxası olmayan ayaqqabı növü

(s) müsəlmanlarla döyüşməyi əmr etməz, hətta nəhy edər və onları «nakisin», «qasitin» və «mariqin» adlandırmazdı. Daha doğrusu bu, onların mürtədliyi, Quran qarşısında qiyam etmələri və müşriklər kimi Quran əleyhinə döyüşmələrinin ən böyük dəlilidir.

Göründüyü kimi, həzrət Əlinin (ə) döyüşləri siyasətsizliyindən deyildir. Əksinə müxaliflarinin Peyğəmbərə (s) itaətsizliyi və nifaqlarından qaynaqlanmışdı.

Siz imam Əlinin (ə) beşillik hakimiyyətini ədalətlə, insafla araşdıraraq ölkə idarəçiliyi üçün verdiyi hökmləri gözdən keçirsəniz (məsələn; Malik Əştər va Muhəmməd ibn Əbu Bəkrin Misir hökumətinə, Osman ibn hənif və Abdullah ibn Abbasln Bəsrə və Qasim ibn Abbasın Məkkə hakimiyyətinə təyini üçün verdiyi əmr və təlimatlar «Nəhcül-bəlağə»də də yer almışdır.) Peyğəmbərdən (s) sonra Onun kimi adil bir siyasətçinin hələ dünyaya gəlmədiyini qəbul edərsiniz. Həzrət Əlinin (ə) dost və düşməni hər kəs bunu, qəbul edir. Çünki O, müttəqilərin imamı, Allahın Kitabını nasix, mənsux, möhkəm, mütəşabih, mücməl və müfəssəl hökmlərini, eləcə də qeyb və şühud aləmini ən yaxşı təvillə bilən idi».

**Şeyx:** «Mən bu cümlənin mənasını anlaya bilmədim. Həzrət Əlinin (r.ə) qeyb və şəhadəti bildiyini bəyan etdiniz. Qeyb və şəhadətdən məqsəd nədir? Zəhmət olmasa, daha açıq bəyan edin?>>

**Dəvətçi**: «Bu cümlədə anlaşılmayacaq bir şey yoxdur. Ənbiya və övsiya, Allahın verdiyi feyzlərlə, insanlara gizli olan bəzi sirləri bilirdi. Əlbəttə, hər biri istəkləri üçün zəruri olduğu qədəriylə qeybi sirlərini bilirdi. Peyğəmbərdən (s) sonra belə bir şeyə həzrət Əli (ə) sahib idi».

**Şeyx**: «İfratçı şiələrin (ğulatın) bu fikirlərinə sahib olmağınızı, doğrusu, sizdən gözləmirdim. Bu sözünüz sahibinin də razı olmadığı bir sözdür, çünki qullardan heç birinin qeybi elm barədə hər hansı bir elmi ola bilməz. Ona görə ki, qeyb elmi yalnız Allah-Təalanın zatına aid olan bir şeydir».

**Dəvətçi:** «Bu sözünüz də ya bilərək və ya bilməyərək təkrarladığınız atalarınızın sözləridir. Bir az diqqət etsəniz anlayarsınız ki, ənbiya və övsiyanın qeyb elmini bilməsinin ifratçılıqla bir əlaqəsi yoxdur. Bu onlar üçün adi bir şeydir. Əql, nəql və Qurani kərimin açıq hökmləri də bunu ifadə edir».

**Şeyx:** «Qurana işarə etməklə xəta edirsiniz; çünki Quran dediyinizin tam əksini ifadə edir.

**Dəvətçi**: «Hansı ayə? Bəyan etsəniz, sevinərəm>>.

**Şeyx:** «Quranda bir çox ayə bunu ifadə edir. Məsələn: «Ənam>> surəsinin 59-cu ayəsində belə buyurulur: **«Qeybin açarları Allahın yanındadır, onları Ondan başqası bilməz. Quruda və dənizdə olanların hamısını O bilir; Onun elmi xaricində bir yarpaq belə düşməz. O, yerin qaranlıqları içindəki tək bir dənəni belə bilir. Yaş və quru nə varsa hamısı açıq-aşkar bir Kitabdadır».**

Bu ayə, Allahdan başqa heç kimin qeybi bilmədiyinin açıq-aşkar dəlilidir, hər kim qeyb elmini Allahdan başqasına istinad edərsə ifrata varmış və zəif bir qulu Allahın sifətlərinə ortaq bilmişdir.Halbuki, Allah-Təala şəriki olmaqdan münəzzəhdir.

Həzrət Əlinin (ə) qeyb elmini bildiyini söyləməklə, onu Allah Təalaya şərik qoşdunuz və Peyğəmbərdən (s) də uca etdiniz. Çünki Rəsulallah belə dəfələrlə özünün bir insan olduğunu söyləmiş, qeyb elmini sadəcə Allahın bildiyini ifadə etmişdir. Bundan əlavə, Allah Təalaya məxsus olan bir sifətlə Ona şərik qərar verdiniz. Məgər "Kəhf" surəsinin 110-cu ayəsini oxumamısınız ki, orada belə buyurulur: "**De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Allahdır."**

Həmçinin, «Əraf» surəsinin 188-ci ayəsində belə buyurulur. «**De: «Mən, Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də zərər verəcək gücə sahib deyiləm. Əgər qeybi bilsəydim, sözsüz ki, daha çox xeyir tədarük edərdim və mənə heç bir pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı, ancaq qorxudan və müjdələyənəm".** Yenə «Hud» surəsinin 31-ci ayəsində buyurulur: «**Mən sizə «Allahın xəzinələri mənim yanımdadır» demirəm, qeybi bilmirəm».** Həmçinin, «Nəml» surəsinin 65-ci ayəsində belə buyurulur: **«De: Göylərdə və yerdə, Allahdan başqa heç kəs qeybi bilməz və onlar nə zaman dirildiləcəklərini də bilməzlər».**

Halbuki, bu ayələrin də açıq-aydın bildirdiyi kimi, bilavasitə Peyğəmbər (s) qeyb elmini bilmədiyini və qeyb

elminin Allah-Təalaya məxsus olduğunu ifadə edir. Siz Əliyə (r.ə) belə bir elmi necə istinad edirsiniz? Daha doğrusu, onu həzrət Peyğəmbərdən (s) üstün tutursunuz. «Ali-Imran» surəsinin 179-cu ayəsində də belə buyurulmuşdur: «**Bununla bərabər Allah sizə qeybi də öyrədən deyildir».**

Bu halda hansı dəlilə görə qeyb elmini Allahdan başqasına istinad edirsiniz? Əlini (r.ə) Allah-Təalaya şərik bilmək ifratçılıq deyilsə, o halda ifratçılıq nədir?>>

**Dəvətçi:** «Sizin əvvəldə söylədikləriniz doğrudur, hamımızın da inandığı şeydir. Amma aldığınız nəticə, əsla, doğru deyildir.

## QEYB ELMİ ALLAH-TƏALA TƏRƏFİNDƏN PEYĞƏMBƏRLƏRƏ VƏ VƏSİLƏRƏ TÖHFƏ EDİLİR

Doğrudur, qeyb elmini təkcə Allah bilir, açarları da Onun yanındadır. «Kəhf» surəsinin son ayəsinin hökmünə əsasən, bütün övliya və vəsilər zahirən digər insanlar kimidir, ayrı üstünlüyə sahib deyil. Şiə da bu inancdadır,oxuduğunuz ayələrin hər biri öz yerində doğrudur. Amma oxuduğunuz «Hud» surəsinin ayəsi həzrət Nuh (ə) ilə əlaqəlidir. Peyğəmbərimizə (s) aid olana gəlincə, müşrik və kafirlər qeybdən bir xəzinə istədikdə və ya qeyb elmini niyə bilmədiklərini soruşduqda «Ənam» surəsinin 50-ci ayəsində onlara belə cavab verildi: «**De: «Mən sizə, demirəm ki, yanımda Allahın xəzinələri vardır. Mən qeybi bilirəm və sizə**

**də demirəm ki, mələyəm. Mən yalnız özümə gələn vəhyə tabe oluram.”**

Bu ayənin nazil olmasından məqsəd, cahillərin arzularına mane və ilahilik və risalət məqamının onların əlində bir oyuncaq halına düşməkdən çox daha uca olduğunu bildirməkdir.Peyğəmbərlər və vəsilərə təxsis etdiyimiz qeyb elmi Allahın sifətlərinə şərik olma mənasında deyil, Haqq-Təala tərəfindən onlara nazil olan vəhy və ilhamdır. Beləcə, qarşılarından pərdələri qaldırır və onlara açıq-aşkar həqiqətləri büruzə verir.

Mövzunun daha yaxşı anlaşılması üçün fikrimi bir az daha açıq çatdırmağa çalışacağam. Beləcə düşmənlər yersiz-yerə şiə müsəlmanların inanclarına hücum edib, iftira atmasın, Allahın elminə şərik qoşduqlarını zənn edərək onları müşrik saymasınlar.

## ELM İKİ QİSİMDİR: ZATİ VƏ ƏRƏZİ[51]

Biz şiə müsəlmanlarının inancına görə elm iki qisimdir: zati və ərəzi.

---

[51] Zati-öyrənib və öyrənilməyi mümkün olmayan elm. Ərazi sonradan öyrənilən elm

Zati elmə, ərəzi elm əsla nüfuz edə bilməz;bütünlüklə Allah Təalaya məxsusdur. Biz də o elmi sadəcə ümumən isbat edə bilirik, açıq-aşkar həqiqətini təsəvvür edə bilmərik. Söylədiyimiz təqdir və təbirlərimiz bu zati elmi ifadə etmir. Bəşərin də ağlı bunu, əsla təsəvvür edə bilməz.

İkinci qisim isə ərazi elmdir ki, Peyğəmbər(s), ümmət, imam və imama tabe olanlar heç kim bu elmə sahib deyildir. Onlara sonradan ehsan edilir. Bu cür ərəzi elmlər iki qisimdir: Təhsili (kəsbi)və lədünni (vəhbi- Bəxşişlə bir dəfəyə verilən elm ....)

Bunlar da Allah-təalanın rəbbani feyzlərindəndir.Təhsil alan bir tələbə uca yaradanın feyzi olmadan nəticə əldə edə bilməz, nə qədər zəhmət çəksə də alim olmaz. Allah-Təalanın rəhməti sayəsində tələbə məktəbə gedib zəhmət çəkərsə, çəkdiyi zəhmətin qədərində feyz əldə edir.

İkinci qisim elmə də lədünni elm deyilir. Yəni vasitəsiz feyz əldə edilməsini ifadə edir. Təhsil və hərflərin öyrənilməsi olmadan bilavasitə Allah-Təala tərəfindən ehsan edilir. Buna görə "Kəhf" surəsinin 65-ci ayəsində belə buyurulur: **"Öz tərəfimizdən elm öyrətdiyimiz bəndələrimizdən birini tapdılar və ona yanımızdan elm öyrətdik"**

Şiələrdən heç kim qeyb elmini bilməyin Peyğəmbər(s) və ya imamların özündən olduğunu iddia etməmişdir. Yəni imam

və peyğəmbərlər Allah-Təala kimi zati bir elmə sahib deyillər. Belə bir iddia irəli sürən ğulat və kafirdir! Biz şiələr bundan uzağıq.

Bizim inandığımız budur ki, Allah-Təala məcbur və məhdud deyildir, istədiyini edər və mütləq qüdrət sahibidir.İradə etdiyi təqdirdə yaratdıqlarından istədiyinə elm və qüdrət ehsan edə bilər. Lakin bəzən bəşəri bir müəllim də hər hansı bir vasitə ilə və bəzən də vasitəsiz feyz verir. Vasitəsiz elmi, lədünni və qeybi elm adlandırırıq. Onlar məktəbə getmədən və heç bir müəllimdən təhsil almadan İlahi feyzdən qidalanırlar. Şairin təbiri ilə desək:

Sevgilim məktəbə getmədi, yazı yazmadı..

Qəmzəylə yüzlərlə tələbənin müəllimi oldu.

**Şeyx**: «Bu sözləriniz doğrudur. Amma Allahın istəyi təbii olmayan belə bir şeyə şamil ola bilməz. Allah-Təala qeyb elmini müəllimsiz heç kimə ehsan etməz».

**Dəvətçi**: «Elə səhviniz də buradadır. Bir az olsun belə düşünmürsünüz. hətta bilavasitə öz alimlərinizin əksinə bəyan edirsiniz. Halbuki, mövzu açıqlamağa belə ehtiyac qalmayacaq qədər açıq-aşkar ortadadır. Allahın seçdiyi ənbiya və övsiyasına

onlar üçün zəruri olan qeyb elmini ehsan etdiyi xüsusunda heç bir şəkk-şübhə yoxdur>>.

**Şeyx**: «İnsanların qeyb elmini bildiyini açıq şəkildə rədd edən bu ayələr qarşısında dəliliniz nədir?>>

**Dəvətçi**: «Biz də Quranın bu ayələrinə müxalif deyilik; çünki Kitabi-məcidin hər ayəsi xüsusi bir şey üçün, vəziyyətdən asılı olaraq nazil olmuşdur. Bu səbəbdən alimlər Quran haqqında belə demişlər: "Qurani-kərimin ayələrinin bəzisi bəzisini gücləndirir, şiddətləndirir>>.

Bəzən də ardıcıl olaraq Peyğəmbərdən (s) möcüzə istəyən və bununla nübuvvət məqamını oyuncağa çevirmək istəyən kafir və müşriklər qarşısında əmrin əksi (nədənsə çəkindirmə) ayələri nazil olmuşdur. Amma mövzunun həqiqətlərinin ortaya çıxması üçün isbatedici ayələr mövcuddur. Alimlərinizin, hətta biganələrin belə diqqət etdiyi bir çox tarixi rəvayət və Qurani dəlillər vardır».

**Şeyx:** «Quranda bu mövzunu təsdiq edən ayələrin olduğunu söyləməyiniz çox qəribədir. Zəhmət olmasa, misal göstərin>>.

## PEYĞƏMBƏR VƏ VƏSİLƏRİN QEYB ELMİNİ BİLMƏLƏRİNƏ DAİR QURANDAN DƏLİLLƏR

**Dəvətçi**: «Təəccüblənməyin, özünüz də bilirsiniz. Amma təsdiq etməyiniz əleyhinizədir; ya xilafət məqamının isbatı

mövzusunda sizi çıxılmaz vəziyyətə salır və ya kor-koranə atalarınıza itaətiniz sizi təəccüblənməyə məcbur edir.

Əvvəla; «Cinn» surəsinin 26-28-ci ayələrində belə buyurulur: «**Qeybi bilən, ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; bəyənib seçdiyi elçilərindən başqa! Allah onların önündə və arxasında gözətçilər qoyar ki, onların öz Rəbbinin göndərdiklərini haqqıyla təbliğ etdiklərini bilsin. Onlar da, olanların (Allahın göndərdiklərinin) hamısını ehtiva etmişdir. O, hər şeyi bir-bir sayıb, təsbit etmişdir».**

Bu ayə Allahın seçdiyi peyğəmbərlərə qeyb elmini verdiyinin ən böyük dəlilidir.

İkincisi; «Ali-İmran» surəsindən dəlil gətirdiyiniz ayənin sadəca əvvəlini oxudunuz, ancaq sonunu qiraət etmədiniz. İndi bizim sözümüzü isbat edən bu ayənin hamısını oxumaq istəyirəm. Allah Təala buyurur: «Bununla bərabər Allah sizə qeybi də bildirən deyildir. Lakin Allah, elçilərindən istədiyini seçər (ona qeybdən bəzi şeylər bildirər). Elə isə Allaha və Onun peyğəmbərlərinə iman gətirin. Əgər iman gətirib Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir!»[52]

Bu iki ayə açıq-aydın Allahın, seçdiyi peyğəmbərlərinə Öz izni ilə qeyb elmini bildirdiyini ifadə edir. Əgər qeyb elmi Allah-Təalaya məxsus olmasaydı, qeyb ayələrindən olan «Cinn» surəsinin 27-ci ayəsindəki «illa» (fəqət, yalnız, sadəcə) ədatının

---

[52] Ali-İmran, 179

bir mənası olmazdı və «fəqət elçilərindən razı olduğuna» deyə buyurmazdı. Aydın olduğu kimi, burada bir istisna vardır.

Bundan əlavə, istisna etdiyi şəxslərin də elçilər, yəni peyğəmbərlər və vəsilər olduğunu açıq şəkildə bəyan etmişdir.

Buna görə «Hud» surəsinin 51-ci ayəsində də belə buyurur: **«(Rəsulum!) bax, bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən bilirdin, nə də qövmün>>**

<<Şura»surəsinin 52-ci ayəsində də belə buyurur: **«Beləcə, sənə də əmrimizdən bir vəhy (ruh) göndərdik. Sən, kitab nədir, iman nədir bilməzdin. Lakin Biz onu, qullarımızdan dilədiyimizi doğru yola qovuşdurmağımız üçün, bir nur etdik».**

Əgər qeyb elminin Allah-Təala tərəfindən ehsanı olmasaydı, o halda peyğəmbərlər işlərin həqiqətini necə xəbər verər və insanları həyatlarından necə xəbərdar edərdilər? Buna görə «Ali-İmran» surəsinin 49-cu ayəsində həzrət İsa (ə) İsrail oğullarına belə xəbər verir: **"Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm"**

İnsanların evinin içindən xəbər vermək qeybdən xəbər vermək deyilmi? Bu mövzuda istəsəm bütün ayələri oxuyaram, amma məclisin vaxtını alaram. Misal üçün bu qədərin kifayət etdiyini düşünürəm>>.

Şeyx: «Sizin bu cür nəzərləriniz ucbatından saxtakarlar və hoqqabazlar falçılıq, hərflərlə fala baxma, taledən xəbər vermə

adı ilə - cəmiyyətdə baş alıb gedirlər. Bəziləri qeybdən xəbər verdiklərini iddia edərək cəmiyyətdə bir çox səfalətlərə və xürafata səbəb olurlar. Xalqı azdıraraq, onları açıq-aşkar həqiqətdən uzaqlaşdırırlar.

## QEYB ELMİNİ HƏR VƏSİLƏ VƏ SƏBƏBLƏ İDDİA EDƏNLƏR YALANÇIDIR

**Dəvətçi**: Haqq inanclar, əsla, səfalətə səbəb olmaz, insanları pis yola çəkən cəhalətdir. Əgər müsəlmanlar savadlı olub, Peyğəmbərin (s) əmrlərinə uyğun elmlərin və alimlərin arxasıyla gedib, xüsusilə Quranı yaxşı bilsəydilər, onda elmin qapısı ilk gündən bağlanmaz və əsla, cahil insanların dalınca getməz, eləcə də hər çaqqal və tülkülərə də yem olmazdılar. Beləcə, Qurani-kərimin əmrilə yola çıxaraq saxtakarlara aldanmazdılar.

Ayədə keçən «illa mənirtəza min rəsul» (fəqət elçilərindən razı olduğuna) təbiri açıq-aydın Allah-Təalaya xas qeyb elminin səbəbsiz və vasitəsiz olaraq təkcə peyğəmbərlərə verildiyinə dəlalət edir.

Əgər bir kəs peyğəmbər və ya imam olmadan Allah-Təalaya məxsus qeyb elmini bildiyini iddia edərsə, heç şübhəsiz, iftiraçı və yalançıdır. Qurana tabe olan arif və alim müsəlmanlar heç vaxt onlara qoşulmaz və yalanlarına, əsla, aldanmazlar. Çünki onlar, Quran və Onun həqiqi sahibləri olan Əhli-beyt (ə) istisna olmaqla, heç kimin arxasınca getməzlər.

Peyğəmbər (s) və Onun pak vəsilərindən başqa bu ümmətdən kimsə hər səbəb və vəsilə ilə qeybdən xəbər verdiyini iddia edərsə saxtakar, hoqqabaz və yalançıdır.

**Şeyx**: "Peyğəmbərlər vəhy nüzulunun mərkəzi olduğu üçün, sizin deyiminizlə, qeyb elminə sahib ola bilərlər. Əli (r.ə.) peyğəmbər və ya bu işdə Rəsulallaha (s) şərik idi ki, qeyb elmini bilsin?»

## PEYĞƏMBƏR VƏ VƏSİLƏR QEYB ELMİNİ BİLİRDİLƏR

**Dəvətçi:** «Əvvəla; yenə «sizin deyiminizlə» deyərək qələt və ya xəta edirsiniz. Niyə «Allahın dediyi kimi» demirsiniz? Mən özümdən heç bir şeyə sahib deyiləm, heç bir iddia da irəli sürmürəm; sadəcə Quranı nəql edir və Onun həqiqətlərini kəşf etməyə və Kitabi müqəddəsin həqiqi müfəssiri olan Xatəmül-ənbiyaya (s) itaət etməyə çalışıram.

Birinci mərhələdə Qurandan gətirdiyim şahid ayələr işığında Peyğəmbərlərin qeyb elmini bildiyini söylədimsə, bilin ki, bunu bilavasitə öz alimləriniz də təsdiq edir. Onlar da Rəsulallahdan bir çox sayda qeybi xəbərlər rəvayət etmişlər. Məsələn: İbn Əbil-hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» (Misir çapı) kitabının 1ci cildinin 67-ci səhifəsində Peyğəmbərin həzrət Əliyə dediyi «**Məndən sonra nakisin, qasitin və mariqin ilə döyüşəcəksən»** sözünü rəvayət etdikdən sonra belə deyir: «Bu rəvayət də Peyğəmbərin nübüvvət dəlillərindən biridir.

Çünki bu hədisdə qeybdən açıq-aşkar xəbər verir və hadisələr təxminən 30 il sonra gerçəkləşir.

Nakisindən məqsəd Cəməl əhlidir; Təlhə, Zübeyr və Aişə həzrət Əliyə (ə) qarşı üsyan etdilar. Qasitin Süffeyn əhli olan Müaviyə tərəfdarlarıdır. Mariqin isədindən çıxan Nəhrəvan xariciləridir».

Bundan əlavə, şiələrdən heç kəs həzrət Əli (ə) və ya digər Əhli beyt (ə) imamlarının peyğəmbərlmyini iddia etməmişdir. Belə bir inanca sahib olanları da kafir və batil əhli bilirik. Əksinə həzrət Muhəmmədin (s) son muxtar və şəriksiz bir peyğəmbər olduğuna iman etmişik. Həzrət Əli (ə) və soyundan gələn on bir İmamı, haqq Imamlar və Peyğəmbərin (s) təyin etdiyi xəlifə və vəsilər olaraq qəbul edirik. Allah-Təala Rəsuli-əkrəm (s) vasitəsi ilə onları qeyb əmrlərindən agah etmişdir.

Biz də sıravi insanları aləmdəki həqiqətləri görməkdən məhrum edan pərdələrin ənbiya və vəsilərinin gözü önündə olmadığına inanırıq. Allah-Təala zaman və məkan əsasında sahib olduğu qüdrətlə lüzumlu və səlah bildiyi qədər pərdəni qaldırır və onlara qeybdən xəbərlər verirdi. Nəyi səlah bilmirdisə pərdə örtülür və onlar da xəbərsiz qalırdılar. Buna görə bəzən aşkar şəkildə bilmədiklərini ifadə etmişlər: «Əgər mən qeyb elmini bilmiş olsaydım, mütləq öz xeyirlərimi çoxaldardım». Yəni öz-özümdən qeybdən bir xəbərə sahib deyiləm, sadəcə Allah-Təala lütf edər və pərdə qalxarsa, xəbərdar ola bilərəm».

**Şeyx:** «Peyğəmbər (s) vasitəsi ilə gizli həqiqətlərdən harada xəbərdar olunmuşlar?»

**Dəvətçi:** «Nəql etdiyim Quran ayələrinin hökmünə əsasən həzrət Muhəmmədin (s) Allahın rəsulu və elçisi olduğunu qəbul etmirsinizmi?»

**Şeyx**: «Qəribə şeylər soruşursunuz. Şübhəsiz,həzrət Muhəmməd (s), Allahın razı olduğu son elçisidir».

**Dəvətçi:** O halda, «Sadəcə rəsullarından seçdiklərindən başqa heç kəs qeybi belə bilməz» ayəsinin hökmünə əsasən Peyğəmbər (s) qeybi bilir. Çünki bu ayəyə gerə qeybləri bilən Allah-Təala öz qeyb elmindən istədiyi qədər peyğəmbərlərdən seçdiyinə ehsan edir>>.

**Şeyx**: «Fərz edək ki, Rəsulallah (s) belə bir qeyb elminə sahibdir. Bunun həzrət Əlinin (k.v) qeybi bilməsi ilə nə əlaqəsi var?»

**Dəvətçi:** «Əgər siz atalarınıza təqlid etməkdən uzaqlaşsanız, bir az düşüncənizi genişlədərək Peyğəmbərin (s) nübüvvətini və səhih hədisləri diqqətlə araşdırsanız, mövzu öz-özlüyündə anlaşılmış olar».

**Şeyx:** «Əgər bizim elmimiz naqisdirsə, əlhəmdülillah, sizin ki, fikriniz aydın və diliniz açıqdır, buyurun söyləyin! Hansı xəbər həzrət Əlinin (k.v) qeybi bildiyinə dəlalət edir? Əgər Peyğəmbərin (s) xəlifəsi və vəsiləri də qeybi bilirsə, onda bunu Əhli-beytə xas etməyə ehtiyac yoxdur, raşidin xəlifələrin də

qeybi bilməsi lazımdır! Amma görürük ki, xəlifələrdən heç kəs belə bir iddiada olmamış, əksinə Peyğəmbər kimi, daim acizliklərini bildirmişlər. O halda niyə bunu təkcə Əliyə aid edirsiniz?>>>

**Dəvətçi:** «Əvvəla; Peyğəmbərin (s) acizlik izharı haqqında cavabınızı vermişdim; Rəsuli-əkrəm vasitəsiz olaraq öz-özündən qeyb elminə sahib deyildi, Allahın lütfüylə açıq-aşkar həqiqətləri bilirdi. «Əgər qeybi bilsəydim, xeyirlərimi artırardım» deməsi də buna işarə edir: «Mən Allah-Təala kimi müstəqil, hazır bir elmə sahib deyiləm. Allah-Təala pərdəni qaldırdığı zaman gizli və açıq həqiqətləri kəşf edir və qeybdən xəbər verirəm».

## ƏHLİ-BEYT İMAMLARI (Ə) HAQQ XƏLİFƏLƏRDƏ QEYBİ BİLƏNLƏRDİR

Qeyb elmini bilmədə xəlifələrin də istisna edilməməsinin zəruriliyini vurğulamağınız da doğrudur. Bizim ixtilafımız da ela buradan başlayır. Biz də hesab edirik ki, Peyğəmbərin (s) xəlifələri Onun kimi işlərin zahir və batinini bilməlidirlər, hətta bütün mənası ilə, nübuvvət və risalətdən başqa, bütün sifətlərdə, kitab nazil olmada, vəhy və əhkamdan başqa bütün məqamlarda Rəsulallahın vəsi və xəlifələri Onun kimi olmalıdırlar. Amma siz Peyğəmbərin xəlifəsinin bir ovuc insanın seçdiyi bir kəsin olduğunu bəyan edirsiniz. Hətta bu kimsə Rəsulallahın (s) lənətlədiyi Müaviyə kimi birisi olsa belə, qəbul edirsiz. Amma biz deyirik ki, Peyğəmbərin (s) vəsiləri, bilavasitə

o hazrətin nəslə təyin etdiyi kəslərdir. Əvvəlki peyğəmbərlər də öz vəsilərini nəslə təyin etmişlər.

Əlbəttə, Rəsulallahın (s) nəslə təyin etdiyi vəsi və xəlifələrinin hamısı Onun tam məzhəri və bənzəri idi. Bu səbəbdən onların hamısı da qeyb aləmini və işlərin həqiqətini bilirdilər. Sizin rəvayətlərdə də adları və sayları yer aldığı kimi, 12 nəfərdirlər. Onların hamısı da haqq Imamlar, Peyğəmbərin (s) Əhli-beyti və Əlinin (ə) soyundan gələn 11 imamdır.

Öz alimlərinizin də qeyd etdiyi kimi, başqalarının Rəsuli əkrəmin nəslə təyin etdiyi xəlifələri olmadığının dəlili, qeyb elmi bir yana dursun, adi elmi mövzularda belə acizlikləridir.

Həzrət Əlinin (ə) qeybi bildiyini isbat edən rəvayətlərə gəlincə, Peyğəmbərdən bu barədə bir çox hədis rəvayət olunmuşdur. O cümlədən, Rəsulallahın bir çox zaman və məkanda bəyan etdiyi və hədisləri arasında «Mədinə hədisi» adı ilə məşhur olan hədisdir. Bu hədis şiə və sünni arasında mütəvatir hədislərdəndir. Peyğəmbər (s) bu hədisdə Əlinin(ə) öz elm və hikmətinin qapısı olduğunu bəyan etmişdir: «**Mən elm şəhəriyəm, Əli də onun qapısı; elm öyrənmək istəyən qapıdan girməlidir!>>**

**Şeyx:** «Bu hədis bizim alimlərimiz tərəfindən isbat edilməmişdir. Buna görə də ya xəbəri-vahiddir, ya da zəif rəvayətlərdən sayılır».

## MƏDİNƏ HƏDİSİNİ NƏQL EDƏN RAVİLƏR

**Dəvətçi:** «Belə mütəvatir bir hədisi xəbəri-vahid və ya zəif xəbərlərdən saymağınız insafsızlıqdır. Halbuki, böyük alimləriniz bu rəvayətin düzgünlüyünü qəbul etmişlər. Bu mötəbər kitablarınıza müraciət etsəniz, müəlliflərinin açıq-aydın «Bu hədisi iftira və yalan sayanlar, heç şübhəsiz, xəta etmişlər » yazdıqlarını görərsiniz: Siyyuti: «Cəmul-cəvami»; Təbəri: «Təhzibul-asar»; Seyid Muhəmməd Buxari: «Təzkirətul-əbrar», Hakim Nişaburi: «Müstədrək»; Firuzabadi: «Nəqdus-səhih»; Müttəqi hindi: «Kənzul-ummal»; Gənci Şafei: «Kifayətut-Talib»; Cəmaləddin Hindi: «Təzkirətul-Mövzuat».

Həmçinin, Əmir Muhəmməd Yəmani «Ravzətun-nədiyyə"də, Hafiz Əbu Muhəmməd Səmərqəndi «Bəhrul-əsanid»də, Muhəmməd ibn Təlhə «Mətalibus-sual»da və digərləri bu hədisin səhih olduğunu qəbul etmişlər.

Çünki bu böyük hədis fərqli yol və sənədlərlə həzrət Əli (ə), həzrət Həsən (ə), Abdullah ibn Məsud, Cabir ibn Abdullah Ənsari, Abdullah ibn Məsud, Huzeyfə ibn Yaman, Abdulllah ibn Ömər, Ənəs ibn Malik, Əmr ibn As kimi səhabələrdən və imam Zeynul-Abidin Muhəmməd ibn Əli Baqir (ə), Əsbəğ ibn Nəbati, Cəriruz-Zabbi, Haris ibn Abdullah Həmədani, Səd ibn Təriyful-hənzəli Kufə, Səid ibn Cübeyr Əsədi Kufi, Sələmə ibn Kuheyl həzrəmi Kufi, Süleyman ibn Mehran Əməş Kufi, Asim ibn həmzə Səluli Kufi, Abdullah ibn Osman ibn Xeysəm Əlqaril-Məkki, Əbdürrəhman ibn Osman, Abdullah ibn Useylətul-Muradi, Əbu Abdullah Sənabihi və Mücahid ibn Cübeyr Əbul-

həccac Məxzumi əl-Məkki (tabeindən) və 200-dan çox böyük alimləriniz tərəfindən rəvayət edilmişdir.

Onlardan bəzisini ərz edim ki, beləcə, atalarına itaət edib bu hədisi zəif sayan Şeyx cənabları xəcalət çəkmədən həqiqətləri görsün. Onsuz da bu mövzu hər kəs yanında açıq-aşkardır! Bu hədisi rəvayət edən bəzi alimləriniz bunlardır:

1. Təbəri: «Təhzibul-asar» (ö/t: h: 310); 2. Hakim Nişaburi: «Müstədrək», c: 3, səh: 126, 128, 226; 3. Tirmizi: «Səhih» (ö/t: h 289); 4. Cəlaləddin Siyyuti: «Cəmul-cəvami» və «Camius-sağir», c: 1. səh: 374 (ö/t: h: 911); 5. Təbərani: «Kəbir» və «Ovsət» (ö/t: h: 360); 6. hafiz Əbu Muhəmməd Səmərqəndi: «Bəhrul-əsanid» (ö/t: h: 491); 7. Əbu Nəim İsfahani: «Mərifətus-səhabə» (ö/t: h: 430); 8. Qirtəbi: «İstiab», c: 2, səh: 461 (ö/t: h: 463); 9. İbn Məğazeli: «Mənaqib» (ö/t h: 483); 10. Deyləmi: «Firdovsul-əxbar»(ö/t: h: 509); 11. Xatib Xarəzmi: «Mənaqib» səh: 49, «Məqtəlul-hüseyn» c: 1, səh: 43 (ö/t: h: 568); 12. Əbül-Qasım ibn Əsakir Əli ibn həsən: «Tarixi-kəbir» (ö/t: h 571); 13. Əbül-həccac Yusif ibn Məhəmməd Əndülisi: «Əlifba» c: 1. səh: 222 (ö/t: h: 605); 14. İbn Əsir Cəzri: «Əsədul-ğabə», c: 4, səh: 22 (ö/t: h: 630); 15. Təbəri: «Riyazun-nəzrə», c: 1, səh: 129, «Zəxairul üqba», səh: 77 (ö/t: h: 694); 16. Zəhəbi: «Təzkirətul-huffaz», c: 4, səh 28 (ö/t: h: 748); 17. Bədrəddin Muhəmməd Zərkeşi Misri: «Feyzül qədir», c: 3, səh: 47 (ö/t: h: 749); 18. Hafiz Əli ibn Əbu Bəkr Heysəmi: «Məcməuz-zəvaid», c: 9, səh: 114 (ö/t: h: 807); 19. Dimyeri: "həyatul-heyvan», c: 1, səh: 55 (ö/t: h: 808); 20. Şəmsəddin Muhəmməd ibn Muhəmməd Cəzri: «Əsnal-mətalib», səh: 14 (ö/t: h: 833); 21.

Əsqəlani: «Təhzibut-təhzib», c: 7, səh: 337 (ö/t: h: 852); 22. Bədrəddin Mahmud ibn Əhməd Əyni: «Umdətul-qari», c: 7, səh: 631 (ö/t: h: 855); 23. Müttəqi hindi: «Kənzul-ummal», c: 6, səh: 156 (ö/t: h: 975): 24. Əbdürrauf Mənəvi: «Feyzül-qədir», «Şərhi Camius səğir», c: 3, səh: 46 (ö/t: h: 1031); 25. Hafiz Əli ibn Əhməd Əzizi: «Siracul-munir şərhi Camius-səğir», c: 2, səh: 63 (ö/t: h: 1070); 26. Əbu Səlim Muhəmməd ibn Təlhə: «Mətalibus-süal», səh: 22 (ö/t: h: 652); 27. Xətib Bağdadi: «Tarix», c: 2, səh: 377, c: 4, səh: 348, c: 7, səh: 173 (ö/t: h: 463); 28. Yusif Səbt mən Covzi: «Təzkirətu-Xəvasil umma», səh: 29; 29. Süleyman Bəlxi «Yənabiul-məvəddə», bab: 14 (ö/t: h: 1293); 30. Məhəmməd ibn Əli Səbban: «Əsafur-rağibin», səh: 156 (5/t: h: 1205); 31. Ibn hacer: “Səvaiq», səh: 73 (b/t: h: 974); 32. Ibn Səbbağ: «Fusulul-mühimmə», səh: 18 (ö/t: h: 855); 33. Əllamə Səmhudi: «Cəvahirul-əqdeyn» (ö/1: h: 911); 34.Qazi Fəzl ibn Ruzbəhan: «Ibtalul-batil» (ö/135.); 35.Şəhabəddin Dövlətabadi: «hidayətus-süəda» (ö/t: h:849); 36. Cəmaləddin Ataullah Mühəddis Şirazi: «Ərbəin» (ö/t: h: 1000); 37. Əli Qari həravi: «Mirqad» (ö/th: 1014); 38. həmvini: «Fəraidus-səmteyn» (ö/t: h: 722); 39.Şəvkani: «Fəvaidul-məçmuə» (ö/t: h: 1250); 40. Alusi al-Bağdadi: «Təfsiri Ruhul-məani» (ö/t: h: 1270); 41. İmam Ğəzzali: «İhyaul-Ulum»; 42. Mirseyid Əli Həmədani: Məvəddətul-qurba»; 43. Əbu Muhəmməd Əhməd ibn Muhəmməd Asimi: «Zeynul-Fəta»; 44. Şəmsəddin Muhəmməd ibn Əbdürrəhman Səxavi: «Məqasidul-həsənə» (ö/t: h: 902); 45. Muhəmməd ibn Yusif: «Səblul-huda vər-Rəşad fi əsmai-xeyril İbad» (ö/t: h: 942); 46. Əhməd ibn Hənbəl: «Müsnəd» (ö/t: h: 241); 47. Sədrəddin Seyid Hüseyn Fəyzi

hərəvi: «Nəzhətul-ərvah»; 48. Kəmaləddin Hüseyn: «Şərhi-divan»; 49. Firuzabadi: «Nəqdus-səhih» (ö/t: h:817)...

Xülasə, bir çox alimləriniz öz mötəbər kitablarında bütün xırdalıqları ilə bu mövzunu araşdıraraq, nəql etdiyim hədisin səhih olduğunu rəvayət etmişlər. O cümlədən, h. 658-ci ildə vəfat edən Muhəmməd ibn Yusif «Kifayətut-Talib» kitabının 58-ci babının sonunda sənədiylə Peyğəmbərdən (s) rəvayət etdiyi 3 rəvayətin ardından belə deyir: «Səhabə, tabein və Əhli-beyt (ə) alimləri həzrət Əlinin (ə) fəziləti, elminin çoxluğu, anlayışının kəskinliyi, hikmətinin genişliyi, hökmlərinin gözəlliyi və fitvalarının sihhətini qəbul etmişlər.

Əbu Bəkr, Ömər, Osman və digər səhabələr hökmlərdə Onunla müşavirə edir, ixtilaflarda fikrini qəbul edir və elmini, fəzilətinin çoxluğunu, ağlının üstünlüyünü, hikmətinin düzgünlüyünü etiraf edirdilər. Bu hədis onun haqqında çox böyük bir şey deyildir. Çünki həzrət Əlinin Allah-Təala, Rəsuli-əkrəm və mömin bəndələrinin yanındakı məqamı bundan daha böyük və daha ucadır».

İmam Əhməd ibn Muhəmməd ibn Siddiq Məğribi bu hədisin sihhəti haqqında «Fəthül-mülkil Əli bi-sihhəti-hədisi-babi-Mədinətil elmi-Əli» adında ayrıca bir kitab yazmışdır və bu kitab h. 1354-cü ildə Misirdə Elamiyyə mətbəəsində nəşr olunmuşdur. Mənim şəxsi kitabxanamda da vardır. Əgər bu mövzuda hələ də qəlbiniz rahat deyilsə, bundan daha çox açıqlama verib fərqli rəvayətlər nəql edə bilərəm».

Əhli-sünnətin fazil və ədiblərindən olan İmam Seyid Ədid Əxtar: «Bir çox rəvayətdə dəfələrlə Peyğəmbərin (s) belə buyurduğunu oxudum: «**Əlinin fəzilətlərini nəql etmək ibadətdir».**

Hətta Mirseyid Əli Həmədani «Məvəddətül-qurba» kitabında Rəsuli-əkrəmdən belə rəvayət edir: **«Hansı məclisdə Əlinin fəzilətləri zikr edilərsə, göydəki mələklər o məclisə diqqət edər və onlar üçün Allahdan rəhmət və məğfirət dilərlər>>.**

Üstəlik, Peyğəmbərdən (s) hədis rəvayət etməyin özü də ibadətdir. Elə buna görə də, Rəsulallahdan (s) daha geniş bir neçə rəvayət nəql edərək, bu məclisi daha bərəkətli hala gətirməyiniz lazımdır».

## «MƏN HİKMƏT EVİYƏM» HƏDİSİNİN BƏYANI

**Dəvətçi**:«İmam Əhməd ibn Hənbəl «Mənaqibi-müsnəd", Hakim «Müstədrək», Muhəmməd ibn Səban «Əsafur-rağibin», İbn Məğazeli «Mənaqib», Siyyuti «Camius-səğir» və «Lə-Alil-Məsnuə>>, Muhəmməd ibn Təlhə «Mətalibus-süal», Şeyx Süleyman Bəlxi «Yənabiul-Məvəddə», Muhəmməd ibn Yusif «Kifayətut-Talib», Səbt ibn Covzi «Təzkirə», Təbəri «Riyazun-nəzrə», Həmvini «Fəraidus səmteyn», Ibn Səbbağ «Fusulul-mühimmə», Ibn Əbil-hədid Mötəzili «Şərhi-Nəhcül-bəlağə»də və həmçinin, Mövla Əli Müttəqi «Kənzul ümmal»ın 6-cı cildinin 401-ci səhifəsində, Hafiz Əbu Nəim İsfahani «Hilyətül-

övliya»nın 1-ci cildinin, 64-cü səhifəsində, Tirmizi «Səhih»in 2-ci cildinin 214-cü səhifəsində, İbn Həcar «Səvaiq»in 9-cu babının 2-ci fəslinin 75-ci səhifəsində və digər bir çox alimləriniz səhih olaraq Peyğəmbərdən (s) belə rəvayət etmişlər: **«Mən hikmət eviyəm, Əli də onun qapısıdır; hikmət istəyən qapıdan gəlməlidir"**

Muhəmməd ibn Yusif «Kifayətut-Talib» kitabının 21-ci babını bu hədis üçün ayırmışdır. Sözü gedən rəvayətin sənədini zikr etdikdən sonra nəzərini belə bildirmişdir: «Bu, olduqca uca və gözəl bir hədisdir. Allah-Təala Peyğəmbərə (s) öyrətdiyi hikmət, əşyanın fəlsəfəsi, əmr, nəhy, halal və haramın bəyanını həzrət Əliyə də ehsan etmişdir. Bu səbəbdən Əlinin (ə) hikmət qapısı olduğunu və həqiqətləri kəşf etmək üçün Ona müraciət edilməsini əmr etmişdir».

İbn Məğazeli «Mənaqib», İbn Əsakir «Tarix» (öz ustadlarından hədisin yollarını zikr edərək), Xətib Xarəzmi «Mənaqib», Həmvini «Fəraid» və Deyləmi «Firdovs» kitabında, həmçinin Muhəmməd ibn Yusif «Kifayətut-Talib»in 58-ci və Şeyx Süleyman Bəlxi «Yənabiul məvəddə»nin 14-cü babında və digər bir çox alimləriniz İbn Abbas və Cabir ibn Abdullahdan nəqlən belə rəvayət etmişlər: **«Peyğəmbər(s) Əlinin (ə) çiynindən tutaraq belə buyurdu: «Bu, yaxşı insanların əmiri və kafirləri öldürən kimsədir. Ona yardım edənə yardım edilər, onu yardımsız qoyan yardımsız qoyular».**

Peyğəmbər (s) daha sonra səsini yüksəldərək belə buyurdu: **«Mən elm şəhəriyəm və Əli də onun qapısıdır; elm istəyən qapıdan gəlməlidir!>**>.

Şafei de Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: **«Mən elm şəhəriyəm, Əli də onun qapısıdır; evlərə, ancaq qapısından girilər!».**

«Mənaqibi-Faxirə» kitabının müəllifi İbn Abbasdan belə rəvayət etmişdir: «**Mən elm şəhəriyəm və Əli də onun qapısıdır; elm istəyən qapıdan gəlməlidir; din elmini istəyən o qapıdan gəlməlidir.Mən elm şəhəriyəm. Ey Əli sən də onun qapısısan. Sən olmadan mənə yetişəcəyini sanan yalançıdır».**

İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin bir çox yerində, Həmvini «Fəraidis-səmteyn»də (Ibn Abbasdan), Xarəzmi «Mənaqib»də (Əmr ibn Asdan), İmamul-hərəm Əhməd ibn Abdullah «Zəxairul-üqba»da, Imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Mirseyid Əli Həmədani «Məvəddətül-qurba"da, hətta mütəəssib İbn Hacər «Səvaiq»in 9-cu babının 2-ci fəslinin 75-ci səhifəsində (Həzrət Əlinin (ə) fəzilətləri haqqında Bəzzazdan rəvayət etdiyi 40 hədisdən 9 cusunda) və Təbərani «Əvsət"də Cabir ibn Abdullahdan, İbn Ədiy Abdullah ibn Ömərdən, Hakim və Tirmizi də Həzrət Əlidən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər:<**<Mən elm şəhəriyəm, Əli də qapısı; elm istəyən qapıdan gəlməlidir!>>**

Daha sonra «Mənaqibi-Faxirə»nin müəllifi bu hədis haqqında belə deyir: «Dardüşüncəli insanlar bu hədis haqqında

ixtilafa düşmüşdür; İbn Cəvzi və Nəvavi kimi alimlər bunun uydurma olduğunu bəyan etmişdir. Amma nəzərimizdə sözü bir sənəd olan «Müstədrək" in müəllifi bu sözləri eşitdikdə: «Bu hədis səhihdir!>> demişdir».

Mövzumuzla məclisin vaxtını almamaq üçün mötəbər kitablarınızda nəql edilən saysız-hesabsız rəvayətlərdən bu qədəri ilə kifayətlənirəm. Bu hədisdəki «əl-elm»kəlməsindəki «əlif lam>> ədatı cinsi ifadə edir. Yəni zahirən və batinən, surətən və mənən elm cinsindən olan hər şey Peyğəmbərin (s) yanında idi və bütün bu elmlərin qapısı da Əmirəl-möminin imam Əlidir (ə).

Mərhum Əllamə Mirseyid Həmid Hüseyn Dehləvi hər cildi «Səhihi-Buxari», hətta ondan da çox olan «Ibaqatul-ənvar» kitabının iki cildini bu hədisin sənədi və səhhəti haqqında qələmə almışdır. Hal hazırda sənədini xatırlamıram. Amma əhlli-sünnət alimləri adından bu hədisi mütəvatir saymışdır. Hər dəfə bu kitabı oxuyanda o alimə Allahdan rəhmət diləyirəm; çox böyük zəhmət çəkmişdir və olduqca dərin düşüncəli bir alimdir.

Ağalar, zəhmət olmasa, bu kitabı mütaliə edin və beləcə, Həzrət Əlinin (ə) səhabə arasında münhəsir[53] bir fərd olduğunu anlayın. Həzrət Əlinin Peyğəmbərdən (s) sonrakı xilafətini isbat edən dəlillərdən biri də bu məzkur (zikr olunan) hədisdir. Çünki,

---

[53] fəzilətlərin yalnız ona aid olduğu anlamındadır

əql va nəqlə əsasən, hər qövmün alimləri cahillərdən üstünlük və birincilik haqqına sahibdir. Xüsusilə də, Rəsuli-əkrəm burada ümmətinə elmindən istifadə etmək istəyənləri İmam Əlinin (ə) evinin qapısına getmələrini əmr edir. Peyğəmbərin (s) bilavasitə açdığı bu elm qapısını bağlayıb, elmi mərtəbələrə sahib olmayan başqa qapıları açmaq insafa sığarmı?»

**Şeyx:**«Bu hədis haqqında alimlərimizin ətraflı şəkildə araşdırma apardığı doğrudur.Bəzilərinə görə səhih, bəzilərinə görə xəbəri-vahid və digərlərinə görə mütəvatirdir. Bəs bunun Həzrət Əlinin (r.ə) qeyb elmini bilməsilə nə əlaqəsi var?»

## HƏZRƏT ƏLİ (Ə) QEYB ELMİNİ, QURANIN ZAHİR Və BATİNİNİ BİLİRDİ

**Dəvətçi**: «Dediklərimə diqqət etmirsiniz. Daha əvvəl də bəyan etdiyim;**«O, bütün görülməyənləri bilir. Sirlərini heç kimə öyrətməz; ancaq istədiyi peyğəmbərdən başqa»** ayəsinin hökmünə əsasən Həzrət Muhəmməd (s), Allahın razı olduğu və seçdiyi bir kəsdir. Peyğəmbərin (s) gözündən o pərdə qaldırılmış və Ona qeybi elmlər verilmişdir. Məhz bu səbəbdən Rəsulallaha verilən bu qeyb elmi və gücü sayəsində bütün işlərin həqiqətini bilirdi. Şiə və sünni alimlərinin ittifaqla qəbul etdiyi kimi, Peyğəmbər belə buyurmuşdur: **«Mən elmin şəhəriyəm, Əli də onun qapısı».**

Bu elm şəhərində var olan bütün elmlərdən, elm qapısı olan Həzrət Əli vasitəsi ilə istifadə edilə bilər. Həzrət Əli də

sirləri və zahiri bildiyi kimi, batini də bilirdi. Çünki Əhli-beytin (ə) elminin təməli Qurandır. Kitabi-müqəddəsin elmlərinin zahir və batinini Peyğəmbərdən (s) sonra bilən Əmirəl-möminin İmam Əlidir. Öz alimləriniz də bunu açıq-aşkar təsdiq etmişlər. Məsələn: Hafiz Əbu Nəim İsfahani «Hilyətül-övliya»nın 1-ci cildinin 65-ci səhifəsində, Muhəmməd ibn Yusif «Kifayətut-Talib»in 74-cü babında və Süleyman Bəlxi «Yənabiul-məvəddə»nin 14-cü babının 74-cü səhifəsində «Fəzlül-xitab»dan sənədiylə Abdullah ibn Məsuddan belə rəvayət edir: «**Quran yeddi hərf üzrə nazil olmuşdur. Hər hərfin bir zahiri, bir də batini vardır. Zahir və batin elmi isə Həzrət Əlinin (ə) yanındadır».**

## PEYĞƏMBƏR (S) ELMDƏN MİN QAPI HƏZRƏT ƏLİNİN ÜZÜNƏ AÇDI

Öz alimləriniz də mötəbər kitablarınızda Həzrət Əlinin (ə) qeybi elmlərə sahib və Peyğəmbərdən (s) sonra Allahın seçdiyi bir şəxs olduğunu təsdiq etmişlər. Məsələn: İmam Ğəzzali «Bəyani elmi lədunni» kitabında Həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət edir: **«Peyğəmbər dilini ağzıma qoydu və mənə onun ağzının suyundan min elm qapısı açıldı.Hər qapıdan dan qapı açıldı>>.**

Suleyman Bəlxi «Yənabiül-məvəddə» kitabının 14-cü babının 77-ci səhifəsində Əsbəğ ibn Nəbatədən belə rəvayət edir: «Həzrət Əli (ə) belə buyururdu: **«Rəsulallah üzümə min qapı açdı, hər qapıdan da min qapı açıldı. Beləcə, minlərlə**

**qapı oldu. Keçmiş və Qiyamətə qədər gələcək hər şeyi bildim. Bundan başqa, mənə ölümlər, bəlalar və Fəslül-xitab[54] elmi verildi.**

Eyni babda İbn Məğazəlidən sənədilə Əbu Sabahdan, o da İbn Abbasdan Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: «**Merac gecəsi Allah-Təalaya yaxınlaşdıqda, mənimlə pıçıltı ilə danışdı. Ondan öyrəndiklərimi Əliyə öyrətdim; buna görə Əli mənim elmimin qapısıdır».**

Bu rəvayəti Müvəffəq ibn Əhməd Xarəzmidən belə rəvayət edir: «**Cəbrayıl yanıma Cənnətdən bir kilimlə gəldi. Üzərinə oturdum.Allahın hüzuruna yetişdikdə, Allah-Təala mənimlə danışdı və mənimlə pıçıldadı. Allahdan öyrəndiyimi Əliyə öyrətdim.O, mənim elmimin qapısıdır».**

Sonra Əlini (ə) çağıraraq belə buyurdu:**«Ey Əli! Səninlə sülh mənimlə sülhdür; səninlə savaşmaq mənimlə savaşmaqdır; Mənimlə ümmət arasındakı elm sənsən».**

Bu babda böyük alimlərinizdən bir çox rəvayət nəql edilir.Məsələn: Əhməd ibn Hənbəl, Muhəmməd ibn Təlhə, Xarəzmi, Ğəzzali, Siyyuti, Sələbi, Mirseyid Əli Həmədaní və digərləri fərqli təbirlərlə Peyğəmbərdən (s) Həzrət Əliyə (ə) min

---

[54] Son qəti qərar və ya haqq və batili ayıran söz, yaxud övliyaya məxsus olan insan və ya heyvanların dilini bilmə elmi

elm qapısı və hər qapıdan da min qapı açıldığını və bunları Əmirəl-mömininin qəlbinə əmanət qoyulduğunu rəvayət etmişlər.

Həmçinin, Hafiz Əbu Nəim İsfahani «Hilyətül-övliya-da, Mövla Əli Müttəqi «Kənzul-ummal»>in 6-cı cildinin 392-ci səhifəsində, Əbu Yəla Kamil ibn Təlhədən, o da İbn Ləhyiə, o da Həyy ibn Əbduməğafiridən, o da Əbu Əbdurrəhman Həbladan, o da Abdullah ibn Ömərdən Peyğəmbərin (s) son nəfəsində - xəstəliyinin şiddətləndikdə belə buyurduğunu rəvayət edir:**«Qardaşımı çağırın mənim yanıma». Əbu Bəkr gəldi. Rəsulallah ondan üz çevirdi. Yenə: «Qardaşımı çağırın mənim yanıma»buyurdu. Ardınca Osman gəldi, ondan da üz çevirdi. Sonra Əlini (ə) çağırdılar. Əli gəldikdə Peyğəmbər (s) onu örtüyü ilə örtdü, Ona tərəf əyildi. Yanından çıxdıqda Həzrət Əlidən soruşdular: «Ey Əli, Peyğəmbər sənə nə buyurdu?».Həzrət Əli (ə) cavabında belə buyurdu: «Rəsulallah mənə hər birindən min qapı açılan min elm qapısı öyrətdi>>.**

H.430-cu ildə vəfat edən Əbu Nəim İsfahani «Hilyətül övliya»nın 1-ci cildinin 65-ci səhifəsində («<Fəzailu-Əli>də), Muhəmməd Cəzri «Əsnəl-mətalib»in 14-cü səhifəsində, Muhəmməd ibn Yusif Gənci «<Kifayəut-talib»in 48-ci babında Əhməd ibn İmran ibn Sələmə ibn Abdullahdan sənədilə, belə rəvayət etmişdir: **«Biz də Peyğəmbərin yanında idik. Əli (ə) haqqında soruşulduqda belə buyurdu: «<Hikmət 10 bölümə ayrılmışdır; 9 bölümü Əliyə verilmişdir; bir bölümü də bütün insanlara əta edilmişdir»**.

Əbul-Muəyyid Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»də, Müttəqi «Kənzul-ummal»in 5-ci cildinin 156 və 401-ci səhifələrində bir çox alimlərinizdən və həmçinin Ibn Məğazəli«Fəzail»də, Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 14-cü babında eyni sənədlərlə vəhy katibi Abdullah ibn Məsuddan, Muhəmməd ibn Təlhə «Mətalibüs-süal»ın 21-ci səhifəsində Hilyədən, o da Əlqəmə ibn Abdullahdan, Həzrət Əli haqqında soruşulduqda Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: **«Hikmət 10 yerə bölünmüşdür, Əliyə 9u, digər bütün insanlara isə bir bölümü verilmişdir. Əli o bir qisimdə də hər kəsdən daha elmlidir».**

Həmçinin, «Yənabiül-məvəddə»də eyni babda Tirmizinin <<Fəthul-mubin» kitabından nəqlən Abdullah ibn Abbasdan belə rəvayət edir: **«Elm 10 bölümdür; 9 bölümü Əliyə, digər insanlara isə axırıncı bir bölümü verilmişdir. Əli o bölümdə də insanların ən biliklisidir»**.

Müttəqi Hindi «Kənzul-ümmal»>ın 6-cı cildinin 153-cü səhifəsində, Xətib Xarəzmi «Mənaqib»in 49-cu və «Məqtəlul Hüseyn»in 1-ci cildinin 43-cü səhifəsində, Deyləmi «Firdovsul-əxbar»da və Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 14-cü babında Rəsulallahdan (s) belə rəvayət edir: **«Məndən sonra ümmətin ən alimi Əlidir**».

Bütün bu hədislərdən anlaşıldığı kimi, Peyğəmbər (s) Allahın seçdiyi bir qul olaraq qeybi bilir və Allahdan aldığı batin və zahir elmini Əliyə (ə) öyrədirdi. Biz də həzrət Əli və digər on bir imamın Xatəmül-ənbiya kimi Allahla birbaşa bir irtibatının

olduğunu söyləmir, lakin qəti olaraq onların Peyğəmbərdən feyz aldığını bəyan edirik. Sağlığında və ölümündə bütün varlıqlara verilən feyzlər Rəsulallah vasitəsilə Allah-Təala tərəfindən verilmişdir.

Əlbəttə, keçmiş və gələcəklə əlaqəli əhəmiyyətli xəbərlər Peyğəmbər (s) həyatda ikən Allah-Təala tərəfindən Ona bildirilir, o Həzrət də bunlardan bəzisini həyatda ikən Əliyə (ə) öyrədirdi.

Xəzinəsində olan elminin hamısını bu dünyadan getmak ərəfəsində ikən Həzrət Əli üçün əmanət qoymuşdur. Bu mövzuda bir çox mötəbər alimlərinizin kitablarından saysız-hesabsız hədis rəvayət edilir. Bunlardan bəzisini əvvəldən qeyd etdim. Hətta alimləriniz Aişənin belə dediyini rəvayət edirlər: **«Peyğəmbər Əlini çağırdı, onu köksünə dayadı, üzərinə örtüyü çəkdi. Mən də başımı yaxınlaşdırdım. Nə qədər dinlədimsə, bir şey anlamadım. Əli bir müddət sonra başını qaldırdıqda alnından tər axdığını gördüm.Ey Əli, Peyğəmbər sənə nə buyurdu»,-deyə soruşduqda, dedi: «Rəsulallah mənə hər qapısından min qapı açılan min elm qapısını öyrətdi».**

Əvvəlki gecələr də qeyd etdiyim kimi, Rəsuli-Əkrəm (s) Qüreyşin böyükləri və əmilərini risaləti təbliğ etmək üçün 40 nəfəri Əbu Talibin (ə) evinə dəvət etmişdi. Orada Həzrət Əli Peyğəmbərə (s) ilk iman edən şəxs idi. Peyğəmbər Onu qucağına götürüb, ağzına öz ağzının suyunu sürtdü. Bu mövzuda Həzrət Əli buyurmu**şdur: «O an qəlbimə elm çeşmələri axdı>>.**

Alimlərinizin rəvayət etdiyi kimi, Həzrət Əli (ə) bir xütbəsində buna işarə edərək belə buyurmuşdur: **«Məni itirmədən əvvəl soruşun;çünki sinəm elmlə doludur>>>**

Sonra sinəsinə işarə edərək «Bu sinəm elmlə doludur. **Bu, Peyğəmbərin həmin ağız suyudur. Bu, Rəsulallahın mənə yedirtdiyi elm dənələridir»-**demişdir.

Həzrət Peyğəmbər (s) son nəfəsinə qədər Allahdan aldığı Rəbbani feyzləri Imam Əlinin qəlbinə axıtmışdır. Ibn Səbbağ «Fusulul-mühimmə» kitabında belə deyir: **«Peyğəmbər (s) Həzrət Əlini, uşaqlığından bəri elm və əməl baxımından məhəbbətlə dolu qucağında böyütmüşdü>>.**

## «CƏFRİ-CAMİƏ» KİTABI HAQQINDA

Allah-Təala tərəfindən Peyğəmbər (s) vasitəsilə Əliyə (ə) verilən rəhmani feyzlərdən biri də Qiyamətə qədər baş verəcək hadisələr rəmzi hərflərlə işarə edilmiş «Cəfri-Camiə» (Kamil Cəfr elmi) kitabıdır. Alimləriniz də bu kitabın Həzrət Əli (ə) və digər Əhli-beyt (ə) imamlarına məxsus olduğunu etiraf etmişlər:

Ğəzzali deyir: «Həzrət Əlinin (ə) «Cəfru məscidid-dünya vəl axirə>> adında bir kitabı var idi. Bu kitabda bütün elmlər, aşkar həqiqətlər, sirlər, qeyblər, əşyanın xüsusiyyətləri, aləmdəki təsirlər, isimlərin və hərflərin xüsusiyyətləri yazılmışdır. Bu kitabı, Həzrət Əli (ə) və Peyğəmbər (s) tərəfindən vilayət və imamət məqamına təyin edilən 11

övladından başqa heç kəs bilmir. Bu kitab onlara miras qalmışdır».

Süleyman Bəlxi «Yənabi»nin 403-cü səhifəsində Muhəmməd ibn Təlhənin «Dürrül-munəzzəm» kitabından bu mövzuda geniş şərh vermişdir: «Cəfri-Camiə» kitabı Həzrət Əliyə (ə) xas elmi açarların yazıldığı 1700 səhifədən ibarətdir. Bu səbəbdən məşhur şair Həzrət Əliyə (ə) aid belə deyir: «Ondan başqa «Cəfri-Camiə»ni bilən kim ola bilər? Bu kitabda qeybi sirlər mövcuddur».

<<Tarixi-Nikaristan»ın müəllifi «Şərhi-Məvaqif» dən belə nəql edir: «Cəfr» və «Camiə>> kitabı Əliyə (ə) məxsusdur. Bu iki kitabda hərf elmi yoluyla Qiyamətə qədər olacaq hadisələr yer almışdır. Həzrət Əlinin (ə) övladları da onunla hökm edirdilər». (Yəni bu rəmzli kitabın açarı, hadisədərdən xəbər verən Həzrət Əli və övladlarının (ə) ixtiyarındadır)>>

**Nəvvab:** «Qibləsahib! Bizim alimlərimizin də təsdiq etdiyini söylədiyiniz «Cəfr» kitabı nədir və necədir? Zəhmət olmasa, açıqlayın.»

**Dəvətçi:** «Vaxtımız az olduğu üçün bu elm və kitab haqqında geniş danışmaq imkanında deyiləm>>.

**Nəvvab**: «Mümkün olduğu qədər, qısa da olsa izah edin».

**Dəvətçi:** «Hicri 10-cu ildə Vida həccindən qayıdarkən Cəbrayıl nazil olaraq Peyğəmbərə (s) vəfat edəcəyini xəbər

verdi. Rəsulallah (s) əllərini qaldıraraq dua etdi: «**Allahım, mənə vəd etdin və Sən, əsla, vədindən dönməzsən».**

Sonra Peyğəmbərə belə İlahi bir xitab gəldi**: «Əlini götürüb Ühüd dağına çıx, arxanı qibləyə dönərək otur. Çöldəki heyvanları çağır, hamısı sənə cavab verəcək. Onların arasında qırmızı rəngli, kiçik buynuzlu, böyük bir keçi vardır. O yuxarı gələr. Əliyə onu kəsməsini, boyun tərəfindən dərisini üzməsini və dabbaqlamasını əmr et. O zaman Cəbrayıl yanına gələcək, mürəkkəbqabı, qələm və yer üzündəkilərə bənzəməyən bir mürəkkəb gətirəcək. Cəbrayılın dediyi hər şeyi Əliyə yazmasını öyrət. O yazı və dəri əbədi qalacaq, əsla, çürüməyəcək və qorunacaqdır. Onu hər açdıqda təzələnəcək»**.

Peyğəmbər (s) deyildiyi kimi Ühüd dağına çıxdı, lazım olanı etdi. Sonra Cəbrayıl nazil olaraq, mürəkkəbqabı və qələmi gətirib Rəsulallaha verdi. O Həzrət də onları Əliyə verib, yazmasını istədi.

Cəbrayıl Allah-Təala tərəfindən olmuş və olacaq hər şeyi Peyğəmbərə, O da Əliyə (ə) bəyan edirdi. Imam onları həmin dərinin üzərinə yazırdı. Dərinin hər tərəfi yazı ilə doldu. Beləcə, o kitabda Qiyamətə qədər olmuş və olacaq hər şey yazıldı. Hətta onların övladlarının dost və düşmənlərinin adı belə yazıldı. Bütün insanların başına gələcəklər o kitaba qeyd edilmişdir.

Peyğəmbər (s) daha sonra dərini Əliyə (ə) verdi və o, vərasət, vilayət və imamət parçalarından biri sayıldı. Hər imam dünyadan köçdükdə onu özündən sonrakı imama verdi. Bax, bu kitab Ğəzzalinin: «Cəfri-Camiə» kitabı Əli və övladlarına məxsusdur. Bu kitabda ölümlər, bəlalar, hökmlər və bütün dillər yazılmışdır» dediyi kitabdır».

**Nəvvab**: «Necə olur ki, bu qədər hadisə və elmlər bir keçinin dərisinə sığışa bilir?>>>

**Dəvətçi**: «Əvvəla; xəbərdən də anlaşıldığı kimi, bu keçi adi bir keçi deyildi; məhz bu iş üçün yaradılmışdı.

İkincisi; bu, kitabların yazı formasında deyil, rəmzi hərflərlə yazılmışdı. Bu səbəbdən «Tarix-Nikaristan»ın müəllifi «Şərhi Məvagif»dən nəqlən belə deyir: «Bu iki kitab hərf elmilə yazılmışdır».

Bu simvollarin kilid və açarını Peyğəmbər (s) Əliyə (ə), o Həzrət də Rəsuli-əkrəmin (s) əmrinə əsasən, özündən sonrakı imamlara əmanət etmişdir.

Bu açarlar kimin əlində olarsa, o kitabdan sirləri və hadisələri öyrənə bilər. Şifrələrə sahib olmayan onu aça bilməz. Bu səbəbdən günümüzdə də bir çox yazılar şifrəylə göndərilir. Belə ki, o yazıların şifrəsini bilməyənlər, əsla, həmin yazını anlamazlar. Daha doğrusu, Həzrət Əli (ə) və övladlarından başqa heç kim o kitabdan istifadə edə bilməz. Bu səbəbdən həzrət Əli bütün övladlarının toplandığı bir yerdə həmin dərini

oğlu Muhəmməd Hənəfiyyəyə verdi. O, çox alim və savadlı olmasına baxmayaraq, oxuya bilmədi."[55]

Imamlar, xəbər verdiyi bir çox əhəmiyyətli hadisələri o kitabdan deyirdilər. O kitab vasitəsilə işləri ən incə təfərrüatına qədər bilir, Əhli beytə (ə) və şiələrə nazil olan bəla və

[55] Həzrət Əli (ə) sahib olduğu bu Ilahi elmi ilə özundən sonra bəzilərinin Muhəmməd ibn Hənəfiyyənin imamətinə inanacaqlarını bilirdi. Elə bu səbəbdən bu vəsiləylə onun imamətə layiq olmadığını göstərmək istəmişdi.Çünki əgər imamət məqamına sahib olmuş olsaydı,o "Cəfri-Camiə» kitabının şifrələrini bilməli idi.

yetişmək mövzusunda müvəffəq etsin) başqalarının inkar etdiyi haqqımızı tanıdı. Başqalarının kəsdiyi bağı o bərpa etdi.Başqalarının ölümlə təhdid etdiyi nəfslərə o, əminiyyət verdi. Yoxluq dərəcəsinə gələn kəsləri diriltdi. Fəqir və möhtacları zəngin etdi. Allah-Təala şükür edənlərin mükafatını verəcək və yaxşıların əcrini zay etməyəcək! Əgər mən ondan sonra həyatda qalaramsa, məni vəliəhdliyə təyin etdi. Amma «Cəfr» və «Camiə» kitabları bunun əksini hökm edir. (Yəni mən ondan sonra həyatda qalmayacağam.) Zaman mənə və sizə nə edəcək bilmirəm. Hökm, sadəcə Allah-Təalaya məxsusdur. Allah-Təala insanlar arasında haqq üzrə hökm verəcəkdir».

müsibətləri o kitabdan çıxarırdılar.Bu səbəbdən hədis kitablarında bu ətraflı şəkildə qeyd edilmişdir.

O cümlədən «Şərhi-Məvaqif»də Məmun və Imam Rza (ə) arasında imzalanan bir əhdnamə yer almışdır ki, Məmun 6 ay ərzində məktublaşma yolu və təhdid ilə İmam Rzanı, onun vəliəhdliyini qəbul etmək məcburiyyətində qoymuşdu. Məmun özündən sonra xilafətin imam Rzaya keçəcəyi barədə bir əhdnamə imzalamışdı.

Əhdnamə Həzrət Rza üçün imzalanmağa gətirildikdə İmam aşağıda qeyd olunan bu şərti qoyduqdan sonra əhdnaməni imzaladı: **«Mən- Musa ibn Rza deyirəm ki, Məmun (Allah-Təala onu şəriətin gücləndirilməsi,irşad və doğru yola**

Təftəzani «Şərhi Məqasidid-Talibin fi ilmi-usuliddin» kitabında İmamın əhdnamədə olan «Cəfri-Camia» cumləsinə işarə edir.Yəni «Cəfri-Camiə», Məmunun öz əhdinə vəfa göstərməyəcəyini bəyan edir. Bu səbəbdən də elə oldu. Peyğəmbərin (s) övladı və bir parçası olan imam Rzanı(ə) zəhərlədilər. Beləcə, imam Rzanın elminin həqiqəti aşkar oldu və hər kəs Onun zahir və batin elminə sahib olduğunu anladı>>

## CƏBRAYILIN MÖHÜRLƏNMİŞ KİTABI RƏSULALLAHIN VƏSİSİ ƏMİRƏL MÖMİNİN ƏLİ ÜÇÜN GƏTİRMƏSİ

Peyğəmbər (s) vasitəsilə Əliyə (ə) çatan feyz yollarından biri də, Cəbrayılın Həzrət Əli üçün gətirdiyi möhürlənmiş

kitabdır. Bu səbəbdən hər iki firqənin qəbul etdiyi muhəqqiq Əbül-Həsən Əli ibn Hüseyn əl-Məsudi «Isbatul-vəsiyyə» kitabının 92-ci səhifəsində belə rəvayət edir: «Allah-Təala göydən yazılı bir kitab endirdi. Cəbrayıl bu kitabı əmin mələklərlə Peyğəmbərə (s) endirdi. Cəbrayıl Rəsulallahın yanına gəlib, belə ərz etdi: «**Vəsiyindən başqa məclisdə olan hər kəs, vəsiyyət kitabını sizə təqdim etməyim üçün bayıra çıxsın».**

Peyğəmbər Əli, Fatimə, Həsən və Hüseyndən (Allahın salamı olsun onlara) başqa hər kəsə bayıra çıxmasını əmr etdi. Cəbrayıl sonra belə dedi: «**Ya Rəsulallah, Allahın sənə salamı var; buyurur: «Bu səninlə anlaşdığım və mələklərin də şahidlik etdiyi bir anlaşmadır. Allah da şahid olaraq yetər**».

Bunu eşidən Peyğəmbər (s) titrəyərək buyurdu: «**O, Salamdır, salam Ondandır və salam Ona qayıdar».**

Sonra kitabı Cəbrayıldan alıb, Həzrət Əliyə verdi. Oxuduqdan sonra buyurdu:<<**Bu Rəbbimin mənə göndərdiyi bir qərar və Onun bir əmanətidir. Mən də Onun bəyanının haqqını əda etdim».**

Əmirəl-möminin buyurdu: «**Anam, atam sənə fəda olsun. Mən də buyurduqlarının doğruluğuna, nəsihətlərinə və təbliğinə şahidlik edirəm. Buna qulağım, gözüm, ətim və qanım da şəhadət verir».**

Peyğəmbər (s), Əliyə (ə) belə buyurdu: **«Bu Allahdan gələn vəsiyyətimdir. Onu məndən qəbul et. Allah-Təala və**

**mənim üçün zəmanət ver. Ona vəfalı olmaq mənim vəzifəmdir».**

Həzrət Əli (ə) belə ərz etdi: «**Zəmanət verməyi qəbul edirəm və Allah-Təala da mənə yardım edəcəkdir».**

O kitabda Həzrət Əli (ə) üçün belə şərt qoyulmuşdu: Allahın dostlarıyla dost olmaq, Allahın düşmənlərilə düşmən olmaq və onlardan uzaq olmaq. Zülmə, qəzəbə, haqqının alınmasına, xumsun mənimsənilməsinə, hörmətinin tapdanmasına və saqqalının, başının qanına boyanmasına görə səbir etmək».

Həzrət Əli (ə) belə dedi: «**Qəbul etdim, razı oldum. Əgər hörmətim tapdalanarsa, sünnəti aradan apararlarsa, Kitabın hökmlərini yox edib, Kəbəni dağıdıb və saqqalımı başımın qanıyla boyayarlarsa, yenə də səbir edəcəyəm».**

Sonra Cəbrayıl, Mikayıl və müqərrəb mələkləri Həzrət Əliyə (ə) şahid tutdu. Əmirəl-mömininə bildirdiyini Həsən, Hüseyn və Fatiməyə də bildirdi. Bütün hadisələri onlara da çatdırdı. Daha sonra od görməmiş qızıl möhürlərlə o vəsiyyətnaməni möhürləyib Əliyə (ə) verdi. Bu vəsiyyətnamədə Allahın və Rəsulallahın (s) sünnətləri, müxaliflərə, dini dəyişdirənlərə və əmrləri təhrif edənlərə müxalifət, istisnasız hər şey və bütün hadisələr yazılmışdı. Bu, Rəsulallah (s) ilə Əli arasında bir sirdir. Bu səbəbdən Quran da

bu mövzuda açıq-aydın: «...**hər şeyi aşkar bir imamda (Əli ibn Əbu Talibdə) toplamışıq» deyə buyurur.**[56]

Xülasə, Həzrət Əli (ə) və Onun nəslindən gələn pak imamlar hər şeylərini Peyğəmbərdən (s) alıblar. Rəsulallahın bütün elmləri onlardadir. Əks təqdirdə, Həzrət Əlini elm qapısı olaraq tanıtmaz və elm öyrənmək üçün Onun qapısına gedilməsini əmr etməzdi!

Əgər Həzrət Əli (ə) Peyğəmbərdə olan bütün uca elmlərə sahib olmasaydı, dost və düşmən qarşısında **«Məni itirmədən istədiyiniz hər şeyi soruşun**»,-deyə fəryad etməzdi. Şiə və sünninin birgə rəyi də budur ki, Ondan başqa heç kim **«İstədiyinizi məndən soruşun>>**,-deyə fəryad etməmişdir. Bu, Həzrət Əliyə(ə) xas bir məqamdır. İnsanların zahir və batini elmləri haqqındakı bütün suallarına cavablar vermişdir. Ondan başqa belə bir iddiada olanlar rəzil və rüsvay olmuşlar.

Bu səbəbdən Hafiz ibn Əbdülbirr Əndəlusi «İstiab fi mərifətil əshab"kitabında belə deyir**: «Məni itirmədən soruşun»**sözünü iftiraçı və yalançılardan başqa heç kim söyləməmişdir. Bu söz, yalnız və yalnız Həzrət Əliyə (ə) məxsusdur>>.

Əbül-Abbas Əhməd ibn Xəlləkan əş-Şafei «Vəfəyat»da, Xətib Bağdadi isə «Tarix» kitabının 13-cü cildinin 163-cü səhifəsində belə rəvayət etmişdir: «Əhli-sünnət alimlərindən

---

[56] Yasin, 12

çox hazırcavab olan Məqatil ibn Süleyman: «Ərşin altındakı hər şeyi məndən soruşun" deyə xalqa müraciət etdi. Bir nəfər soruşdu: «Həzrət Adəm Həcc etdikdən sonra saçını qısaltmaq istədikdə onun saçını kim kəsdi?»

Məqatil fikirə getdi, cavab verə bilmədi və susdu. Başqa biri da: «Qarışqa yeməkləri bağırsaqları ilə həzm edir, yoxsa başqa bir orqanıyla? Əgər bağırsaqları vasitəsilə həzm edirsə, bağırsaqlanı bədəninin harasındadır?»

Məqatil yenə təəccüb içində qalıb məcburən belə dedi: «Allah Təala bu sualları ürəyinizə saldı ki, elmimin çoxluğu səbəbilə xudpəsəndliyə qapıldığım və həddimi aşdığım üçün məni rəzil etsin>>.

Şübhəsiz, bu iddianı hər cür suala cavab verə biləcək şəxslər etməlidir. Daha doğrusu, ümmət arasında Həzrət Əlidən (ə) başqa bu məqama heç kəs sahib deyil. Əmirəl-möminin Peyğəmbərin (s) elm qapısı olduğu üçün O da Rəsulallah kimi işlərin zahir və batinini, ilk əvvəldəkilərin və axırdakıların elmlərini bilirdi (Yəni həm özündən əvvəldə olanların, həm də özündən sonrakıların elmlərini bilirdi). Buna görə də **«Məni itirmədən soruşun»**,-deyə fəryad edir, soruşulan bütün suallara asanlıqla cavab verirdi. Səhabədən heç kəs belə deməmişdir. İndi vaxtımız olmadığı üçün hamısına toxunmuruq.

Bu səbəbdən imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Xarəzmi, «Mənaqib»də, Xacə Kəlan Hənəfi «Yənabiül-

məvəddə»də, Bəğəvi «Mücəm»də, Təbəri «Riyazun-nəzrə»nin 2-ci cildinin 198-ci səhifəsində və Ibn Hacər «Səvaiq» kitabının 76-ci səhifəsində Səid ibn Müseyyibdən belə rəvayət edir: «Həzrət Əlidən başqa heç bir səhabə «Məndən soruşun» deməmişdir>>>

## HƏZRƏT ƏLİNİN «MƏNDƏN SORUŞUN» SÖZÜ BARƏSİNDƏ ƏHLİ-SÜNNƏT HƏDİSLƏRİ

Həmçinin, İbn Kəsir «Təfsir»in 4-cü cildində, İbn Əbdülbirr «İstiab»da, Süleyman Bəlxi «Yənabiül-məvəddə»də, Xarəzmi «Mənaqib»də, imam Əhməd «Müsnəd»də, Həmvini «Fəraid»də, İbn Təlhə «Dürrul-mənzum»da, Mirseyid Şafei «Məvəddətül-qurba»da, Hafiz Əbu Nəim İsfahani «Hilyətül-övliya-da, Muhəmməd ibn Təlhə «Mətalibüs-süal>da, İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»ndə və digər alimləriniz öz kitablarında fərqli təbirlərlə müxtəlif yerlərdə Amir ibn Vasilə, İbn Abbas, Əbu Səid əl-Bəhtəri, Ənəs ibn Malik və Abdullah ibn Məsuddan Həzrət Əlinin (ə) minbərdə belə buyurduğunu rəvayət etmişlər: **«Ey insanlar, məni itirmədən məndən soruşun. Bu qəlbimdə hər şeyin elmi vardır. Məndən soruşun, məndə əvvəlin və sonun elmi vardır**».

Əbu Davud «Sünən»in 356-cı səhifəsində, imam Əhməd ibn Hənbəl «Müsnəd»in 1-ci cildinin 278-ci səhifəsində və Buxari «Səhih»in 1-ci cildinin 46-cı səhifəsində və 10-cu cildinin 241-ci səhifəsində sənədi ilə Həzrət Əlinin (ə) belə

buyurduğunu rəvayət etmişdir: **«Məndən istədiyiniz şeyi soruşun. Soruşduğunuz hər şeyin cavabını verərəm>>.**

Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 14-cü babının 74-cü səhifəsində Xarəzmidən və Həmvini öz sənədilə Əbu Səid Bəhtəridən belə rəvayət edir: «Həzrət Əlini (ə), Kufə məscidində Peyğəmbərin (s) paltarını geymiş, əmmaməsini başına qoymuş əlində qılınc minbərdə oturub belə buyurduğunu gördüm: **«Məni itirmədən məndən soruşun. Şübhəsiz, bu ürəyim elmlə doludur, daxilim elm yatağıdır. Bu, Peyğəmbərin (ağzıma sürtdüyü) ağzının suyudur. Rəsulallah bu yolla, elmin zərrələrin mənə həkk etdirdi. Allah Təalaya and olsun ki, oturub Tövrat əhlinə Tövratla, İncil əhlinə də İncillə hökm versəm və Allah-Təala da o iki kitabı danışdıracaq olsa belə deyərlər: «Əli sizlərə bizimlə haqqına hökm verdi. Siz kitabı oxuyursunuz, amma fikirləşmirsiniz>>**

Həmvini «Fəraid» və Xarəzmi «Mənaqib» kitabında Həzrət Əlinin (ə) minbərdə belə buyurduğunu rəvayət edir: «M**əni itirmədən məndən soruşun. Toxumu yaran və insanları yaradan Allah Təalaya and olsun ki, məndən soruşduğunuz hər ayənin harada nazil olduğunu, gecə ikən, gündüz ikən, hansı məqamda, hansı yolda, hansı çöldə, hansı dağda, mömin haqqındamı, münafiq haqqındamı nazil olduğunu, ümumu ifadə edər, yoxsa xüsusi, sizlərə bu haqda tam şəkildə xəbər verə bilərəm>>.**

İbn Kuvvayi-Xarici qalxıb belə dedi: «Mə**nə «iman gətirib saleh əməl sahiblərinə gəldikdə, xalqın ən xeyirlisi də**

**onlardır»** ayəsini açıqla». Imam buyurdu: **«Onlar biz və bizə tabe olanlardır. Biz də Qiyamətdə alnıaçıqlardan olacağıq. Onlar da üzlərindən tanınacaqlar».**

Həmçinin, imam Əhməd ibn Hənbəl «Müsnəd»də. Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 14-cü babının 74-cü səhifəsində İbn Abbasdan nəqlən Həzrət Əlinin (ə) minbərdə bela buyurduğunu rəvayət edir: **«Məni itirmədən Allahın kitabını məndən soruşun. Hər ayənin harada, nə cür, dağdamı, yumşaq torpaqdamı nazil olduğunu hər kəsdən yaxşı bilirəm. Məndən fitnələri soruşun, hər fitnənin nə zaman qopacağını və onda öldürüləcək kəslərin kim olduğunu bilirəm**>>.

İbn Səd «Təbəqat»da, Əbu Abdullah Muhəmməd ibn Yusif Gənci «Kifayəut-talib»in 52-ci babında (bu babı sözü gedən mövzuya ayırmışdır) və Hafiz Əbu Nəim İsfahani «Hilyətül-övliya»nın 1-ci cildinin 68-ci səhifəsinin 1-ci sətrində sənədi ilə Həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət edir: «**Allah-Təalaya and olsun ki, nazil olan hər ayənin kimin haqqında endiyini, harada endiyini, nəyə görə endiyini bilirəm. Allah-Təala mənə bir qəlb, kamil ağıl və danışan bir dil verdi**».

Eyni kitablarda İmamdan belə rəvayət edilmişdir: **«Məndən Allahın kitabını soruşun; nazil olmuş hər ayənin gecə, yoxsa gündüz, yumşaq torpağa, yoxsa sərt dağlara endiyini bilirəm>>**.

Xarəzmi «Mənaqib»də Əməşdən, o da İbayə ibn Rəbidən Həzrət Əlinin (ə) dəfələrlə belə buyurduğunu rəvayət edir:

**«Məni itirmədən məndən soruşun. Allah-Təalaya and olsun ki, mən bitkili-bitkisiz hər torpağı, Qiyamətə qədər yüz insanı azdıran və ya yüz insanı doğru yola çatdıran hər cəmiyyətin rəhbərini, sövq edənini və çağıranını hər kəsdən çox bilirəm».**

Siyyuti «Tarixul-xüləfa»nın 124-cü səhifəsində, Bədruddin Hənəfi «Umdətul-qari»də, Təbəri «Riyazun-nəzrə»nin 2-ci cildinin 198-ci səhifəsində, Suyyuti «Təfsiri-Itqan»ın 2-ci cildinin 319-cu səhifəsində, Əsqəlani «Fəthul-bari»nin 8-ci cildinin 485-ci səhifəsində və «Təhzibut-təhzib»in 7-ci cildinin - 338-ci səhifəsində Həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət edir: «**Məndən soruşun. Allah-Təalaya and olsun ki, Qiyamətə qədər olacaqlar haqqında soruşduğunuz hər şeyi sizə xəbər verərəm. Məndən Allahın kitabını soruşun.Allah-Təalaya and olsun ki, hər ayənin gecə, yoxsa gündüz, yumşaq torpaqda, yoxsa dağda nazil olduğunu bilirəm».**

Görəsən, bu bəyanlar qeybi bilmək deyilmi? Qeybi bilməyən bir adam dost-düşmən qarşısında belə bir iddia edərmi? Bir az adətlərdən uzaqlaşıb insaf gözüylə baxsanız, Həzrət Əlinin (ə) qeybi bildiyini, əməl məqamında da bunu bəyan edib qeybdən xəbər verdiyini açıq aydın görərsiniz.

## HƏZRƏT ƏLİNİN, İMAM HÜSEYNİN QATİLİ İBN SİNANDAN XƏBƏR VERMƏSİ

Bu səbəbdən İbn Əbil-Hədid bu rəvayətləri «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 208-ci səhifəsində İbn Hilal

Səqafinin «Ğarat»kitabından nəql edir: «Bir nəfər qalxaraq belə dedi: «Mənə başımda və saqqalımda neçə tük olduğunu söylə».

Həzrət Əli (ə) belə buyurdu: **«Dostum Peyğəmbər başındakı hər tükün dibində sənə lənət edən bir mələk olduğunu və üzündəki hər tükün dibində də səni azdıran bir şeytan olduğunu söylədi. Evində Peyğəmbərin övladını öldürəcək bir axmaq var».**

Sualı verən Ənəs Nəxəinin Sinan adinda evdə oynayan balaca bir oğlu var idi. O, hicri 61-ci ildə Kərbəlada Həzrət Hüseynin qatili oldu. Bəzilərinin fikrinə görə isə sual verən Səd ibn Əbu Vəqqas idi. Oğlu Ömər ibn Səd ordu başçısı idi və Kərbəlada İmam Hüseynin tərəfdarlarını qətlə yetirirdi. Bəlkə də hər ikisi müxtəlif vaxtlarda bu sualı vermişlər. Həzrət Əli bu rəvayət vasitəsilə,elminin Peyğəmbərdən (s) qaynaqlandığını və qeybi bildiyini göstərmək istəyirdi.

## HƏZRƏT ƏLİNİN HƏBİB İBN ƏMMARIN BAYRAQDARLIĞINDAN XƏBƏR VERMƏSİ

Əhməd ibn Hənbəl «Müsnəd»də və İbn Əbil-Hədid «Nəhcül bəlağənin şərhi» kitabının 1-ci cildinin 208-ci səhifəsində belə rəvayət etmişdir: «Həzrət Əli (ə) xilafəti ərəfəsində Kufə məscidində oturmuş, əshabı da ətrafında durmuşdu. Bir nafər «Xalid ibn Uveytə Vaadil Qurada dünyadan köçdü»-dedi. Imam buyurdu: «**O, ölmədi və zəlalət**

**ordusunun başçısı olana qədər də ölməyəcəkdir. Onun bayraqdarı Həbib ibn Əmmar olacaqdır».**

Orada olan bir gənc belə dedi: «Ey Əmirəl-möminin, Əmmar mənəm. Sizi səmimən, həqiqətən sevirəm». Həzrət Əli (ə) buyurdu: "**İftira və yalan söyləmədim, söyləməyəcəyəm də. Sanki görürəm (məscidin «babul-fil» adlanan qapısına işarə edərək) Xalid zəlalət ordusunun başçısı olmuşdur, sən də onun bayraqdarısan. Mascidin bu qapısından girəcəksiniz və məscidin önündəki bu pərdədən tutduqda yırtılacaqdır».**

İmamın bu sözünün üstündən illər keçdi. Məlun Yezidin xilafəti ərəfəsində məlun İbn Ziyad Kufənin valisi oldu. Həzrət Hüseynlə döyüşmək üçün böyük bir ordu göndərmişdi.

O Həzrətdən (ə), Xalid və Həbib ibn Əmmar haqqında rəvayəti eşidənlərin çoxu məsciddə oturmuşdu. Elə bu an əsgərlərin səsi eşidildi. Əvvəldən toplantı yerləri məscidlər olduğu üçün əsgərlər göstəriş almaq üçün məscidə girib-çıxırdılar. Bu vaxt Xalid ibn Uveytənin zəlalət ordusunun başçısı olaraq Rəsulallahın (s) övladı ilə döyüşmək üçün Həzrət Əlinin (ə) buyurduğu babul-fildən məscidə daxil olduğunu gördülər. Həbib ibn Əmmar da onun bayraqdarı idi. Məscidin qapısındakı pərdəni tutanda pərdə cırıldı. Beləcə, Həzrət Əlinin sözü və münafiqlər haqqındakı elmi aşkar təcəlli etdi, zahirə çıxdı.

## HƏZRƏT ƏLİNİN QEYBDƏN XƏBƏR VERMƏSİ

Görəsən, bu xəbər, bütün bu əlamətləri ilə təcəlli etdiyinə görə qeybdən, xəbər vermə deyilmi? Əgər Həzrət Əlinin (ə) xütbə və sözlərindən tərtib olunan «Nəhcül-bəlağə»ni diqqətlə araşdırsanız, İmamın verdiyi bir çox qeybi xəbərləri görərsiniz. Xüsusilə də böyük sultanların taleyi, hadisələr, Zəncilərin qiyamı, Monqolların qələbəsi, Çingiz xanın səltənəti, zalım xəlifələrin aqibəti, onların şiələrə münasibəti və digər bir çox qeybi xəbərlərin olduğunu siz də oxuya bilərsiniz. İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 208-211ci səhifələrində bütün bunlara təfərrüatıyla toxunmuşdur.

Xacə Kəlan Bəlxi əl-Hənəfi «Yənabiül-məvəddə»nin 14-cü babında Həzrət Əlinin (ə) elminin yüksək oluğunu göstərən bu cür xütbə və xəbərlərə istinad etmişdir. Bunları oxuyun ki, aydın həqiqətləri kəşf edəsiniz. Həzrət Əli Müaviyənin Kufədə qələbə çalacağını və ona lənət oxunmasını əmr edəcəyini xəbər vermiş və belə də olmuşdu.

## HƏZRƏT ƏLİNİN, MÜAVİYƏNİN QƏLƏBƏSİ VƏ ZÜLMLƏRİNDƏN XƏBƏR VERMƏSİ

İmam buyurmuşdu: «**Məndən sonra yoğun boğazlı və yekəqarın biri sizlərə qalib gələcəkdir. O tapdığını yeyəcək**[57]

---

[57] Bundan məqsəd, İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi"kitabının 1ci cildinin 335-ci səhifəsində dediyi kimi, Muaviyədir. Çünki o, tarixdə çox yeməyi ilə məşhurdur.

**tapdığını istəyəcək, verməyəni öldürəcəkdir. Onu siz öldürməyəcəksiniz. Mənə pis, nalayiq sözlər deməyinizi və məndən daha yüksək məqam sahibi olduğunu elan etməyinizi istəyəcəkdir. Məni söyməyinizə izn verirəm; çünki bu «söyüş>> mənim üçün təmizlik, sizlər üçün isə qurtuluşdur (zülmdən nicat tapma). Amma məndən qabaq müsəlman olduğunuzu elan etməyin. Çünki mən fitri olaraq iman və hicrətdə hər kəsdən öndə oldum».**

İbn Əbil-Hədid «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 356-ci səhifəsində və digər böyük və dəyərli alimləriniz öz kitablarında açıq aydın təsdiq etmişlər ki, bu lənətə layiq adam Müaviyədir. Xilafətə keçdikdə 80 il ərzində xalqı Həzrət Əlini (ə) lənətləməyə və ondan uca bir məqam sahibi olduğunu elan etməyə məcbur etdi. İmama mehrab və minbərdə, hətta cümə xütbələrində belə lənət oxuyurdular. Bu, Əməvilərin

---

Zəməxşərinin «Rəbiul-əbrar" kitabında yazdığı kimi, gündə 7 dəfə yemək yeyirdi.Yedikdən sonra da köləsinə belə səslanirdi: Ey kölə, gəl bu süfrəni yığışdır!Allah-Təalaya and olsun, yeməkdən yoruldum, amma doymadım». Muaviyənin aclığı ərəblər arasında zərbi məsəl halına gəlmişdi. Şairlərdən biri çox yeyeən dostunu qınayarkən belə deyir : Dostumun qarnı Haviyədir,

Bağırsağındakı Müaviyədir.

xəlifələrindən biri Ömər ibn Əbdüləzizin xilafətinə qədər davam etdi. Ömər ibn Əbdüləziz salehanə tədbirləri ilə İmama lənət oxumağı qadağan edərək, insanları bu çirkin əməldən çəkindirdi.Bu çirkin hadisəni həzrət Əli (ə) əvvəlcədən xəbər vermişdi. Bu halda siz də təsdiq edərsiniz ki, Əmirəl-möminin qeybi bilir və Allahın verdiyi bir elmlə pərdə arxasından xəbər verirdi. Bu cür xəbərlər olduqca çoxdur. Insanlar uzun illərdan sonra bunun doğruluğunu gördülər.

## HƏZRƏT ƏLİNİN DÖYÜŞDƏN ƏVVƏL ZUS-SƏDİYYƏNİN ÖLDÜRÜLMƏSİNİ XƏBƏR VERMƏSİ

Həzrət Əli (ə) hələ çox-çox əvvəl Nəhrivan döyüşündən və xaricilərin və "Zus-Sədiyyə"[58] adıyla məşhur olan Təzmələnin qətlindən xəbər vermişdi. Hətta xaricilərdən on nəfərin sağ qalacağını, müsəlmanlardan isə on nəfərin öldürüləcəyini

---

[58] Bəzilərinə görə"Zus-Sədiyyə», «kiçik əllərin sahibi mənasındadır.Çünki"Sədy" əl deməkdir və sonundakı "hə" ədatı kiçik olmanın əlamətidir. Yəni xaricilərin rəisi Təzmələ iki kiçik ələ sahib idi. Zus-Sədiyyə də onun ləqəbi olmuşdur.

Lüğət alimlarinə görə isə «Sədy» «döş» deməkdir. Xaricilarin rəisi Hakkus ibn Züheyrin böyük döşləri var idi. Buna görə də, " Zus-Sədiyyə" adlandırılmışdır.

xəbər verərək belə buyurmuşdur: <<Onlardan on nəfər xilas olacaq, bizdən isə on nəfər öləcəkdir"

Bu səbəbdən İbn Əbil-hədid, Xacə Kəlan Bəlxi və digərləri həzrət Əlinin (ə) xəbər verdiyi hadisələrin sonradan baş verdiyini söyləmişlər.

Xüsusilə, İbn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»nin 1-ci cildinin 425-ci səhifəsində, bu xəbərin izahında belə deyir: «Bu xəbər şöhrət baxımından təvatürə yaxın bir xəbərdir. Bütün alimlər bunu rəvayət etmişdir və bu da həzrət Əlinin (ə) kəramətlərindən biridir».

Görəsən, bunlar qeybdən xəbər vermək və gələcəyi bilmək deyilmi? Şübhəni aradan aparıb və vilayat məqamının həqiqətini anlamağınız lazımdır. Həzrət Əlinin (ə) digər xəlifələrdən fərqli olduğunu təsdiq etməlisiniz. Əgər qeyb elmini bilməsəydi və təbiət elmlərindən xəbərdar olmasaydı, bir neçə əsr sonra baş verəcək hadisələrdən bu qədər ətraflı surətdə necə xəbər verə bilərdi?

Həmçinin, Məysəmi Təmmarın Ubeydullah ibn Ziyad, Cuvəyriyə və Rəşid Hicrinin Ziyad və Əmr ibn Həməqin Müaviyənin tərəfdarları tərəfindən öldürüləcəyini, xüsusilə də həzrəti Hüseynin qatillərini xəbər verməsi -əvvəldən də işarə etdiyim kimi, həzrət Hüseynin qatillərinin Ənəs və Ömər ibn Səd olduğunu bildirmişdi-həzrət Əlinin (ə) qeyb elmini bilməsinə dəlildir.

Böyük alimlərinizdən Təbəri, İbn Əbil-hədid, Muhəmməd ibn Təlhə, Siyyuti, Xətib Xarəzmi və digərləri bu xəbərləri açıq-aydın rəvayət etmişlər.

## HƏZRƏT ƏLİNİN ÖZ QƏTLİNİ XƏBƏR VERMƏSİ VƏ İBN MÜLCƏMİ TANITMASI

Həzrət Əlinin (ə) qeybi xəbərlərindən biri də, Əbdürrəhman ibn Mülcəm Muradinin onu öldürəcəyini xəbər verməsidir. Halbuki, İbn Mülcəm zahirən İmama böyük bir hörmət izhar etmişdir. Bu səbəbdən İbn Əsir «Əsədul-ğabə»nin 4-cü cildinin 25-ci səhifəsində və digərləri də öz kitablarında rəvayət etmişlər ki, o, əshabın yanına gəldikdə həzrət Əlini (ə) mədh edərək belə demişdi:

Allah səni insanlara imam qərar verdi,

Sən hər cür eyibdən və şübhədən uzaqsan,

Dost və düşmənə comərdsən, aslanın övladısan,

Qədim və gələcək bütün fənləri bilənsən,

Cəsur və məşhursan.

Ey Peyğəmbərin (s) vəsisi,

Səni bu məqama Allah-Təala seçdi.

Quranda hər cür fəzli sənə verdi.

Orada olan səhabələr onun həzrət Əliyə (ə) olan məhəbbət və sevgisinə çaşıb qaldılar. Amma Əmirəl-möminin belə buyurdu:

Sənə nəsihət edirəm zahiri dostluqdan;

Gizlində isə mənə düşmən olmaqdan.

İbn Həcər isə «Səvaiq» kitabının 82-ci səhifəsində, həzrəti Əlinin (ə) ona belə cavab verdiyini rəvayət etmişdir:

Mən onun həyatını istəyirəm, o isə mənim qətlimi,

Zahirdə dost görünən bu hiylələgər Muradi qövmündəndir.

Əbdurrəhman dedi: «Sanki adımı eşitmisən, xoşuna gəlməyib».

Həzrəti Əli (ə) belə buyurdu: «**Xeyir, mən bilirəm ki, sən mənim qatilimsən; çox keçmədən bu ağ saqqalımı qanımla boyayacaqsan>>.**

İbn Mülcəm dedi: «Onda əmr et məni öldürsünlər». Əshab da bunu rica etdi. Imam buyurdu: **«Bu mümkün deyil; dinim cinayətdən əvvəl qisasa izn vermir. Elmim məni öldürəcəyini bəyan edir. Amma dinin hökmləri zahiri əməllərlə əlaqəlidir. Səndən hələ bir şey görmədiyim üçün şəri baxımdan sənə bir şey etmərəm».**

İngilis Mister Carleyl «Kitabul-ibtal»da belə deyir: «Əli öz ədaləti ilə öldürüldü. Yəni əgər ədalətli davranmayıb cinayətdən əvvəl qisas alsaydı, öldürülməzdi.

Bu səbəbdən sultanlar ən kiçik bir sui-zəndə uşaqları, qardaşları, əyalları və qohumları belə olsa, o an onları öldürərlər. Amma həzrət Əli şəriət və dindən kənar bir addım belə atmayan yeganə insandır. Qatilinin kim olduğunu qəti bildiyi halda, ondan zahirdə bir şey görmədiyi üçün sevgisini əsirgəmədi. Amma sonunda o qatil şəqavətini ortaya çıxararaq, həzrəti Əlinin (ə) batin və işlərin həqiqətini əhatə edən elmini isbat etdi».

Bu da Peyğəmbər (s) və məsum imamlardan başqa heç kimin qeyb elmini bilmədiyinin bir dəlilidir. Çünki insan məsum olmazsa, hadisələrin həqiqətlərindən məhrum olan elmi ilə bir çox yanlışlıqlar edər. Lakin Peyğəmbər (s) və imamlar məsum idilər. Buna görə də öz qatillərinin kim olduğunu bildiklərinə baxmayaraq, şəriətdən bir addım belə olsun kənara çıxmamış, cinayətdən əvvəl qisas almamışlar.

Məgər, bu dəlillər Əmirəl-mömininin qeybi bildiyinin dəlili deyilmi? Ona qarşı məhəbbət izhar edən, əlini öpən və mədh edən bir gəncə qeyb elmini bilmədən «Sən mənim qatilimsən» deyə bilərdimi? Bir az da olsa insaflı olun, həzrət Əlinin (ə) zahir və batin elminə sahib olduğunu təsdiq edin.

## HƏZRƏT ƏLİ (Ə) ƏN ELMLİ VƏ ƏN FƏZİLƏTLİDİR

Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 14-cü babının 65-ci səhifəsində İbn Təlhənin «Dürrül-munəzzəm»indən nəqlən həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət edir:

Şübhəsiz, ilkinlərin elminə sahibəm,

Sonların elmi də qəlbimdə gizlidir.

Bütün qeybi sirlərin kəşfiyəm,

Keçmiş və gələcək də qəlbimdədir.

Mən hər kiçik və böyüyün əmiriyəm,

Elmim bütün varlığı əhatə etmişdir.

Daha sonra həzrət Əli (ə) belə buyurmuşdur: «Əgər istəsəm, <<Fatihə» surəsinin təfsiri mövzusunda yetmiş dəvə yükü olan bir kitab yazaram, bunun dəlili də Peyğəmbərin (s) bu sözüdür: «Mən elm şəhəriyəm, Əli də onun qapısıdır». Allah-Təala da belə buyurmuşdur: «Evlərə qapısından girin». O halda elm istəyən qapıdan gəlməlidir».

Həzrət Əlinin (ə) Peyğəmbərdən (s) sonra xəlifə və digərlərindən yüksək məqam haqqına sahib olduğuna dair əql, nəql, Kitab, sünnət və icmada əvvəlki gecələrdə söylədiyim saysız-hesabsız dəlillər mövcuddur. Bundan başqa da Əmirəl-mömininin ən alim və fəzilətli olması bunun ən böyük dəlilidir.

Çünki əql və məntiq baxımından heç bir cahil alimdən önə keçə bilməz!

Həzrət Əlinin elmi və fəzilət üstünlüyünü dost-düşmən hər kəs bilir. Hətta İbn Əbil-hədid öz kitabının birinci xütbəsinin haşiyəsində belə deyir: «Onlar üstünü (ilk üç xəlifəni) ən üstündən (həzrət Əlidən (ə) önə keçirtdilər).

Bunlar hamısı həzrət Əlinin (ə) üstünlük və fəzilətini etiraf etməkdir. Amma adət və təəssübü üzrə ardından belə deyir: «Allah Təala üstünü, ən üstün və ən kamildən önə keçirtdi>>.

Halbuki, belə bir söz Ibn Əbil-hədid kimi bir şəxsə heç yaraşmır.Bu səbəbdən böyük alim və ağıl sahibləri də elm, məntiq və ağılla bu sözü tənqid etmişlər. Çünki o Allah-Təalaya yersiz istinad etmişdir. Halbuki, Allah-Təala, əsla, ağıl və məntiqin xilafına davranmaz və məfzulu (pisi), fazildən (yaxşıdan) önə keçirməz! O ki,qaldı əfzəl (ən fəzilətli) və alimdən önə keçirsin. Ən kiçik elm və şüur sahibi olan bir insan belə elm və məntiqlə, əsla, fazili əfzəldan önə keçirməz, o ki, qaldı məfzulu əfzəldən önə keçirsin! O halda Allah Təala necə ola bilər ki, məfzulu əfzəldan önə keçirir?! Halbuki, bilavasitə Allahın özü «Zümər» surəsi 9-cu ayədə belə buyurur: «Heç bilənlərlə bilməyənlər bir ola bilərmi?»

Həmçinin, «Yunus>> surəsinin 35-ci ayəsində belə buyurur: "Belə olduqda doğru yola yönəldən arxasınca gedilməyə daha layiqdir. yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən?»

Bu səbəbdən də ələmiyyət və əfzəliyyət (elm və fəzilət) baxımından Rəsuli-əkrəmdən (s) sonra ümmətin arasında yüksək məqam haqqı həzrət Əlinindir. Ibn Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabının 1-ci cildinin 4-cü səhifəsində bu mənanı etiraf edərək belə deyir: «Həzrət Əli Peyğəmbərdən sonra insanların ən üstünüdür. Bütün müsəlmanlardan xilafətə daha layiqdir».

Birinci dəlillə əlaqəli olan ikinci böyük dəlil isə Rəsulallahın (s) bu hədisdəki son sözüdür: «**...Elm istəyən onun qapısından girməlidir».**

Zəhmət olmasa, Allah xatirinə insaflı olun. Peyğəmbərin, qapısına gedilməsini əmr etdiyi şəxs itaətə daha layiqdir, yoxsa insanların toplanıb seçdiyi? Rəsulallahın əmrinə mütləq surətdə itaət edilməlidir. Peyğəmbər rəhbərlik haqqını əqli cəhətdən bildirmiş və ələm olduğunu açıq-aydın bəyan etmişdir».

**Şeyx**: «Əgər ələmiyyət və əfzəliyyət xüsusunda rəhbərlik haqqı ağamız Əlinin (k.v) olsaydı, ümmətin bilib itaət etməsi üçün Onu təyin etməsi lazım gəlirdi. Halbuki, belə bir təyinat olmamışdır».

**Dəvətçi**: «Sizdən bu cür sözləri eşitmək məni çox təəssüfləndirir. Nə üçün elm, bilik və açıq-aydın həqiqətiniz bu cür adətlərin təsirində qalır? Ağalar, on gecədir ki, məclis əhlinin, qəzet və jurnal müxbirlərinin gözü önündə mötəbər kitablarınızdan dəlil gətirirəm. Amma siz yenə tərslik edib, heç

bir dəlilin olmadığını bəyan edirsiniz. Halbuki, mötəbər kitablarınız gizli və açıq dəlilərlə doludur. Buna baxmayaraq hamısını görməzliyə vurursunuz. Sizlərdən soruşuram: Bu ümmətin Rəsulallahın (s) elm və sirətinə (əxlaqına) ehtiyacı var, yoxsa yox?>>

**Şeyx:** «Qiyamətə qədər bu ümmətin və bütün səhabənin Rəsulallahın (s) uca elm və sirətinə ehtiyacı vardır».

**Dəvətçi**: «Əhsən, Allah sizə əcr versin. Əgər Peyğəmbərdən (s) xilafət və imamət barəsində ancaq «Mən elm şəhəriyəm, Əli də onun qapısıdır; elm istəyən qapıdan gəlməlidir» hədisi rəvayət edilsəydi belə, bu hədis təkbaşına iddiamıza kifayət olardı!

## HƏZRƏTİ PEYĞƏMBƏR (S) HƏZRƏT ƏLİNİ ÜMMƏTİN ƏN ELMLİSİ ADLANDIRMIŞDIR

Bu hədisdən daha açıq bir dəlil ola bilərmi? Elm istəyən hər kəsin Əlinin (ə) qapısına getməsini əmr edir. İndi artıq səhərdir. Bütün gecəni bu mövzu haqqında danışdım, ağaların vaxtını aldım, amma siz məni soyutdunuz. Siz də, ata-babalarınız kimi, doğru sözü qulaqardına vurursunuz. Sözümü eşitmək istəmir, dəlilləri inkar edirsiniz.

Hansı dəlil bu elmi dəlildən daha üstündür? Hansı ağıl, din və elm əhli alim olduğu yerdə cahilə müraciət etməsini əmr edər. Əgər elm və məntiqlə dünyada belə bir söz söyləyən varsa, biz də sizin məntiqinizi qəbul edək. Əgər belə bir söz

yoxdursa, o halda sizin də, bütün elm əhlinin məntiqi olan bizim məntiqimizə təslim olmağınız lazım gəlir. Həzrət Əli (ə) ümmətin ən alimi olduğu üçün elm, ağıl və məntiqə görə Ona bağlanmağımız lazımdır.

Böyük alimlərinizdən Əhməd ibn Hənbəl «Müsnəd»də, Xarəzmi «Mənaqib»də, Hafiz Əbu Nəim Isfahani «NuzululTuran fi Əli"də, Xacə Kəlan Bəlxi «Yənabi»də, Mirseyid Əli Həmədani «Məvəddətül qurba»da və hətta hədsiz təəssüb və inadına baxmayaraq İbn həcar «Səvaiq»də Peyğəmbərin (s) dəfələrlə belə buyurduğunu rəvayət etmişdir: «Ümmətimin ən alimi Əli ibn Əbu Talibdir».

Səhabədən heç kim həzrət Əlinin (ə) bərabəri deyil. Bu səbəbdən Ibn Məğazeli «Mənaqib»də, Muhəmməd ibn Təlhə «Mətalibüs-süal»da, Həmvini «Fəraid»də və Şeyx Süleyman Hənəfi «Yənabi» kitabının 14-cü babında Kəlbidən nəqlən Abdullah ibn Abbasın belə dediyini rəvayət edir: «Peyğəmbərin elmi Allahın elmindəndir. Əlinin elmi də Peyğəmbərin elmindəndir. Mənim elmim də Əlinin elmindəndir. Mənim və səhabənin elmi Əlinin elmi qarşısında yeddi dəryadakı bir damla su mislindədir>>.

Həmçinin, həzrət Əli (ə) «Nəhcül-bəlağə»nin 108-ci xütbəsinin axırında belə buyurur: **«Biz nübuvvət ağacıyıq, risalətin endiyi ailəyik, mələklərin gedib-gəldiyi ocağıq, elm mədəni və hikmət qaynağıyıq».**

İbn Əbil-hədid <<Nəhcül-bəlağənin şərhi» kitabının 2-ci cildinin 236-ci səhifəsində bu xütbəni şərh edərkən belə deyir: «Bu məsələ həzrət Əlidə(ə), həqiqətən, zahirdir. Çünki Peyğəmbər (s) də belə buyurmuşdur**: «Mən elm şəhəriyəm, Əli də onun qapısıdır; şəhərə girmək istəyən qapısından girməlidir».**

Həmçinin, Rəsulallah (s) buyurmuşdur: **«Əli sizin ən yaxşı hökm verəninizdir>>.**

Hökm verə bilmək üçün böyük bir elmə ehtiyac duyulur. Həzrət Əlinin (ə) elmi məqamı bəyan edilə bilinməyəcək dərəcədə ucadır; heç kim bu dərəcəyə çata, hətta yaxınlaşa belə bilməz! Əmirəl-mömininin **«Mən elmin mədəni və hikmətin qaynağıyam»** deməsi, həqiqətən, Ona yaraşır. Peyğəmbərdən (s) sonra bu uca məqama həzrət Əli qədər heç kəs layiq deyil!>>

İbn Əbdülbirr «Istiab»in 3-cü cildinin 38-ci səhifəsində, Muhəmməd ibn Təlhə «Mətalibüs-süal»un 23-cü səhifəsində və Qazi İyci «Məvaqif"kitabının 276-cı səhifəsində, Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişdir: «**Əli sizin ən yaxşı hökm verəninizdir».**

Siyyuti «Tarixi-xüləfanın 115-ci səhifəsində, Hafiz Əbu Nəim «hilyətül-övliya»nın 1-ci cildinin 65-ci səhifəsində, Muhəmməd Cəzri «Əsnəl-mətalib»in 14-cü səhifəsində, Muhəmməd ibn Səd «Təbaqat»ın 459-cu səhifəsində, Ibn Kəsir «Tarixi-kəbir»in 7-ci cildinin 359-cu səhifəsində və İbn

Əbdülbirr «Istiab»ın 4-cü cildinin 38-ci səhifəsində Ömərdən belə rəvayət edir: «Əli bizim ən yaxşı hökm verənimizdir». Yəni Əli hökm haqqında hamımızdan daha üstündur.

«Durrul-munəzzəm»in müəllifi «Yənabiül-məvəddə»nin 69-cu səhifəsində İbn Təlhədən belə rəvayət edir**: «Bil ki, bütün səmavi kitabların sirləri Qurandadır. Quranda olan hər şey də «Fatihə»dədir. «Fatihə»də olan hər şey isə «bismillah»dadır. «Bismillah»da olan hər şey da onun «bə» hərfindədir. «Bismillah»da «bə>> hərfindəki hər şey də «bə»hərfinin altındakı nöqtədədir. Həzrəti Əli (ə) isə belə buyurmuşdur: «Mən, «bə>> hərfinin altındakı nöqtəyəm»**.

Süleyman Bəlxi «Yənabiul-məvəddə» kitabında İbn Abbasdan belə rəvayət edir: **«Aylı bir gecədə Əli (ə) əlimdən tutaraq məni Bəqi qəbiristanlığına apardı. İşa namazından sonra buyurdu: «Oxu, ey Abdullah!». Mən də «Bismilləhir-rahmənir-rahimi oxudum. Günəş doğana qədər mənə «bismillah»dakı «<bə>> hərfinin sirləri haqda danışdı**>>.

Şiə və sünni alimlərinin ittifaq etdiyi kimi, həzrət Əli (ə) əshab arasında tay-bərabəri olmayan bir şəxs idi. O, qeyb sirlərinin alimi və Peyğəmbərlərin elminin varisi idi. Bu səbəbdən Muhəmməd ibn Təlhə <<Mətalibüs-süal»da, Xarəzmi «Mənaqib»də, Süleyman Bəlxi Hənəfi «Yənabi»də İbn Təlhə Hələbinin «Dürrul-munəzzəm»indən nəqlən həzrət Əlinin (ə) belə buyurduğunu rəvayət etmişdir: **«Məndən qeybin sirrini soruşun; mən nəbilərin (peyğəmbərlərin) elminin varisiyəm».**

Həmçinin, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, İbn Əbil hədid «Nəhcül-bəlağənin şərhi»ndə və Süleyman Bəlxi «Yənabiül məvəddə»də həzrət Əlinin (ə) minbərdə belə buyurduğunu rəvayət edir: **«Məni itirmədən məndən soruşun. Məndən göylərin yolunu soruşun. Şübhəsiz ki, mən göylərin yolunu yerin yolundan daha yaxşı bilirəm»**.

İndiki dövrdəki kimi elmin inkişaf etmədiyi o günlərdə belə bir iddia irəli sürmək qeyb elminə sahib olmanın ən böyük dəlilidir. Bu səbəbdən dəfələrlə bu mövzuda soruşulan sualları ancaq həzrət Əli (ə) cavablandırır, göylərin və qalaktikaların vəziyyətindən xəbər verirdi.

Batlamyusun astronomiya elminin hakimi olduğu bir dövrdə bu günkü yeni astronomiya elminə uyğun cavablar vermək, birbaşa böyük bir möcüzədir.

Bu səbəbdən böyük mühəddis Əli ibn İbrahim Qumi («Saffat surəsinin təfsirində), Şeyx Fazil Mühəddis Fəxrəddin ibn Tureyhi Nəcəfi 300 il əvvəl təlif etdiyi «Məcməul-Bəhreyn» kitabının Kovkəb lüğətində və Əllamə Məclisi «Biharul-ənvar"ın 14-cü cildində «Əs-Səma vəl aləm»də həzrət Əlidən (ə) belə rəvayət edir: **«Göydəki bu ulduzlar da yer üzündəki kimi şəhərdir».**

Allah rizası üçün insaflı olun. Batlamyusun gülməli nəzərinin hakim olduğu bir zamanda göydəki ulduzların göylərə pərçəm olmuş bir səma mismarı və işıqsaçan nur olduğu düşünülür. Xüsusilə də teleskopların mövcud olmadığı

bir dövrdə bu günki astronomiya alimlərinin nəzərlərinə uyğun nəzərləri 1000 il bundan əvvəl xəbər verən bir kəs qeyb elmini bilmirmi? Onun verdiyi xəbərləri qeybi xəbərlər saymırsınızmı? Əgər böyük alimlərin kitablarında yer alan Əhli-beytdən (ə) nəql olunan bu rəvayətləri qeybi xəbərlər kimi qəbul etməsəniz, bilin ki, haqsızlıq edir, təəssübkeşliyinizin ifratını göstərmiş olursunuz. Çünki həmin rəvayətlər bilavasitə bu əhəmiyyətli hadisəyə dəlalət edir.

Bu gün teleskoplarla belə görülməyən astronomik həqiqətləri demək,şübhəsiz ki, qeybdən xəbər verməkdir. Həzrət Əlinin (ə) qeybi bildiyini qəbul etməlisiniz. Çünki O, müasir texnoloji avadanlıqlara sahib olmadan öz gözləri ilə mələkutu metafizikanı kəşf etmiş, göylərdə seyr etmişdir. Şübhəsiz, min il əvvəl verilən bu xəbərləri eşidən hər kəs xəbər verənin qeybi bildiyini təsdiq edəcəkdir.

İzn versəniz, elə indi yadıma düşən bir hadisəni sizlərə danışmaq istərdim: Bəsrədə Varila adlı bir gəmiyə minmişdim. Gəminin birinci mərtəbəsinin otaqlarında üç yataqli bir yerdə qaldım. Təsadüfən fransız şərqşünas Misyo Juen da eyni otaqda qalırdı. Fransız olduğu halda ərəb və fars dillərini çox yaxşı bilirdi. Qısa müddət ərzində tanış olduq, elmi və dini mövzularda müzakirə apardıq. Əlbəttə, mən vəzifəmə əsasən ona İslam dininin açıq-aşkar həqiqətlərini və haqq olan Cəfəri məzhəbini tanıtmağa çalışdım. Günlərin birində söhbət əsnasında mənə belə dedi: «İslam dinində digər dinlərdə olmayan bir qrup xüsusiyyətlərin olduğunu qəbul edirəm. Çünki İslam hər yerdə və bütün işlərdə mötədil (orta məxrəc)

tərəqqini əmr etmişdir. Amma unutmayın ki, İsa Məsihin pak dinində olan xristian avropalılar əməli elmi kəşfləri ilə önə keçmiş və dünyanı elmi baxımdan minnət altında saxlamışdır».

Mən dedim: «Qərblilərin və digərlərinin ciddi bir şəkildə bir qrup elmi həqiqətləri kəşf etdiyi xüsusunda heç kim şəkk və şübhə edə bilməz; bunu hər kəs qəbul edir. Amma elmi mədəniyyətin qaynağının haradan alındığına baxmaq lazımdır. Onların elm və fəndəki ustadları kimdir? Siz də böyük bir alim olduğunuz üçün qərblilərin elm və fənn qaynağının xristianlıq deyil, İslam və müsəlmanların olduğunu təsdiq edərsiniz. Çünki qərblilər hələ miladi 8-ci əsrə qədər barbarlıq və cəhalət içində yaşayırdılar.Halbuki, o zamanlar müsəlmanlar elm və sənətin bayraqdarları idilər. Bu səbəbdən fransız Ernest Renan, ingilis Çarleyl və Alman Nurmal kimi böyük alimləriniz bunu açıq-aydın etiraf etmişlər.

Bu səfərdə Kazimeyndə Muhəmməd Hüseyn Xanın evində qaldım. İllərdir Kərbəla va Kazimeyndə qalan bu insan avropalıların Islam mədəniyyəti haqqındakı etiraflarını danışdıqda belə dedi: «Son zamanlarda urdu dilinə tərcümə edilən Fransız alimlərindən birinin kitabını mənə gətirdilər. Olduqca gözəl olan «Təməddunul-ərəb» adlı bu kitabı hindistanlı Seyid Əli Belkirami tərcümə etmişdir.[59] Olduqca

---

[59] Axırlarda bu kitab İranın böyük alimlərindən olan Seyid Muhəmməd Təqi Fəxri Dai Kilani tərəfindən urdu dilindən fars dilinə də tərcümə edilmişdir.

qalın, təfsilatlı və dəlillərə əsaslanan bir kitabdır. Bir çox qərbli alim tibb, hüquq, iqtisadiyyat və digər sahələrdə yazdıqları kitablarda qərblilərin elm, mədəniyyət, sənət,ədəb, ünsiyyət, mülki və idari təşkilatlar,fərdi və sosial təşkilatların hamısının uca Islam dinindən ilham aldığını etiraf etmişlər».

Misyo Juen: «Bəli, o kitabı fransız Qustavlobon Parisdə mənə vermişdi. Həqiqətən, çox gözəl yazılmış, böyük zəhmət çəkilmişdir».

O kitabı Nəvvab Beydən əmanət aldım. Urdu dilini bilmədiyim üçün Kazimeyndə qaldığım on gün ərzində bu kitabın ikinci bölümünü Sadiq Xana tərcümə etdirdim və ona təşəkkürümü bildirdim. Bu tərcümə edilmiş səhifələri Misyo Juenə oxudum və belə dedim: «Baxın, məqam və mövqeyini sizin də təsdiq etdiyiniz bu fransız alimi bu mövzuda etiraf edərək deyir:

## QUSTAVLOBONUN İSLAM MƏDƏNİYYƏTİNİN QƏRBDƏKİ TƏSİRİ HAQQINDAKI ETİRAFI

<<İslam mədəniyyəti şəqrdə təsirli olduğu qədər qərbdə də təsirli olmuşdur. Avropalılar bu vəsilə ilə mədəniləşmişlər. Bu mədəniyyətin qərbdəki təsir dərəcəsini öyrənmək istəsək, mədəniyyətin intiqal etdiyi dövrdə avropalıların vəziyyətlərinə baxmaq lazımdır.

Miladi 9 və 10-cu əsrlərdə İslam mədəniyyəti İspaniyada zirvələrə qalxmışdı. O dövrdə qərbdə sadəcə cahil rahiblərin idarə etdiyi və insanları xürafata sürüklədiyi kilsələrdən başqa heç bir elmi mərkəz yox idi. 12-ci əsrdə elm və bilik arxasınca gedənlər üçün yeganə sığınacaq İslam və müsəlmanlar idi. Bu insanlar Əndulüsə[60] gedib müsəlmanların mədrəsələrində oxudular və beləcə, alim oldular. Bütün elm əhli müsəlmanlara borcludur. Həqiqətən, müsəlmanlar elm və bilik baxımdan bəşəriyyətə çox böyük xidmətlər etdilər və dünyada böyük bir tərəqqiyə zəmin yaratdılar. Müsəlman ərəblərin, biz qərblilərin boynunda böyük haqları vardır. Daha doğrusu, qərb mədəniyyətini Islam mədəniyyəti adlandırmaq lazımdır».

Bunlar sizin məşhur Fransız alimlərinizin sözləridir.Siz də digər qərblilər kimi elm,sənət və kəşflərlə öyünürsünüz.Amma zəhmət olmasa, Avropanın qədim tarixinə və İslamdan əvvəlki Ərəbistan yarımadasına bir göz gəzdirin, beləcə, aşkar həqiqətləri kəşf edin.Sizin Avropa,hətta bu gün mədəniyyətin beşiyi sayılan Parisin barbarlıq içində yaşadığı bir dövrdə Peyğəmbər (s) və müsəlmanlar vasitəsilə elm, mədəniyyət və sənət Ərəbistan yarımadasından dünyaya yayılırdı. Aşkar həqiqəti kəşf etməyiniz üçün sizə qısa olaraq avropalıların və müsəlmanların mədəniyyət tarixini xatırlatmağa çalışdım.

---

[60] İndiki İspaniya ərazisi

## HARUNUN, MÜSƏLMANLARIN DÜZƏLTDİYİ SAATI HƏDİYYƏ OLARAQ ŞARLIMANA GÖNDƏRMƏSİ

Sizin də bildiyiniz kimi, miladi 7-8-ci əsrlərdə fransız imperatoru Şarlıman vasitəsilə Avropa inkişaf etməyə başladı. Şarlıman Bağdaddakı Abbasi xəlifəsi Harun ər-Rəşidlə əlaqələr qurub qarşılıqlı olaraq hədiyyələşirdilər. Harunun göndərdiyi hədiyələr arasında cəvahirat, paltarlar, toxunma qumaşlar,[61] bir da fransızların saray qapısına asdırdığı böyük bir saat var idi.Bu saatı müsəlman sənətçilərdən biri düzəltmişdi.Bu saat böyük qızıl camın üzərinə düşən rəqəmlərin çıxardığı bir səslə 24 saatı göstərirdi.Fransız alimləri, hətta bütün Paris əhalisi bu böyük şah əsərin həqiqətini heç cür başa düşməmişdilər. Bunu Qustavlobon və digər qərb alimləri qeyd etmişlər.

İslam mədəniyyəti qarşısında Avropa mədəniyyətini anlamaq üçün Şarlımanın zamanını və müsəlmanların saat düzəltmə hadisəsini diqqətlə araşdırmağınız lazımdır.

Rəvayət edildiyinə görə, sarayın qapısından asılmış saatın üzərindəki örtük qaldırıldıqda Paris xalqı saatın hərəkət etdiyini gördü. Nə baş verdiyini anlamayan savadsız əhali əllərindəki alətlərlə kütlə-kütlə saraya hücum etməyə başladılar. Şarlımana xalqın saraya hücum etdiyini xəbər verdilər. Onun əmri ilə saray qapıları bağlanıldı və bu hücumun səbəbini öyrənmək üçün saraydakı alim və vəzirlər xalqın arasında araşdırma aparılmağa göndərildi. Nəhayət, xalqın səltənət

---

[61] Parçanın bir növü

məqamına deyil, saata hücum etdiyi öyrənildi. Çünki onlara görə o saat keşişlərin illər boyu anlatdığı və insanları qorunmağa dəvət etdiyi şeytanın özü idi. Onlar keşişlərin təbliği nəticəsində neçə vaxt idi ki, öz böyük düşmənlərini axtarırdılar. Onu harada ələ keçirsələr, öldürəcəklərinə söz vermişdilər. Onları bu hadisədən hali etdikdən sonra tutduqları işdən utanaraq, üzr istədilər. Alimlər daha sonra xalqı məlumatlandıraraq sarayın qarşısından uzaqlaşdırdılar.

Bu halda müsəlmanların avropalılardan geri olduğunu söyləməyin. Qərblilər Əndulus,Qurtuba,İşbiliyyə, İskəndəriyyə, Bağdad və digər elm və sənət mərkəzlərində elm öyrənib bunları təcrübədə həyata keçirməyə çalışdıqları vaxt müsəlmanlar geriləməyə başladılar. Müsəlmanlar məğrur və tənbəl oldular, dondular, gerilədilər və bugünki hala gəldilər. O zaman bizim hər şeyimiz var idi. Amma bu gün heç bir şeyə sahib deyilik. Hafizin dediyi kimi:

İllər boyu könül bizdən hökmdarlıq tələb etdi,

İndi sahib olduğunu yaddan tələb etdi.

Bundan əlavə, sizin elmi və texnoloji tərəqqinizin xristianlıqla bir əlaqəsi yoxdur. Əksinə müsəlmanların elmi bərəkətləri və qərbli insanın çalışqanlığı sayəsində bu nailiyyətlərə çatmısınız>>.

Bu mövzuda geniş söhbət etdik. Sonda belə dedim: «Müsəlmanların rəhbərlərinin dünyadakı məşhur alimlərlə fərqi, onların vasitəsiz kəşf etməsidir. Iddiamı isbat etmək üçün

də Əhli beytdən (ə) mikroblar və gözlə görülməyən varlıqlar haqqında bir neçə hədis söylədim.

Mikroskopların olmadığı 1300 il əvvəl Əhli-beyt (ə) imamlarımız təbii halda, bu gözlə görülməyən varlıq və mikrobları görmüş, bizə tanıdaraq onlardan qorunmağımızı təmin etmişlər.

Siz bu gün modern teleskoplarla kosmik xəbərlər və elmi tədqiqatlarınızla öyünürsünüz. Halbuki, bizim ikinci rəhbərimiz həzrət Əli (ə) 13 əsr müzakirə gedən vaxt əvvəl, həm də heç bir teleskop və müasir alətlər olmadan bütün bu bilgiləri söyləmişdir. Bu səbəbdən Əmirəl-möminin hədislərin birində belə buyurur: «Bu göydəki ulduzlar da yer üzündəki şəhərlər kimi şəhərlərdir».

Misyo Juen bir az düşündükdən sonra bu rəvayəti özü üçün qeyd etdi və belə dedi: «Zəhmət olmasa, bu rəvayəti nəql edən kitabların adını da söyləyin, yazım». Mən söylədim, o da yazdı. Sonra belə dedi: «Paris və Londonda dünyanın ən böyük kitabxanaları, hər kitabın da əl yazması orada vardır. Əvval Londona, sonra da Parisə gedib oradakı kitabları diqqətlə araşdıracaq, şərq alimləri ilə bu mövzunu müzakirə edəcəyəm. Sizin dediyiniz bu kitablar həqiqətən də teleskopların kəşf edilməsindən əvvəlki tarixlərdə nəşr olunmuşsa, sizə söz verirəm: İsa və Muhəmmədin Rəbbi də aramızda şahid olsun ki, araşdırdıqdan və anladıqdan sonra müsəlman olacağam. Çünki bu xəbərləri 1000 il əvvəl verən şəxs mütləq mələkuti gözlərə və İlahi bir gücə sahib olmalıdır. Daha doğrusu, belə bir rəhbərə

sahib olan İslam dini, haqq bir dindir və İslam Peyğəmbərinin xəlifəsi olan insan üstün elmi bir gücə sahibdir»[62]

Ağalar,xaricilər görmədən və tanımadan, qəzəb və sevgiyə qapılmadan, sadəcə elmi qaydalara əsasən hökm edirlər. Siz və biz bu yolu daha yaxşı bir şəkildə qət etməli və bu iki qayda üzrə məzkur şərtləri caiz bildiyimiz kəsə tabe olmalıyıq.

Həmçinin, Peyğəmbərin (s) xilafəti mövzusuna da bəsirətlə baxar, təəssübkeşlikdən uzaqlaşar və, adətlərimizdən əl çəkəriksə, səhabə arasında imam Əlidən (ə) daha zahid, alim, fəzilətli və nəcabətli bir şəxsin olmadığını açıq-aşkar görərik. Çünki həzrət Əli (ə) Peyğəmbərdən (s) sonra bütün fəzilət və kamalların sahibidir.

Əvvəldəkilərin və axırdakıların elmi onun yanındadır. Hikmət, kəlam, təfsir, qiraət, sərf, nəhv, fiqh, həndəsə, tibb, astronomiya, cəfr, hesab, şer, xütbə, moizə (nəsihət), ədəbiyyatşünaslıq, fəsahət, lüğət və quşların dili ilə əlaqəli bütün elmlər həzrət Əlidə (ə) cəmlənmişdi.

Bütün bu elmlər haqqında ya bilavasitə yeni bir nəzər vermiş, və ya şərh etmişdir. Hər elmdə xüsusi nəzəri olmuş, o elmin əhli olanlar da Əmirəl-mömininin hər kəlamını bir elmi mənbə bilmişlər. Məsələn: Əbül-Əsvəd Dualiyə nəhv elmilə əlaqəli olaraq kəlmənin isim, fel və şəkilçi deyə 3 yerə

---

[62] Səfərdən qayıtdıqdan sonra ondan bir məktub gəldi və İslam dinini qəbul etdiyini bildirdi.

ayrıldığını, babi-innə,[63] babi-izafə,[64] babi-imalə,[65] babi-lüğət və ətfin qaydalarını,[66] irabın[67] rəfz,[68] nəsbə[69] və cərrə[70] deyə 4 hissəyə ayrıldığını bilavasitə O həzrət (ə) öyrətmişdir.[71]

## İBN ƏBİL-HƏDİDİN HƏZRƏT ƏLİNİN (Ə) ELMİ MƏQAMINI ETİRAF ETMƏSİ

Əgər İbn Əbil-Hədidin «Nəhcül-bəlağənin şərhi» kitabının ön sözünü oxusanız, bu insaflı alimin bütün bunları etiraf etdiyini, həzrət Əlinin (ə) elmi məqamını təriflədiyini və 6-cı səhifədə açıq şəkildə belə dediyini görərsiniz: «Bütün fəzilətlərin istinad edildiyi və bütün firqənin fəzilətlərinin özündə nöqtələndiyi bir şəxs haqqında nə deyə bilərəm! Hər firqə fəzilətini Ondan alıb

---

[63] İsmi təsirlik hala salan şəkilçi

[64] İsimlə ismlə birləşməsi babı

[65] Saitlərin uzanması

[66] Bağlayıcı

[67] Sözlərin təridlənməsi ilə hallanması

[68] Adlıq hal

[69] Təsirlik hal

[70] Yiyəlik yal

[71] Səssizlik

cəzb etmişdir. Fəzilətlilərin rəisi Odur. Çünki hər fəzilət Ondan qaynaqlanmış, fəzilət bürhanları və höccətləri Ondan axmışdır. Yarış meydanında yarışı qazanan Odur, hər fəzilətin nəticəsini kəşf edəni Odur. Ondan sonrakı fəzilətlər də Ona istinad edilir; Onunla fəzilətə kifayətlənilir və Ona bağlanmaq lazım gəlir».

Əbu Hənifə imam Malik, imam Şafei və imam Hənbəlin elminin həzrət Əliyə (ə) söykəndiyi haqında belə deyir: <<Səhabənin fəqihləri də fiqhini həzrət Əlidən (ə) almışdır».

Bu axşamkı məclisimiz çox çəkdiyi üçün o aliminizin bütün sözlərini rəvayət edərək vaxtınızı almaq istəmirəm. «Nəhcül-bəlağənin şərhi»nin ön sözünə müraciət etsəniz, bu aliminizin həzrət Əli (ə) haqqındakı fikirləri və etiraflarına məəttəl qalarsınız. Bir yerdə belə deyir «Əli çox qəribə bir insandır; həyatı boyu «bilmirəm>> deməmişdir. Bütün elmlər hər zaman onun yanında hazır idi. Bu da öz-özünə bir möcüzədir. Çünki belə qaydaları bilmək və məna çıxarmaq bəşərin güc çatdıra biləcəyi bir iş deyildir».

Əgər alimlərinizin də rəvayət və təsdiq etdiyi həzrət Əlinin (ə) qeyblə əlaqəli verdiyi və əsrlər sonra da olsa həqiqiləşən xəbərləri saysaq, sabaha qədər qurtarmaz. Bu danışdıqlarım həqiqətlərin onda biri belə deyil. Bundan daha çox vaxtınızı almaq istəmirəm. «Əgər evdə biri varsa, bir tək söz yetər!>>

Dediklərimizi dəlil və bürhan üzrə bilməniz üçün zənn edirəm, bu nəql etdiyim misallar kifayətdir.

Hər kəsin həzrət Əlinin (ə) qeyb elmini bildiyini anladığı günlərdan biri də, həzrət Hüseynin doğum günü idi: «İnsanlar Peyğəmbərin (s) yanına gəlib həzrəti Hüseynin doğum gününü təbrik edirdilər. Onlardan biri belə dedi: «Anam-atam sənə fəda olsun ey Allahın Rəsulu. Bu gün Əlidə qəribə bir şey gördüm>>.

**Peyğəmbər (s): «Nə gördün?»,-deyə soruşduqda o, belə dedi: Biz də təbrik üçün gəldikdə Əli (ə) bizə mane olub. <<120 min mələk göydən enmiş və Peyğəmbəri (s) təbrik edirlər. Bu anda Rəsulallahın (s) hüzurundadırlar»-dedi. Biz də təəccübləndik, doğrusu,Əli onları haradan saymış və necə xəbər vermişdi? Yoxsa siz ona söylədiniz?».**

**Peyğəmbər (s) təbəssüm edərək Əlidən (ə) soruşdu: «O qədər mələyin yanımda olduğunu haradan bildin?»**

**Həzrət Əli (ə) belə ərz etdi: «Anam-atam sənə fəda olsun. Sənə nazil olub «salam» söyləyən mələklərin hər biri səninlə ayrı-ayrı dillərdə danışırdı. Mən saydım, düz 120 min dildə danışdılar. Buradan da 120 min mələyin gəldiyini anladım».**

**Peyğəmbər (s) buyurdu: «Ey Əbəl-Həsən, Allah-Təala elmini və helmini artırsın>>.**

Daha sonra ümmətinə dönərək belə buyurdu: **«Mən elm şəhəriyəm, Əli də onun qapısıdır. Allah-Təalanın Əlidən daha böyük bir xəbəri və ayəsi yoxdur. Əli xalqın imamı, Allahın ən xeyirli əmin xəlifəsi və Allahın elminin xəzinəsidir. Əli elmdə dərinləşəndir və Allahın: «Zikr əhlindən soruşun>>,-deyə**

**buyurduğu zikr əhlidir. Mən elm xəzinəsiyəm, Əli o xəzinənin açarıdır. Xəzinəni istəyən açara doğru gəlməlidir».**

## İNSAF ÜZRƏ HÖKM VERMƏK LAZIMDIR

Əgər bir az insaflı olar və adətlərinizdən uzaqlaşarsınızsa, təmiz qəlbinizlə həzrət Əlinin (ə) ənbiyanın bütün elminə, qeyb sirlərinə, bütün gözəl sifətlərinə, ədalət məqamına, təqvaya və ismətə sahib və Peyğəmbərin (s) tam aynası olduğunu təsdiq edərsiniz. Rəsuli-əkrəm (s) Onun qapısına gedilməsini əmr etmiş, itaətini özünə itaət, müxalifətini də özünə müxalifət saymışdır.

İmam Əli zöhd, təqva, nəcabət baxımından insanların ən üstünü idi. Bu səbəbdən Peyğəmbər (s) Onu «müttəqilərin imamı>> saymışdır. Əvvəlki gecələr nəql etdiyim rəvayətlərə əsasən də həzrət Əli (ə) xilafət və imamət məqamına digər bütün səhabədən daha layiqdir. Səhabənin də özünəməxsus fəzilətləri vardır. Amma biz ən üstün, ən kamil və ən çox qabaqcıllıq haqqına sahib olandan danışırıq.

Əgər bütün səhabə və Peyğəmbərin yaxınları arasında həzrət Əlidən fəzilət, kamal, zahiri və batini sifətlər baxımından üstünü olan bir şəxsi göstərsəniz, biz də təslim olarıq. Əgər beləsini göstərməsəniz, o zaman siz açıq-aşkar həqiqətə təslim olmalı, başqalarının qınaqlarına əhəmiyyət verməməli, aldanmayaraq haqqı qəbul etməlisiniz.

(Bu əsnada əllərimi göyə qaldıraraq belə dua etdim:) Allahım! Sən şahid ol ki, mən haqqı əda etdim. Qəzəb və sevgiyə qapılmadan dini vəzifəmi yerinə yetirdim. Şiəni müdafiə etdim, düşmənlərin iftiraları müqabilində açıq-aşkar həqiqəti üzə çıxartdım və sadəcə Səndən yardım diləyirəm>>.

## NƏVVABIN ŞİƏLİYİ QƏBUL ETMƏKLƏ ƏLAQƏLİ SÖZLƏRİ

**Nəvvab**: «Qibləsahib! Artıq vaxt gecdir, hüzurunuzda feyzləndik və iki tərəfin də dəlillərini dinlədik. Biz də bir neçə nəfər bütün gecələrdə məclislərə qatıldıq, burada danışılan mövzuları öz aramızda diqqətlə araşdırdıq. Allah-Təalaya şükürlər olsun ki, sizin vəsilənizlə hidayəti tapdıq, açıq-aşkar həqiqəti gördük.Həyatımızda eşitmədiyimiz dəlilləri eşitdik, şiənin haqq məzhəb olduğuna yəqin etdik. Müxaliflər hər nə qədar onları müşrik, kafir və rafizi saysa da, biz şiənin həqiqi İslam olduğunu anladıq.

Sadəcə biz deyil, buradakı danışılanların yazıldığı qəzet və jurnalları oxuyan bir çox insan həqiqətləri görmüş. açıq-aşkar həqiqətlərə təslim olmuşdur. Əlbəttə, sadəcə bəziləri işləri və ya məqamlarına görə bunu aşkara çıxarmamış, yanımızda etiraf etdiklərinə baxmayaraq, təqiyyə etmişlər. Siz bu mövzuda heç bir şübhəyə yer buraxmadınız. Hər kəsin anlayacağı bir dildə açıq-aşkar həqiqətləri bəyan etdiniz.

Amma biz, heç kəsdən qorxumuz olmadığı üçün açıq-aşkar şiə olduğumuzu bəyan edirik. Neçə gecədir pərdəni qaldırıb özümüzü tanıtmaq istədik. Amma heç cür fürsat tapa bilmədik. Buna baxmayaraq, hər gecə bəsirətimiz daha da artdı. Güclü dəlillərinizi eşitdikcə inanclarımız daha da sabitləşdi.

İqrarımızı eşidin, bizə şərəf verin. Xahiş edirik, adımızı həzrət Əli və on iki hidayət İmamlarının (ə) dəftərinə yazın. Şiə məscidi də bizləri qardaşları olaraq qəbul etsin. Allahın ədalət məhkəməsində də bizim elm və yəqin üzrə Peyğəmbərin (s) xəlifəsi və vəsiləri olan on iki Imama iman etdiyimizə şahidlik edin».

**Dəvətçi**:«Sizin kimi seçilən insanların bəsirətinin açılması, açıq-aydın həqiqətləri görməsi və ağıl nuruyla idrak edib doğru yola girməsi məni çox sevindirdi. Bu doğru yolu bilavasitə Peyğəmbər (s) əmr etmişdir. Bu səbəbdən Əhməd ibn Hənbəl «Müsnəd»də, İbn Əbil Hədid «Nəhcül-bəlağənin şərhi»ndə, Muhəmməd ibn Təlhə, «Mətalibüs-süal»da, İbn Məğazeli «Fəzail»də, Xarəzmi «Mənaqib»də, Süleyman Hənəfi «Yənabi»də və digərləri öz kitablarında Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişlər: **«Əlinin yolu haqdır; ona sarılın».**

İnşallah, digər qardaşlarımız da adət və təəssüblərindən əl çəkər, gözlərindəki pərdələr qalxar, haqq və həqiqətlər açıq-aydın ortaya çıxmış olar».

**Nəvvab**: «Qibləsahib! Çəkdiyiniz zəhmətlər və bizə gözəl əxlaqla verdiyiniz cavablara görə sizə təşəkkür edirik. Ürəyimizdə qalan bir sualımıza da cavab versəniz bizi çox sevindirər, inancımızın güclənməsinə səbəb olarsınız».

**Dəvətçi:** «Rica edərim, buyurun. Siz soruşun, mən də cavab verim».

**Nəvvab**: "On iki imamın imaməti və adları haqqında soruşmaq istəyirəm. Çünki bütün bu gecələr daha çox həzrət Əli (ə) haqqında danışdınız. Quranda bizə on iki imamın imamətini göstərən bir ayə varmı?

Bundan başqa, bizim kitablarımızda on iki imamın adı yer almışdırmı? Qəlbimizin rahatlıq tapması üçün cavab versəniz, çox şad olarıq».

**Dəvətçi:** «Soruşduğunuz sual yerində və əhəmiyyətli bir sualdır, cavabı da hazırdır. Amma vaxt çox gec oldu. Bu sualın cavabı da uzun çəkəcək. Əgər izn versəydiniz ya sabah axşam, ya da sabah səhər cavab verərdim.

Sabah həzrət Hüseynin (ə) mübarək doğum günüdür. Sabah səhərdən günortaya qədər Risaldar hüseyniyyəsində mərasim var..Orada sizin bu sualınıza cavab verməyə çalışaram>>.

**Nəvvab**: «Çox məmnun olarıq.Sizi narahat etmək istəmirik. O halda izn versəniz, bu nurani məclislərdən feyzlənən qardaşlarımızı sizə tanıtmaq istərdim>>.

**Dəvətçi:**«Böyük bir istəklə dəyərli qardaşlarımı məhəbbətlə qucaqlamağa hazıram».

## ALTI NƏFƏRİN TƏŞƏYYÜ MƏKTƏBİNƏ DAXİL OLMASI

**Nəvvab**: «Lə iləhə illəllah Muhəmməd Rəsulallah» bayrağı altında həzrət Əlini (ə) və digər on bir imamın xilafət və imamətini qəbul edən qardaşlarımız bunlardır: 1. Bəndəniz Əbdül-Qəyyum; 2. Seyid Əhməd Əlişah; 4. Qulam Imameyn (möhtərəm tacirlərdən); 4. Qulam Heydər Xan (Sərhəd əyanlarından); 5. Əbdül-Əhəd Xan (Pəncabın möhtərəm tacirlərindən); 6. Əbdüs-Saməd Xan (məşhur, zəngin sahibkar). (bax: şəkil: 1)

(Bütün bu ağalar mənə doğru gəldilər.Mən də məclisdəkilərlə birlikdə ayağa qalxdım, hamısını məhəbbətlə qucaqlayıb öpdüm. Sonra da ardından bütün məclisdəkilər onlarla qucaqlaşdılar.Əhli sünnət qardaşlarının kədərləndiyini gördükdə könüllərini almaq üçün dedim: <Bu gecə bayram axşamıdır. İslami əmrlərə görə müsəlmanlar bir-birilə quçaqlaşmalıdırlar. Bunun böyük savabı vardır. Bu halda qalxıb hamımız birlikdə qucaqlaşaq».

İlk əvvəl Hafiz Şeyx Əbdüs-Salam ilə, daha sonra da digər qardaşlarla qucaqlaşdım, hamısının tək-tək alnından öpdüm. Sonra məclisə şirniyyat və şərbət gətirdilər. Beləcə, şirin

söhbətlərlə məclisdə böyük bir sevinc havası yaradıldı. Qəlblərdə olan inciklik və kədər aradan getdi>>.

**Hafiz**: «Cənab! Sizinlə olduğumuz bu gecələrdə ömür boyu unuda bilməyəcəyimiz böyük ləzzətlər aldıq. Xüsusilə məni minnətdar etdiniz. Allah-Təala və cəddiniz sizlərə mükafat versin.Həqiqətən, bir çox həqiqətləri ortaya qoydunuz. Əvvəlki gecələrdə dediyim kimi, məni ayıltdınız. Həqiqətən, mən o ilk gecəki insan deyiləm. Sizin hər cür şübhədən uzaq dəlillərinizi eşidən insaflı və ağıllı hər kəs mütləq oyanacaq, özünə gələcəkdir. Xüsusilə də mən çox istifadə etdim. Inşallah, Əhli-beyt (ə) vilayəti yolunda bu dünyadan köçər və Peyğəmbərin (s) hüzuruna üzüağ çıxaram.

Sizinlə daha çox danışmaq istərdim. Amma vaxt çox gec oldu. Bir çox şəxsi işlərimiz qalıb. Biz də iki gecə üçün gəlmişdik, amma çox çəkdi. Bu gecə son gecəmiz olsun. Sabah dəmir yolu ilə hərəkət edəcəyik. Bizim bölgəmizə də gəlsəniz, sizdən çox istifadə edərik».

**Dəvətçi**:«Bildiyiniz kimi, mən də sizinlə birlikdə səmimiyyət içində inad və təəssübdən uzaq söhbət etdim. Sizlərə böyük bir maraq və əlaqə duydum. Sizə mane olmaq istəmirəm. Amma inanın, gedəcəyinizi eşitdikdə çox narahat oldum. Böyük ariflərdən biri belə deyir:

Mən ünsiyyət və vüsala qarşıyam,

Çünki hər vüsaldan sonra ayrılıq gəlir.

İmam Əli (ə) də özünə mənsub olan «Divan»ında belə buyurur:

«Gəncə ölüm çətindir» deyirlər.

Vallahi, dostlardan ayrılıq daha çətindir.

Bu on gecə qonaqlardan, xüsusilə də sizdən, əsla, unuda bilməyəcəyim bir çox şeylər öyrəndim.

Yaxşı deyiblər, söz sözü çəkər. Beləcə, söhbətimiz çox uzun çəkdi. Hər axşam 6-7 saatdan çox vaxtınızı aldım. Lakin məclislərdə Qurani-kərim və hədis rəvayət etdiyimiz və cahilanə inad və bidət olan şeylərdən uzaq qaldığımız üçün ibadət etmiş olduq. Amma insan xətalardan uzaq deyil. Əgər mənim tərəfimdən bilmədən bir ehtiramsızlıq olmuşsa sizlərdəb üzr diləyirəm. Zəhmət olmasa, dualarınızda məni əksik etməyin>>.

**Hafiz**: «Söz gözəlliyiniz, lütfünüz, hər kəsə məlumdur. Heç birimiz sizə acıqlı deyilik.Gözəl əxlaq və ədəbiniz hamımızı cəzb etdi.Sözünüzün uzanmasından isə heç kəs sıxılmadı. Gözəl bəyanınız nə qədər uzunsa da, əsla, usandırıcı deyil».

**Dəvətçi:** «Sonda sizə təşəkkür edərək bir mövzunu xatırlatmaq istəyirəm.Sabah ümmətin xilaskarı və Peyğəmbərin (s) reyhanı imam Hüseynin (ə) mübarək doğum günüdür.Şiə qardaşlarımız tərəfindən Risaldar hüseyniyyəsində mərasim təşkil ediləcəkdir, hamınızı -bütün əhli-sünnət qardaşlarımı səmimən oraya dəvət edirəm.

Peyğəmbərə (s) olan xüsusi marağınız və imam Hüseynin ruhunu sevindirmək üçün siz əhli-sünnət qardaşlar da təşrif gətirin. Bu mərasimə qatılmağınız hər kəsi sevindirəcək. Bildiyiniz kimi, şiə və sünni qardaşların bu mərasimə qatılması müsəlmanların düşmənçiliyini istəyənləri heyrətə gətirəcək».

Bu kitabı 1374cü il Cəmadius-sani ayında qurtardım. Bəndəniz fani qul Muhəmməd Musəvi( Sultanul-Vaizin-Şirazi)

## İMAM HÜSEYNİN (Ə) MÜBARƏK DOĞUMU

On iki ay arasında şaban ayı

Xeyir və bərəkətilə məşhurdur.

həzrət Hüseynin doğumunu müjdələr,

İçimizdən qəm və kədəri silər.

Hər tərəfdən təbrik səsləri yüksəlir,

3 şabanda vilayət sabahı?

Rəsulun (s) nəvəsinin doğumuyla nurlandı.

O, qurtuluş qapısı,əfv səbəbidir.

Ondan uzanmışdır imamət ağacının budağı,

Vilayətin nurlu meyvələri sonrakı doqquz imamdır.

Onun nuruyla aydınlanmışdır nübuvvət baxçası,

Gül və meyvə ilə doludur.

Şiələrə bu gün mübarək olsun,

Onun sevgisilə hər cür şübhədən uzaq olanlara.

3 şaban 1345-ci ildə Risaldar hüseyniyyəsində ağamız və iki dünyanın ağası Əbu Əbdillah Hüseyn Əli oğlunun (Allahın ona, babasına, atasına, anasına, qardaşına və nəslindən olan 9 məsum imama salamı olsun) doğum günü münasibətilə böyük bir mərasim təşkil olundu. Səhər tezdən insanlar axın-axın hüseyniyyəyə gəlirdilər. Mən də evimə gələn şiə alimləri və şəxsiyyətləri ilə birlikdə hüseyniyyəyə getdim. Oranın alt və üst mərtəbələri, bütün otaqları, hətta damı belə tamamilə şiə və sünni müsəlmanlarla dolmuşdu. Əhli sünnət alimləri də Hafiz Muhəmməd Rəşid və Şeyx Əbdüs-Salam ilə birlikdə təşrif gətirdilər. İçəri daxil olduqda böyük bir canlanma və sevinc gördüm.

Mənim üçün xüsusi bir yer ayırmışdılar. Amma mən əhli-sünnət alimlərinə ehtiram olsun deyə, onların yanına getdim. Onlar da mənim bu ehtiram və məhəbbətimə çox sevindilər. Qucaqlaşıb, görüşdük və oturduqdan sonra məclisə şərbət və şirniyyat ikram etdilər. İki nəfər məddah da Əhli-beytə(ə) urdu və fars dilində mədhiyyə oxumağa başladı.

Daha sonra Pişavərin şiə şəxsiyyətlərindən olan Sərdar Əbdüs Saməd Xan bir qrup insanla birlikdə yanıma gələrək,

məni minbərə dəvət etdib, camaata bayram günu bayram hədiyyəsi olaraq moizə etməyimi tələb etdi. Hər nə qədər «yox» dedimsə də, onlar israr etdilər. Hafiz bəy dedi: «Bu gün sizinlə son günümüzdür. Zəhmət olmasa, qəlbimizi qırmayın».Xətirlərinə dəymək istəmədim.Ehtiram göstərərək minbərə çıxdım və günortaya qədər nitq söylədim. Daha sonra şiə və sünni qardaşlar hamımız bir yerdə namaz qılıb xatirə şəkili çəkdirdik. Yeni 6 nəfər şiə olan qardaşların iftixarına yemək verildi. Qəzet və jurnalların da yazdığı və bütün on gecə ərzində etdiyimiz faydalı söhbətlərin xülasəsi sayılan nitqimi də bu kitaba əlavə etmək istəyirəm:

**BİSMİLLƏHİR RAHMƏNİR RAHİM**

**«Allahım, köksümü aç, mənə əmrini asanlaşdır, dilimdən düyünü aç, sözümü anlaşılan et>.**

İlklərin ilki və sonların sonu Allah-Təlaya həmd olsun. Vücudun sirri, hər varlığın əvvəli, həmd bayrağı və məqami mahmudun sahibi, keçmişlərin xatəmi, parçalananların fatihi, haqqı haqla elan və batil ordularını dəf edən, zalımların hücumlarını dəf edən ümmi-nəbi, Məkkəli, Mədinəli, Qüreyşi, haşimi, əbtəhi, ilklərin və sonların ağası, aləmlərin Rəbbinin həbibi, nəbilərin və rəsulların xatəmi Əbil-Qasım Muhəmmədə və elm və hidayət səmasının günəşləri, hikmətin qaynaqları, Allahın dəyərli varlıqları və böyük ayələri olan məsum vəsilərinə və tahir Əhli-beytinə səlatu-salam olsun. Qiyamətə qədər düşmənlərinə, fəzilətlərini inkar edənlərə lənət olsun. Daşlanmış Şeytandan Allah-Təalaya sığınıram.

Həkim olan Allah-Təala kərim olan Kitabında belə buyurur: «Ey iman gətirənlər! Allaha itaət edin. Peyğəmbərə və sizdən olan ulul əmrə də itaət edin. Əgər bir xüsusda anlaşılmamazlığa düşsəniz-Allaha və Axirətə həqiqətən inanırsınızsa - onu Allaha və Rəsula aparın (onların təlimatına görə həll edin). Bu daha xeyirli, nəticə baxımından da daha gözəldir.[72]

## AZADLIQ VƏ HÜRRİYYƏT

Son günlərdə hər kəsin dilinə düşən və öz məqsədinə çatmaq üçün qaynaq halına gətirilən mövzulardan biri də azadlıq və hürriyyətdir. Bir ovuc dardüşüncəli və zəif fikirli insanlar hürriyyət və azadlıq adı ilə Xatəmül-ənbiyanın (s) yolundan ayrılmış, dindarlar sırasından çıxmışlar. Halbuki, azadlıq adı ilə aləmlərin Rəbbinə ibadət və haqq dinlərdən uzaqlaşmanın elm və əqlə zidd olduğunu anlaya bilməmişlər. Bu cür azadlıq, insan cəmiyyətlərinin dağılmasına, əql və elm sahibilərin nifrət və qəzəbinə səbəb olur.

Əlbəttə, insanın insana qulluğundan azad olmaq, kor-koranə insanlara itaətdən müstəqilləşmək gözəldir. Çünki ağıl nuruyla işıqlanan elm və mərifət sahibi, özü kimilərə tapınmaqdan azad olmalı, heç kimə kor-koranə itaət etməməlidir. Əks təqdirdə, zəlalət və şəkk-şübhələrin içində boğulmaqdan qurtula bilməyəcəkdir. Məxluqatın əşrəfi olan

---

[72] Nisa, 59

insan, əqli və nəqli dəlillərinə əsasən, layiq və qabiliyyəti olanlara itaət etməlidir.

Aydındır ki, həmd-səna (sitayiş) bütün varlıqları yaradan Allah Təalaya məxsusdur. Əqli dəlillər hər şeyi yaradan uca Allah qarşısında bu zəif insanın itaət etməsinin lüzumluluğuna hökm edir. Allahın, itaətini əmr etdiklərindən başqa heç kəsə itaət caiz deyil! İnsanlara itaət nöqtəsində ən güclü sənədimiz Qurandır. Kitabi-müqəddəsə müraciət etsək açıq-aşkar görərik ki, Quran əqli qaydalar əsasında kimlərə itaət etməyimizi bir neçə ayədə aydın şəkildə bildirmişdir. Bax, bu ayələrdən biri, əvvəldə də oxuduğum bu ayədir:

«Allaha, Rəsula və sizdən olan əmr sahiblərinə itaət edin».

O halda bu ayənin hökmünə əsasən Allah-Təalaya itaətdən sonra bəşəriyyətdən, yalnız və yalnız Peyğəmbərə (s) və bizdən olan əmr sahiblərinə itaət vacibdir.

Rəsulallaha (s) itaət nöqtəsində bütün ümmət bir fikirdədir, heç kimsə bunu inkar etməmişdir. Ümmət arasında ixtilaflı olan mövzu bu ayədə buyurulan «Sizdən olan əmr sahiblərinə» itaətdir.

Əhli-sünnətə görə ayədə buyurulan «əmr sahibi»ndən məqsəd əmrlər, valilər, ordu sərdarları, sultanlar və zahiri hökmdarlardır. Bu səbəbdən əhli-sünnət qardaşları sultanlara itaəti vacib bilirlər. Hər nə qədər fisq, fücur və zalım əhli olsalar da, onlara görə «əmr sahibləri>> olduğu üçün itaətləri də vacibdir.

Halbuki bu inanc, əqli və nəqli dəlillərlə də batildir. Əgər bu fikrin batil olduğunun bütün dəlillərini saymağa başlasaq, bir aydan çox vaxtımızı alar. Lakin «Bütünlüklə əldə edilməyən şey bütünlüklə də tərk edilməz» qaydası və «Dəniz suyunu çəkə bilməsək də, susuzluğumuzu yatırana qədər içməliyik» ifadəsinə əsasən, mövzuya qısa da olsa aydınlıq gətirməyə çalışacağam. İnsaf əhli ədalətlə hökm versin və həqiqətlər ortaya çıxsın.

Şübhəsiz, cəmiyyətə hökm edən sultan və əmrlər üç qisimdir.Ya icma ilə seçilmişlər, ya zorla hakimiyyəti ələ almışlar,ya da Allah Təala tərəfindən seçilmişlər. Müsəlmanlar bir fərd haqqında icma edib onu başa keçirərlərsə, ona itaət Allah-Təala və Peyğəmbərə (s) itaət kimi vacibdir. Amma müsəlmanların hamısının təmiz və kamil bir insan haqqında ittifaq edəcəklərinin heç bir əqli dəlili yoxdur. Çünki müsəlmanlar hər nə qədər güclü bir anlayışa sahib olsa da, zahirə görə hökm edir və insanların nəyə inandıqları barədə xəbərsizdirlər. Müsəlmanlar hər nə qədər ağıllı və savadlı olsalar da, seçim işində ulul-əzm peyğəmbərlərdən olan həzrət Musadan (ə) daha alim ola bilməzlər. Onların hamısının ağlı Allah-Təalanın elçisinin kamil ağlından üstun ola bilməz!

Həzrət Musa minlərlə bəni-Israil alimləri arasından, zahirlərinə hökm edərək, 70 nəfəri seçdi. Çünki peyğəmbərlər də zahirlə əmr olunduqları üçün işin batininə baxmır və zahirinə etibar edirdilər. Həzrət Musa bu 70 nəfəri özü ilə götürərək Sina dağına apardı. Amma imtahan əsnasında hamısı fasiq və həlak oldu. Daha doğrusu, onların əvvəldə də sağlam

bir inanca sahib olmadıqları anlaşıldı. Yəni imtahan əsnasında pərdə qalxdı və batinləri zahir oldu. Bu səbəbdən Allah-Təala «Əraf» surəsinin 155-ci ayəsində buna işarə etmişdir.

O halda həzrət Musanın seçdiyi insanlar belə fasid və günahkar çıxa və ildırımla cəzalandırıla bilirlərsə, digərlərinin həqiqi anlamda seçim gücünə sahib olmadığı öz-özlüyündə ortaya çıxmış olur. Çünki onların zahirə görə seçdiyi insan həqiqətdə kafir və ya fasiq ola bilər. O, sakit-sakit öz əqidəsini gizlədərək səltənət taxtında oturduqdan sonra hədəflərini ortaya çıxaracaq və tədricən həyata keçirməyə başlayacaq. Bu səbəbdən bir çox sultanlar, hətta milli məclis təmsilçiləri də həmişə belə davranmışdır. Bu cür adama itaət dini yox edər, Islamın əsərlərini ortadan qaldırar və insanların haqqının tapdalanmasına səbəb olar. Allahın zalım və fasiqlərə itaəti, Öz itaəti kimi sayması mümkün deyil! O halda bu nəzərin batil olduğu açıq aydın ortadadır.

Bundan başqa, ümmətin şəri icması hər zaman bütün İslam ümmətinin həqiqi seçimi ilə olmalıdır. Bəlli bir millətə xas deyildir, bütün müsəlmanlar bunda iştirak etməlidirlər. Bir qrup müsəlmanın seçdiyi kəsə başqa müsəlmanların məcburi itaəti, əsla, doğru deyil! Daha doğrusu, onlara müxalifət edənləri də kafir və müşrik saymaq caiz deyil. Üstəlik 1300 illik İslam tarixini araşdırsaq, Peyğəmbərdən (s) sonra heç kim haqqında belə bir icmanın gerçəkləşmədiyini aydın şəkildə görərik. Bu halda icma tarix boyu həqiqiləşməmişdir və həqiqiləşməyəcək də.

Xüsusilə də İslam ölkəsinin parça-parça bölündüyü dövrümüzdə har dövlətin bir əmiri və idarəedicisi vardır. Əgər hər ölkənin bir rəhbəri olarsa o zaman ulul-əmr çoxalar, heç bir dövlətin başçısı başqa bir ölkənin başçısının əmri altına girməz və aralarında ixtilaf və müharibə yaranar.

İslam tarixi örnəklərlə doludur. Hər ölkənin müsəlmanları da öz əmirlərinə itaət edərək bir-birinin canına düşüb, müsəlmanları qətl edəcəklər. Müsəlman qardaşını öldürən bu insanların Cənnətə getməsi düşünülə bilərmi? İslam belə bir şeyi əmr etməmişdir! İslam dini ağıl sahiblərinin qəbul etməyəcəyi bir şeyi əmr etməz! Xüsusilə də müsəlmanların ayrılığa və təfriqəyə düşməsinə səbəb olan şeyləri tövsiyə etməz. Belə olan təqdirdə Allah-Təala tərəfindən seçilən bir rəhbər icma ilə seçilmiş sayılmaz.

Burada olduğumuz müddət ərzində şiə və sünni alimlərin hüzurunda icmanın əqlən və nəqlən batil olduğunu isbat etmişəm. Hesab edirəm, məclisdə iştirak etməyənlər bunu qəzet və jurnallardan oxumuşlar. (Bax: kitabın əslində 482- 491 və 472-748-ci səhifələrə qədər)

İkinci növ hökmdarlar isə zorla hakimiyyətə keçənlərdir. Facir, qaniçən və dağıdıcı bir sultan zorla, hoqqabazlıqla xalqa müsəllət olarsa, ona itaət vacib ola bilərmi? Qantökən və fasiq sultanlara itaət etməyin Allah-Təala və Peyğəmbərə (s) itaət kimi olduğunu hansı ağıl qəbul edə bilər? Əgər belə olmuş olsaydı, o halda əhli-sünnət alimləri öz kitablarında niyə zalımları tənqid edir və Müaviyə, Yezid, Ziyad ibn Ubey,

Ubeydullah, Həccac, Əbu Sələmə, Əbu Müslim və digər zalımları qınayırlar?

Əgər kimsə inad üzrə bu cür insanların müsəlmanların xəlifəsi və bu səbəblə də itaətlərinin fərz olduğunu söyləyərsə (bəzi əhli sünnət alimləri belə demişdir), bilin ki, heç şübhəsiz, belə bir itaət Qurana ziddir! Çünki Allah-Təala bir çox ayədə kafir, fasiq və zalımlara lənət edir, müsəlmanları onlara itaət etməkdən çəkindirir. Bu halda necə olur ki, Allah-Təala bu ayədə fasiq, facir və hətta kafirə itaəti əmr etmiş ola bilir?

Şübhəsiz, iki təzadlı nəzəri Allah-Təalaya istinad etmək çox çirkin bir işdir. Əhli-sünnətin böyük alimi Fəxri Razi məzkur ayənin təfsirində belə deyir: «Ulul-əmr mütləq günahlardan məsum olmalıdır; əks təqdirdə, Allah-Təala ona itaəti özünə və Peyğəmbərə (s) itaətlə bir yerdə zikr etməzdi>>.

Beləliklə, sadəcə ulul-əmrin Allah-Təala tərəfindən seçildiyi anlaşıldı. Şiənin nəzəri də elə budur.

Şiəyə görə ulul-əmr də eynən Peyğəmbər (s) kimi təmiz, pis əxlaqdan münəzzəh, kiçik-böyük, zahir-batin - bütün günahlardan məsum olmalıdır. Heç kim başqasının batinini bilmədiyi üçün də ulul əmri mütləq Allah-Təala seçməlidir. Xatəmül-ənbiya Muhəmmədi (s) insanlar arasından seçib risalətlə vəzifələndirən uca Allah, ulul-əmri də seçməli və onları ümmətə tanıtmalıdır.

Bu dəlillərdən əlavə, bilavasitə ayənin özü də ulul-əmrin risalətdən başqa, Peyğəmbərin (s) bütün sifətlərinə sahib olmasının zəruriliyini əmr edir. Insanın bütün sifətlərini Allahdan başqa heç kim bilmədiyi üçün seçim haqqı Allah-Təalaya məxsusdur. Bu səbəbdən ayədə vacibul-vücud» (xaliq) və «mümkünül-vücud» (məxluq: Peyğəmbər) arasındakı fərq səbəbilə iki dəfə «ətiu» (itaət edin) demiş buyurmuşdur: «Allah-Təalaya itaət edin və Rəsula itaət edin».

Allah-Təalaya vacibul-vücud olduğu üçün itaət edin. Onun həyat, elm, hikmət, qüdrət və bənzəri varlıq sifətləri bilavasitə zatının eynidir. Peyğəmbərə (s) də mümkünül-vücud, saleh qul və bütün gözəl sifətlərin sahibi olduğuna görə itaət edin və bilin ki, bütün bu sifətlər Ona Allah-Təala tərəfindən verilmişdir. Lakin növbə ulul-əmrə gəldikdə, «ətiu» (itaət edin) feli təkrar edilmir. Sadəcə bir «vavi-ətf>> - bağlayıcı ilə ulul-əmri tanıdır.

Əlbəttə, burada maraqlı bir incəlik vardır. Ağıl sahiblərinə söyləmək istəyir ki, ulul-əmr də Rəsulallahın (s), risalətindən başqa, sahib olduğu hər şeyə sahib olmalı, Onun ayə nazil olma, vəhy risalətin təbliğində müstəqillik xüsusiyyətlərdən başqa bütün xüsusiyyətlərini daşımalıdırlar. Daha doğrusu, ulul-əmrə itaət Peyğəmbərə (s) itaətin növüdür. Ulul-əmr dinin qoruyucusu, icraçısıdır. Daha doğrusu, şiə ulul-əmrdən məqsəd Peyğəmbərin (s) nəslindən olan həzrət Əli (ə) və Onun on bir övladı olan Əhli-beyt (ə) imamlarıdır. Bu ayə on iki Əhli-beyt imamlarının imamətini isbat etmək üçün şiənin ən böyük dəlilidir.

Hər bir baxımdan inancımızı isbat edən bir çox ayə vardır. Məsələn:

«Bəqərə» surəsinin 124-cü ayəsi: «**(Allah İbrahimə:) «Mən səni insanlar üçün imam qərar verirəm. (İbrahim isə:) «Nəslimdən necə?»,- deyə soruşdu. (Allah onun cavabında:) Əhdim zalımlara çatmaz (onlar üçün söz verməərəm)- buyurdu>>.**

«Əhzab» surəsinin 6-ci ayəsi: «**Peyğəmbər, möminlərə öz canlarından daha yaxındır. həyat yoldaşları, onların analarıdır. Əqrəba olanlar, Allahın Kitabına görə, (miras baxımından) bir birinə digər möminlərdən və mühacirlərdən daha yaxındır».**

«Tövbə» surəsinin 119-cu ayəsi: **«Ey iman gətirənlər! Allahdan qorxun və doğrularla bərabər olun».**

«Rəd» surəsinin 7-ci ayəsi: **«...Sən ancaq (insanları Allah əzabı ilə) qorxudansan və hər cəmiyyətin bir rəhbəri vardır»**.«Ənam» surəsinin 153-cü ayəsi: «**Şübhəsiz, bu Mənim doğru yolumdur. Elə isə o yola tabe olun! Bundan başqa yollara uymayın. Çünki o yollar sizi Allahın yolundan ayırar...>**

«Əraf» surəsinin 181-ci ayəsi: **«Yaratdıqlarımız arasında bir zümrə vardır ki, daima haqqa səsləyir və ədaləti haqq ilə yerinə yetirir».**

«Ali-İmran» surəsinin 103-cü ayəsi: **«Hamınız birlikdə Allahın ipinə (İslama) möhkəm sarılın, ayrılmayın...>>**

«Nəhl» surəsinin 43-cü ayəsi: **«...Əgər bilmirsinizsə, zikr əhlindən soruşun».**

«Əhzab» surəsinin 33-cü ayəsi: «...**Ey Əhli-beyt! Allah ancaq sizdən günahı yox etmək və sizi tə_rtəmiz etmək istəyir».**

«Ali-İmran» surəsinin 33 və 34-cü ayələri: **«Allah bir-birindən gəlmə bir nəsil olaraq Adəmi, Nuhu, İbrahim va İmran ailəsini seçib aləmlərə üstün etdi»**. «Fatir» surəsinin 32-ci ayəsi "**Sonra kitabı Qullarımız arasında seçdiklərimizə verdik".** «Nur» surəsinin 35-ci ayəsi: «**Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir çıraqdana bənzər. O çıraq lampanın içindədir, o lampa isə, parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə qərbdə olan mübarək bir zeytun ağacından yandırılır, sanki haradasa işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna qovuşdurar».**

Daha bir çox ayə vardır. Amma bu qədəri ilə kifayətlənirəm. Xətib Xarəzmi «Mənaqib»də, imam Əhməd «Müsnəd»də, hafiz Əbu Nəim «Mə nəzələ minəl-Quran fi Əli»də və hafiz Əbu Bəkr Şirazi «<Nuzulul-Quran fi Əmirəl-möminin»də Peyğəmbərin (s) belə buyruğunu qeyd etmişdir: «Qurani-kərimin dörddə biri biz Əhli-beyt haqqında nazil olmuşdur>>.

Həmçinin, Hafiz Əbu Nəim «Mə nəzələ minəl-Quran fi Əli»də, Əhməd hənbəl «Müsnəd»də, Vahidi «Əsbabun-nuzul»da, Muhəmməd ibn Təlhə «Mətalibüs-süal»da, İbni

Əsakir və Mühəddisi-Şam «Tarix»də, hafiz Əbu Bəkr Şirazi «<Nuzulul-Quran fi Əmirəl-möminin»də, Muhəmməd ibn Yusif «Kifayəut-talib»in 62-ci babının əvvəlində, Xacə Kəlan Süleyman Bəlxi, «Yənabiül-Məvəddə»nin 42 ci babında Təbəranidən nəqlən Ibni Abbasın belə buyurduğunu rəvayət edir: «Quranda Əlini mədh edən 300-dən çox ayə vardır».

Əlbəttə, bu ayələrdən hər biri haqqında bir neçə saat söhbət açmaq lazımdır. Vaxt olmadığından, onlardan sadəcə bəzisini qeyd etdim.Tədqiqatçılar, xüsusilə açıq-aydın həqiqəti tapmaq üçün imam Fəxri Razi, imam Sələbi, Zəməxşəri, Siyuti, Təbərri, Nişaburi və Vahidinin təfsirləri ilə Həmvininin «Fəraidus-səmteyn», «Səhihi Buxari», «Səhihi-Müslim», «Sünəni-Əbu Davud», Həmidinin «Cəmun-beynəs-Səhiheyn», Əhmad ibn hənbəlin «Müsnəd», İbn həcərin «Səvaiq», Xərquşinin «Şərəful-Mustafa», İbni Əbil-hədidin «Nəhcül-bəlağənin şərhi», hafiz Əbu Nəimin «hilyətül-övliya>>, Şəhristaninin «Məfatihul-əsrar», Xarəzminin «Mənaqib», Malikinin «Fusulul-mühimma», hakim Əbül-Qasımın «Şəvaidut-tənzil", İbni Əbdülbirrin «Istiab», Cövhərinin «Səqifə», Xacə Kəlan hənəfinin «Yənabiül-məvəddə», Həmədaninin «Məvəddətül-qurba», İsfahaninin «Ma nəzələ minəl-Quran fi Əli», Məhəmməd ibn Təlhənin «Mətalibus-süal», İbni Əsirin «Nihayə», Gənci Şafeinin «Kifayəut talib», Əbu Bəkr Şirazinin «Nuzulul-Quran fi Əmirəl-möminin, Seyid Əbu Bəkr ibn Şəhabəddin Ələvinin «Rəşfətus-Sadi» və digər bu kimi kitablara müraciət etsinlər.

Sözü uzatmaq istəmirəm. Dediyim kimi, şiəyə görə ayədəki «ulul-əmr»dən məqsəd, əqli və nəqli dəlillər əsasında, on iki Əhli-beyt (ə) imamlarıdır. Bu mövzuda bürhanlı dəlillər olduqca çoxdur. Amma məclisimiz bütün bunları nəql etməyə imkan vermir. Ayədəki dəlillərin hökmünə əsasən, itaət ediləsi ulul-əmr də Allah-Təala və Xatəmül-ənbiya kimi xətalardan məsum olmalıdır.

Bu səbəbdən imam Fəxri Razi «Təfsir»də bunu etiraf edərək belə deyir: «əgər ulul-əmrin məsum olmadığını söyləsək, onda ictimai-nəqizeyn[73] ziddiyəti ortaya çıxar ki, bu da qeyri-mümkündür. Ulul-əmr ümmətin ən alimi, fəzilətlisi, təqvalısı və kamili olmalıdır ki, Peyğəmbərin (s) bütün gözəl sifətlərinə sahib olsun və beləcə, itaəti vacib qəbul edilsin».

Bu sifətlər ümmət arasında, alimlərinizin də təsdiq etdiyi kimi, təkcə on iki imamda mövcuddur. Allah-Təala da "Təthir" ayəsində buna şəhadət vermişdir. Böyük alimlərinizin mötəbər kitablarında Əhli-beytin (ə) məsumiyyəti haqqında bir çox rəvayət nəql edilmişdir. Təbərrük olsun deyə, bunlardan bəzisinə toxunmaq istəyirəm.

Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 77-ci babının 445-ci səhifəsində və Həmvini «Fəraidus-səmteyn»də İbni Abbasdan belə rəvayət edir: Rəsulallahın (s) belə

[73] Termin olub, bir-birinə zidd olan iki şey mənasını ifadə edir.

buyurduğunu eşitdim: **«Mən, Əli, Həsən Hüseyn və Hüseynin nəslindən doqquz kişi pak və məsumuq»**.

Salman Farsi Peyğəmbərin (s) imam Hüseyni(ə) çiyninə qoyaraq belə buyurduğunu rəvayət edir: «**Bu, imam oğlu imamdır, bunun nəslindən doqquz kişi də nəciblər, əminlər və məsumlardır."**

Zeyd ibn Sabit, Rəsulallahdan (s) belə rəvayət edir: «**Şübhəsiz, Hüseynin sülbündən yaxşı, əmin, məsum və adil imamlar çıxacaqdır».**

İmran ibn Həsin Peyğəmbərin (s) həzrət Əliyə (ə) belə buyurduğunu rəvayət edir: **«Sən mənim elmimin varisi, məndən sonrakı xəlifəm və insanlara bilmədiklərini öyrədənsən. Sən iki nəvəmin atası, qızımın həyat yoldaşısan. Təmiz itrət və məsum imamlar sizin nəslinizdəndir».**

Bu mövzuda əhli-sünnət tərəfdən nəql edilən çoxlu sayda rəvayət vardır. Hesab edirəm, misal olaraq zikr etdiklərim kifayətdir. Onların elmi haqqında da əhli-sünnət tərəfdən bir çox rəvayətlər nəql olunmuşdur.Keçən  gecələrin birində bu barədə uzun-uzadı danışmışdıq. Güman edirəm, jurnal və qəzetlərdə oxumusunuz. Burada da misal olsun deyə, birini zikr etmək istəyirəm.

Əbu İshaq Şeyxul-İslam Həmvini «Fəraidus-səmteyn», Hafiz Əbu Nəim İsfahani «hilyətül-övliya» və İbni Əbil-hədid <<Nəhcül bəlağənin şərhi» kitabında İbni Abbasdan Rəsuli-əkrəmin (s) belə buyurduğunu rəvayət edir: **«İtrətim mənim**

**mayamdan və ya zatımdan yaradılmışdır. Allah-Təala onlara elm və anlayış ehsan etmişdir. Onlara iftira atanlara vay olsun!>>**

İbni Əbil-hədid «Nəhcül-bəlağənin şərhi»ndə və «Siyərus səhabə» kitabının müəllifi Huzeyfə ibn Useyddən Peyğəmbərin (s) bir xütbədən sonra Allah-Təalaya həmd edib belə buyurduğunu rəvayət edir: **«Sizlərə iki dəyərli əmanət qoyuram: Allahın Kitabı və itrətim olan əhli-beytim. Onlara sarılsanız, qurtuluşa çatarsınız».**

Təbərani bu əlavəni də rəvayət edir: **«Onlardan önə keçməyin; həlak olarsınız. Onlardan geri qalmayın; həlak olarsınız. Onlara öyrətməyə çalışmayın ki, şübhəsiz, onlar sizdən daha alimdirlər>>.**

Başqa bir rəvayətdə Huzeyfə ibn Useyd Rəsulallahın (s) belə buyurduğunu nəql edir: **«Məndən sonrakı imamlar Əhli beytimdəndir. İsrail oğullarının rəhbərlərinin sayı (12) qədərdilər. Doqquzu Hüseynin soyundandır. Allah-Təala onlara mənim elm və anlayışımı verib. Onlara öyrətməyə çalışmayın, onlar sizdən daha alimdirlər. Onlara tabe olun. Şübhəsiz, ki, onlar haqladır və haqq da onlarladır».**

Əhli-sünnət alimlərinin nəql etdiyi bu rəvayətlər də imamların ismət və elmini isbat edən əqli dəlilləri təyid edir. Bəzi düşmənlər şəkk və şübhə yaratmaq üçün Quranda niyə Əhli-beyt (ə) imamlarının adlarının yazılmadığını söyləyirlər. Dünən axşamkı məclisimizdə də məndən bunu soruşdular və

vaxt olmadığı üçün cavabını bu günə saxladım. İndi Allahın iznilə bu suala cavab verməyə çalışacağam.

Bəzilərinin yol verdiyi səhvlərdən biri də, Quranda bütün hər şeyin ən incə nöqtəsinə qədər yer aldığını düşünməsidir. Halbuki, Quran səmavi, möhkəm bir kitabdır. Olduqca müxtəsər və mücməl nazil olmuşdur; sadəcə ümumi hadisələrə işarə edilmiş, təfərrüatı isə Xatəmül-ənbiyaya (s) həvalə edilmişdir. Bu səbəbdən «Həşr»surəsinin 7-ci ayəsində belə buyurulur: «**...Peyğəmbər sizə nə versə onu alın, sizə nəyi qadağan etsə ondan çəkinin....>>**

Qurani-kərimin bütün hökmlərinə baxsaq, sadəcə külli və təməl hökmlərin nəql edildiyini, açıqlanmasının isə Peyğəmbərə (s) həvalə olunduğunu açıq-aydın görürük. Amma ağalar etiraz edərək:<**<On iki imamın adı Quranda olmadığı üçün qəbul və itaət etmirik**>> deyirlər.

İradınızın cavabı belədir: «Əgər Quranda adı zikr edilməyən, təfərrüatı ilə qeyd olunmayan hər şeyin tərk edilməsi lazımdırsa, onda raşidi xəlifələrə, Əməvi, Abbasi və digər sultanlara itaəti də tərk etməyiniz zəruriləşir! Çünki həzrət Əlidən (ə) başqa digər raşidi xəlifələr, Əməvi, Abbasi və digər sultanlar haqqında da onların adları və sayı haqqında bir izahat mövcud deyildir. Bu halda niyə onlara itaət edir, müxaliflərini kafir və müşrik sayırsınız?!

Bundan əlavə, əgər Quranda zikr edilməyən hər şeyin tərk edilməsi zəruri olsaydı, bu halda bir çox ibadətlər və əhkamın

da tərk edilməsi lazım gələrdi. Çünki onlardan heç birinin təfərrüatı Quranda yoxdur.Hətta namaz haqqında belə bir izah yoxdur. Halbuki, namaz dinin təməlidir.Şiə və sünninin birgə nəzərinə əsasən də, Xatəmül ənbiya (s) bu mövzuda çox böyük təkid və tövsiyyələr etmişdir: **«Namaz dinin dirəyidir. Əgər namazınız qəbul edilərsə, digər əməlləriniz də qəbul edilər. Yox əgər namazınız rədd edilirsə, digər əməlləriniz də rədd edilər».**

Qurana baxsanız namazın rəkətlərinin sayı, qılınışı, qiraət, ruku, səcdə, zikr və təşəhhüd haqqında heç bir açıqlamanın mövcud olmadığını görərsiniz.Belə olan təqdirdə izahı Quranda zikr edilmədiyi üçün namazı tərk etmək lazımdırmı?! Halbuki, heç də belə deyildir. Quranda sadəca «namaz qıl» və ya «namaz qılın» kimi ümumi təbirlər mövcuddur. Namazın rəkətlərinin sayı, fərzləri, müstəhəbləri haqqında təkcə Qurani-kərimin müfəssiri olan Peyğəmbər (s) izah vermişdir. Kitabi-müqəddəsdə digər hökm və qanunların da sadəcə ümumi bölümləri açıqlanmış, təfərrüatı, şərtləri və düsturları isə Rəsulallaha (s) həvalə edilmişdir. Rəkətlərinin sayı, cüzləri və əmrləri ümumi olaraq bəyan edilməsinə baxmayaraq, biz Peyğəmbərin (s) buyruğuna əsasən onun göstərişlərinə mükəlləfik.

Elə, Peyğəmbərdən (s) sonrakı xilafət və imamət mövzusu da Quranda müxtəsər bəyan edilmişdir: **«...Sizdən olan əmr sahiblərinə itaət edin».** Yəni Allah-Təalaya və Peyğəmbərə(s) itaətdən sonra əmr sahibinə itaət əmr edilmişdir.

Sözsüz ki, şiə və sünni alimləri namazı və s. hökmləri öz istək və iradələrinə görə şərh edə bilmədiyi kimi, əmr sahiblərini də öz istəkləri kimi məna və şərh edə bilməzlər.

Çünki şiə, sünni ittifaqıyla rəvayət edilən bir hədisdə Rəsuli əkrəm (s) belə buyurur: **«Quranı öz baxışına görə təfsir edən odun içində yerini hazırlasın>>.**

Əlbəttə, hər ağıllı müsəlman Qurani-kərim xüsusunda Peyğəmbərə (s) müraciət etməlidir.Əgər bu mövzuda Rəsulallah bir izah vermişdirsə, müsəlmanlar təəssüblərini bir tərəfə qoyaraq Ona itaət etməli və əmrlərinə tabe olmalıdırlar.

Uzun illərdir ki, şiə və sünni məzhəbinin rəvayət və təfsir kitablarını mütaliə edirəm. Hələ "ulul-əmr"dən məqsədin sultanlar olduğuna dair heç bir dənə belə hədis görməmişəm. Sünni və şiə ittifaqı ilə nəql edilən bir çox rəvayətdə Peyğəmbərdən (s) <<əmr sahibləri»ndən məqsədin kim olduğu soruşulduqda belə buyurmuşdur:«Əmir sahibləri»ndən məqsəd Əli və on bir övladıdır».

Vaxtımız çox olmadığı üçün, sadəcə bir neçəsinə işarə etmək istəyirəm. Diqqət etdiyiniz kimi, Əhli-beyt (ə) və xüsusi səhabə yolu ilə şiə alimlərinin nəql etdikləri mütəvatir rəvayətləri dəlil olaraq göstərmirəm. Əksinə, bilavasitə əhli-sünnət alimlərindən rəvayət edilən bir neçə rəvayəti, misal olsun deyə, nəql etmək istəyirəm. Bu mövzuda hökm verməyi də elm, məntiq və insaf sahibi olan sizlərin təmiz qəlbinə həvalə edirəm:

1.Həmvini «Fəraidus-səmteyn»də belə deyir: «Rəsulallahdan nəql edilən rəvayətlərə görə, ayədə keçən «ulul-əmr»dən məqsəd həzrət Əli və Peyğəmbərin Əhli-beytidir».

2.Isa ibn Yusif Həmədani Əbil-həsəndən, o da Suleym ibn Qeysdən, o da həzrət Əlidən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: **«Allahın, itaətini Öz itaətinə bərabər bildiyi və barələrində «Sizdən olan əmr sahibləri-deyə bəyan etdiyi kəslər mənim ortaqlarımdır. Onların sözündən çıxmamağınız lazımdır. Onlara itaət edin, hökm və əmrlərinə boyun əyin».Mən: «Ya Rəsulallah, ulul-əmr kimlərdir?»,-deyə soruşduqda belə buyurdu: «Ey Əli, sən onların ilkisən».**

Əhli-sünnətin böyük alimlərindən Muhəmməd ibn Mömin Şirazi «Etiqadat» adlı kitabında belə rəvayət edir: «Peyğəmbər (s) həzrət Əlini Mədinədə öz yerinə xəlifə təyin etdikdə «Sizdən olan əmr sahibləri» ayəsi həzrət Əli (ə) haqqında nazil oldu.

Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 38-ci babını bu ayəyə ayırmışdır. «Mənaqib»dən nəqlən «Təfsiri-mücahid»də belə yer aldığını rəvayət etmişdir: «Bu ayə həzrət Əlinin haqqında, Peyğəmbər (s) Mədinədə Onu öz yerinə xəlifə təyin etdikdə, nazil olmuşdur.

Həzrət Əli (ə) dedi: «Ya Rəsulallah, məni qadın və uşaqlarıma xəlifə edirsən?» Peyğəmbər (s) belə buyurdu: «Sən

mənə Harunun Musaya olan nisbətində olmaq istəməzsənmi?». Yəni Harunu Allah Təala Musaya xəlifə etdiyi kimi, səni də mənə xəlifə qərar vermişdir.

5. Şeyxül-İslam Həmvini öz sənədilə Süleym ibn Qeysdən belə rəvayət edir: «Osmanın xilafəti ərəfəsində bir qrup mühacir və ənsarı aralarında Bədir və Ühüd əshabı da var idi - öz fəzilətlərini danışan halda gördüm. Əli də onlar arasında oturmuşdu. Susub, onları dinləyirdi.

Əshab dedi:

- Ey Əli, siz də siz də bir söz deyin.

Həzrət Əli (ə) belə buyurdu:

-Bu rəvayət etdiyiniz fəzilətləri sizin üçün Allah-Təala ehsan etmişdir, yoxsa başqa birisi?

Allah-Təala Peyğəmbərin vücudu vəsiləsilə bizi minnətli etmişdir.

Siz Rəsulallahın belə buyurduğunu bilmirsinizmi?

**«Mən və Əhli-beytim Adəm yaradılmamışdan 14 min il əvvəl Allahın qüdrətində bir nur idik. Allah-Təala Adəmi yaratdıqda, o nuru onun sülbündə qərar verdi və yer üzünə endirdi. Daha sonra gəmidə həzrət Nuhun sülbündə qərar verdi. Daha sonra da atəşdə İbrahimin sülbündə qərar verdi. Bax beləcə, Allah-Təala bizi, əsla, haramzadə olmayan ana və ataların təmiz sülbündə və rəhmində qərar verdi>>.**

Bəli, biz də Peyğəmbərdən bunları eşitmişik.

Zəhmət olmasa, Allah xatirinə doğru söyləyin. Allah-Təala Quranda ilk iman gətirənləri digərlərindən üstün etməmişdirmi? Bilin ki, heç kim məndən əvvəl müsəlman olmamışdır.

Bəli, doğrudur.

Sizləri Allah-Təalaya and verirəm, düzünü deyin. «Xeyirdə öndə olanlar, əcirdə də öndədirlər»[74] ayəsi nazil olduqda Peyğəmbərdən bu ayənin kimlər haqqında nazil olduğu soruşulmadımı?Rəsulallah da cavabında belə buyurmadımı?: «Allah-Təala bu ayəni ənbiya və vəsiləri haqqında nazil etmişdir. Mən nəbi və rəsulların, vəsim olan Əli də vəsilərin ən üstünüdür».

Sizləri Allah-Təalaya and verirəm. Bilmirsinizmi ki, «Ey iman edənlər! Allaha itaət edin. Peyğəmbərə və sizdən olan ulul-əmrə də itaət edin»,[75] «Sizin dostunuz (vəliniz) ancaq Allahdır, Rəsuludur, namaz qılan və rüku etdiyi halda zəkat verən möminlərdir»,[76] «Yoxsa, güman edirsiniz ki, Allah içərinizdə cihad edənləri, Allahdan, Onun peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutanları ayırd etməmiş

---

[74] Vaqiə, 10

[75] Nisa, 59

[76] Maidə, 55

siz sərbəst buraxılacaqsınız?**",**[77] ayələri nazil olduqda, Allah-Təala Rəsulallaha namaz, zəkat və həcci təfsir etdiyi kimi, vilayət sahibini tanıtmasını və onlara vilayəti təfsir etməsini də əmr etdi. Peyğəmbər (s) də Qədiri Xumda məni insanlara vəli təyin etdi və belə buyurdu: «Ey insanlar! Allah-Təala məni risalətlə vəzifələndirəndə «məni təqzib edəcəklər»-deyə sıxıntı içində idim>>.

Daha sonra buyurdu: «Bilirsinizmi, Allah-Təala mənim mövlamdır, mən də möminlərin mövlasıyam və onlara öz nəfslərindən daha üstünəm>>.

Oradakılar: «Bəli,bilirik,ya Rəsulallah»-dedilər və O həzrət mənim əlimdən tutub belə buyurdu: **«Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır. Allahım, onun dostlarına dost, düşmənlərinə də düşmən ol!>>**[78]

Salman qalxıb: «**Ya Rəsulallah, Əlinin vilayəti necədir?», deyə soruşduqda Peyğəmbər belə buyurdu: «Əlinin vilayəti mənim vilayətim kimidir. Mən kimə öz nəfsindən daha üstünəmsə, Əli də ona öz nəfsindən daha üstündür>>.**

---

[77] Tövbə, 16

[78] Əvvəlki məclislərdə dediyim kimi,buradakı "mövla" kəlməsi "təsərrüfdə övla" mənasındadır.

Bundan sonra bu «vilayət ayəsi» nazil oldu: «Bu gün sizin üçün dininizi kamil etdim, sizlərə olan nemətimi tamamladım və sizə din olaraq İslamı seçdim».

Sonra Peyğəmbər  belə buyurdu: **«Dini kamala çatdıran, neməti tamamlayan, risalətimə və məndən sonra Əlinin vilayətinə rizayət göstərən Allah-Təala necə də böyükdür!»**[79]

Peyğəmbərə (s); **«Vəsilərini bizlərə açıqla» dedilər. O həzrət də belə buyurdu: «Əli mənim qardaşım, varisim və məndən sonra hər mömininin vəlisidir. Sonra iki oğlum Həsən və Hüseyn və Hüseynin nəslindən gələn doqquz imamdır. Quran onlarladır və onlar da Quranladır. Onlar hovuza - yanıma gələnə qədər də, əsla, bir-birindən ayrılmazlar>>.**

Vaxt olmadığı üçün qısa olaraq ərz etdiyim bu uzun rəvayətin ardından Süleym ibn Qeysin «Mənaqib»indən, İsa ibn Seriydən və İbni Müaviyədən də üç rəvayət nəql edir ki, hamısında da «ulul əmr»dən məqsədin Əhli-beyt (ə) imamları olduğu qeyd edilmişdir.

Hesab edirəm, «ulul-əmr»in mənasını isbat etmək üçün bu zikr etdiyim rəvayətlər kifayətdir. İmamların adları və sayları haqqında da əhli sünnətdən bir neçə rəvayət nəql etmək

---

[79] Bu rəvayət də "mövla" kəlməsinin "təsərrüfdə övla" mənasında olduğuna ən böyük dəlildir.

istəyirəm. Bu mövzuda Əhli beyt (ə) imamlarından nəql olunan mütəvatir rəvayətləri diqqətinizə çatdırıram:

1. Şeyx Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 76-cı babında Həmvininin «Fəraidus-səmteyn» kitabından, Mücahiddən, o da İbni Abbasdan belə rəvayət edir: «Nəsəl adında bir yəhudi Peyğəmbərin hüzuruna gələrək tövhid haqqında müxtəlif suallar soruşdu. Rəsulallah da ona cavab verdi. (Vaxt olmadığı üçün bu sualları ətraflı şəkildə zikr etmirəm) Nəsəl müsəlman oldu və belə dedi:

Ya Rəsulallah! Hər peyğəmbərin bir vəsisi vardır. Peyğəmbərimiz həzrət Musa Yuşa ibn Nunu vəsi seçmişdir. Söyləyin, sizin vəsiniz kimdir?

Rəsuli-əkrəm buyurdu:

-Mənim vəsim Əli ibn Əbu Talibdir. Sonra iki nəvəm Həsən və Hüseyndir. Ondan sonra da Hüseynin nəslindən doqquz kişidir. Zəhmət olmasa, adlarını da söyləyin.

Hüseyndən sonra oğlu Əli, Əlidən sonra oğlu Muhəmməd, Muhəmməddən sonra oğlu Cəfər, Cəfərdən sonra oğlu Musa, Musadan sonra oğlu Əli, Əlidən sonra oğlu Muhəmməd, Muhəmməddən sonra oğlu Əli, Əlidən sonra oğlu Həsən, Həsəndən sonra oğlu höccət Muhəmməd Mehdidir. Bunlar on iki nəfərdir.

Peyğəmbər (s), doqquz Imamın adlarını, hər imamın ölümündən sonra yerinə oğlunun keçəcəyini və ən sonuncu

imamın həzrət Mehdi olduğunu açıq şəkildə bəyan etmişdir. Har birinin şəhadətinin keyfiyyəti soruşulmuş, Rəsulallah da cavab vermişdir.

Daha sonra Nəsəl belə dedi:

- Allahdan başqa tanrı yoxdur. Şübhəsiz, ki, sən, Allahın rəsulusan və şəhadət edirəm ki, onlar səndən sonrakı vəsilərindir. Dediyin sözlərin hamısı doğrudur. Hətta mən özüm əvvəlki peyğəmbərlərin kitabında da görmüşəm və həzrəti Musanın (ə) vəsiyyətnaməsində kamilən qeyd edilmişdir.

Peyğəmbər (s) belə buyurdu:

- Xoş onları sevənlərə və onlara tabe olanların halına! Onlara qəzəblənən və müxalifət edənlərin vay halına!

Sonra Nəsəl bu şeri oxudu:

Ey uca məqam sahibi və xeyirli insan!

Allahın rəhməti olsun sənə!

Seçilmiş peyğəmbərsən.

haşimilik iftixarın,

Doğru yola yönəlməyi tapdıq sizinlə.

Sizinlə atəşdən qurtuluşa ümid edirik.

Xəlifələrin on iki ilə adlandırıldı.

Allah-Təala mərtəbələrini uca etdi.

Hər cür eyibdən münəzzəh etdi.

Onlara dost olan qurtulur,

Düşmən olan zərər çəkir.

On ikincisi gözlənilən

Mehdidir,

Zühuruyla özünə

susayanları sirab edər.

Əhli-beytin itaəti əmr

edilən seçkinlərdir,

Onlardan üz çevirən

Cəhənnəmdə əbədi qalar.

2. Xacə Kəlan «Yənabi»nin 76-ci babında Xarəzminin «Mənaqib»indən nəqlən Vasilə ibn Əsqa ibn Qərxəbdən, o da Cabir ibn Abdullahdan, həmçinin Əbül-Müfəzzəl Şeybani, Muhəmməd ibn Abdullah ibn İbrahim Şafeidən və o da öz sənədilə Cabir Ənsaridən belə rəvayət edir: «Cündəl ibn

Cünadə ibn Cübeyr adlı bir yəhudi Peyğəmbərin (s) hüzuruna gələrək tövhid haqqında sual verdi. Peyğəmbərdən (s) eşitdiyi cavablar sayəsində müsəlman oldu və belə dedi:

- Dünən axşam yuxuda həzrət Musanı gördüm. Mənə belə dedi: «Muhəmməd Xatəmül-ənbiyanın əli müsəlman ol və Ondan sonrakı vəsilərinə tabe ol....

Məni İslamla şərəfləndirən Allah-Təalaya həmd olsun. Zəhmət olmasa, mənə vəsilərini də tanıt ki, onlara itaət edim.

Peyğəmbər (s) buyurdu:

- Mənim vəsilərim on iki nəfərdir.

Doğrudur, mən də Tövratda bunu görmüşəm. Zəhmət olmasa, adlarını da söyləyin.

Onların ilki vəsilərin ağası, imamların atası Əlidir. Sonra iki oğlu Həsən və Hüseyndir. Sən onların üçünü görəcəksən, ömrün sona çatanda Zeynəl-Abidin doğulacaq.Sənin dünyadan aldığın son qida süd şərbəti olacaq. Bu halda onlara sarıl, cahillərin cəhalətinə aldanma.

-Mən də Tövratda və nəbilərin kitabında Əli, Həsən və Hüseynin adını İlya, Şəbər və Şübeyr olaraq gördüm. Zəhmət olmasa, Hüseyndən sonrakı imamları mənə tanıt.

-Hüseynin müddəti bitəndə Zeynəl-Abidin ləqəbli oğlu Əli yerini alar. Ondan sonra Baqir ləqəbli Muhəmməd adında oğlu gəlir. Ondan sonra Sadiq ləqəbi ilə tanınacaq oğlu Cəfər gəlir.

Ondan sonra Kazım ləqəbli oğlu Musa gəlir. Ondan sonra Rza ləqəbli oğlu Əli gəlir. Ondan sonra Təqi və Zəki ləqəbli oğlu Muhəmməd gəlir. Ondan sonra Nəqi və Hadi ləqəbli oğlu Əli gəlir. Ondan sonra Əskəri ləqəbli oğlu Həsən gəlir. Ondan sonar Mehdi, Qaim və höccət ləqəbli oğlu Muhəmməd gəlir. O qeybə çəkiləcək. Sonra zühur edərək, zülmlə dolan yer üzünü ədalətlə dolduracaq. Xoş qeybində səbir edənlərin halına. Onların məhəbbəti üzrə sabit duranlara. Onlar necə də xoşbəxtdir. Allah-Təala onları Kitabında belə vəsf etmişdir: «Bu, qeybə iman gətirən müttəqilər üçün bir hidayətdir». (Qeybdən məqsəd o həzrətdir)

Daha sonra da Allah-Təala belə buyurur: «hizbullah, bax, bunlardır. Bilin ki, qalib gələnlər hizbullahdır>.

3. Əbül-Müəyyid Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»də öz sənədilə Əbu Süleyman Raidən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir:**«Allah-Təala Merac gecəsi mənə belə vəhy etdi: «Ey Muhəmməd, yer üzünə baxdım. İnsanlar arasından səni seçdim, öz adlarımdan birini sənə ayırdım. Mənim xatırlandığım hər yerdə sən də xatırlanırsan. Mən Mahmudam, sənsə Muhəmməd.**

**Səndən sonra da insanlar arasında Əlini seçdim. Ona da öz adlarımdan birini ayırdım. Mən Əlayam, o da Əli.**

**Ey Muhəmməd! Səni, Əli, Fatimə, Həsən və Hüseynin nəslindən gələn imamları öz ruhumdan yaratdım. Sizin vilayətinizi göylərə və yer üzünə təqdim etdim. Kim qəbul**

**edərsə mömindir; hər kim də inkar edərsə kafirdir! Ey Muhəmməd, onları görmək istəyirsənmi?» Mən: «Bəli»-dedikdə belə xitab etdi: «O halda ərşin sağına bax».**

**Ərşin sağına baxdıqda da Əli, Həsən, Hüseyn, Əli ibn Hüseyn, Muhəmməd ibn Əli, Cəfər ibn Muhəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Muhəmməd ibn Əli, Əli ibn Muhəmməd, Həsən ibn Əli və Muhəmməd Mehdi ibn Həsəni gördüm. Mehdi onlar arasında parlayan bir inci kimi görünürdü. O zaman belə bir ilahi xitab gəldi: «Ey Muhəmməd, bunlar mənim insanlara höccətlərim və sənin vəsilərindir».**

Zənn edirəm, imamların adlarının Nəbiyyi-əkrəmdən (s) rəvayət edilmədiyini söyləyənlərə qarşı bu üç rəvayət misal olaraq kifayətdir.

Bunlar bizim iddiamızı isbat edir. Bundan daha çoxunu bilmək istəyənlər Xarəzminin «Mənaqib», Süleyman Bəlxinin «Yənabiul məvəddə», Həmvininin «Fəraidus-səmteyn», Ibni Məğazelinin «Mənaqib», Mirseyid Əli Həmədaninin «Məvəddətül-qurba», Malikinin «Fusulul-mühimmə», Muhəmməd ibn Təlhənin «Mətalibus süal», Səbt ibn Cəvzinin «Təzkirə>> və əhli-sünnət alimlərinin digər kitablarına müraciət etməlidirlər. Şiədə rəvayət ediləndən əlavə, bilavasitə əhli-sünnətdən də bu mövzuda nəql edilən saysız-hesabsız rəvayət vardır.

Mirseyid Əli Həmədani «Məvəddətül-qurba»nın 12-ci Məvəddəsində Ömər ibn Qeysin belə dediyini rəvayət edir:

«Biz də Abdullah ibn Məsud ilə oturmuşduq. Bir nəfər bədəvi gələrək <<hansınız Abdullahsınız?»,-deyə soruşdu. Abdullah: «Mənəm»-dedi. Bədəvi ondan soruşdu: «Peyğəmbər özündən sonrakı xəlifələrini sizə xəbər verdimi?» Abdullah cavabında belə dedi: «Bəli. Peyğəmbər buyurmuşdu: «Məndən sonrakı xəlifələr İsrail oğullarının 12 rəhbərinin sayı qədərdirlər.

Əbdul-Məlikin rəvayətində də belə yer almışdır: «hamısı da haşim oğullarındandır». Yəni məndən sonrakı 12 xəlifənin hamısı haşim övladlarındandır).

Bu zikr etdiyim kitablardan başqa digər əhli-sünnət alimləri də öz kitablarında bu mövzuyla əlaqəli bir çox rəvayət nəql etmişlər. Xacə Kəlan Süleyman Bəlxi «Yənabiül-məvəddə»nin 77-ci babını bu mövzuya ayırmış və Şeyxeyn, Tirmizi, Əbu Davud, Müslim, Seyid Əli həmədani, Şəbi və digərlərindən bir çox rəvayətlər nəql etmişdir. Yəhya ibn Həsən «Umda» adlı kitabında 20 müxtəlif yolla belə rəvayət etmişdir: «Peyğəmbərdən sonrakı xəlifələr 12 nəfərdir, hamısı da Qüreyşdəndir».

Buxari 3, Müslim 9, Əbu Davud 3, Tirmizi 1 və Həmidi 3 yolla Peyğəmbərin (s) belə buyurduğunu rəvayət etmişdir: «Məndən sonrakı xəlifələr və imamlar 12 nəfərdir, hamısı da Qüreyşdəndir».

Bəzi rəvayətdə isə «hamısı da bəni-haşimdəndir»,-deyə qeyd olunmuşdur.

Süleyman Bəlxi «Yənabi»nin 446-ci səhifəsində bəzi əhli sünnət alimlərinin belə dediyini rəvayət edir: «Peyğəmbərin özündən sonrakı xəlifələrinin 12 nəfər olduğu barəsində bir çox məşhur hədis vardır. Özündən sonrakı xəlifələri təyin etməkdə məqsədi də Əhli-beyt imamlarıdır.

Bu hədislər digər səhabələrdən olan xəlifələrə tətbiq olunmaz.Çünki Peyğəmbər onların 12 nəfər olduğunu bildirmişdir. Halbuki, Xülafeyi-raşidin 4 nəfərdir.

Həmçinin. Üməyyə sultanlarına da tətbiq edilə bilməz. Çünki onlar 13 nəfərdirlər. Bundan əlavə, Ömər ibn Əbdüləzizdən başqa, hamısı zalım idi.[80] Həm də onlar bəni-haşimdən də deyildi. Halbuki, Peyğəmbər (s) özündən sonraki xəlifələrin hamısının bəni-haşimdən olduğunu açıq-aşkar bəyan etmişdir.

Abbasilar sultanlarına da şamil edilə bilməz. Çünki onlar 35 nəfərdirlər. Bundan əlavə, Allahın: **«De ki, mən bunun müqabilində sizdən əhli-beytimə sevgidən başqa bir şey istəmirəm"**[81] buyruğuna görə Əhli-beytin (ə) haqqına riayət etməmişlər.

---

[80] Ömərin zülmü üçün də xilafəti qəsb etməsi və zamanındakı imamı xanənəşin etməsi kifayətdir

[81] Şura, 23

Xülasə, Peyğəmbərdən (s) bu mövzuda rəvayət edilən hədislər, təkcə Əhli-beyt (ə) imamlarına şamil edilə bilər. Onlar dövrlərinin ən alimləri, ucaları, təqvalıları, nəcabətliləri, fəzilətliləri, Allah-Təala dargahında ən böyük kəramət sahibləri idilər. Elmləri atalarından, atalarının elmi də Peyğəmbərdən (s) vərasət yolu ilə gəlmişdir. Elm, təhqiq, kəşf və tövfiq əhli olanlar onları belə tanımış və tanıtmışlar.

Həmçinin, Rəsulallahın (s) buyurduğu 12 nəfərin Əhli-beyt (ə) imamları olduğunu göstərən hədislərdən biri də, sünni və şiənin təvatürlə rəvayət etdiyi Peyğəmbərin (s) Səqəleyn hədisidir: «Sizlərə iki dəyərli əmanət qoyuram: Allahın Kitabı və itrətimi. Bunlar hovuzda yanıma gələnə qədər, əsla, bir-birindən ayrılmazlar. Bunlara sarıldığınız təqdirdə, əsla, azmazsınız»).

Bu kitabda («Yənabi») rəvayət edilən bir çox hədislər də bu mənanı bildirir». Gördüyünüz kimi, bunlar əhli-sünnət alimlərinin nəzərləridir.

Bu halda yanlışlığa düşüb şiə müsəlmanları «rafizi» adlandırmayın.İşin içində elm və insaf olarsa, istər sünni olsun və ya şiə, mütləq bu təmiz fikirləri ifadə edəcəkdir.

Bu rəvayətlərdən başqa, bilavasitə dəyərli alimlərinizin baxışları da siz ağalara yol göstərici olmalıdır.

Şiələr Peyğəmbərin (s) Əhli-beytinə (ə) bağlanırlarsa, bilin ki,bu, Qurani-kərimin və Rəsuli-əkrəmin əmri üzrədir. İmamların adları, sayları və uca sifətləri təkcə şiə

rəvayətlərində mütəvatir olaraq rəvayət edilməmişdir, bilavasitə öz alimlərinizin kitablarında da yer almışdır. Əhli-sünnət alimlərilə fərqimiz budur: Onlar rəvayəti nəql edir, əhli-beyt (ə) haqqındakı ayələri yazır, nəzərlərini bildirirlər. Amma, həmişə olduğu kimi, adətlərinə uyaraq heç bir dəlil olmadan ata-babalarına tabe olurlar. Bəziləri də təəssübkeş olduqları üçün dilləri ilə təsdiq etmirlər. Bu insanlar, əsla, tərəqqi etməmişlər! Ağılları havayi-nəfslərinin və adətlərinin təsiri altında qalmışdır!

Bəzən də Peyğəmbərin (s) rəvayətləri haqqında elm əhlini təəccübləndirən laqeyd şərhlər edirlər. Əgər, həqiqətən, təəssüb və inadı bir kənara qoyarlarsa, elm, ağıl və insafla həqiqəti açıq-aydın görərlər. Bu səbəbdan hicri 255-ci ildə vəfat edən «Əl-Bəyan vət təbyin» kitabının müəllifi Əbu Osman Əmr ibn Bəhr Cahiz Bəsri əl Mötəzili aliminiz bu açıq-aydın həqiqəti etiraf etmişdir. Xacə Kəlan Hənəfi «Yənabiül-məvəddə»nin 52-ci babında onun bu sözlərini belə rəvayət edir: «Əhli-beytin (ə) digərlərindən üstünlüyü haqqında mübahisə etmək ağılları naqisləşdirər, gözəl əxlaqı pozar. Halbuki, haqqa itaət, Allahın Kitabındakı muradını tələb etmək, təəssüb və havayi-nəfsi tərk etmək, həmçinin keçmişlərimizi təqliddən çəkinmək lazımdır».

Amma təəssüflər olsun ki, bilmədən qələmləri belə yazsa da, adət və təəssübləri elm və ağıllarına qələbə çalır, açıq-aydın həqiqətlərin əksinə olaraq, atalarına tabe olur və ağıl sahiblərini təəssüfləndirirlər. Adət və təəssüb üzündən cidallaşır, nəfslərinə uyaraq haqsız yerə başqalarını əhli-

beytdən (ə) önə keçirir və bu mövzudakı Quran nəslərini və mötəbər rəvayətləri bir kənara qoyaraq dəlilsiz olaraq atalarına tabe olurlar.

Cəhalət və təəssübləri üzündən rəy və qiyas əhli olan Əbu Hənifə, Malik və digərlərinə uyur, amma Əhli-beyt (ə) fəqihi imam Cəfəri-Sadiqə diqqət etmirlər. Halbuki, böyük alimləri İbni Əbil-hədid «Nəhcül-bəlağənin şərhi» kitabının ön sözündə belə yazır: «Bunlar, Əhli-beytin (ə) elm və bəlağətindən istifadə etmişlər».

Lakin biz şişlər Allahdan qorxduğumuz və Axirətə inandığımız üçün əhli-sünnət kitablarında yer alan bu səhih rəvayətləri gördükdə təəssüb və adətlərin təsirində qalmadan Peyğəmbərin (s) buyurduqlarına və Allahın əmrlərinə qəlbən və dillə tabe oluruq. Beləcə, əbədi səadətə qovuşacağımızı ümid edirik. Çünki Rəsulallah əbədi qurtuluş və səadətin Əhli-beytə (ə) tabe olmaqda olduğunu buyurmuşdur.

Bu səbəbdən böyük alimlərinizdən Hafiz İbni Uqdə, Əhməd ibn Muhəmməd Kufi əl-Həmədani, öz alim və şeyxlərindən, onlar da Əbdül Qeysin belə dediyini rəvayət edirlər: «Bəsrədə Əbu Əyyub Ənsaridən uzun bir hədis eşitdim. Bu hədisin bir bölümündə - Peyğəmbər (s) belə buyurmuşdur: **«Merac gecəsi Ərşin dirəyində belə yazıldığını gördüm: Lə ilahə illallah Muhəmmədən Rəsulallah. Onu Əli ilə gücləndirdim; Ona Əli ilə yardım etdim». Həmçinin belə yazılmışdı:«Həsən, Hüseyn, Əli, Əli, Əli, Muhəmməd, Muhəmməd, Cəfər, Musa, Həsən və Höccət>>.**

Allah-Təaladan **«Bunlar kimdir?»,-deyə soruşdum. Belə vəhy oldu: Bunlar səndən sonrakı vəsilərindir. Xoş onları sevənlərin halına. Onlara qəzəb edənlərə yazıqlar olsun».**

(Daha sonra Nəvvaba dönərək, verdiyim cavabın onu qane edib etmədiyini soruşdum.)

**Nəvvab:** «Təşəkkür edirəm, ən gözəl şəkildə bəyan etdiniz, içimizdə heç bir şəkk və şübhə qalmadı. Allah-təala sizə və bizlərə xeyirli işlər nəsib etsin. (Oradakıların «amin»səsləri)

(Mən də qəlbən «amin»dedim. Çünki Allahdan başqa heç kəsdən bir əvəz gözləmirdim. Allah-Təala Əhli-beyt xatirinə bizlərə mərhəmət etsin. Bu günə qədər mərhəmət etdiyi kimi, son günə qədər də sonsuz mərhəmət və lütflər etsin.)

**DƏVƏTÇİ**: «Məclisdə olan hər kəsdən, xüsusilə də Hafiz ağadan və əhli-sünnət qardaşlarımdan nitqimin uzandığı üçün üzr diləyirəm. Amma sözümün sonunda dəyərli qardaşlarımı oyandırmaq üçün içimdəki inancları qısa şəkildə ifadə etmək istəyirəm. Bu bütün sünni və şiə qardaşlarıma bir bəyandır.

Əvvəla; bilməlisiniz ki, on gecə ərzində zikr etdiyim ayə və rəvayətlər qarşı tərəfə qalib gəlmək üçün nəql edilməmişdir. Sizi qarşımızda düşmən deyil, xaricilərin və nasibilərin sözlərinin təsirində müsəlman qardaşlarımız kimi görürük. Xüsusilə də nasibi, xarici və Əməvilərin Əhli-beytə düşmənçiliyi və bu mövzuda meydana atdıqları şübhələri də çox yaxşı bilirəm. Bu səbəbdən kin və düşmənçilik olmadan, məntiq və bürhan üzrə saf qəlblərindəki tozları təmizləməli, açıq-aydın

həqiqətləri isbat etməli, onları xarici və nasibilərin ortaya atdıqları şəkk və şübhələrdən qurtarmalıyıq.

Əgər Allah-Təala və Peyğəmbərin (s) əmr etdiyi və' böyük alimlərinizin bizlərə çatdırdığı haqq və açıq-aydın həqiqət yoluna girsəniz, (açıq şəkildə bəyan edirəm: əhli-sünnət alimlərinin yazdıqları, insanı vilayət yolunun məqamına qovuşduran ən yaxşı bələdçidir) həqiqi səadətə qovuşmuş olarıq. Əgər inad və təəssüb bu yolda birlikdə olmağımıza mane olarsa, yenə də kin və düşmənçiliyə qapılmadan qardaşcasına bir-birimizə sarılmalı, tövhid yolunda vəhdət içində hərəkət etməli, Quran düşmənlərinin arzularına çatmalarına mane olmalıyıq.

Bu gün müsəlmanlar həmişəkindən daha çox vəhdətə möhtacdır. Ətrafımızda saysız-hesabsız düşmənlər var. Onların bizlərə yeganə qalibiyyət yolu da nifaq və*** ixtilaflardır. Peyğəmbər (s) də belə buyurmuşdur: «Islam yeni meydana gəldiyi günlərdə qərib idi və tezliklə yenidən qərib olacaq».

Rəsulallahın (s) xəbər verdiyi zaman, bəlkə də, bu gündür. Çünki İslamın qürbət xüsusiyyətləri açıq-aşkar ortadadır.

İslam Ərəb yarımadasında zühur edəndə və Muhəmməd (s) insanlara göndəriləndə tövhid aləmi küfrün mühasirəsi altında idi. Din düşmənləri Peyğəmbərin (s) çəkdiyi zəhmətləri yox etmək istəyirdilər. Yəhudilər, xristianlar, materialistlər, bütpərəstlər və onların övladları o günün dünyasına hakim idilər. Bir ovuc tövhid əhli bütün küfr hakimiyyəti qarşısında

güc göstərə bilmirdi. Rəsuli-əkrəm (s) böyük zəhmətlərlə onlar qarşısında mübarizə apardı. Çox qısa bir müddətdən sonra tövhid dinini ucaltdı və müşriklərə qalib gəlib, dünyada elm və tövhid bayrağını dalğalandırdı. Peyğəmbəri (s) kafir və müşriklərə qalib edən xüsusiyyət tövhid və vəhdət idi: «Lə iləhə illallah» deyin ki, qurtulasınız» nidasıyla dağınıq ərəbləri birləşdirdi və bir araya gətirdi.

Rəsulallahın (s) bu dəyərli məsləhətləri və əldə etdiyi vəhdət sayəsində az bir müsəlman hərbi qüvvəsi olmadan o vaxtkı İran və Rum imperiyası kimi nəhəng küfr dünyasına qalib gəldi. Yarım əsr keçmədən tövhid bayrağı Qastəntəniyyə, Mədain[82] İspaniya və hətta Avropa qitəsinə qədər dalğalandı.

Əgər...İslam qərib qalacaqdır» hədisinə diqqət etsək, açıq aşkar İslam aləminin kafirlərin mühasirəsi altında olduğunu görərik. Dünyada tövhid və məntiqə söykənən həqiqətlərin bayraqdarı da sadəcə müsəlmanlardır. Bu səbəbdən düşmənlər də biz müsəlmanlara hücum edirlər. Bir tərəfdən materialistlər, Zimokratis, Mərmənd, Məzdək, Darvin, Bəxnər və davamçıları, bir tərəfdən də xristian misyoner və məqampərəst Vatikan papaları müvəhhid müsəlmanları mühasirəyə almış və bizi yox etməyə çalışırlar.

İstismarçıların bizi yox edib hakim olmalarının yeganə yolu nifaq və ixtilafdır. Bütün gücləri ilə müsəlmanlar arasına

---

[82] Ktesfon şəhərinin qədim adı

fitnə salmağa çalışırlar. Nifaq və fəsad törətməklə qalib gəlməyə, hökm etməyə çalışırlar. «Parçala, istismar et! siyasətini yeridirlər.

Şiə və sünni qardaşlar! Bilin ki, bu gün İslam qəribdir. Peyğəmbər (s) bölük-bölük düşmüş ərəbləri bir yerə cəmləyərək düşməninə qalib gəldiyi kimi, bu gün bizim də yeganə qalibiyyət yolumuz ittifaq və ittihat içində olmağımızdır.

Şirin dilli fars şairi belə deyir:

Gözəlliyin şirinliyi ilə birlikdə dünyanı aldı,

Bəli, birlik olunca dünya alınır.

Düşmənlərin gücündən qorxmayın! Sadəcə maddi təchizatla deyil, bütün vasitələrlə özünüzü hazırlayın. Onlar tank, top və digər maddi silahlarla hazırlanmışlarsa da, siz maddi və mənəvi təchizatlarla səfərbər olmağa çalışın. Quran «Ənfal» surəsinin 60-cı ayəsində belə buyurur: «Onlara (düşmənlərə) qarşı gücünüz yetdiyi qədər qüvvə və cihad üçün bəslənilən atlar hazırlayın. Onunla Allahın düşmənini,sizin düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi (düşman) kimsələri qorxudun...>>

Cəmiyyətdə mənəvi baxımdan da hazırlıqlı, ittihat və vəhdət içində olmalısınız. Qəlblərinizi təmizləməli, fəsad və ixtilafdan uzaqlaşmalı, müsəlmanları sünni, şiə. sufi va başqa adlarla bir birindən ayırmamalısınız. Amma əgər ixtilafa düşər, bir-birinizə qarşı savaşmağa başlasanız, heç şübhəsiz bilin ki,

iffətimiz, izzətimiz aradan gedəcək. Çünki ixtilaf və çəkişmələr insanların hörmətini aradan aparar, izzətini yox edər. Bu səbəbdən «Ənfal» surasi 46-cı ayədə isə belə buyurulur:

**<<...Bir-birinizlə çəkişməyin. Yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz və həyanız gedər».** Həmçinin, «Ənam» suraşəsinin 153-cü ayəsində buyurulur: **«Şübhəsiz, bu, mənim doğru yolumdur. Elə isə ona tabe olun! Bu yolu tutun, (başqa) yollara uymayın. Çünki o yollar sizi Allahın yolundan ayırır»>.**

**Eləcə də «Ali-İmran» surəsinin 103-cü ayəsində buyurulur: «Hamınız birlikdə Allahın ipinə (İslama) sarılın, ayrılmayın»**

İtirdiyiniz əzəmətinizi əldə etmək və ilk səadətinizə qovuşmaq istəyirsinizsə, (800 il dünyada elm, mədəniyyət, siyasət va ağalıq məqamına sahib idiniz) tövhid və vəhdətlə dolanmanız lazım gəlir.

Allah-Təala «Ali-İmran» surəsinin 139-cu ayəsində buyurur: **«Ruhdan düşməyin, qəmgin olmayın. Əgər möminsinizsə inanmayanlara üstün gələcəksiniz>>.**

Birlik, bərabərlik üçün aranızdakı sui-zənləri yox etməli, bir birinizə pis olmamalı, qeybətini etməməlisiniz. Sui-zəndə və qeybət, nifaq və ixtilafların əsl səbəbidir. Quran qeybəti böyük günahlardan sayır və açıq-aydın qeybət və sui-zənni qadağan edərək «Hucurat >> surəsinin 12-ci ayəsində belə buyurur: **«Ey iman gətirənlər! Zəndən çəkinin.Çünki zənnin bir qismi**

**günahdır. Bir-birinizin qüsurunu araşdırmayın, qeybətini etməyin>>**.

Peyğəmbər (s) də bir hadisdə belə buyurur: **«Qeybətdən çəkinin. Qeybət, zinadan daha pisdir».**

Qeybətin zinadan pis olmasının səbəbi, zinanın şəxsi, qeybətin isə ümumi ictimaiyyətə zərərli olmasıdır. Əgər zinaya yol verən tövbə edorsə şərtsiz qəbul edilir. Amma qeybət edən qeybətini etdiyi kəsi razı salmadığı təqdirdə tövbəsi qəbul olmaz. Bunun şərtləri kitablarda geniş yer almışdır.

Müsəlmanların bir-birinə qarşı pis davranması, kin və düşmənçiliklə baxmasının səbəblərindən biri qeybət, bədgümanlıq və nəmmamlıqdır. Qeybəti tərk etsəniz ixtilaflarınız ortadan qalxar.

Müsəlman qardaşlarınıza qarşı pis zənn etməyin. Dedi-qodudan çəkinin, əks təqdirdə Allahın və insanların qəzəbinə gələrsiniz. Söz gəzdirən və qeybət edənlər fitnəçilərdir. Onları özünüzdən uzaqlaşdırın. Aranıza ixtilaf və fitnə salmalarına imkan verməyin. Onlar yabançıların törəmələridir. Onlar yabançıların casuslarıdır. Din adı altında ixtilaf salmağa çalışır, düşmənlərin qələbəsi üçün şərait hazırlayırlar. Bəziləri nitqləri ilə, bəziləri də qələmləri ilə şiə əleyhinə kitablar yazaraq müsəlmanlar arasında düşmənçilik yaradırlar. 300 milyon şiə aləmini İslam dünyasından ayırmağa çalışırlar.

Möhtərəm ağalar, elmi müzakirə və dini mühazirələr müsəlmanlar arasında kin və düşmənçilik yaratmamalıdır. Nə

qədər fərqli inanclarımız da olsa, hamımız «Lə iləhə illallah, Muhəmmədən Rəsulallah» deyirik. Hamımızin bir Kitabı, bir qibləsi var. Biz də zahirə baxmalıyıq. Hərçənd, zahir məcazidir, amma bir gün «məcaz açıq-aydın həqiqətin köprüsüdür» qaydası ilə aşkar həqiqətə çevrilə bilər. Bu halda bir-birimizlə qardaş olmalı və tövhid düşmənlərinə bizləra qalib gəlmələri üçün fürsət yaratmamalıyıq. Sünni və şiələr bir-birinə kin və düşmənçiliklə baxmamalı, xoşniyyətli olmalıdırlar.

Mən bütün müsəlmanların bir kiçiyi kimi, bir vaiz və mübəlliğ olaraq bu minbərdən elan edirəm ki, əgər -alim və ya cahil, canlı və ya ölü olsun - hər hansı bir sünni qardaşıma qarşı düşmənçilik bəsləyirəmsə və ya pis niyyətim varsa, Allahın qüdrət və qüvvətindən xaric olum. Bu böyük bir anddır. Harada bir sünni qardaşımı gördümsə, onu bir qardaş kimi qəbul etdim, sevinc və dərdlərimə ortaq bildim.

Əhli-sünnət adı altında bir ovuc xarici və nasibilər təbliğatları ilə müsəlmanlar arasına fitnə salır, şiə əleyhinə kitablar yazaraq onları təkfir edir, xalqı şiələr əleyhinə təhrik edirlər. Şiə müsəlmanların qətli və şiə alimlərinin ölümünə verdikləri fitva bu cür araqızışdıranların təhrikləri nəticəsində olmuşdur. Onlarla əlaqəni kəsin, onlar kafirlərin törəmələridir. Havadarlarının əmri və ittihad fəryadıyla müsəlmanların arasına fitnə salırlar. Hər müsəlman istər cahil və ya alim, bu cür insanları hansı məqamda olurlarsa olsunlar özlərindən uzaqlaşdırmalı, müsəlmanlar arasında birliyi qoruyub-saxlamalıdırlar.

Bunlar üçüncü xəlifə Osman ibn Əffanın ətrafına toplanıb xəlifə adına hər işə əl atan və müsəlmanları təhrik etmək üçün onu məktublar yazmağa məcbur edənlərin təqibçiləridir. Sonda Osman öldürüldükdə də «Müsəlmanlar öz xəlifələrini öldürdülər» deyərək İslama böyük bir zərbə endirdilər. Sonra da Müaviyə və Yezidin ətrafına toplanaraq Əhli-beyti və tərəfdarlarını qətlə yetirib, müsəlmanların tarixini ləkələdilər. İndi də hər yerdə kitab, məqalə və jurnallarla fitnə yaradaraq müsəlmanlar arasında ixtilaf çıxarmaq istəyirlər.

Əzizlərim, zəhmət olmasa, Müaviyənin müşaviri olan romalı nökər Sərcunun həyatına bir nəzər yetirin. Əsir kimi Müaviyənin sarayına daxil olduqdan sonra bütün işlərdə Müaviyəni özündən asılı hala salmışdı. Bu səbəbdən Müaviyə ölərkən Yezidə Sərcun ilə məsləhətləşməsini vəsiyyət etmişdir. Yezid də həzrət Hüseyn haqqında onunla məsləhət etdi. Sərcun işi bitirmək üçün Ubeydullahı Kufəyə vali təyin etməsini istədi. Yezid də Ubeydullahı Kufəyə hakim edərək Əhli-beytin (s) qətlinə və Kərbəla hadisəsinə səbəb oldu. Bu halda bilin ki, bu cür xaricilər hər zaman müxtəlif adlar altında, müsəlmanların arasına girmiş və havadarlarının hakimiyyəti üçün münbit şərait hazırlamışlar.

Zəhmət olmasa, bu dediklərimi qeyd edib, burada olmayanlara çatdırın. Xarici və nasibilər qarşısında əl-ələ verin. Bir-birinizin məscid və məclislərinə qatılın, bir-birinizə qarşı mərhəmətli olun. Bir neçə kəlmə elmi söhbətlərə görə bir-birinizdən ayrılmayın. Allah Təalaya and olsun ki, müzakirə apardığımız on gün boyunca heç bir müsəlmana pis gözlə

baxmadım. İndi də burada sünni qardaşlarımın gözəl və nurani üzlərini görürəm. Həmişə onlarla dost olmaq və dini işlərdə səmimi şəraitdə, birlikdə çalışmaq istəyirəm.

Möhtərəm ağalar, Peyğəmbərin (s) Əhli-beyti (ə) bizlərə müsəlmanlarla yaxşı keçinməyi əmr etmiş və özləri də belə davranmışlar. Bu səbəbdən bir rəvayətdə ravi imam Sadiqə belə deyir: «Müxaliflərin məscidinə nifrət edirəm, orada namaz qılmaq istəmirəm. Sizcə bu yaxşıdır, yoxsa pis?». Imam buyurur: «Məscidlər Allahın evləridir, bilmirsənmi ki, hər məscid Rəsulallahın və ya öldürülən peyğəmbərin vəsisinin qəbri üzərində inşa edilmişdir? O halda orada o peyğəmbərin və ya vəsisinin bir damla qanı vardır. O qan səbəbilə də Allah-Təala o məscidlərdə xatırlanmasını istəmişdir. Elə isə orada fərz və nafilələrinizi qılın».

Şiə alimləri bu cür rəvayətlərdən çox uca mənalar çıxarmışlar. Amma zöhr vaxtı yaxınlaşdığı üçün hamısını rəvayət edə bilmirəm. Mərhum Seyid Mehdi «Bəhrul-ulum mənzumeyi-fiqhiyyə»də belə demişdir: Məscidlərdə namazın fəzilətinin sirri, Orada şəhid edilən məsumun qəbri səbəbilədir. Bu fəzilət orada tökülən tərtəmiz qan səbəbilədir, Allah onu, Özünü xatırlayan qul üçün tərtəmiz etmişdir.

Ağalar, bax, Əhli-beyt (ə) öz tərəfdarlarını belə tərbiyə etmişdir. Fərz və nafilə namazlarınızda bir-birinizin məscidlərinizə gedin, bir birinizə təhqir etməyin, düşmənlər müxtəlif ixtilaflar və fiqhi fərqliliklərinizi bəhanə edərək sizi bir-birinizin əleyhinə qaldırır, aranıza nifaq və düşmənçilik salır.

Onların əksinə, fiqhi ixtilaflarınıza əhəmiyyət verməyərək hamınız öz yolunuza davam edin, bir-birinizə qarşı dost və mərhəmətli olun.

Şiə və sünni qardaşlar, əlibağlı va ya açıq, möhürlü və ya möhürsüz (torpaq parçası və ya xalçaya səcdə edərək) yan-yana namaz qılın. bir-birinizin məscid və toplantılarına qatılın. Hənbəlilər, malikilər, şafeilər və hənəfilər bütün fiqhi itilaflarına baxmayaraq qardaşcasına yaşadıqları kimi, şiə qardaşları da məhəbbətlə qucaqlayaraq ibadət və inanclarınızda bir-birinizə həqarət etməməli, düşmən kimi baxmamalısınız.

Alim adıyla da olsa sizi bir-birinizin əleyhinə təhrik etməyə çalışanı gördükdə, heç şübhəsiz bilin ki, o, əcnəbilərin muzdurudur. Aranıza fitnə salaraq düşmənlərinizə şərait hazırlayır. İslami əzəmətinizi qorumaq üçün onları qovun. Ağalar, nifaq və ixtilaflardan çəkinmənin ən yaxşı yolu, həzrət Əlinin (ə) göstərdiyi yolla etməkdir. Hər kəs öz əqli inanclarını qorusun, bir-birilə ittihat etsin, müsəlmanlar bir-birilə ixtilafa düşməsin.

Həzrət Əli (ə)özünü xilafətə layiq bildiyi halda «Şiqşiqiyyə xütbəsi»nin əvvəlində belə deyir: «**Allah-Təalaya and olsun ki, Əbu Kuhafə oğlu, xilafətə görə yerimin dəyirman daşının mili kimi olduğumu bildiyi halda, xilafəti bir köynək kimi geyindi...>>**

Amma Peyğəmbərin (s) vəsiyyəti üzrə Onu yuyub kəfənlədikdən sonra Səqifə fitnəsindən xəbərdar oldu və özünü bir qrup müxaliflər qarşısında gördü. halbuki, ümmət arasında, Rəsulallahdan (s) gizli və ya aşkar, haqqında nəss olan həzrət Əlidən (ə) başqa heç kəs yox idi. Böyük səhabələr və Haşim oğulları həzrət Əlinin (ə) ətrafında toplandılar. Əbu Süfyanın havadarı olduğu bəni Üməyyə də həzrət Əlini (ə) qiyama dəvət etdilər. Amma Əmirəl möminin, ağlı və düşüncəsi ilə, qiyam etdiyi təqdirdə İslamda parçalanmanın yaranacağını bilirdi. İxtilaf düşməsin deyə illər boyu fürsət axtaran düşmənlər müsəlmanlara qələbə çalacaq, dini ortadan qaldıracaq və yeni müsəlman olanlar İslamdan dönəcəkdir səbəbindən bütün çətinliklərə baxmayaraq səbir etdi və belə buyurdu: «Gözümdə tikan, boğazımda sümük olduğu halda səbir etdim».

Müxaliflər ilə savaşmadı; çünki İslam təzə-təzə çiçəklənirdi və daxili döyüşlər böyük bir fitnə qoparacaqdı. Bu da İslamın yox olmasına səbəb ola bilərdi. Buna görə də müxalifləri ilə yola getməyə çalışdı. Öz inanclarında sabit olduğu halda İslam dinini gücləndirmək üçün məscidə gedir və camaat namazı qılırdı. Araqızışdıranlara fürsət vermir, fitnələrin qarşısını alırdı. Bu səbəbdən dəfələrlə belə buyurmuşdur: «Allah-Təalaya and olsun, müsəlmanların təfriqəsindən və küfrə dönəcəklərindən qorxmasaydım, haqqımı almaq üçün qiyam edər və bu vəziyyəti dəyişdirərdim. Amma səbrin müsəlmanların qanını tökməkdən daha xeyirli olduğunu gördükdə səbir etdim».

Beləcə, səhabənin böyüklərindən olan dostlarını və şiə müsəlmanları da müxalifət etmək fikrindən daşındırdı. Sadəcə ilk bir neçə gün - ancaq öz haqqaniyyətini isbat etmək üçün - mübahisə etdi. Amma sonraları xəlifələrin xilafəti müddətində ixtilafa səbəb olacaq heç bir hərəkətə yol vermədi. Islamı qorumaq və müsəlmanları gücləndirmək üçün onlarla yola getməyə çalışdı. İslamin qürbət günü olan bu gündə müsəlmanlar təəssüb və inadlarını bir kənara atmalıdırlar. Haqlı olmağımız əql, nəql və sünnətlə də sabit olmasıyla bərabər, Peyğəmbərdən (s) sonra olan hadisələri, əsla, inkar edə bilmərik. Zahirdə sıra ilə Əbu Bəkr, Ömər, Osman və həzrət Əli (ə) xilafətə keçmişdir. Peyğəmbərin (s) xəbər verdiyi o 30 ildə İslama böyük xidmət edilmiş, tövhid bayrağı bütün dünyada dalğalanmışdır.

Həzrət Əli (ə) də haqqaniyyətini dəfələrlə bəyan etdiyi və özünü xilafət sahibi bildiyi halda Islamın zahirini qorumaq və hər cür fitnənin qarşısını almaq üçün məscidə gedir və camaata qatılır, Onunla məsləhətləşdikdə meydana çıxan məsələləri həll edir, övladlarını və şiələrini də işə və xidmətə təşviq edirdi.

Biz də müsəlmanlar arasında fitnə çıxmasına yol verməməliyik.Cəmiyyəti fəsada sürükləyən fitnəçiləri özümüzdən uzaqlaşdırmalı, əcnəbilərə fürsət yaratmamalıyıq. Onlar Islamı aradan aparmaq və müsəlmanları zəlil etmək istəyirlər. Haqqaniyyəti isbat etmək və dəlil göstərmək, düşmənçiliyə səbəb ola bilməz. Biz də müzakirə etdiyimiz on gecə boyunca haqlı olduğumuzu isbat etməyə çalışdıq və inşallah, gələcəkdə da çalışacağıq.

Necə ki, həzrət Əli (ə), bir hadisə ilə qarşılaşdığı zaman, fitnə və fəsad çıxmasın deyə, səbir etdi və müxalifət etmədi, biz də tarixdə olub keçən bir işlə qarşı-qarşıyıq. Tarixə baxdıqda Əbu Bəkr, Ömər, Osman və həzrət Əli (ə) hər nə yolla olursa olsun bir-birinin ardınca xilafətə keçmiş, birliyi qoruyub-saxlamışlarsa, sünni qardaşlar da nasibi, xarici və İslam düşmənlərinin arzu və istəyinə baxmayaraq - şiə müsəlmanların məscid və müqəddəs məkanlarına getməli, birlik və bərabərlik içində olmalıdırlar. Bir-birlərinə kin bəsləməməli, düşmən gözü ilə baxmamalı, qardaşcasına düşmənlərlə mübarizə aparmalıdırlar.Çünki düşmənlər əllərinə düşdüyü kiçik fürsətdən belə istifadə edib, müsəlman ümmətinin vəhdətini pozmaq istəyirlər.

Bu birlik sayəsində İslam dünyasında mövcud bütün maneləri yox etməyə çalışın.Əvvəlcə alimlər, qövmün böyükləri, sonra da bütün sünni və şiələr bu mövzuda fədakarlıq göstərməlidirlər.

Bu gün böyük bir gündür; mücahidlərin rəhbəri həzrət Hüseynin mübarək mövlududur. Həzrəti Hüseyn hicri 61-ci ildə Kərbəlada böyük bir birlik əldə etdi. 72 nəfər bir nəfər kimi tövhid düşmənlərinin qarşısında sipər qurdu. Zahirən məğlub olsalar da, onların o cəsarəti, birliyi və fədakarlığı tövhid bayrağını bütün dünyada dalğalandırdı və bütün dünyada düşmənlərin kökünü qazıdı.

Ağalar, eşitdiyim qədər, düşmənlər bizim elmi müzakirələrimizdan sui-istifadə etmək və müsəlmanlar arasına

fitnə salmaq istəyirlər. Bu təhriklər gənc qardaşlarımıza təsir edə və qorxunc nəticələrə səbəb olaraq düşmənləri sevindirə bilər. Bu halda ayıq olun, aldanmayın! Bilin ki, müsəlmanların bölünməsi və bir birlərinə düşmənçiliyi İslam düşmənlərinin sevinməsinə səbəb olacaqdır.

Son olaraq buradakı şiə, sünni bütün qardaşlarımdan rica edirəm: bu gün mübarək bayram günüdür. Minbərdən endikdə İslamın əmr etdiyi kimi səmimiyyətlə qucaqlaşın, birlik və bərabərlik içində olun. Allah qorusun, bir-birinizə qarşı kininiz varsa, Allah-Təalanın rizası və İslamın vəhdət və əzəməti xatirinə bunu aradan aparmağa çalışın. Mən də cani-qəlbdən xidmətinizdə hazıram.

İndi zöhr vaxtıdır. Məscidə gedənə qədər zöhr namazını vaxtında qılma fəzilətini əldən verə bilərik.. Bu səbəbdən burada camaat namazı qılaq. Həmd olsun, şiə və sünni alimləri buradalar. Hansını önə keçirirsinizsə keçirin, mən də ona tabe olaram. İslam və müsəlmanların birliyinə qoşularaq Allahdan və cəddim Peyğəmbərdən (s) savab ümid ediram. Qoy düşmənlər bilsinlər ki, sünni və şiələr arasında, əsla, nifaq, ikitirəlik və fəsad yoxdur, hamımız kafirlərə qarşı savaşmaq üçün hər cür fədakarlıqlara hazırıq.

Dünən gecəki əziz müsafirlərimiz, elm və bilik sahibi Hafiz Muhəmməd Rəşid və Şeyx Əbdüssəlam vidalaşıb vətənlərinə dönürlər. Mən də Məşhədə gedib, imam Rzanı ziyarət etmək istəyirəm. Bütün qardaşlarıma, xüsusilə də burada mənə böyük məhəbbət göstərən şiələrə minnətdaram. Sünni, şiə bütün

müsəlmanların izzətini, müvəffəqiyyət və birliyini Əhli-beyt (ə) xatirinə uca Allahdan diləyirəm. Allahın salamı, rəhməti və bərəkəti hamınızın üzərinə olsun. Amin!

# MÜNDƏRİCAT


**DOQQUZUNCU GECƏ ........................................................ 3**

**2 şaban, şənbə, 1345-ci il (1924) .................................... 3**

**ŞİƏLƏR TƏRƏFİNDƏN AİŞƏNİN İTTİHAM OLUNMASI VƏ İRƏLİ SÜRÜLƏN İRADIN CAVABI** ........................................ 5

**İFTİRA HADİSƏSİ** ................................................................ 6

**ƏR VƏ ARVAD HƏR BAXIMDAN OXŞAR DEYİL** ................... 7

**NUH(ə) VƏ LUTUN(ə) XANIMLARININ XƏYANƏTİ** ............ 10

**ŞƏRAFƏTLİ AYƏNİN MƏNASI** ........................................... 11

**AİŞƏNİN DAVRANIŞLARINA İŞARƏ** .................................. 11

**AİŞƏNİN HƏZRƏT PEYĞƏMBƏRƏ (S) ƏZİYYƏT VERMƏSİ** 14

**RƏSULALLAHIN (S) ZÖVCƏSİ SÖVDƏNİN SÖZÜ** ................ 16

**AİŞƏNİN HƏZRƏT ƏLİYƏ (Ə) QARŞI MÜXALİFƏTİ VƏ ONUNLA SAVAŞI** ............................................................ 17

**HƏZRƏT ƏLİNİN(Ə) FƏZİLƏTLƏRİ SAYSIZ-HESABSIZDIR** ... 18

**HƏZRƏT ƏLİNİN(Ə) FƏZİLƏT VƏ TƏRİFLƏRİ HAQDA HƏDİSLƏR** ........................................................................ 19

**HƏZRƏT ƏLİYƏ (Ə) OLAN SEVGİ İMANDIR, NİFRƏT, QƏZƏB İSƏ KÜFRDÜR** ...................................................... 20

**AİŞƏNİN ƏMRİ İLƏ BƏSRƏDƏ SƏHABƏ VƏ MÖMİNLƏRİN ÖLDÜRÜLMƏSİ** ............................................................ 27

**AİŞƏNİN İMAM HƏSƏNİN (Ə) HƏZRƏT PEYĞƏMBƏRİN(S) MÜBARƏK MƏZARININ KƏNARINDA DƏFN EDİLMƏSİNƏ MANE OLMASI** ............ 28

**AİŞƏNİN HƏZRƏT ƏLİ(Ə)-IN ŞƏHADƏTİNƏ SEVİNƏRƏK ŞÜKÜR SƏCDƏSİ ETMƏSİ** ............ 31

**AİŞƏNİN OSMAN HAQQINDAKI ZİDDİYYƏTLİ SÖZLƏRİ** .... 32

**ÜMMÜ-SƏLƏMƏNİN AİŞƏYƏ NƏSİHƏTİ** ............ 35

**ÜMMÜ-SƏLƏMƏNİN AİŞƏYƏ, HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNİ XATIRLATMASI** ............ 36

**ÜÇ XƏLİFƏNİN TƏYİN OLUNMASINDAKI FƏRQLİLİK ONLARIN XİLAFƏTİNİN BATİLLİYİNƏ DƏLİLDİR** ............ 39

**ŞURA MƏCLİSİNƏ ETİRAZ** ............ 42

**ƏBDÜRRƏHMAN İBN ÖVFƏ GENİŞ SƏLAHİYYƏT VERİLMƏSİNƏ ETİRAZ** ............ 42

**ƏMİRƏL-MÖMİNİN MƏQAMINA AÇIQ-AŞKAR ZÜLM** ...... 44

**HƏZRƏT ƏLİ (Ə) XİLAFƏTƏ ALLAH-TƏALA VƏ PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN TƏYİN OLUNMUŞDUR** ............ 46

**ƏLİNİN (Ə) XİLAFƏTİ İCMAYA DAHA YAXINDIR** ............ 47

**HƏZRƏT ƏLİ (Ə) DİGƏR XƏLİFƏLƏRDƏN ÜSTÜNDÜR** ...... 49

**İMAM ƏLİNİN (Ə) KAMAL VƏ FƏZİLƏTLƏRİ** ............ 51

**HƏZRƏT ƏLİNİN (Ə) NƏSƏB VƏ SOYUNUN TƏMİZLİYİ** .... 52

**ƏLİNİN(Ə) NURANİ XİLQƏTİ VƏ PEYĞƏMBƏRLƏ (S) ORTAQLIĞI** ............ 54

HƏZRƏT ƏLİNİN (Ə) ŞƏCƏRƏSİ ........................................ 56

İBRAHİMİN(Ə) ATASININ AZƏR OLDUĞUNA DAİR İRAD VƏ ONUN CAVABLANDIRILMASI ........................................ 60

HƏZRƏT PEYĞƏMBƏRIN(S) ANA-ATALARI MÜŞRİK YOX, ALLAHA İNANAN MÜVƏHHİDLƏR İDİ ........................................ 62

ƏBU TALİB(R.Ə)-IN İMANI HAQQINDA İXTİLAF ................ 66

ŞİƏNİN ƏBU TALİBİN (R.Ə) İMANINA DAİR İCMASI ......... 66

"ZİHZAH HƏDİSİ" VƏ ONUN CAVABI ................................ 68

<<ZİHZAH HƏDİSİ»NİN UYDURULMASI HAQDA............... 68

ƏBU TALİBİN (R.Ə) İMANINA DAİR DƏLİLLƏR .................. 70

İBN ƏBİL-HƏDİDİN ƏBU TALİBİN (R.Ə) MƏDHİNƏ YAZDIĞI ŞEİR ........................................ 71

ƏBU TALİBİN (R.Ə) ŞERLƏRİ ONUN İMANINI GÖSTƏRİR . 73

ƏBU TALİBİN ÖLÜM ANI «LƏ İLƏHƏ İLLƏLLAH>> KƏLMƏSİNİ SÖYLƏMƏSİ ........................................ 76

BESƏTİN ƏVVƏLLƏRİNDƏ PEYĞƏMBƏRİN (S) ƏBU TALİBLƏ SÖHBƏTİ ........................................ 78

IBRAHİMİN(Ə) BESƏTİN ƏVVƏLLƏRİNDƏ ƏMİSİ AZƏRLƏ SÖHBƏTİ ........................................ 79

MUHƏMMƏD İBN ƏBU BƏKR HƏZRƏT ƏLİNİN (Ə) TƏQİBÇİSİ OLDUĞU ÜÇÜN MÖMİNLƏRİN DAYISI SAYILMIR ........................................ 83

MÜAVİYƏ VƏHY KATİBİ DEYİL, NAMƏLƏRİN KATİBİ İDİ..85

**MÜAVİYƏNİN LƏNƏTLƏNDİYİNƏ VƏ KAFİRLİYİNƏ DAİR DƏLİLLƏR** ....................................................................86

**MÜAVİYƏ VƏ YEZİDİN LƏNƏTLƏNDİYİNƏ DƏLALƏT EDƏN AYƏ VƏ RƏVAYƏTLƏR**....................................................87

**MÜAVİYƏNİN İMAM HƏSƏN (Ə), ƏMMAR, HƏCƏR İBN ƏDİY, MALİK ƏŞTƏR VƏ MUHƏMMƏD İBN ƏBU BƏKR KİMİ MÖMİNLƏRİ QƏTLƏ YETİRMƏSİ** .............................89

**BUSR İBN ƏRTATIN 30 MİN MÖMİNİ MÜAVİYƏNİN ƏMRİLƏ ÖLDÜRMƏSİ** ......................................................91

**MÜAVİYƏNİN HƏZRƏT ƏLİNİ (Ə) LƏNƏTLƏMƏYİ ƏMR ETMƏSİ VƏ ƏLEYHİNƏ HƏDİS UYDURMASI** .....................92

**HƏZRƏT ƏLİNİN (Ə) DÜŞMƏNİ KAFİRDİR**.........................95

**PEYĞƏMBƏRİN (S) ƏSHABI ARASINDA YAXŞI VƏ PİS İNSANLAR ÇOXDUR** ..........................................................97

**ƏBU TALİBİN İMANINI İSBAT EDƏN DƏLİLLƏR**..............103

**CƏFƏR TƏYYARIN ATASININ ƏMRİ İLƏ İMAN GƏTİRMƏSİ** .......................................................................................105

**ABBASIN İMANI GİZLİCƏ İDİ**..........................................109

**ƏBU TALİBİN İMANINI GİZLƏTMƏSİNİN SƏBƏBİ** ...........110

**HƏQİQƏTDƏ SÜNNİLƏR RAFİZİ, ŞİƏLƏR İSƏ SÜNNİDİR** 112

**MÜTƏNİN HALAL OLDUĞUNA DAİR DƏLİLLƏR** .............114

**ƏHLİ-SÜNNƏT QAYNAQLARINDA MÜTƏNİN HALAL OLDUĞUNA DAİR HƏDİSLƏR**.........................................116

**SƏHABƏNİN BÖYÜKLƏRİ VƏ TABEİN, HƏTTA MALİK MÜTƏ AYƏSİNİN NƏSX EDİLMƏDİYİNİ HÖKM EDİR** ......120

**ZÖVCİYYƏTİN BÜTÜN HÖKMLƏRİ MÜTƏ NİGAHINDA OLAN QADINA DA ŞAMİLDİR** ........................................122

**NƏSX HÖKMUNÜN RƏSULALLAHIN (S) DÖVRÜNDƏ OLMADIĞINA DAİR DƏLİLLƏR**.........................................124

**MÜCTEHİD HÖKMLƏRİ DƏYİŞDİRƏ BİLƏRMİ?** ...............129

**MÜTƏNİN QADAĞAN EDİLMƏSİ ZİNANIN ARTMASINA SƏBƏB OLDU** .................................................................132

**HƏZRƏT ƏLİ (Ə) KƏBƏDƏ DOĞULMUŞDUR** ...................135

**HƏZRƏT ƏLİNİN (Ə) ADININ QEYB ALƏMİNDƏN QOYULMASI VƏ ƏBU TALİBİN MÜVƏHHİD OLMASI BARƏSİNDƏ DİGƏR BİR DƏLİL** .......................................137

**ƏRŞİ-ƏLADA ALLAH VƏ PEYĞƏMBƏRİN (S) ADINDAN SONRA ƏLİNİN (Ə) ADININ YAZILMASI**...........................138

**HƏZRƏT ƏLİNİN (Ə) ADININ QOYULMASI ÜÇÜN LÖVHƏNİN NAZİL OLMASI**.............................................145

**İMAM ƏLİNİN (Ə) ADI AZAN VƏ İQAMƏNİN BİR HİSSƏSİ DEYİLDİR** ...................................................................146

**HƏZRƏT ƏLİNİN (Ə) ZÖHD VƏ TƏQVASI**.........................147

**ABDULLAH RAFENİN RƏVAYƏTİ** ...................................148

**SUVEYD İBN ĞƏFLƏNİN RƏVAYƏTİ** ................................148

**HƏZRƏT ƏLİNİN (Ə) HALVA YEMƏMƏSİ**.........................149

**HƏZRƏT ƏLİNİN (Ə) PALTARI VƏ GEYİMİ** ........................151

**ZURARIN MÜAVİYƏ İLƏ SÖHBƏTİ**..................................152

**ZÖHDƏ GÖRƏ PEYĞƏMBƏRİN (S) ƏLİYƏ (Ə) MÜJDƏSİ** .153

**ALLAH VƏ PEYĞƏMBƏRI, ƏLİNİ "MÜTTƏQİLƏRİN İMAMI" DEYƏ İNSANLARA TƏQDİM EDİR** ...................................154

**HƏQİQƏT ƏHLİ İNSAFLA HÖKM VERSİN**.........................159

**PEYĞƏMBƏRLƏRİN ÜMMƏTLƏRİ ARASINDA QİYAM ETMƏMƏLƏRİ YARDIMÇILARININ OLMAMASI SƏBƏBİLƏDİR**.................................................................162

**XİLAFƏT BARƏSİNDƏ ƏLİ(Ə) İLƏ HARUN(Ə)-IN OXŞARLIĞI** .........................................................................164

**PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA İMAM ƏLİNİN(Ə) MÜXALİFLƏRİLƏ SAVAŞMAMASININ SƏBƏBİ VƏ ALLAH-TƏALA ÜÇÜN SUSUB SƏBR ETMƏSİ**...............................166

**PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA HƏZRƏT ƏLİNİN (Ə) QİYAM ETMƏMƏSİNİN SƏBƏBİ HAQDA SÖZLƏRİ** ...167

**ŞİQŞİQİYYƏ XÜTBƏSİ**.....................................................171

**ŞİQŞİQİYYƏ XÜTBƏSİNƏ OLAN İRAD VƏ CAVABI**...........172

**SEYİD RƏZİNİN ŞƏXSİYYƏTİ HAQDA** ..............................173

**ŞİQŞİQİYYƏ XÜTBƏSİ KİTABLARDA SEYYİD RƏZİNİN DOĞUMUNDAN ƏVVƏL YAZILMIŞDIR** ............................174

**ONUNCU GECƏ** .................................................................177

**3 şaban, bazar günü 1345-ci il (1924)** ............................177

ÖMƏRİN ELMİ MƏQAMI HAQQINDA SUAL VƏ ONUN CAVABI ........ 177
BİR QADININ ŞƏRİ MƏSƏLƏDƏ ÖMƏRİ DEDİYİ SÖZƏ GÖRƏ PEŞMAN ETMƏSİ ........ 181
PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA ÖMƏRİN «O HƏZRƏT HƏLƏ ÖLMƏMİŞDİR» FİKRİNİ İZHAR ETMƏSİ .. 183
ÖMƏRİN, ZİNA EDƏN 5 KİŞİNİN RƏCM EDİLMƏSİNƏ DAİR ƏMRİ VƏ HƏZRƏT ƏLİNİN,ONU BU HÖKMDƏN AGAH ETMƏSİ ........ 185
ÖMƏRİN HAMİLƏ BİR QADININ RƏCM EDİLMƏSİ ƏMRİNİ VERMƏSİ VƏ HƏZRƏT ƏLİNİN, ONU BU İŞDƏN ÇƏKİNDİRMƏSİ ........ 187
ÖMƏRİN, DƏLİ BIR QADININ RƏCM EDİLMƏSİNİ ƏMR ETMƏSİ VƏ HƏZRƏT ƏLİNİN(Ə)BU İŞƏ MANE OLMASI . 188
İBN SƏBBAĞ MALİKİNİN HƏZRƏT ƏLİNİN ELM VƏ FƏZİLƏTLƏRİ HAQQINDA BƏYANI VƏ PEYĞƏMBƏR TƏRƏFİNDƏN QAZİLİYƏ TƏYİN OLUNMASI ........ 189
ÖMƏRİN HƏZRƏTİ PEYĞƏMBƏRİN ZAMANINDA TƏYƏMMÜM HAQQINDA SƏHVİ, XİLAFƏTİ DÖVRÜNDƏ İSƏ SƏHV HÖKM VERMƏSİ ........ 193
BÜTÜN ELMLƏR HƏZRƏT ƏLİNİN YANINDA ƏLİNİN İÇİ KİMİ İDİ ........ 195
MÜAVİYƏNİN HƏZRƏT ƏLİNİN MƏQAMINI MÜDAFİƏ ETMƏSİ ........ 196

**ÖMƏRİN ÇƏTİN SUALLAR QARŞISINDA ACİZLİYİNİ, ƏLİ OLMADIĞI TƏQDİRDƏ İŞİN ÇƏTİNƏ DÜŞDÜYÜNÜ ETİRAF ETMƏSİ** ....................................................................197

**HƏZRƏT ƏLİ XİLAFƏT MƏQAMINA DAHA LAYİQ İDİ**......201

**İNSAFLA HÖKM VERMƏK LAZIMDIR**..............................202

**OĞRU VƏ ZƏVVARIN HEKAYƏSİ** ...................................203

**DİNİ İNANCLAR KOR-KORANƏ OLMAMALIDIR** .............205

**MƏN DƏ DİNİ TƏHQİQ YOLU İLƏ QƏBUL ETDİM** ...........206

**PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİYƏ İTAƏT ETMƏYİ ÜMMƏTƏ ƏMR ETMƏSİ**................................................208

**ƏHLİ-SÜNNƏT ALİMLƏRİ ŞİƏLƏRLƏ HƏMKARLIQ ETMƏK İSTƏMİR** ...................................................................211

**TÜRBƏTƏ SƏCDƏ ETMƏ MÖVZUSUNDA İXTİLAF** ..........211

**HƏQİQƏTİN TƏƏSSÜRLƏ AŞKAR EDİLMƏSİ** ..................212

**SU OLMADIQDA DƏSTAMAZ VƏ QÜSL YERİNƏ TƏYƏMMÜM ETMƏK LAZIMDIR**....................................214

**ƏBU HƏNİFƏNİN, SƏFƏRDƏ OLANIN SU TAPA BİLMƏDİYİ TƏQDİRDƏ QÜSL VƏ DƏSTAMAZI NƏBİZLƏ ALA BİLƏCƏYİNƏ DAİR FİTVASI** ............................................215

**ƏHLİ-SÜNNƏTİN FİTVASINA ƏSASƏN DƏSTƏMAZDA AYAQLARIN YUYULMASI QURANIN NƏSSİNƏ AÇIQ-AŞKAR ZİDDİR** ......................................................................220

**ÇƏKMƏ VƏ CORABIN ÜZƏRİNƏ MƏSH ETMƏK, QURANIN HÖKMÜNƏ ZİDDİR**.........................................................222

**QURANIN ZİDDİNƏ OLARAQ ƏHLİ-SÜNNƏTİN ƏMMAMƏYƏ MƏSH ETMƏSİ** ........................................223
**DİQQƏT ETMƏK VƏ İNSAFLA HÖKM VERMƏK LAZIMDIR** ........................................224
**ŞİƏLƏR KƏRBƏLA TORPAĞINA SƏCDƏ ETMƏYİ VACİB BİLMİRLƏR** ........................................226
**ŞİƏLƏRİN SƏCDƏ ÜÇÜN MÖHÜRLƏRİ YANLARINDA DAŞIMALARININ SƏBƏBİ** ........................................227
**KƏRBƏLA TORPAĞINA SƏCDƏ ETMƏYİN SƏBƏBİ** ..........228
**KƏRBƏLA TORPAĞININ XÜSUSİYYƏTLƏRİ VƏ RƏSULALHIN (S) BƏYANI** ........................................228
**ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ƏMƏLİ QƏRİBƏDİR** ..........232
**"BƏRAƏT" SURƏSİNİN MƏKKƏ CAMAATINA TƏBLİĞ EDİLMƏSİ VƏZİFƏSİNDƏN ƏBU BƏKRİN AZAD EDİLƏRƏK,ƏLİNİN TƏYİN OLUNMASI** ..............................234
**PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİNİ QAZİLİK VƏ XALQIN HİDAYƏTİ ÜÇÜN YƏMƏNƏ GÖNDƏRMƏSİ** ....................239
**HƏZRƏT ƏLİ (Ə) PEYĞƏMBƏRDƏN (S) SONRA ÜMMƏTİN HİDAYƏTÇİSİDİR** ........................................240
**HƏZRƏT ƏLİNİN QARŞILAŞDIĞI MƏKRLİ MANEƏLƏR VƏ HƏQİQİ SİYASƏTLƏ MƏCAZİ SİYASƏT ARASINDAKI FƏRQ** ........................................241
**HƏZRƏT ƏLİNİN XİLAFƏTİ DÖVRÜNDƏKİ QİYAMLARIN SƏBƏBLƏRİ** ........................................243

PEYĞƏMBƏRİN (S) BƏSRƏ, SÜFFEYN VƏ NƏHRƏVAN DÖYÜŞLƏRİNDƏN XƏBƏR VERMƏSİ ............................245
QEYB ELMİ ALLAH-TƏALA TƏRƏFİNDƏN PEYĞƏMBƏRLƏRƏ VƏ VƏSİLƏRƏ TÖHFƏ EDİLİR...........251
ELM İKİ QİSİMDİR: ZATİ VƏ ƏRƏZİ.................................252
PEYĞƏMBƏR VƏ VƏSİLƏRİN QEYB ELMİNİ BİLMƏLƏRİNƏ DAİR QURANDAN DƏLİLLƏR ..........................................255
QEYB ELMİNİ HƏR VƏSİLƏ VƏ SƏBƏBLƏ İDDİA EDƏNLƏR YALANÇIDIR ..................................................................258
PEYĞƏMBƏR VƏ VƏSİLƏR QEYB ELMİNİ BİLİRDİLƏR ....259
ƏHLİ-BEYT İMAMLARI (Ə) HAQQ XƏLİFƏLƏRDƏ QEYBİ BİLƏNLƏRDİR................................................................262
MƏDİNƏ HƏDİSİNİ NƏQL EDƏN RAVİLƏR......................264
«MƏN HİKMƏT EVİYƏM» HƏDİSİNİN BƏYANI .............268
HƏZRƏT ƏLİ (Ə) QEYB ELMİNİ, QURANIN ZAHİR Və BATİNİNİ BİLİRDİ...........................................................272
PEYĞƏMBƏR (S) ELMDƏN MİN QAPI HƏZRƏT ƏLİNİN ÜZÜNƏ AÇDI ..................................................................273
«CƏFRİ-CAMİƏ» KİTABI HAQQINDA..............................278
CƏBRAYILIN MÖHÜRLƏNMİŞ KİTABI RƏSULALLAHIN VƏSİSİ ƏMİRƏL MÖMİNİN ƏLİ ÜÇÜN GƏTİRMƏSİ ........283
HƏZRƏT ƏLİNİN «MƏNDƏN SORUŞUN» SÖZÜ BARƏSİNDƏ ƏHLİ-SÜNNƏT HƏDİSLƏRİ.........................288

**HƏZRƏT ƏLİNİN, İMAM HÜSEYNİN QATİLİ İBN SİNANDAN XƏBƏR VERMƏSİ** ......................................................... 291

**HƏZRƏT ƏLİNİN HƏBİB İBN ƏMMARIN BAYRAQDARLIĞINDAN XƏBƏR VERMƏSİ** ...................... 292

**HƏZRƏT ƏLİNİN QEYBDƏN XƏBƏR VERMƏSİ** ................ 294

**HƏZRƏT ƏLİNİN, MÜAVİYƏNİN QƏLƏBƏSİ VƏ ZÜLMLƏRİNDƏN XƏBƏR VERMƏSİ** ................................ 294

**HƏZRƏT ƏLİNİN DÖYÜŞDƏN ƏVVƏL ZUS-SƏDİYYƏNİN ÖLDÜRÜLMƏSİNİ XƏBƏR VERMƏSİ** ............................... 296

**HƏZRƏT ƏLİNİN ÖZ QƏTLİNİ XƏBƏR VERMƏSİ VƏ İBN MÜLCƏMİ TANITMASI** .................................................. 298

**HƏZRƏT ƏLİ (Ə) ƏN ELMLİ VƏ ƏN FƏZİLƏTLİDİR** ........... 301

**HƏZRƏTİ PEYĞƏMBƏR (S) HƏZRƏT ƏLİNİ ÜMMƏTİN ƏN ELMLİSİ ADLANDIRMIŞDIR** ............................................ 304

**QUSTAVLOBONUN İSLAM MƏDƏNİYYƏTİNİN QƏRBDƏKİ TƏSİRİ HAQQINDAKI ETİRAFI** ........................................ 311

**HARUNUN, MÜSƏLMANLARIN DÜZƏLTDİYİ SAATI HƏDİYYƏ OLARAQ ŞARLIMANA GÖNDƏRMƏSİ** ............ 313

**İBN ƏBİL-HƏDİDİN HƏZRƏT ƏLİNİN (Ə) ELMİ MƏQAMINI ETİRAF ETMƏSİ** .............................................................. 317

**İNSAF ÜZRƏ HÖKM VERMƏK LAZIMDIR** ........................ 320

**NƏVVABIN ŞİƏLİYİ QƏBUL ETMƏKLƏ ƏLAQƏLİ SÖZLƏRİ** .......................................................................... 321

**ALTI** NƏFƏRİN **TƏŞƏYYÜ MƏKTƏBİNƏ DAXİL OLMASI** .. 324

**İMAM HÜSEYNİN (Ə) MÜBARƏK DOĞUMU**..................327
**AZADLIQ VƏ HÜRRİYYƏT**...............................................330